AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

USTAD NƏFƏSLİ
SAZ-SÖZ ƏRMƏĞANI



Bakı - 2020

Elmi məsləhətçi: ***Məhərrəm Qasımlı,***
Azərbaycan Aşıqlar Birliyinin sədri,
Dövlət Mükafatı Laureatı, Əməkdar elm xadimi

Hazırlayanlar:
Məhərrəm Qasımlı,
filologiya elmləri doktoru, professor
Mahmud Allahmanlı,
filologiya elmləri doktoru, professor

Redaktorları:
İsmayıl Məmmədli,
filologiya elmləri doktoru, professor
Altay Məmmədli
Filologiya üzrə fəlsəfə doktoru, dosent

"USTAD NƏFƏSLİ SAZ-SÖZ ƏRMƏĞANI",
AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ.
"Zərdabi Nəşr" MMC nəşriyyəti, Bakı-2020, 400 səh.

"Ustad nəfəsli saz-söz ərməğanı" antologiyası aşıq ədəbiyyatının janr tərkibində mühüm yer tutan ustadnamə ənənəsinin qaynaqlarını – ozan soylamalarını, eləcə də çeşidli yüzilliklərə aid saz-söz sənətkarlarının yaratdıqları öyüdləmə örnəklərini əhatə edir. Əsgi çağların Dədə Qorqud zamanından başlamış XX yüzilliyin Dədə Şəmşir dönəminəcən uzanan nəhəng xronoloji məkanda yer alan, ustad məclislərində, el yığnaqlarında dillər əzbərinə çevrilən dərin məzmunlu, fəlsəfi yüklü qoşmalar, gəraylılar, təcnislər, divanilər əsrlərin daş sınağından süzülə-süzülə bu günümüzə gəlmiş və qarşınızdakı əvəzsiz söz sərvətinə çevrilmişdir.

Antologiya yüzə yaxın saz-söz sənətkarının könlündən qopan mindən yuxarı ustadnamə toplusunu əhatə edir.

Bu antologiyanı hazırlayıb təqdim etməklə Azərbaycan Aşıqlar Birliyinin məqsədi həm klassik söz ustadlarının yaratdıqları ustadnamə - öyüdləmə sərvətini qoruyub gələcək nəsillərə çatdırmaq, həm də saz-söz sənətinə yenicə qədəm basan yeniyetmə və gənclərin repertuar imkanlarını gücləndirməkdir.

İSBN: 978-9952-526-83-7

© Azərbaycan Aşıqlar Birliyi

USTADNAMƏLƏR – HAQQ DƏRGAHINA VƏ XALQ MÜDRİKLİYİNƏ BAĞLI OZAN – AŞIQ ÖYÜDLƏRİ

Yüzillərin daş sınağından süzülüb gələn ozan-aşıq mədəniyyəti və onun söz sehrinə bürünmüş poetik axarı bir çox mühüm keyfiyyətləri özündə birləşdirir. Burada mərdliyə, halallığa, doğruluğa çağırış, ərliyin-ərənliyin , igidliyin öyülüb uca tutulmağı, zamanın kəc-əyri işlərinə qarşı müdrik-fəlsəfi etiraz, gözəlliyin, həyatsevərliyin tərənnümü ana axarlar kimi görünür. Bu da səbəbsiz deyildir. Ozan-aşıq sənətinə könül verənlər xalqın və həyatın içərisində illər, onillər uzunu müəyyən təcrübə, dünyagörüş və bilik-bacarıq qabiliyyəti qazandıqdan sonra ustada – alp ozana çevrilərək milli-tarixi ruhun əsas daşıycılarından biri olmaq haqqın da sahib olurlar. "Dədə Qorqud" eposunun boylarında xüsusi şəkildə vurğulanan:

Eldən-elə, bəydən-bəyə ozan gəzər,
Ər comərdin, ər nakəsin ozan bilir-

deyimləri sözü gedən tarixi statusun yaddaş möhürüdür. Dastanın daha başqa bir yerində "Dədə Qorqud gəldi, bu oğuznaməyi düzdüqoşdu...,"məndən sonra alp ozanlar söyləsin", - dedi" – düşüncəsi dilə gətirilir ki, bu da "alp ozanlığın" ayrıca bir status səviyyəsində olduğunu göstərir.

Dədə Qorqud başda olmaqla qam-şaman keyfiyyətli daşıyan alp-ozanlar bizim sonrakı dövrdə gördüyümüz Haqq vergisinə sahib ustad aşıqlardır. Onların daşıdığı sənət statusu və mədəni-tarixi missiya biribirinə çox yaxın və bənzərdir. Ozan məclis aparma və dastan ifaçılıq ənənəsi ilə aşıq məclisinin quruluşu və dastan ifaçılıq prosesi də bu baxımdan olduqca yaxın parametrlərlə biri-birinə bağlıdır. Bu anlamda ozan məclisi və boy-dastan təqdimatının əvvəlində giriş-başlanğıc kimi irəli sürülən öyüd-örnək dolu kəlamlar-soylamalar aşıq məclisi və dastançılıq ənənəsində də ustad kəlamı – ustadlama -

ustadnamə şəklində ortaya çıxır. Ozanın say-seçmə kəlamlardan, müdrik sözlərdən, dərin və təcrübəli mətləblərdən ibarət deyimləri – soylamalar ustad aşıqların məclis əhlinə xitabən söylədikləri ustadlamalar – ustadnamələrlə eyni statusa paylaşır. Bu yerdə ən maraqlı və diqqətçəkici tərəf odur ki, istər ozanın dilə gətirdiyi say-seçmə sözlər –soylamalar, istərsə də aşığın səsləndirdiyi ustad nəfəsli öyüd-örnək dolu kəlamlar Haqqın və xalqın mövqeyini ifadə edir.

Ozan soylamasında – müdrik-fəlsəfi kəlamında yer alır:

Əski pambıq bez olmaz,
Qarı düşmən dost olmaz...
Ər malına qıymayınca adı çıqmaz,
Qız anadan görməyincə öyüt almaz,
Oğul atadan görməyincə süfrə açmaz.
Oğul atanın yetiridir,
İki gözünün biridir.
Dövlətli oğul qopsa, ocağının közüdür.
Oğul daxı neyləsin, baba ölüb mal qalmasa,
Baba malından nə fayda,
başda dövlət olmasa... –

düşüncə tərzi aşıq ustadlamasındakı:

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını.
Amanat-amanat qonşu malını,
Qonşu yox istəyən özü var olmaz.
(Abbas Tufarqanlı)

Bir məclisə varsan, özünü öymə,
Şeytana bac verib, kimsəyə söymə.
Qüvvətli olsan da, kasıbı döymə,
Demə ki, zorluyam, qolum yaxşıdır-
(Xəstə Qasım)

həyati və fəlsəfi yanaşma biçiminin tam eynidir.

Çevrəsindəki oğuz tayfasına müraciətlə ozanın söylədiyi xüsusi statusa malik kəlamlar - soylamalar sakral – magik səciyyə daşıdığı üçün onlara qarşı həm söyləyənin, həm də dinləyənin ayrıca bir həssaslığı olmuşdur:

"Allah-Allah" deməyincə işlər onmaz,
Qadir Tanrı verməyincə ər bayılmaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz,
Əcəl vədə verməyincə kimsə ölməz,
Ölən adam dirilməz,
Çıxan can geri gəlməz.
...Təkəbbürlük eləyəni Tanrı sevməz və s.

Ustad aşığın dilindən qopan müdrik kəlamlarda da həmin mövqeyi görmək mümkündür:

Böhtan demə, böhtan tutar adamı,
Qul eylər bazarda satar adamı.
Cəhənnəm odundan betər adamı
Axırda yandırıb kül eylər-eylər.
(Xəstə Qasım)

Nanəcib heç kimə ənam eyləməz,
Təkəbbür kimsəyə salam eyləməz.
İnsan bu dünyanı tamam eyləməz,
Çoxları cəhd etdi, natamam qaldı.
(Qul Allahqulu)

Beləliklə, ata sözü, dədə öyüdü səviyyəsində çıxış edən, dərin fəlsəfi mükəmməllik səviyyəsinə yüksələn ozan soylama və aşıq ustadlamaları tarixi-semantik səciyyə baxımından eyni funksiya yerinə yetirmişlər. Orasını da qeyd etmək lazımdır ki, "Kitabi-Dədə Qorqud"

adıyla tanıdığımız oğuznamə toplusunun önündə gələn və "Müqəddimə" hesab olunan hissə əslində ozanın məclis-mərasim öncəsi söylədiyi öyüdləmələrdir. "Dədə Qorqud soylamış", "Dədə Qorqud bir dəxi soylamış", "Dədə Qorqud genə soylamış" şəklində bölümlərə ayrılmış həmin mətnlər sonralar aşıq məclislərində, dastan söyləməsinin əvvəlində müşahidə etdiyimiz ustadlama-ustadnamə təqdimatının ilkin-arxaik variantıdır. Xatırladaq ki, əski dönəmlərdə aşıqların "ustaddama" ("ustadlama") adlandırdıqları bu təqdimat manerası iyirminci əsrin otuzuncu illərindən sonra folklorçular tərəfindən yanlış olaraq "ustadnamə" şəklinə salınmışdır. Halbuki "ustaddama-ustadlama" deyimi daha arxaik qatı – ozan dönəminə məxsus "soylama" – say-seçmə kəlamlar, dərin, müdrik deyimlər ənənəsini göz önünə gətirir.

Aşıqlar "ustaddama –ustadlama" adı ilə ya birbaşa öz sənət şəcərələrində olan ustadlardan, ya da hər kəsin qəbul etdiyi saz-söz sənətkarlarından (məsələn, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər və s.) örnək olaraq seçdikləri poetik mətnləri məclis əhlinə təqdim etmişlər. Ozanların üç və beş soylama söylədiklərini "Dədə Qorqud" eposunun "Müqəddimə"sindən görmək mümkündür.

Aşıqlıq ənənəsində, adətən, üç ustadlama – ustadnamə dilə gətirilir ki, onların hər biri özünəməxsus tərzdə təqdim olunur: "Ustadlarımızın ruhuna salavat çəkib bir söz deyək "bir" olsun, ustad ömrü "pir" olsun". Bu məqamda ən çox yayılmış poetik mətn Qul Allahqulunun (XVII-XVIII əsrlər) "Qaldı" rədifli qoşmasıdır:

Könül, qulluq eylə kamil ustada,
Ustad görməyənin işi xam qaldı.
Neçə danəndələr getdi dünyadan,
Yerində bir neçə ağlıkəm qaldı.

...Köhlən at üstündə durdum deyənlər,
Asdım, kəsdim, yıxdım, vurdum deyənlər.
Dünyaya əmlakım, yurdum deyənlər,
Onlar da köçdülər, quru dam qaldı...

Məclis önündə və ya dastan təqdimatının əvvəlində ikinci ustadnamə deyilməzdən öncə "Ustadlar ustaddamanı bir deməzlər, biz də deyək iki olsun, düşmən gözü tökülsün" deyimi standart qəlib kimi işlədilir. İkinci ustadnamə Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Dəllək Murad, Şəmkirli Hüseyn, Aşıq Ələsgər, Hüseyn Bozalqanlı, Çıldırlı Şenlik, Molla Cuma, Aşıq Şəmşir, Mikayıl Azaflı və başqa bu qəbildən olan sənətkarlardan seçilir:

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmindən dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra.
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.
(Aşqı Ələsgər)

İkinci ustad kəlamı təqdim olunduqdan sonra, adətən, aşıqlar belə bir qəlibdən istifadə edirlər: "Ustadnaməni iki deməzlər, üç dəyərlər, biz də deyək üç olsun. Düşmən ömrü puç olsun!

"Üçüncü ustadnaməni aşıqlar əsasən özlərinin birbaşa bağlı olduqları sənətkardan və ya məclis keçirdikləri mahalın tanınmış bir söz sərrafından seçib təqdim edirlər. Öz sənət şəcərəsində yer alan Borçalı Nəbi, Mirzə Bilal, Aşıq Şəmşir, Mikayıl Azaflı kimi ustadların davamçıları bu ənənəyə ciddi şəkildə riayət edirlər.

Dünyanın ləzzəti kefdi, damaqdı,
Kim görə-görməyə o baxtabaxtdı.
Sürgünən dövranın cavanlıq vaxtı,
Ağlama qəddinin dal vədəsində.
(Mikayıl Azaflı)

Xanmusa, de sözün ariflər qana,
Mənasız ömürdən nə fayda cana.
Ceyranın azlığı Milə, Muğana,
Aşığın yoxluğu elə itkidi.
(Aşıq Xanmusa)

Ustadlama - ustadnamə səciyyəsi daşıyan örnəklər əsasən deklamativ şəkildə xüsusi intonasiya ilə deyilir və poetik mətnlər daha çox qoşma qəlibi üzərində qurulur. Bununla belə, gəraylı, təcnis, divani və başqa şeir biçimlərində düzülüb qoşulmuş maraqlı ustadnamə örnəklərinə də sıx-sıx rast gəlinir.

Gəraylı – ustadnamə:

Dava günü mərd igidə,
Bərk də birdi, boş da birdi.
Günün yaxşı keçən zaman,
Yay da birdi, qış da birdi.

Hər mətləbi tez qanana,
Mənasını düz qanana.
İşarədən söz qanana
Göz də birdi, qaş da birdi.
(Aşqı Şəmşir)

Təcnis – ustadnamə:

Pis övlada öyüd versə yaxşı ata,
Yersiz minib süvar olmaz yaxşı ata.
Kamil ovçu bərəsində yaxşı ata,
Keçirəndə ya dəyməyə, ya dəyə.
(Hüseyn Bozalqanlı)

Təcnis – divani:

Nütfəsindən əyri olan tez göstərər isbatın,
Hər ağac kökündən bitər, hər meyvə gözlər zatın.
Hərcayı hədyana sayar, naşı bilməz qıymatın,
Əhli-ürfan məclisində gövhər misaldı yüküm.
(Aşqı Ələsgər)

Əlimərdanlı Nəcəfin yaratdığı məşhur bir ustadnamə gedər-gəlməz, gələr-getməz, dildönməz, ayaqlı təcnis biçimindədir. Bu örnək aşıq ədəbiyyatının unikal və təkrarsız nümunələrindən biridir:

Çalış hər bir işə yara, yetəndə,
Dərdə əlac olar yara yetəndə.
Həsrət çəkən könül yara yetəndə
Görüş zamanında eyləməzmi ısss...
Bir bədəsil çıxsa yaxşı nəsildən
Görənlər ah çəkib, ay eylər of – of!

Bunlardan əlavə, ozan soylamaları ilə yaxından səsləşən yum-qapamalar və aşıq poeziyasının cahannamə, vücudnamə, duvaqqapma (dua – qapama) kimi poetik biçimlərində də ustadnamə səciyyəsi daşıyan məqamlara rast gəlinir.

Ozan – aşıq mədəniyyətinin fəlsəfi-estetik yükünün mühüm bir axarını daşıyıb günümüzə gətirən soylama və ustadlamalar bir tərəfdən xalqın mənəvi-əxlaqi enerjisinin, milli-mental keyfiyyətlərinin, ikinci tərəfdən isə Dədə Qorquddan üzü bəri yol gələn və Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Abdalgülablı Valeh, Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Molla Cuma, Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Mirzə Bilal, Çıldırlı Şenlik, Nəbi Borçalı, Mikayıl Azaflı kimi nəhəng ustadlarla şərəflənən saz-söz aləminin unudulmaz söz-sənət ərməğanı kimi sazın-sözün sinəsində daim yaşamaq haqqına sahibdir. Çünki onlar Haqq dərgahına və xalq müdrikliyinə bağlı sənət inciləridir.

P.S. İstəkli oxucu, qarşındakı kitab aşıq ədəbiyyatının nəhəng simalarının yaratdıqları ustad nəfəsli saz-söz ərməğanının ən seçkin örnəkləridir. Gözünü-könlünü bu sirli-sehrli aləmə kökləsən, yəqin ki, onun ecazından, axar-baxarındakı gözəllikdən və ruh təzələyən bədii təravətdən heç bir zaman ayrıla bilməyəcəksən.

Məhərrəm QASIMLI,
Mahmud ALLAHMANLI

OZAN ÖYÜDLƏRİ

DƏDƏ QORQUD ÖYÜDLƏMƏLƏRİ - SOYLAMALAR

Kitabi - Dədə Qorqud» dastanları öyüdləmələrin çeşidli görüntüləri ilə diqqəti çəkir. Bu örnəklər əsasən yazıya alınmış dastanın "Müqəddimə" adlanan giriş hissəsində "soylama"lar şəklində, yaxud da ayrı-ayrı boyların – oğuznamələrin uyğun məqamında öyüd-örnək kimi çatdırılır.

Dədə Qorqud tərəfindən söylənən və ayrı-ayrı epizodlarda "Dədəm Qorqud demiş, dəxi görəlim nə demiş" şəklində səslənən öyüdləmələr ata sözü, ata nəsihəti kimi etnosun toplum münasibətlərini, dünyagörüşünü, ailə dəyərlərini, sosial nizamın hansı prinsiplər üzərində qurulması zərurətini əhatələmək gücü ilə səciyyələnir.

DƏDƏ QORQUD SOYLAMIŞ:

Allah-Allah deməyincə işlər onmaz,
Qadir Tanrı verməyincə ər bayımaz,
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vədə verməyincə kimsə ölməz
Ölən adam dirilməz.
Çıxan can gerü gəlməz.
Bir yigidün qara dağ yumrısınca malı olsa,
yığar-dərər, tələb eylər,
nəsibindən artuğın yeyə bilməz.
Ulaşıban sular daşsa dəniz dolmaz.
Təkəbbürlük eyləyəni Tanrı sevməz.
Könlün yuca tutan ərdə dövlət olmaz.
Yad oğuli saqlamaqla oğul olmaz
böyüyəndə salır gedər, gördüm diməz.
Kül dəpəcik olmaz
Güyəgü oğul olmaz.
Qara eşşək başına uyan ursan, qatır olmaz.
Qaravaşa don geyürsən, qadın olmaz.

Yapa-yapa qarlar yağsa, yaza qalmaz.
Yapağlu gögcə çəmən güzə qalmaz.
Əski panbuq bez olmaz,
Qarı düşmən dost olmaz.
Qarağuça qıymayınca yol alınmaz.
Qara polad uz qılıncı çalmayınca qırım dönməz.
Ər malına qıymayınca adı çıqmaz.
Qız anadan görməyincə ögüt almaz.
Oğul atadan görməyincə süfrə çəkməz.
Oğul atanın yetiridir, iki gözinin biridir.
Dövlətli oğul qopsa, ocağının közidir.
Oğul daxı neyləsün baba ölüb mal qalmasa,
Baba malından nə faida, başda dövlət olmasa…
Dövlətsiz şərrindən Allah saqlasun !

***

Dədə Qorqud bir dəxi soylamış:

Sarp yürirkən qazlıq ata namərd yigit binə bilməz.
binincə, binməsə, yeg.
Çalub-kəsər uz qılıcı müxənnətlər çalınca, çalmasa, yeg.
Çala bilən yigidə
oq ilə qılıcdan bir çomaq yeg!
Qonuğı gəlməyən qara evlər yıqılsa yeg!
At yeməyən acı otlar bitincə, bitməsə, yeg!
Adam içməz acı sular sızınca, sızmasa, yeg!
Ata adını yüritməyən xoyrad oğul
ata belindən enincə, enməsə, yeg;
ana rəhminə düşüncə, doqmasa yeg!
Ata adını yüridəndə dövlətlü oğul yeg!
Yalan söz bu dünyada olunca, olmasa yeg!
Gerçəklərin üç otuz on yaşını doldursa yeg!
On otuz on yaşınız dolsun!
Haqq sizə yaman gətürməsün!
Dövlətiniz payəndə olsun!

***

Dədə Qorqud soylamış, görəlim nə soylamış:

Getdikdə yerin otlaqların keyik bilür.
Gənəz yerlər çəmənlərin qulan bilür.
Ayru-ayru yollar izin dəvə bilür.
Yeddi dərə qoxuların dülkü bilür,
Dünlə karvan köçdügin turğay bilür.
Oğul kimdən olduğın ana bilür.
Ərin ağzın yeynisin at bilür.
Ağır yüklər zəhmin qatır bilür.
Nə yerdə sırılur varsa, çəkən bilür.
Qafil basin ağrısın beyni bilür.
Qolça qopuz götürüb,
eldən-elə, bəgdən-bəgə ozan gəzər.
Ər comərdin, ər nakəsin ozan bilür.
İləyünüzdə çalub-ayıdan ozan olsun.
Azub gələn qəzayı Tanrı savsun!

***

Dədə Qorqud genə soylamış, görəlüm nə soylamış:

Ağız açub ögər olsam, üstümüzdə Tanrı görkli,
Tanrı dostı, din sərvəri Məhəmməd görkli.
Məhəmmədin sağ yanında namaz qılan
Əbubəkr Siddıq görkli.
Axır sipara başıdur "əmmə" görkli.
Hecasınlayın düz oqunsa, yasin görkli.
Qılıc çaldı, din açdı, şahi-mərdan Əli görkli.
Əlinin oğullaır, - peyğəmbər nəvələləri-
Kərbəla yazısında yezidlər əlində şəhid oldı
Həsən ilə Hüseyn iki qardaş bilə görkli.
Yazılib düzilib gögdən endi
Tanrı elmi Quran görkli.

Ol Qurani yazdı-düzdi,
üləmalar öğrənincə köydi-biçdi,
alimlər sərvəri Osman Üffan oğlı görkli.
Alçaq yerdə yapılubdur Tanrı evi Məkkə görkli.
Ol Məkkəyə sağ varsa, əsən gəlsə
Sidqı bütün hacı görkli.
Sağış günündə ayna görkli.
Ayna güni oquyanda xütbə görkli.
Qulaq urub dinləyəndə ümmət görkli.
Minarədə banlayanda fəqih görkli.
Dizin basub oturanda halal görkli.
Dölümündən ağarsa, baba görkli.
Ağ südin doya əmzirsə, ana görkli.
Yanaşub yola girəndə qara buğur görkli.
Sevgili qardaş görkli.
Yanal ala ev yanında dikilsə, gərdək görkli.
Uzunca tənəfi görkli.
Oğul görkli.
Qamusına bəınzəmədi cümlə aləmləri yaradan
Allah-Tanrı görkli.
Ol ögdügüm yuca Tanrı dost oluban mədəd irsün!

DƏDƏ QORQUD YUMLARI
(dua-qapamalar)

Dədə Qorqud eposunda, böyük əksəriyyətlə ayrı-ayrı boyların – oğuznamələrin sonlarında, bəzi hallarda isə boyun uyğun bir məqamında Tanrı dərgahına ünvanlanmış xüsusi tip alqış-dualar, yumlar səsləndirilir ki, bu mətnlər ozanların Haqq dünyası, Tanrı dərgahı ilə mediativ - əlaqələndirici statusuna malik müqəddəslər kimi qəbul olunduğunun əyani göstəricisidir.

***

Qanı dedigim bəg ərənlər?!
Dünya mənim deyənlər!
Əcəl aldı, yer gizlədi.
Fani dünya kimə qaldı?
Gəlimlü-gedimlü dünya!
Axır- son ucı ölümli dünya!
Əlaqibət, uzun yaşın
ucı ölüm, axırı ayrılıq,
Yum verəyim, xanım:
Ölüm vəqti gəldügində
arı imandan ayırmasun!
Ağ saqqallu baban yeri uçmaq olsun!
Ağ birçəklü anan yeri behişt olsun!
Qadir səni namərdə möhtac etməsün!
Ağ alnunda beş kəlmə dua qıldıq,
qəbul olsun!
“Amin!” “Amin!” – deyənlər didar görsün”
Yığışdırsun, duruşdursun
Günahınızı, Məhəmməd Mustafaya bağışlasun!

***

Yerlü qara dağın yıqılmasun!
Kölgəlicə qaba ağacın kəsilməsün!
Qamın aqan görklü suyın qurımasun!
Qanadlarun ucu qırılmasun!
Qadir səni namərdə möhtac etməsün!
Çaparkən ağ-boz atın büdrəməsün!
Çalışında qara polat uz qılıncın güdəlməsün.
Allah verən umızın üzülməsün!
Axır-sonı arı imandan ayırmasun!
Ağ alnunda beş kəlmə dua qıldıq, qəbul olsun!
Yığışdırsun-duruşdursun günahınızı
Adı görklü Məhəmmədə bağışlasun.

***

Anlar dəxi bu dünyaya gəldi, keçdi.
Karvan kibi qondı, köçdi.
Anları dəxi əcəl aldı, yer gizlədi.
Fani dünya yenə qaldı…
Qərə ölüm gəldigində keçit versün.
Sağlığla sağıncın, dövlətin Həq artursın.
Ol ögdigim yuca Tənri dost olubanı mədəd irsün.
Ağ birçəkli anan yeri behişt olsun!
Ağ saqqallı baban yeri uçmağ olsun!
Həq yandıran çırağın yana tursun!
Qadir Tənri səni namərdə möhtac eyləməsün!

***

Yucalardan yucasan,
Kimsə bilməz necəsən, əziz Tənri?!
Anadan toğmadın sən, atadan olmadın.
Kimsə rizqin yemədün.
Kimsəyə güc etmədin.
Qamu yerdə əhədsən, Allahü samədsən!

Adəmə sən tac urdun,
Şeytana lənət qıldın.
Bir suçdan ötüri dərgahdan sürdün.
Nəmrud gögə ox atdı,
Qarnı yaruq balığı qarşu tutdun.
Ululığına həddin, sənin boyun-qəddin yoq!
Ya cisimlə cəddin yoq!
Urduğun ulatmıyan ulu Tənri!
Basduğın bəlürtmiyən bəllü Tənri!
Götürdügin gögə yetürən görklü Tənri!
Qaqduğın qəhr edən qəhhar Tənri!
Birligünə sığındım, Çəlabım, qadir-Tənri!
Mədəd səndən!

DASTAN ÖYÜDLƏMƏLƏRİ

"KOROĞLU" DASTANINDAN

Kitabi-Dədə Qorqud" dastanlarından sonrakı mərhələnin ən möhtəşəm qəhrəmanlıq abidəsi olan "Koroğlu" təkcə bahadırlıq baxımından deyil, bütünlükdə xalqın milli-mənəvi dəyərlərinin toplusu kimi əvəzsizdir. Ərlik, mərdlik, qorxmazlıq, halallıq və doğruluq düşüncəsinin yer aldığı Koroğlu öyüdləri yüz illər boyunca xalqın dilində zərbi-məsəllərə və dərin məzmunlu kəlamlara çevrilmişdir.

NƏ BİLƏR

Binadan gözəl olmayan,
Telin qədrini nə bilər?
Çöldə gəzən boz sərçələr,
Gülün qədrini nə bilər?

Kal qoşub kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrin çəkməyən,
Balın qədrini nə bilər?

Utan, qoç Koroğlu, utan!
Dağların damənin tutan!
Sənin kimi başa çatan,
Elin qədrini nə bilər?

ÇAĞIR GƏLSIN DƏN, KOROĞLU

Çünki oldun dəyirmançı,
Çağır gəlsin dən, Koroğlu!
Verdin Qırı, aldın Dürü,
Döy başına yan, Koroğlu!

Qırat əldən getdi barı,
Canda qaldı intizarı,
Üyüt arpa, buğda, darı,
Al şahadın sən, Koroğlu!

Uca dağları döşlətdin,
Ağır alaylar boşlatdın,
Yüz il lotuluq işlətdin,
Axır oldun xam, Koroğlu!

NƏ MƏLULSAN

Keçər dövran belə qalmaz,
Şad ol, könül, nə məlulsan?!
Dəlilərim salam almaz,
Şad ol, könül, nə məlulsan?!

Geydiyim igid kürküdü,
Dünya Süleyman mülküdü,
Dövlət ki, var, əl çirkidi,
Şad ol, könül, nə məlulsan?!

Koroğluyam, deyim sənə,
Od tutub alışdı sinə,
Aşıqlığım bəsdi mənə,
Şad ol, könül, nə məlulsan?!

GƏRƏK

İgid meydana girəndə,
Qaynayıb coşmamaq gərək.
Əgər olsa Haqq vergisi,
Qismətdən qaçmamaq gərək.

Baxmaram düşmən hayına,
Haqq bəla versin xayına.
İgid igidin payına,
Köndələn düşməmək gərək.

Qoç Koroğlu çıxar düzə,
Baxmaram əlliyə, yüzə.
Mən dəlidən öyüd sizə,
Həddini aşmamaq gərək.

OLDU

Ay həzarat, ay camaat,
Ürək zərd oldu, zərd oldu!
Genə namərdin sözləri,
Cana dərd oldu, dərd oldu!

Dostumu atdım dumana,
Rəqibi gəlsin yamana,
Kor olsun belə zamana,
Namərd mərd oldu, mərd oldu!

Koroğluyam, dərd hazaram,
Adım dəftərə yazaram,
Nə qədər səfil gəzərəm,
Adım qurd oldu, qurd oldu!

AT İGİDİN QARDAŞIDI

Həmzə, atı yaxşı saxla!
At igidin qardaşıdı.
Gündə muğayat olub, yoxla!
At igidin qardaşıdı.

Yay olanda dağa yollat!
Yaz olanda ifçin nallat!
Qış olanda məxmər çullat!
At igidin qardaşıdı.

Atı sevib bəslə körpə,
Hayqıranda çıxsın sarpa.
Hər yeyəndə qırx tas arpa,
At igidin qardaşıdı.

Uzaq-uzaq yollarınan,
Beli ipək çullarınan,
Hoqqa yarım nallarınan,
At igidin qardaşıdı.

Sərin-sərin yu suyunan,
Quyruğun bağla muyunan.
Qoç Koroğlu çox öyünən,
At igidin qardaşıdı.

ÖZÜ TƏK GEDƏ, TƏK GEDƏ

İgid gərək yar sevməyə,
Özü tək gedə, tək gedə...
Müxənnət qəddin əyməyə,
Özü tək gedə, tək gedə...

Qəniminə qılınc çala,
Ürəyinə talan sala.
Düşməndən bac-xərac ala,
Özü tək gedə, tək gedə...

Dola polad yarağına,
Düşə igid sorağına.
Yüz tülkünün qabağına,
Özü tək gedə, tək gedə...

OLUR

Uca-uca dağlar başı,
Çənli də olur, çənsiz də olur.
Cəhd elə bir işə qatıl,
Sənli də olur, sənsiz də olur.

Ağ üzdə busə tək gərək,
Ərənlər İsatək gərək,
Gözəllər Nisatək gərək,
Telli də olur, telsiz də olur.

Koroğlunun atı gərək,
Dəmir, polad qatı gərək.
Bir igidin zatı gərək,
Pullu da olur, pulsuz da olur.

İNİLDƏR

Sənə deyim, aşıq Cünun,
Gözlərimdə yaş inildər.
Bir igid oğul ucundan,
Şeş atanda beş inildər.

Telli Nigar məlul durar,
Əl qoynunda boynun burar.
Müjganın sinəyə vurar,
Göz oxşayar, qaş inildər.

Könlümü namərdlər yıxsa,
Polad qolçaq qolum sıxsa.
Misri qılınc qından çıxsa,
Leş sərilər, baş inildər.

Coşdu, dəli könül coşdu,
Mövc verdi, kəllədən aşdı.
Bir meşəyə ki, od düşdü,
Quru yanar, yaş inildər.

Koroğluyam, sözüm çoxdu,
Sözlərim peykanlı oxdu.
Hansı igidin sonu yoxdu,
Ocaq sönər, daş inildər.

MƏNİ

Yağı düşmanın hərbəsi,
Qaçırtmaz meydandan məni.
Qorxaq müxənnət zərbəsi,
Qaçırtmaz meydandan məni.

Girrəm meydana ər kimi,
Durram qabaqda nər kimi.
Düşmən boylanar xər kimi,
Qaçırtmaz meydandan məni.

Hərdən bərədə yataram,
Ortada şeşpər ataram.
Paşanı diri tutaram,
Qaçırtmaz meydandan məni.

Aləmə bəlli hünərim,
Çənlibeldə dəlilərim.
Mərd igidə peşkəş sərim,
Qaçırtmaz meydandan məni.

Koroğluyam, budu düzü,
Comərdin sərt olar üzü.
Müxənnətin tənə sözü,
Qaçırtmaz meydandan məni!

OLU

Uca dağların başında,
Duman olu, çiskin olu.
Qar yağıban girdə bağlar,
Acı yellər əskin olu.

Bir igidin zatı olsa,
Qolunun qüvvəti olsa,
Meydan görmüş atı olsa,
Zülfüqarı kəskin olu.

İgidə yoldaş olmasa,
Bir qoşuna baş olmasa,
"Hu" deyib savaş olmasa,
Ağır leşglər basqın olu.

Alıcı quşlar əllərdə,
Ovlağı olar göllərdə.
Qərib igid yad ellərdə,
Dinə bilməz, miskin olu…

ZƏMANƏMİ

Titrəyir əllərim, tor görür gözüm,
Mənmi qocalmışam, ya zəmanəmi?
Dolaşmır dəhanda söhbətim, sözüm,
Mənmi qocalmışam, ya zəmanəmi?

Tutulur məclisdə igidin yası,
Kar görmür qılıncı, polad libası,
Gəlib bic əyyamı, namərd dünyası,
Mənmi qocalmışam, ya zəmanəmi?

Belə zaman hara, qoç igid hara,
Mərdləri çəkirlər namərdlər dara,
Tərlanlar, laçınlar baş əyir sara,
Mənmi qocalmışam, ya zəmanəmi?

Axır əcəl gəldi, yetdi hay, haray!
Çəkdiyim qovğalar bitdi hay, haray!
Tüfəng çıxdı, mərdlik getdi hay, haray!
Mənmi qocalmışam, ya zəmanəmi?

Koroğluyam, Qırat üstə gəzərdim,
Müxənnətlər başın vurub əzərdim,
Nərələr çəkərdim, səflər pozardım,
Mənmi qocalmışam, ya zəmanəmi?

SULTANIM

Qoç quzudan quzu törər, qoç olar,
Qoçaqlardan qoçaq olur, sultanım!
Qovğa günü mərd igidlər şad olur,
Müxənnətlər naçaq olur, sultanım!

Dəli ərən bir orduya daldadı,
Bilər yağı ya sağda, ya soldadı,
Qaçar-qaçar rəqibini aldadır,
Qayıtmasa qaçaq olur, sultanım!

Türk atının kəhərindən, göyündən,
Qoçaq minər yüyrəyindən, yeyindən,
Bir çox iyid xəbər aldı bəyindən,
Savaş günü haçaq olur, sultanım?!

Qoç Koroğlu oxun çəkər kirişə,
Müxənnətin nə haqqı var girişə,
Mərd igidin əli yetsə bir işə,
Min igidə yaraq olur, sultanım!

QIRAT, GƏL

Çənlibeldən səni deyib gəlmişəm,
Alma gözlü, qız birçəkli, Qırat, gəl!
Dəmir libas, polad geyib gəlmişəm,
Alma gözlü, qız birçəkli, Qırat, gəl!

Əzəldən biləydim sənin halını,
Əşrəfidən kəsdirərdim nalını,
Yüz gözələ toxudardım çulunu,
Alma gözlü, qız birçəkli, Qırat, gəl!

Neçə vaxtdı məni qoydun piyada,
Müxənnətlər yaxşı yetdi murada,
Günbəgündən dərdim oldu ziyada,
Alma gözlü, qız birçəkli, Qırat, gəl!

Qabaqda qalırmı arpan səhərə,
Üzəngilər nə yaraşır yəhərə,
Dəlilər salmışdı məni qəhərə,
Alma gözlü, qız birçəkli, Qırat, gəl!

Mənim atım atım-atım atılar,
Qulaqları qarğı kimi çatılar,
Ucuzluqda min tümənə satılar,
Alma gözlü, qız birçəkli, Qırat, gəl!

GƏRƏK

Ərzurumun bazarına varanda,
Məqamda düşmanı atmağın gərək.
Gördün ki, mətləbin başa varmadı,
Ərəb at yalına yatmağın gərək.

İgid gərək meydan aça, düz dura,
Düşman qabağında bığını bura.
Ayaqların üzəngiyə bərk vura,
Şeşpəri şeşpərə çatmağın gərək.

İgid olan neylər əllini, yüzü?
Namərdin davada dörd olar gözü.
Budu Koroğlunun, oğul, bil sözü,
O Telli xanımı tapmağın gərək.

OLU

Dünyada heç igid yoxsul olmasın,
Yoxsulluq igidə yaman ad olu.
Hər kəsin ki, varı-dövləti olsa,
Ləzzət çəkər, dəhanında dad olu.

Varlı-kasıb bu dünyadan köçərlər,
Yaxşını-yamanı görüb seçərlər.
Varın olsa gəlib yeyər, içərlər,
Yoxsul olsan qohum-qardaş yad olu.

Dəmirçioğlu, igid çoxdu dünyada,
Artdı dərdim, oldu həddən ziyada.
Yaxşı at minənlər qalsa piyada,
Daş düşər başına, ömrü bad olu.

OLU

İki kələ bir məclisə varanda,
O məclisin halı pərişan olu.
Bir qoç igid bir meydanda tapılsa,
Bəzənər o meydan, zərnişan olu.

Sərçəyə bax, qaraquşa don biçər,
Mərd igidlər dolu badələr içər.
Namərd adam dava günündə qaçar,
Gedər daldalarda pəhləvan olu.

Dəmirçioğluyam, qorxmaram mərddən,
Tülkü deyər: aslan qovaram yurddan.
Bir keçi qaçıban qurtulsa qurddan,
Baxar buynuzuna gərgədan olu.

GƏRƏKDİ

Sənə deyim qoç igidin nişanın,
Açа yağılarla meydan gərəkdi.
Nərə çəkib atılanda ortaya,
Qaça qabağından düşman gərəkdi.

Təslim deyib qəniminə enməyə,
Əcəl çağı yoldaşından dönməyə,
Düşman qabağında heç vaxt sinməyə,
Meydanlarda qızmış aslan gərəkdi.

Qoç Koroğlu meydan açıb öyünü,
Namərd sinəsinə çəkər düyünü.
Ac qurdlardan saldırmağa qoyunu,
Qurd ağızlı qoçaq oğlan gərəkdi.

OLA

Bizdən salam olsun Ərəb paşaya,
Səndən istədiyim bir zənan ola.
Ortalığa heç salmaya acılıq,
Dili şirin, özü mehriban ola.

Ər məhəbbətində ola mötəbər,
Kərgədan bədənli, ağmaya dilbər.
Mərd meydanda bir igidə bərabər,
Doğduğu hünərli bir oğlan ola.

Qaşı cəllad ola, kirpiyi almas,
Hərdəm arsız-arsız danışıb gülməz.
Ərə yalan deyib gap-gilay bilməz,
Qonumla, qonşuyla doğru, tən ola.

Koroğluyam, namərd keçməz yanımdan,
Mərd kimsəni çox istərəm canımdan.
Ondan igid törər, qaçmaz qənimdən,
İstər qırğın düşə, yüz min qan ola!

OLA

Canım usta, mənə bir qılınc qayır,
Nə uzun, nə gödək, bir qərar ola.
Dəstəyi şirmayı, özü qoşanov,
Vuranda ürəkdən xəbərdar ola.

Xorasan poladın yaxşısından seç,
Yaxşısı olmasa, yamanından seç.
Hər nəyə vuranda dayanmaya heç,
Ya fil, ya kərgədan, ya şahmar ola.

İraxdı mənzilim, uzaqdı ara,
Suyu çox sərt ola, qılovu qara.
Yarı cılxa polad, yarı nalpara,
Qara əqrəb kimi zəhrimar ola.

Kamandar dediyin ötürməz avı,
Kimdi bu dünyada qolumun bavı?
Qayıtmaya ağzı, iti qılavı,
Haraya ki, dəydi, tarumar ola.

GÖRMÜŞƏM

Bu dünyanı ələk-vələk eylədim,
Namusu, qeyrəti atan görmüşəm.
Anasının əmcəyini kəsənnən,
Elini-gününü satan görmüşəm.

Ürəyə həkk olan ləkədəndimi?
Şeytanın verdiyi tikədəndimi?
Heç kəs bilməz qovğasını, fəndini,
Şərbətlərə zəhər qatan görmüşəm.

Fələyin xəlbirin versələr mana,
Qoymazdım od düşə ota, samana.
Nuhun tufanına dönüb zamana,
Birin çıxıb, minin batan görmüşəm.

Aşıq Cünun nərə üstə saz çalar,
Dastanında yüz igidin adı var.
Qılıncla Koroğlu, tədbirlə Nigar,
Neçə savaşları udan görmüşəm.

BƏNZƏRSƏN

Üç yaşından beş yaşına varanda,
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına varanda,
Arıdan saçılmış bala bənzərsən.

On dördündə sevda yenər başına,
On beşində yaman girər duşuna.
Çünki yetdin iyirmi dörd yaşına,
Boz bulanıq axan selə bənzərsən.

Otuzunda kəklik kimi səkərsən,
İgidlik eyləyib qanlar tökərsən,
Qırxında sən əl haramdan çəkərsən,
Sonası ovlanmış gölə bənzərsən.

Əllisində əlif qəddin çəkilər,
Altmışında ön dişlərin tökülər.
Yetmişində qəddin, belin bükülər,
Karvanı kəsilmiş yola bənzərsən.

Səksənində sinən yenər dizinə,
Doxsanında qubar qonar gözünə.
Koroğlu der, çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən.

"ƏSLİ VƏ KƏRƏM" DASTANINDAN

KÖNÜL

Sofi, nə sorursan mənim halımı?
Yardan ayrılanda şad olmaz könül.
Leylisin itirmiş Məcnuna döndüm,
Hər gecə papağı tac olmaz könül.

Bir dəm səyyah olur, qılınc qurşanır,
Bir dəm turab olub, yerə döşənir,
Bir dəm Haqdan qorxu çəkir, üşənir,
Bir dəm padşahınan bac olur könül.

Bir dəm göldə bitən qarğı, qamışdı,
Bir dəm bağçalarda dürlü yemişdi,
Bir dəm qızıl olur, bir dəm gümüşdü,
Bir dəm paslanır da, tunc olur könül.

Bir dəm piyadadı, bir dəm atlanır,
Bir dəm şəkər olur, bir dəm dadlanır.
Bir dəm olur hər cəfaya qatlanır,
Bir dəm zəhərdən də acı olur könül.

Bir dəm abdal olur, girir şallara,
Bir dəm dəllal olur, düşür dillərə,
Bir dəm yolçu olur, gedir yollara,
Bir dəm keçənlərdən bac alır könül.

Kərəm deyər, axırına irilməz,
Ərəb at yorulur, könül yorulmaz.
Könül bir saraydı sınar, hörülməz,
Əzəli, sorası köç olur könül.

BİR ÖLÜM

Bu dünyada üçcə şeydən qorxum var,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!
Heç birindən əsla könlüm şad deyil,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!

Bağrım başın fələk nə çaldı daşa,
Yazılanlar gəlir bu qərib başa.
Həsrət qaldım elə, qohum-qardaşa,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!

Çox süleymanları taxtdan endirdi,
Neçələrin gül rəngini soldurdu.
Neçələrin gəlməz yola göndərdi,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!

Qəribin boyuna kəfən biçilməz,
Əcəl camı çox acıdı, içilməz.
Üç dərdim var bir-birindən seçilməz,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!

Neçələrin qalasına od atdı,
Neçənin aşına zəhrimar qatdı.
Neçələrin cavan ikən qocaltdı,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!

Kərəm yar yolunda canından keçdi,
Qürbət eldə əcəl badəsin içdi.
Gül bağından bülbül qürbətə uçdu,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!

DƏRDİ

Hey ağalar, üç dərd məni qocaldır:
Zülf dərdi, xal dərdi, bir də tel dərdi.
Mən yazığın min gününü bir elər,
Nadan dərdi, xoryat dərdi, fel dərdi.

Tərk eylədi vətənini, elini,
Əlindən aldırdı qönçə gülünü,
Kimsə bilməz bu qəribin halını,
Bağça dərdi, Vətən dərdi, el dərdi.

Aç köksünü, üstünə bağ tikəyim,
Əlvan-əlvan çiçəklərdən əkəyim,
Mən bu dərdin hansı birin çəkəyim?
Süsən dərdi, sünbül dərdi, gül dərdi.

Coşqun dərdim sular kimi bulandı,
Vardı getdi, qarlı dağlar dolandı.
Dərd bağlayıb qapı-qapı diləndi,
Paltar dərdi, əba dərdi, şal dərdi.

Yazıq oldu, düşdü dildən dillərə,
Bülbül qonmaz oldu qönçə güllərə.
Ağlaya-ağlaya düşdük yollara,
Gələn dərdi, keçən dərdi, yol dərdi.

Sofi deyər, Kərəm üzümə baxar,
Bu canımı eşqin oduna yaxar.
Mən bilirəm, bu dərd məni tez yıxar,
Əsli dərdi, Kərəm dərdi, dil dərdi.

ÇIXAR

Gizli sevda çəkib, eşqə düşənlər,
Bir gün olar həlbət əyana çıxar.
Çəkəlim möhnəti səbr ilə, könül,
Görək bunun sonu nə yana çıxar...

Fərhad Şirin üçün dəldi qayanı,
Məcnun Leyli üçün gəzdi səhranı,
Kərəm Əsli deyib gəzər dünyanı,
Aşıq öz eşqinə mərdanə çıxar.

Qaradı qaşları, gözü dolayı,
Yaxşı təbib gərək versin davayı.
Axtarsalar hər tərəfdən dünyayı,
Belə aşıq ancaq bir dənə çıxar.

Bizə belə imiş təqdirin işi,
Axıtdı gözümdən qan ilə yaşı.
Aldı bu Kərəmi eşqin atəşi,
Bu sevdanın sonu büryana çıxar.

"ƏMRAH" DASTANINDAN

KÖNLÜM

Könül, sənə vəsfi-halım söyləyim,
Ya rəb, bu dünyada necolur könlüm?
Hərdən dərviş olur, hərdən dilənir,
Hərdən bəzirgandan bac alır könlüm.

Hərdən dəryalarda qarğı, qamışdı,
Hərdən bostanlarda dürlü yemişdi,
Hərdən əşrəfidi, hərdən gümüşdü,
Hərdən də pas tutub, tunc olur könlüm.

Əmrah sözlərini deyər, arınmaz,
Ərəb at yorulsa, könül yorulmaz.
Könül bir şişədi, sınsa sarınmaz,
Sarınsa sağalmaz, kəc olur könlüm.

"SEYDİ VƏ PƏRİ" DASTANINDAN

DÜNYA

İstərəm aybını üzünə deyəm,
Heç kəsinən başa varmadın dünya!
Əzəl gələnlərə hörmət eylədin,
Sonra gələnləri neylədin, dünya?

Neylədin soltanı, neylədin xanı?
Göylərə hökm edən qəhrəman hanı?
Yer, göyün padşahı Rüstəmi-Zalı –
O şiri-kirani neylədin, dünya?

Səndən qorxub xan Seydinin ürəyi,
Haqq yanında hasil olsun diləyi,
Süleymandı yerin, göyün dirəyi,
Ona da bir izzət etmədin, dünya!

"NƏCƏF VƏ PƏRZAD" DASTANINDAN

AY BULAR, BULAR

Səhər dostum şanə tutub dəstində,
Dağıdar tellərin ay bular, bular!
Biri sidqinən dilək diləsə,
İnşallah mətləbin ay bular, bular!

Mürğün dəhanında nə danə dedim,
Sərrafın dəsdində nə danə dedim.
Dərdimi dərd bilməz nadanə dedim,
Anlamaz başını ay bular, bular!

Bu dərd, bu qəm mənim canımda qaldı,
Heyva kimi gül irəngim saraldı.
Desələr Nəcəfi kim dərdə saldı,
Onda söyləginən ay bular, bular!

"MƏSUM VƏ DİLƏFRUZ" DASTANINDAN

GƏRƏKDİ

Gəl, ay həkim, mənim dərdimə dərman,
Səndən olmaz, öz dübarım gərəkdi.
Eşqin tüccarıyam, qəm bəzirganı,
Həsrət çəkən intizarım gərəkdi.

Mən də düşdüm eşqin cəzri, məddinə,
Nə olaydı yetəm dərdimməndimə.
Dərman eyləməyə yüz min dərdimə,
Diləfruz tək bir həmkarım gərəkdi.

Mən Məsiməm, dəli, dolu olmuşam,
Saralıban heyva təki solmuşam.
Orda bəlgə verib, bəlgə almışam,
O nişanda öz dübarım gərəkdi.

OLU

Ay ağalar, heç kim qərib olmasın,
Qəriblərin yeri, yurdu dar olu.
Qərib dinsə yerbəyerdən qınallar,
Elli dinsə ellərində car olu.

Qəribin üzünə qapı açılmaz,
Yüz xan olsa bir gədədən seçilməz.
Onun üzü gülüb, qəlbi açılmaz,
Tamam işi-gücü ahu-zar olu.

Xoca Əziz, dur buradan köç indi!
Köçübəni vətəninə keç indi!
Kor yapalaq öz yerində laçındı,
Tülək tərlan qürbətlərdə sar olu.

DEYƏRLƏR

Yaxşı olar ellik, günlük, obalıq,
Yalqız daşdan divar olmaz deyəllər.
Bəzirgansan, göstərməsən mətahın,
Axtarıb yükündə nə var deyəllər.

İskəndər atlandı, çıxdı zülmətdən,
Xızır gedib, içdi abi-həyatdan.
Bəs düşdü qılıncdan, geyimdən, atdan,
Sırfanı onlardan suvar deyəllər.

Əsil bəylər saxlar alıcı quşu,
Sərraf olan seçər qiymətli daşı.
Bir oğul atadan artırsa işi,
El içində ona tavar deyəllər.

Xoca Əziz quldu, buradan getməz,
Seyrəqib olanlar mətləbə yetməz.
Hər nə versən Allah yolunda itməz,
Yüz min qada başdan sovar deyəllər.

USTAD KƏLAMLARI

YUNİS ƏMRƏ

XIV yüzillikdə Anadolu-türkmən çevrəsinin böyük sufi mütəfəkkiri olan Yunis Əmrənin şeirləri də aşıq ədəbiyyatında mühüm yer tutur. Bu böyük söz ustadı şeirlərini Yunis Əmrə, Qul Yunis, Miskin Yunis, Dərviş Yunis, Qoca Yunis və ya sadəcə Yunus kimi adlarla düzüb qoşmuşdur. Təssüf ki, onun şeirləri özündən sonra gələn "Yunus" təxəllüslü digər şairlərin şeirləri ilə xeyli dərəcədə qarışıq düşmüşdür. Onun ədəbi irsi kiçik, mənsur müqəddiməli məsnəviyyatdan, qəzəllərlə ilahiləri özündə birləşdirən heca və əruz vəznində yazılmış "Divan"dan, məsnəvi formasında yazdığı "Risalətun-nushiyyə" ("Nəsihətnamə") adlı didaktik əsərdən ibarətdir. "Divan"ının bir sıra nüsxələri vardır. Fateh, Qaraman, Bursa variantları ən qədim və daha mükəmməl nüsxələr hesab edilir. Xalq şeiri üslubunda yazmağa üstünlük verən böyük sufi şair sonrakı dövr Anadolu və Azərbaycan aşıq ədəbiyyatının inkişafına da güclü təsir göstərmişdir.

SALAM OLSUN

Bu dünyadan gedər olduq,
Gələnlərə salam olsun.
Bilməz hardan bilsin bizi,
Bilənlərə salam olsun.

Əzrayıl alar canımız,
Donar damarda qanımız,
Yuyub sonra kəfənimiz,
Saranlara salam olsun!

Gedər olduq Dostumuza,
Yetəmmədik qəsdimizə,
Namaz üçün üstümüzə,
Duranlara salam olsun!

Sözdür söylənir araya,
Dözmək olmaz bu yaraya,

Alıb bizi məqbərəyə,
Qoyanlara salam olsun!

Aşıq odur Haqqı sevə,
Haqq edə dərdinə dəva,
Bizim üçün xeyir-dua,
Qılanlara salam olsun!

Aşıq Yunus söylər sözü,
Qan-yaş ilə doldu gözü,
Bilməyənlər bilsin bizi,
Bilənlərə salam olsun!

DEYİL

Bir yol könül yıxdın isə,
Bu qıldığın namaz deyil.
Yetmiş iki millət sənin,
Əl-üzünü yumaz deyil.

Xan ərənlər gəldi-keçdi,
Yurd-yuvası qaldı, köçdü.
Pərvaz vurub Haqqa uçdu,
Huma quşdur, qaz deyil.

Yol odur ki, doğru vara,
Göz odur ki, Haqqı görə,
Ər odur alçaqda dura,
Ucadan baxan göz deyil.

Doğru yola gedər olsan,
Ər ətəyin tutar olsan,
Bir xeyir də edər olsan,
Birinə mindir, az deyil.

Yunus bu sözləri çatar,
Sanki balı yağa qatar,
Mətahını xalqa satar,
Yükü gövhərdir, duz deyil.

BİLMƏZ

Haqq cahana doludur,
Kimsələr Haqqı bilməz.
Onu sən səndən istə,
O səndən ayrı olmaz.

Dünyaya inanarsan,
Rizqə mənimdir dersən,
Neçin yalan söylərsən,
Axı sən deyən olmaz.

Axirət çox uzaqdır,
Düzlük əsl yaraqdır,
Ayrılıq sarp fəraqdır,
Heç gedən geri gəlməz.

Dünyaya gələn köçər,
Bir-bir şərbətin içər,
Bu bir körpüdür keçər,
Cahillər onu bilməz.

Gəlin dostluq eyləyək,
Yaxşı sözlər söyləyək,
Gəlin sevək, sevilək,
Dünya kimsəyə qalmaz.

Yunus sözün anlasan,
Mənasını dinləsən,
Sənə Haqq evi gərək,
Burda kimsənə qalmaz.

SƏN O KƏSƏ SÖYLƏ SÖZÜ

Sən o kəsə söylə sözü
Ki, mənadan xəbəri var.
O insana ver könlünü,
Canında eşq əsəri var.

Kimin ki, zahiri xoşdur,
Bilin onun içi boşdur,
Gecələr ötən bayquşdur.
Sanma bütöv divarı var.

Bir devləngəc yuva yapar,
Özgə balasını qapar,
Şahin düşmənindən sapar,
Çünki əldə murdarı var.

Yoxdur şahinlə birliyi,
Ya Haqqa layiq dirliyi,
O insandan um ərliyi,
Onun safa nəzəri var.

Belə baxsan çoxdur adam,
Hər birində yoxdur qədəm,
Əvvəl-axır o pişqədəm,
Məhəmməd din sərvəri var.

Ərənlər yoludur meşə,
Meşə çətindir qolmaşa.
Meşə olan yerdə paşa,
Haramı çox, əntəri var.

Bilən, bilgin, hər şeyx, ulu,
Cümlə yolları ər yolu,
Yunusdur dərvişlər qulu,
Tapdıq kimi sərvəri var.

GÜLDÜRƏR

Dərdli, nə ağlayıb gəzərsən burda,
Ağladırsa mövlam yenə güldürər.
Neçə dərdli qondu, köçdü dünyadan,
Ağladırsa mövlam yenə güldürər.

Bu dərd mənim sevgilimdir, yarımdır,
Ərşə çıxan mənim ahu-zarımdır,
Ağlama, ağlama, Allah Kərimdir,
Ağladırsa mövlam yenə güldürər.

Daim haqqa camalını dilə dur,
Zikr elə mövlanı dildən-dilə dur,
Qəhri kimə isə lütfü onadır,
Ağladırsa mövlam yenə güldürər.

Sevdaya salma bu qərib başını,
Axıdar gözündən qanlı yaşını,
Kərimdir, onardır qulun işini,
Ağladırsa mövlam yenə güldürər.

Yunis, sənin gözlərində çox hal var,
Önündə uğrayıb keçəsi yol var,
Gecə-gündüz dur da mövlaya yalvar,
Ağladırsa mövlam yenə güldürər.

QURBANİ

XVI-XVII yüzilliyə mənsub ustad sənətkardır. Haqq aşığı adını almışdır. Qaradağ və Qarabağ mahallarının kəsişmə xəttində - Araz çayı sahilindəki Diri dağın ətəyində – indiki Cəbrayıl rayonunun ərazisində məskun olmuşdur. Bu səbəbdən də şeirlərindən Qaradağ, Qarabağ, Xüdafərin körpüsü, Diri dağı, Diri kəndi və Araz çayının adları sıx-sıx keçir. Aşığın əsl adı Qurban olmuş, lakin o, divan ədəbiyyatı şairlərində olduğu kimi öz adını təxəllüs olaraq «Qurbani» şəklində işlətmişdir. Yaradıcılığından Səfəvi-qızılbaş xanədanına yaxınlığı hiss olunur. Şeirlərində təsəvvüf simvolikası da güclüdür.

Güclü təbə, məlahətli saz ifaçılığına malik olmuş ustad aşığın düzüb-qoşduğu şeirlər öz mükəmməl poetik tutumu ilə seçilir. Onun adına bağlı olan «Qurbani» dastanının üç versiyası (Gəncə, Diri və Zəncan), ondan yuxarı variantı mövcuddur.

Ustadnamələri aşıq sənətində böyük hörmət və ehtiramla dilə gətirilir.

DOLANA-DOLANA

Alçaq yerdən duman qalxar,
Dağı dolana-dolana.
Göy üzünü alar bulud,
Mahı dolana-dolana.

Kimi ağa, kimi nökər,
Nökər olan cəfa çəkər.
Bülbül ağlar, qan-yaş tökər,
Bağı dolana-dolana.

Qurbani muraza yetdi,
Canan gəldi, burdan ötdü.
Nobat gəldi bizə yetdi,
Saqi dolana-dolana.

EYLƏMƏK OLMAZ

Fənd eyləmə, felli dərviş,
Belə kar eyləmək olmaz.
Pünhan sözü el içində,
Aşikar eyləmək olmaz.

Dərdin söylə bilənlərə,
Dərd başına gələnlərə,
Hər üzünə gülənlərə,
Etibar eyləmək olmaz.

Dərviş ol dərvişlər ilə,
Haqqa layiq işlər ilə,
Heç sınanmamışlar ilə,
Düz rəftar eyləmək olmaz.

Qurbani der: Gətir məzə,
Köhnə dərdim oldu təzə,
Dərd biləni dərd bilməzə
Giriftar eyləmək olmaz.

DAR OLMAZ

Qəm yemə, qəm yemə, divanə könlüm,
Həmişə ruzigar belə dar olmaz!
On bir il çəkmişəm zimistan qəhrin,
O nə güldü, dövrəsində xar olmaz?!

Siyah zülfü daraq ilə dara gör!
Öz könlünü öz dərdinə dara gör!
Gözəllərin neçəsini dara gör!
Özgə bağda belə heyva, nar olmaz!

Əgər şahdan bizə qəzəb olmasa,
Qəzəb atəşindən əzab olmasa,

Ortalıqda çuğul, kəzzab olmasa,
Dünya bahar olar, boran, qar olmaz!

Hər bir adam öz yerində oturmaz,
Əqlin zayə verməz, fəhmin itirməz.
İgidlər könlünə şikvə gətirməz,
Necə dağdı quzeyində qar olmaz?!

Sənsən Qurbaninin gül üzlü yarı,
Qalsa qürbət eldə artar azarı.
Sağ olsun dünyada vəfalı yarı,
Bir mən ölməginən dünya tar olmaz.

YETİNCƏ

İstəyirsən gəlib mənə yetəsən,
Ayaq götür, ta ki, yara yetincə.
Ömrüm bağçasının gülün dərərlər,
Dost bağından az kənara yetincə.

Hər igidin sığındığı başına,
Əl aparmaq olmaz Haqqın işinə.
Suyu gəlib çatıb novun başına,
Həsrət çəkir ta ki, pərə yetincə.

Qurbani, sözün yara asta söylə!
Sızıldaşır yaram, yar, asta söylə!
Bir ac qarın doydur, yar, az tasa eylə!
Nagah-nagah könüllərə yetincə.

BİR DƏ YAZ

Gecə-gündüz bulud keçər havalar,
Belə getməz, əlbət gəli bir də yaz...
Oxuyar bülbüllər gözəl havalar,
Sızıldaşır yaram, aman bir də yaz!

Bulud olan qalxar havada gəzər,
Aşiq olan yarçün bağrını əzər.
Qəvvas olan girər dərində gəzər,
Bir dərin var, bir dərgə var, bir dayaz!

Qurbani güldəstə bağlar oxuna,
Sinəm buta, yarın müjgan oxuna.
Bir namə yaz hər divanda oxuna,
Görən deyə, var əllərin, bir də yaz!

OLUR

Dedim: könül, sevmə xublar xubunu,
Onun hər muyunda yüz min qal olur.
Nagah səni dərdə giriftar eylər,
Qaşı fıtnə, qəmzəsində al olur.

Ulu divanlarda çəkilir adım,
Ərşə bülənd oldu dadü-fəryadım,
Başım üstə qanım içən cəlladım,
Sağ əlində əlif qəddim dal olur.

Camalı Yusifin-İbn Yaqubun,
Aləmə şəms olan hüsnü həbibin,
Ala gözlü, şirin sözlü məhbubun,
Zənəxdanı dürr şələli xal olur.

Qəmər nə yandırıb, günəş nə yaxar,
Könlüm nə titrəşib ümmana axar,
Qurbani der: hər kim şaha kəc baxar,
Onun kəmalında tez zaval olur.

PİR SULTAN ABDAL

Anadolu və Azərbaycanda böyük şöhrət qazanmış XVI əsr sufi şeyxi və saz şairidir. Əsl adı Heydərdir, qaynaqlarda Pir Sultan Abdal kimi tanınmışdır. Xalq arasında onunla bağlı çoxlu rəvayətlər, əhvalatlar, hekayətlər danışılır. Səfəvilər hakimiyyətinə böyük rəğbət bəsləmiş, Şah İsmayıl Xətayi və onun oğlu Təhmasibin yaxın adamları ilə möhkəm bağlantılarının olduğu da mənbələrdə göstərilmişdir. Bu səbəbdən də Osmanlı xanədanı tərəfdarları onun qətlinə fərman vermiş və edam olunmuşdur. Ələvi-bəktaşi ocağına mənsub aşıqların repertuarında onun şeirləri mühüm yer tutur.

DEMƏDİMMİ

Gözəl aşıq, cövrümüzü,
Çəkəmməzsən, demədimmi?
Bu bir riza loxmasıdır,
Yeyəmməzsən, demədimmi?

Yeməyənlər qalır naçar,
Gözlərindən qanlar saçar,
Bu bir dəmdir, gəlib keçər,
Duyammazsan, demədimmi?

Bu dərvişlik bir diləkdir,
Bilənə böyük örnəkdir,
Qolsuz, yaxasız köynəkdir,
Geyəmməzsən, demədimmi?

Aşıqlar xarabat olur,
Haqq yanında qiymət olur,
Sevgi canda nemət olur,
Duyammazsan, demədimmi?
Pir Sultan Abdal şahımız,

Haqqa uzanır rahımız,
On iki imam qatarımız,
Uyammazsan, deməmdimmi?

GƏL

Qəm əlindən, mənim zülfü siyahım,
Bir ox dəydi sinəm yaralandı, gəl.
Sona başın üçün ağlatma bizi,
Bu gün sevda candan aralandı, gəl.

Qəmlə hasarlandı, məkanım, yurdum,
Eşitməz avazım, dinləməz virdim.
Bir deyil, beş deyil, on deyil dərdim,
Düyümlər baş verdi, sıralandı, gəl.

Həsrətinə vasil olummu böylə,
Məcnuna da daim qalırmı Leyla?
Ölümlü dünyadı, gəl halal eylə,
Yükləndi barxanam, girələndi, gəl.

Nə çəkərsə, dərdli sinəm dağ olmaz,
Günlər gələr, keçər, ömür çoxalmaz,
Neştəridir, yaralarım sağalmaz,
Göyərdi çevrəsi, qaralandı, gəl.

Pir Sultan Abdalam, həftədə, ayda,
Günlər gələr, keçər, bulunmaz fayda,
Könül Haqq arzular, canım hay-hayda,
Torpağım üstümdə kürələndi, gəl.

MİSKİN ABDAL

Göyçə mahalındakı məşhur Sarıyaqub sufi-dərviş ocağının qurucusu sayılır. Gerçək adının Hüseyn olduğu söylənilir. XVI əsrdə Ərdəbildən Qafqaza gələn missioner-dərvişlərdən biridir. Kəramət sahibi kimi tanınmış, aşıq tərzində şeirlər də düzüb qoşmuşdur. Onun kəramət sahibi olması Şah İsmayıl Xətayinin imzası və möhürü ilə 1515-ci ildə təsdiq olunmuşdur. Bu sənəd Miskin Abdal şəcərəsinə mənsub olan nəslin indiki nümayəndələri tərəfindən hələ də qorunmaqdadır.

«Miskin Abdal» rəmzi-məcazi ad-titulu ilə Səfəvi-qızılbaş dünyagörüşünü çeşidli areallarda təbliğ edən sufi şeyxi Göyçə-Gədəbəydən sonra Qazax-Şəmsəddin mahalında, daha sonra Dağıstanda missioner fəaliyyətlə məşğul olmuşdur. Onun Dağıstandan sonra Anadoluya getdiyi də rəvayət olunur.

BAŞIN

Namərd ilə yoldaş olma,
Uzun ağrı çəkər başın.
Halal ilə ərsəyə çat,
Daş qalalar sökər başın.

Xain baxma yaradana,
Qibləgahdı ata-ana.
Arxalanma bəyə, xana,
Qoy sağ olsun nökər başın.

Haqdan istə bəxti-iqbal,
Yaradanı yadına sal,
Söz gövhərdi, Miskin Abdal,
Saxla dürdü, tökər başın.

VERMƏDİM

Xoş bəyanlıq virdim oldu, böhtana yol vermədim,
Şirinsüxən əndəlibəm, hədyana yol vermədim,
Nifrin edib, lənət dedim xainə, iblislərə,
Qəlbimi ayna saxladım, şeytana yol vermədim.

Bir bəşəri incitmədim, kəndimi şah saymadım,
Dost sirrini söyləyib, dildən-dilə yaymadım,
Ömür qısa, dünya əzəl, az yaşadım, doymadım,
Dür mətaha meydan açdım, tək cana yol vermədim.

Aşiq olub dərs alanlar, söz desin sözüm kimi,
Miskin Abdal, məğrur istə hamını özün kimi,
Arifi, mətləb qananı bilirəm gözüm kimi,
Sinəm üstdən mərd yeridi, nadana yol vermədim.

BAYAT ABBAS

Ustad aşıq kimi XVI əsrdə Dərbənd və ətraf əyalətlərdə məşhur olmuş, güclü yaradıcı təbi ilə həmişə maraq doğurmuşdur. Haqqında danışılan rəvayətlər, hekayətlər də bunu göstərir. Cünglərdə (1572) bayatı, qoşma, gəraylı və təcnisləri vardır. Şeirlərinin dil xüsusiyyətlərindən də onun Dərbəndlə bağlılığı görünür. Müxtəlif mövzularda (məhəbbət, təbiət, ictimai-siyasi) yazdığı şeirlər sonrakı dövr aşıq yaradıcılığına güclü təsir etmiş, bir çox ustadlar ona nəzirələr qoşmuşlar. Varxiyanlı Məhəmməd, Ehraqlı Rəcəb, Vəlikəndli Fətəli və başqaları buna nümunədir.

GƏLİR

Hüsnün tək acılmaz çəməndə hər gül,
Necə can vermədi vəslinə bülbül,
Camalın şəminə yandı mürği-dil,
Necə kim şöləyə pərvanə gəlir.

Badi-səba müjdə vermiş güllərə,
Bağça barın tökmüş sağa-sollara,
Nərgiz gözətçi durmuş baxar yollara,
Eşitmiş ki, canan seyrana gəlir.

Kimin vardır sən tək gülüzlü yarı
Mən tək şikəstədir aşiqi-zarı,
Sən İsmayıl guyunun mina bazarı
Bayat Abbas ona qurbana gəlir.

ABBAS TUFARQANLI

XVII yüzillikdə yaşayıb yaratmış Təbriz-Qaradağ aşığıdır. Təbriz yaxınlığındakı Tufarqan elindən olduğu üçün «Tufarqan Abbas» və ya «Abbas Tufarqanlı» adı ilə tanınmışdır. Aşıq şeiri şəkillərindən böyük məharətlə istifadə edərək təkrarsız poetik örnəklər yaratdığına və ən mükəmməl aşıq dastanının («Abbas və Gülgəz») müəllifi olduğuna görə əsrlərdir, aşıqlar arasında "Aşıqlığın padşahı Abbas, vəziri Qurbani, vəkili Valehdir» - qənaəti hakimdir. Dörd yüzdən çox aşıq şeirinin cəmləşdiyi «Abbas və Gülgəz» dastanı poetik mətn çeşidlərinin zənginliyinə görə saz havalarının əksəriyyətini çevrələmək imkanında olduğu üçün ustad aşıqlar, adətən, öz şagirdlərinə məhz bu möhtəşəm dastanı bütöv şəkildə ifa etmək məharəti nümayiş etdirdikdən sonra sərbəst aşıqlıq eləmək xeyir-duası verirlər.

Abbas Tufarqanlının şeirləri lirik-romantik ovqatı, yüksək obrazlılığı, zəngin dil gözəllikləri, dərin ustad öyüdləri və mükəmməl fəlsəfi-ürfani ümumiləşdirmələri ilə özünəməxsus sənət ucalığında durur.

Ustadnamələri dərin müdrikliyi ilə seçilir.

ƏYLƏNMƏZ

Duman, gəl get bu dağlardan,
Bahar gəldi, qar əylənməz.
Bu dünya bir biməfadı,
Gözəldə ilqar əylənməz.

Gözəlin qaşı qaradı,
Bayqunun meyli haradı?
Bu dünya karvansaradı:
Hər gələn qonar, əylənməz.

Abbas deyər hac olanda,
Kəbəyə merac olanda.
Doğru yoldan gəc olanda,
Namus gedər, ar əylənməz.

EYLƏSİN

Duman, gəl get bu dağlardan,
Dağlar yenə bar eyləsin.
Nə gözlərim səni görsün,
Nə könlüm qubar eyləsin.

Haşa, sevdiciyim haşa,
Deyilənlər gəldi başa,
Bir yandan özün tut daşa,
Bir yandan el car eyləsin.

Abbas ağlar zarı-zarı,
Getməz könlümün qubarı,
İlqarından dönən yarı
Tanrı tezbazar eyləsin.

GƏLİ

Payız olcaq bağlar tökər xəzəli,
Bahar olcaq bağçalara bar gəli.
Bir igidin olsa baxtı, iqbalı,
Cənnət bağçasından ona nar gəli.

Ölkənizdə nə aşnayam, nə yadam,
Dost yanında nə qəmginəm, nə şadam,
Ay camaat, nə bəlalı səyyadam,
Tor qururam tərlan üçün, sar gəli.

Abbas deyər: gəncin üstü bədəndi,
Qara bağrım dəlik, zədən-zədəndi,
Ay həzarat, heç bilmirəm nədəndi,
Aləmə gen dünya, mənə dar gəli.

OLMAZ

Özündən kiçiyi işə buyurma,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə ki kar görsən öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz.

Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını,
Amanat-amanat qonşu malını,
Qonşu yox istəyən özü var olmaz.

Soruşun, qul Abbas, halın necədir?
Gündüzlərim ay qaranlıq gecədir,
Sərv ağacı hər ağacdan ucadır,
Əsli qıtdı, budağında bar olmaz.

YANDIRAR

Bəd övladı əzəl başdan tanıram,
Çör-çöp yığar, yad ocağın yandırar.
Səhər durar ar-namusu gözləməz,
Suyu tökər öz ocağın söndürər.

Ulğun cuşa gəlməz, köpük yağ olmaz,
Söyüd bar gətirməz, bağça, bağ olmaz,
Tozluq təpə olmaz, küllük dağ olmaz,
Yel əsəndə alçaqlara endirər.

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun, suyu gəlsin dərindən,
Söz bir olsa dağ oynadar yerindən,
El bir olsa zərbi kərən sındırar.

YÜZ İLƏ

Qadir mövlam, budur səndən diləyim,
Görüm yarın ömrü yetsin yüz ilə.
Artıq ola malı, mülkü, dövləti,
Altmış nəri bir qatara düzülə.

Sədəf incə, dodaq incə, dil incə,
Canım çıxdı yar könlünü alınca.
Ölüm yeydi bu dünyada qalınca,
Bir igid ki, qatarından üzülə.

Qaşlarına çəkilibdi bil, qələm,
Ağız davat, göz mürəkkəb, dil qələm,
Yalan desəm çək gözümə mil, qələm,
Sənəd verrəm, qulun ollam yüz ilə.

Abbas deyər: Dildəki hərf neçədir?
Neçə gövhər, neçə ləl, neçə dürr?
Sanamadım zülfün muyu neçədir,
Qorxuram ki, şanə dəyə, üzülə.

BƏYƏNMƏZ

Ay həzarat, bir zamana gəlibdi,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz.

Adam var ki, getməyəsən işinə,
Adam var, öyünər, döyər döşünə.
Adam var ki, ayran tapmaz aşına,
Dindirərsən, yağlı nanı bəyənməz.

Adam var, dağları gəzir sərsəri,
Adam var, geyinər pustinən dəri,
Adam var, mərfətdən yoxdu xəbəri,
Adam var, soltanı, xanı bəyənməz.

Adam var, dolanar səhranı, düzü,
Adam var, döşürər gülü, nərgizi,
Adam var, geyməyə tapammaz bezi,
Adam var, al geyər, şalı bəyənməz.

Adam var, çox işlər eylər irada,
Adam var ki, yetə bilməz murada.
Adam var ki, çörək tapmaz dünyada,
Adam var, yağ yeyər, balı bəyənməz.

Adam var ki, adamların naxşıdı,
Adam var ki, anlamazdı, naşıdı.
Adam var ki, heyvan ondan yaxşıdı,
Dindirərsən heç insanı bəyənməz.

Adam var, dəstinə verəsən güllər,
Adam var, gözünə çəkəsən millər,
Tufarqanlı Abbas, başına küllər,
Nə günə qalmısan, qarı bəyənməz.

SARI AŞIQ

Sarı Aşıq XVII yüzilliyə aid saz-söz sənətkarıdır. El arasında yayılmış rəvayətlər onun əsl adını müxtəlif şəkillərdə təqdim edir: Abdulla, Abduləli, Sarıca Nəbi, Qərib və s. Əslən Anadolunun Qaraman elindən olub, sonradan Qaradağ mahalına, oradan isə Zəngəzura köçmüş, Güləbirt adlı yerdə yaşamışdır. Peşəkar aşıqlıq fəaliyyəti ilə məşğul olması barədə konkret məlumat yoxdur. Sarı Aşıq bayatı ustadı kimi məşhurlaşmış, bununla belə bir sıra qoşma və gəraylıları da olmuşdur. Yaxşı adlı bir qızı sevmiş, onların uğursuz sevgi hekayəti «Aşıq və Yaxşı» dastanına çevrilmişdir.

Sarı Aşığın bayatıları böyük əksəriyyətlə cinaslı və müəyyən rəvayətə bağlı olan poetik örnəklərdir. Şeirlərindəki bilgilərdən səksən ilə yaxın omür sürdüyü təxmin edilir.

Sarı Aşığın ustadnamə səciyyəli bayatıları da diqqətçəkicidir.

BAYATILAR

Aşıq yamanı görüm,
Ölsün yamanı görüm.
Nə yaman məni görsün,
Nə mən yamanı görüm.

Gözəllik soy iləndir,
Şahmar da so iləndir.
Nəsimi tək bu Aşıq
Yolunda soyulandır.

Aşıq yarıdan keçər,
Gecə yarıdan keçər.
Namərdə dost olanın,
Ömrü yarıdan keçər.

Mən Aşığam yüz qandı,
Əlli qandı, yüz qandı.
Kəbə yıxmaq bir evdi,
Könül yıxmaq yüz qandı.

Aşığam Yaxşı qala,
Ocağı yaxşı qala.
İstərəm bu dünyada,
Pis ölə, yaxşı qala.

Mən Aşıq səksən ayat,
Oxuram səksən ayat.
Əzrayıl qonaqlı canım,
Səksənə-səksənə yat.

Aşıq yamana gələ,
Dərdin yamana gələ.
Yaxşı yaxşıya gedə,
Yaman yamana gələ.

QARACAOĞLAN

XVII əsrdə yaşamış məşhur Anadolu aşığıdır. Heca vəznində qoşduğu qoşma və gəraylılar bu gün də ustad aşıqların dilində, yaddaşında yaşamaqdadır. Haqqında çoxlu rəvayətlər, əhvalatlar, hekayətlər gəzib dolaşmaqdadır. Qaracaoğlanın tərcümeyi-halı rəvayətlər dumanına büründüyündən onun tarixi kimliyini dəqiq söyləmək olmur. Öyüd-ərnək dolu şeirləri poetik mükəmməlliyi və dərin fəlsəfi ümumiləşdirmə gücü ilə diqqəti çəkir.

YA GƏLİNƏR, YA GƏLİNMƏZ

Gəl könül, qürbətə getmə,
Ya gəlinər, ya gəlinməz.
Hər gözələ meyil etmə,
Ya sevilər, ya sevilməz.

Ərənlərdir bil, zatımız,
Yüyrəkdir bizim atımız.
Qürbət eldə qiymətimiz,
Ya bilinər, ya bilinməz.

Qaracaoğlan düşsə yola,
Xızır yardım etsin belə.
Yar dediyin dəmir qala,
Ya alınar, ya alınmaz.

QƏMLƏNMƏ

Qoyun mələr, quzu mələr,
Sular xəndəyinə gələr,
Ağlayanlar bir gün gülər,
Qəmlənmə, könül, qəmlənmə.

İgid igidə yad olmaz,
Yaxşılarda xam süd olmaz,
Min qayğı bir borc ödəməz,
Qəmlənmə, könül, qəmlənmə.

İgid igidin yoldaşı,
At igidin öz qardaşı,
Sağlıqdır hər işin başı,
Qəmlənmə, könül, qəmlənmə.

İgid igidə taraz olur,
Köntöylər yaramaz olur,
Pis günün ömrü az olur,
Qəmlənmə, könül, qəmlənmə.

Naçar, Qaracaoğlan, naçar,
Pəncə vurub köksün açar.
Qara günlər gəlib keçər,
Qəmlənmə, könül, qəmlənmə.

DEMƏDİMMİ

Ala gözlü nazlı dilbər,
Vaxtın keçər demədimmi?
Gözlərin cəllad yağıdır,
Qanım içər demədimmi?

Bax bu qaşa, bax bu gözə,
Canım qurban olsun sizə.
Yaxasız köynəklər bizə,
Fələk biçər demədimmi?

Qaracaoğlan mərdilən,
İşim yoxdu namərdilən,
Fələk məni bu dərdilən,
Salıb keçər demədimmi?

BİR AYRILIQ, BİR YOXSULLUQ, BİR ÖLÜM

Vara-vara vardım o qara daşa,
Həsrət qoydun məni qohum-qardaşa.
Səbəb nə tökülən bu qanlı yaşa? –
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm.

Neçə sultanları taxtdan endirdi,
Neçəsinin gül bənizin döndərdi,
Neçəsini gəlməz yola göndərdi,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm.

Qaracaoğlan der: Qondum, köçülməz,
Əcəlin şərbəti – acı içilməz.
Üç dərdim var bir-birindən seçilməz,
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm.

BULAMMADIM

Arayıb-axtardım qürbət elləri,
Dünyadan çıxmağa yol bulammadım.
Bağçalarda gördüm əlvan gülləri,
Sevdiyimə bənzər gül bulammadım.

Bezdim, usandım da acı dillərdən,
Keçdim boranlardan, ötdüm yollardan.
İmdad uma-uma axan sellərdən,
Özüm tək çağlayan sel bulammadım.

Yandım-yaxıldım da bu atəşlərə,
Kabab tək çəkdilər məni neştərə,
Dəlindi ciyərim, sərildi yerə,
Məni qaldıracaq əl bulammadım.

Mənim bu dünyaya keçməyir nazım,
Fələkdən qalmadı qeyri niyazım.
Halımı sən anla, ey iki gözüm,
Dərdimi deməyə dil bulammadım.

Sızlayan, inləyən aciz bülbüləm,
Nə qədər sızlasam eşitməz gülüm,
Qaracaoğlan der: Tək imdadım ölüm,
Məzardan qeyri bir yol bulammadım.

NƏ BİLİR

Nuhun gəmisinə böhtan edərlər
Yelkən açıb yel qədrini nə bilir?
O Süleyman quş dilini bilirdi,
Hər Süleyman dil qədrini nə bilir?

Paşa atlananda olur fırqalar,
Kimi sərxoş yürür, kimi yırğalar,
Kübrəliyə enib qonan qarğalar
Xas baxçada gül qədrini nə bilir?

Dünya mənim deyə zənginlik satan,
Halal əkməyinə haramlar qatan,
Sonradan sonraya bəyliyə yetən,
Zalım olar, el qədrini nə bilir?

OLMAYINCA

Bir adam bir eli dolandırammaz,
Əldə yaxşı dövlət, var olmayınca.
Pərvanə şamının oduna yanmaz,
Başda sevda, qəlbdə nar olmayınca.

Mərdlər ömür sürər mərd ölkəsində,
Fərəhli nə var ki, bayquş səsində.
Qürbət diyarının hər guşəsində,
Əyləşilməz, kəsbi-kar olmayınca.

Qaracaoğlan der ki, sözün bilmişi,
Tədbirlə görülər dünyanın işi,
Nə yapar, neyləyər aləmdə kişi,
Fələk Mustafaya yar olmayınca.

QUL ALLAHQULU

XVII-XVIII əsrlərdə yaşamış Təbriz-Qaradağ el sənətkarıdır. Həyatı haqqında dəqiq məlumatlar yoxdur. 1926-cı ildə "Dan ulduzu" jurnalında onun "Qaldı" rədifli ustadnaməsi nəşr olunmuşdur. Aşıqlar bu şeiri dastan söyləyərkən ustadnamə yerində tez-tez istifadə edirlər.

Cahannamə səciyyəli bu şeir aşıq ədəbiyyatında şah ustadnamə yerində duran nadir örnəklərdən biri sayılır.

QALDI

Könül, qulluq eylə kamil ustada,
Ustad görməyənin işi xam qaldı.
Neçə danəndələr getdi dünyadan,
Yerində bir neçə ağlıkəm qaldı.

Nanəcib heç kimə ənam eyləməz,
Təkəbbür kimsəyə salam eyləməz,
İnsan bu dünyanı tamam eyləməz,
Çoxları cəhd etdi, natamam qaldı.

Köhlən at üstündə durdum deyənlər,
Asdım, kəsdim, yıxdım, vurdum deyənlər,
Dünyaya əmlakım, yurdum deyənlər,
Onlar da köçdülər, quru dam qaldı.

Bivəfaya dedim, dur məndən üzül,
Müxənnətə baxma, gözlərim, süzül,
Nuh da ömr eylədi min doqquz yüz il,
Elə bil, bir gündüz, bir axşam qaldı.

Qul Allahquluyam, ay nəsib eylə,
Şəcərdən bac verib, ay nəsib eylə,
İsgəndər mülküdür, aynası belə,
Nə Cəmşid padişah, nə də Cam qaldı.

XƏSTƏ QASIM

Təbriz yaxınlığındakı Tikmədaş qəsəbəsində yaşamışdır. Tikmədaş qəbiristanlığında məzarının üstündəki qəbir daşından onun 1702-ci ildə doğulub 1778-ci ildə vəfat etdiyi məlum olur. Haqq aşığı statusuna malik olan saz-söz sənətkarıdır. Şirvan, Dağıstan, Ərdəbil və Urmiyaya səfərləri barədə bilgilər şeirlərində və haqqında yaradılmış dastan-rəvayətlərdə öz əksini tapmışdır. Onun şöhrəti Nadir şah Əfşarın Dağıstana yürüşü zamanı (1743-cü il) məşhur söz ustadı Ləzgi Əhmədlə üç günlük deyişməsindən sonra daha da artmışdır.

Xəstə Qasım savadlı olduğu üçün el arasında «Molla Qasım» adı ilə də tanınmışdır. Ərəb və fars dillərini bilmiş, Quranın ən mötəbər hafizlərindən sayılmışdır. O özünün yazı ləvazimatları və şeir dəftərinin olması barədə də qoşmalarında müəyyən bilgilər vermişdir.

Aşıq şeiri şəkillərinin yeni və mürəkkəb çalarlar qazanmasında bu böyük sənətkarın müstəsna rolu olmuşdur. Təcnis çeşidlərinin bir çox yeni örnəkləri məhz Xəstə Qasımın adı ilə bağlıdır. Əzəmətli söz sərrafının yaratmış olduğu bir çox müəmma və qıfılbəndlər indinin özündə də açılmamış qalır. Ustadnamələri də dillər əzbəridir.

EYLƏR-EYLƏR

Bir elə kişinin tut ətəyindən,
Aləmə imdadı ol eylər-eylər.
Zərrəcə üstündə olsa nəzəri,
Yerdən daş götürsən, ləl eylər-eylər.

Böhtan demə, böhtan tutar adamı,
Qul eylər, bazarda satar adamı.
Cəhənnəm odundan betər adamı
Axırda yandırıb kül eylər-eylər.

Aqil insan deməz hər gördüyünü,
Daldalar düşməndən vay dərdiyini,
Görməzsən namərdin pay verdiyini,
Versə də minnətin bol eylər-eylər.

Xəstə Qasım deyər sözün bu başdan,
Pay umma qohumdan, yaddan, qardaşdan.
Özün zəhmət çəksən su çıxar daşdan,
Əridib dağları yol eylər-eylər.

OLMAZ

Dəli könlüm, nə divanə gəzirsən,
Bivəfa dilbərdən sənə yar olmaz.
Düz çıxmaz ilqarı, əhdi-peymanı,
Hərcayidə namus, qeyrət, ar olmaz.

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə.
Ot bitər kök üstə əsli nə isə
Yovşan bəsləməklə çəmənzar olmaz.

Vəfalıya əmək çəksən itirməz,
Bədəsil nəsihət, öyüd götürməz.
Qabaq tağı tər şamama bitirməz,
Göy söyüddə heyva olmaz, nar olmaz.

Təklif olunmamış bir yerə varma,
Nər olmaz meydanda hər bığıburma.
Seyrəqib adama heç yaxın durma,
Xain çıxar, onda düz ilqar olmaz.

Xəstə Qasım günü keçmiş qocadı,
Gələn bəzirgandı, gedən xocadı.
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

DÜNYA

Gəl, gəl səndən xəbər alım,
Süleymandan qalan dünya!
Əzəlin gəl-gəl eyləyib,
Axrın oldu yalan, dünya.

De görüm kimə talıbsan,
Dərsini kimdən alıbsan,
Səksən yolla boşalıbsan,
Doxsan yolla dolan dünya.

Xəstə Qasım qalıb naçar,
Sirr sözünü kimə açar?
Gələn qonar, qonan köçər,
Kimdi səndə qalan, dünya?

ƏLİNDƏDİ

Bu gün bir molla görmüşəm,
Kəlam ullah əlindədi.
Oxur əzbərdən Quranı,
Kəlmeyi - yusəbbeh dilindədi.

Bilirəm vacib sünkəti,
Heç kimə qılmam minnəti.
Səkkiz rizvan cənnəti,
Şahlar şahının əlindədi.

Bir xudanın zikrin eylə,
Bir Allahın şükrün eylə.
Qasım getmək fikrin eylə,
Gəlmək Allah əlindədi.

YAXŞIDIR

Dəli könül, məndən sənə əmanət,
Demə bu dünyada qalım yaxşıdır.
Bir gün olar qohum-qardaş yad olar,
Demə ulusum var, elim yaxşıdır.

Bir məclisə varsan, özünü öymə,
Şeytana bac verib kimsəyə söymə,
Qüvvətli olsan da yoxsulu döymə,
Demə ki zorluyam, qolum yaxşıdır.

Qoçaqdan olubsan qoçaq olgunan,
Qadadan, baladan qaçaq olgunan,
Aşıq ol, comərd ol, alçaq* olgunan,
Demə varım çoxdur, pulum yaxşıdır.

Xəstə Qasım kimə qılsın dadını,
Canı çıxsın özü çəksin odunu.
Yaxşı igid yaman etməz adını,
Çünki yaman addan ölüm yaxşıdır.

YAXŞIDIR

Mürvətən sən bir məclisə varanda,
Yaxşı əyləş, yaxşı otur, yaxşı dur.
Dindirəndə mərifətdən ver xəbər,
Görən desin, bərəkallah, yaxşıdır.

İgidin mərfəti gərək dilində,
Qocanın əsası gərək əlində.
Biqeyrət oğulun ata yerində,
Qalmasından qalmaması yaxşıdır.

**** Alçaq – təvazökar***

Adam var ki, özgə bir işi bilməz,
Qocalar da var ki, heç namaz qılmaz.
Elə qohum var bir məsrəfə gəlməz,
Qeyri yadlar o qohumdan yaxşıdır.

Xəstə Qasım bir vaxt gələr qonağın,
Ona məsrəf olar dügilə yağın.
O çox gülən, üzdən açıq qabağın,
Bir şirin dil hamısından yaxşıdır.

ALINCA

Ay ariflər, bir tərlanım uçubdu,
Sağ əlimdən sol əlimə alınca.
Onu tutan xeyrin, bəhrin görməsin,
Mən yazığın naləsi var dalınca.

Gümüş kəmər bağlayıbdı belinə,
Danışdıqca mail oldum dilinə,
Gül uzatdım nazlı yarın əlinə,
Canım aldı gülü məndən alınca.

Alimdən dərs aldım əlif, bey üçün,
Sürahilər düzülübdü mey üçün.
Dəli könül, qəm çəkirsən nə üçün?
Qəmli günün şad günü var yanınca.

Xəstə Qasım vədə verdi yüz ilə,
Yaşılbaşlar göldən-gölə düzülə.
Bir igid ki, qatarından üzülə,
Ölüm yeydi bu dünyada qalınca.

DEYƏRLƏR

Ay ağalar, gəlin sizə söyləyim,
Yalqız daşdan olmaz, divar deyərlər.
Bəzirgansan, aç mətahın, xırd eylə,
Ararlar: yükündə nə var? - deyərlər.

Ovçu olan bəslər alıcı quşu,
Sərraflar tanıyar qiymətli daşı,
Bir oğul atadan artırsa işi,
El içində ona tavar deyərlər.

Qızıl gülü dəstə-dəstə dərginən,
Dəribən də yaylıq üstə sərginən.
Hər nə versən öz əlinlə verginən,
Yüz qadanı başdan sovar deyərlər.

Neynirəm bir bağı, barı olmasa,
Alması, heyvası, narı olmasa.
Bir igidin dövlət-varı olmasa,
Yeləksiz ox kimi çovar deyərlər.

İsgəndər atlandı, çıxdı zülmətdən,
Qasım, Xızr içdi abı-həyatdan.
Bəhsə duşsə igiddən, qılıncdan, atdan;
Süfrəni hamsınnan kübar deyərlər.

OLDU GETDİ

Necə qəhrəmanlar gəldi dünyaya,
Köç vaxtı yetişdi, tez oldu getdi.
Rüstəmin zərbindən titrədi dağlar,
Düşdü dastanlara söz oldu getdi.

Hakimlik eylədi çox uzun vaxtı,
Bütün kainata Süleyman baxdı.
Tərsinə döndü şah Cəmşid taxtı,
Firudinin dərdi yüz oldu getdi.

Necoldu Keykavus, hanı Keyqubad,
Hansı bu dünyadan almışdı murad?
Allahlıq eylədi Fironla Şəddad,
Nəmrudun qalası düz oldu, getdi.

İskəndər Daranı taxtından saldı,
Cahana şah gəldi, sonu nə aldı?
Yarı yolda öldü, Misirdə qaldı,
Qasım kimi yandı, köz oldu getdi.

OLA

Mərifət bəhrində, ədəb-ərkanda,
Bir igid istərəm lamu-ləng ola* .
Atı Düldül ola, qılıncı düsər,
Dayanmaz, qabaqda yüz pələng ola.

Sərində görmüşəm cığalı çəngər,
Üzündə duymuşam müşk ilə ənbər.
Kənan şəhrində Yaqub peyğəmbər,
Yusif tək camalı çox qəşəng ola.

Fərhad qaya çapar, sənginə yetməz,
Kimsə ərənlərin dənginə yetməz,
Heç cəng o movlanın cənginə yetməz,
Ya rum, Qeysər, ya Firəng ola.

Xəstə Qasım əl götürməz daməndən,
Sidqini bağlayıb Sahib-Zamandan,
O gün çox qorxuram Şahi-Mərdandan,
Çəkə Zülfüqarın xulqu təng ola.

**** Lam-ləng ola – Həzrət Əliyə işarədir.***

SAZ OLA

Usta, məni gözlərinə fəda qıl,
Səndən saz istərəm, amma saz ola!
Dindirəndə imran dillə danışa,
Şeyda bülbüllər tək xoşavaz ola!

Yamanı yamana, yaxşını mərdə,
Tərifini edim hər düşən yerdə,
Dolaşmaya simlər, vurmaya pərdə,
Gözəllər tək onda işvə, naz ola.

Xəstə Qasım sözüm söylərəm əyan,
Elə car eylərəm bəyanbəbəyan.
Qiymətin soruşsan, tamam min tümən,
Nə ondan çox ola, nə də az ola!

AŞNALIĞI

Ay ağalar, gəlin sizə söyləyim,
Əzəl yaxşı olur, yar aşnalığı.
Sən sevəsən, yarın səni sevməyə,
Olar bülbül ilə xar aşnalığı.

Bağban odur zəhmət çəkə, əlləşə,
Saldığı bağ çiçəkləşə, gülləşə.
Əgər gücsüz güclü ilə güləşə,
Olar tərlan ilə sar aşnalığı.

Xəstə Qasım qəm əlindən məst ola,
Əhli-dərviş xırxasında pust ola,
Bir adam ki, loxma ilə dost ola,
Olar yağış ilə qar aşnalığı.

İNSAN

Yaxşı fikir elə, qafil dolanma,
Qəlbini şeytandan yad elə, insan!
Halal yaşa, bir kimsədən utanma,
Yıxma könülləri, şad elə, insan!

Bu dünya dediyin fanidir, fani,
Əzəl Nuh gəlmişdi, görünmür, hanı?
Yola saldın İsgəndər tək xaqanı,
Bizə də əsəcək bad elə, insan!

Xəstə Qasım düşünməyin bihuşdu,
Bənadam dediyin vətənsiz quşdu.
Səxasız dövlətin axırı puçdu,
Ye malın, dəhanda dad elə, insan!

AY HAYIF-HAYIF
(cığalı təcnis)

Səhər tezdən əzmi gülşən elədim,
Qəm məni çulğadı, ay hayıf-hayıf!
Aşıq deyər: Ay hayıf,
Kimlər oldu ay hayıf.
Sən ilə mən sevişdim,
Ayrı düşdüm, ay hayıf!
Bağban oldum, bağ bəslədim nə fayda,
Dərmədim güllərin ay hayıf-hayıf!

Sərrafın dəstində nə danə gördüm,
Mürğü dəhanında nə danə gördüm.
Aşıq, nə danə gördüm,
Xalın nə danə gördüm.
Tülək tərlan tuş oldu
Axır nadana gördüm.

Gövhəri verdilər nadana gördüm,
Bilmədi qiymətin, ay hayıf-hayıf!

Oxudum dərsimi çıxdım yasinə,
İgid olan ixlas bağlar yasına.
Aşıq deyər: Yasına,
Namərd boynun ya sına.
Nanəcibə sirr vermə,
Ya inciyə, ya sına.
Qasım ölər, dostlar gələr yasına,
Eşidənlər deyər: Ay hayıf-hayıf.

ÜZHAÜZ
(cığalı təcnis)

Həqiqət bəhrinə qəvvasam deyən,
Qəvvas isən, gir dəryaya üzhaüz.
Aşıq deyər üzhaüz,
Sonam, göldə üzhaüz.
Namərd gəlib mərd olmaz,
Yalvarasan yüzhayüz.
Bir mərd ilə ilqarını vur başa,
Namərd ilə kəs ülfəti üzhaüz.

Parçalandı gəmim, qaldı dərində,
Mən qərq oldum dayazında, dərində.
Aşıq deyər dərində,
Dayazında, dərində.
Sidqi haqqa düz olan,
Hərgiz qalmaz dərində.
Qismət olsa o mövlanın dərində,
Üz döşəyək, səcdə qılaq üzhaüz.

Xəstə Qasım deyər, canan can deyə,
Can eşidə, can danışa, can deyə.
Aşıq deyər, can deyə,
Vəfalıya can deyə.
Görmədim hərcayılar,
Cananına can deyə.
Yox vəfalım, can qıyana can deyə,
Bivəfadan çək əlini üzhaüz.

BAX
(divani)

İnsan oğlu qafil olma, aç gözün qəbristanə bax!
Üz çevir haqqın yoluna, haqq ilə divanə bax.
Bu dünya dediyin boş müsafirxanədir,
Hər gələn köçər, hər gedən mehmanə bax.

Gözləyin halal-haramı, şeytandan uzaq olaq,
Yandırın xilas fənarın, behiştin bağın bulaq.
Satın bu dünya malını axirətdən mülk alaq,
Süleymana qalmayan dünya qalmaz heç insana, bax.

Göydən bir balıq endi, itirmədi sayını,
Hər gədələr sultan oldu, tapdı öz tayını.
Qarışqalar aslan oldu, sökdü himin layını,
Xəstə Qasım qıl tamaşa, boş qalan meydana bax.

VAR
(divani)

İnsan oğlu yalan demə, yalan da var,
Üzümə aydın görünmə, çiskinli duman da var.
Özünü dərya sayma, eylərəm ada səni,
Dəryaları zəbt eyləyən, dəryayi ümman da var.

Hər kəs mətləb istəsə, mətləb verən müəllimdir,
Oxuyub elmə çatanın, həmişə könlü zəlildir.
Əlinə çərəkə alan, adını qoyur alimdir,
Çərəkə açar olmaz, oxuyub qanan da var.

Kim haça çaldı, dərya neçə bölündü,
Kim süpürgə çəkdi, göyün üzü silindi.
Adəmdən, xatəmə keçən neçə min ildi,
Zülmnən bərbad eyləyib, Xeybəri alan da var.

Xəstə Qasım çağırır, qul eyləyən bərbəri,
Özü bir, adı min bir, lam şəriki qoş şiri.
Yüz uruzbanda, qılınc çaldı, iki böldü Əntəri,
Bu hünərnən, bu qeyrətnən, Qəşəm Şəm ağam da var.

ABDALGÜLABLI VALEH

XVIII əsr aşıq sənətinin ən görkəmli sənətkarlarından biridir. Ağdam rayonunun Gülablı kəndində ömür sürmüşdür (1722-1822). Adı Səfi, təxəllüsü Valehdir. Şeirlərindən də görünür ki, mükəmməl dini təhsilə yiyələnmişdir. Valeh aşıq yaradıcılığına gəlincəyə qədər dini elmləri, klassik ədəbiyyatı dərindən öyrənə bilmişdi. Kərbəla ziyarətinə getmiş, bu səbəbdən də el arasında həm də "Kərbəlayi Səfi" adı ilə tanınmışdır.

Aşıq sənətinə həvəsi onu Abdallıya - Aşıq Səmədin yanına gətirmişdir. Sənətin sirlərinə kifayət qədər yiyələndikdən sonra tezliklə Qarabağda, ondan uzaqlarda məşhurlaşmışdır. M.P.Vaqifə, A.Canızadəyə, Aşıq Qənbərə, Aşıq Feyruza, Aşıq Süleymana və s. müraciətlə yazdığı şeirlər, ona yazılan cavablar da bunu göstərir. Dərbəndli Zərnigar xanımla ailə həyatı qurmuşdur (1747). "Valeh və Zərnigar" dastanında aşığın həyatı, mühiti ilə bağlı bir sıra məsələlər öz əksini tapmışdır. Zərnigar xanımın da qəbri Gülablıdadır. Aşıq Valehin "Vücudnamə"si, "Cahannamə"si, bayatı, gəraylı, qoşma, müxəmməsləri, "Valeh və Zərnigar" dastanı onun bir ustad kimi aşıq yaradıcılığında yerini müəyyənləşdirir.

Aşıq Valeh böyük söz ustadı olmaqla bərabər, həm də saz havalarının istedadlı bəstəçisi olmuşdur. Onun barmaqlarından qopan "Baş Sarıtel", "Orta Sarıtel", "Qarabağ qaytağısı", "Aran gözəlləməsi" havaları indi də aşıqların repertuarında geniş yer tutur.

DÜNYA

Haqdan fərman gəlib qərar tapandan,
Başlamısan cəngə, savaşa, dünya!
Qəsdinə girmisən yaranmışların,
Cümləsin vermisən talaşa, dünya!

Neçə nəbiləri keçirtdin yandan,
Nuh tufanı qopdu, doymadın qandan.

Zal oğlu Rüstəmi eylədin candan,
Bükdün Süleymanı farmaşa, dünya!

Neçələrin saldın çovğun, borana,
Neçələrin etdin dəli-divana,
Neçələri nakam getdi məkana,
Qoymadın onları yanaşa, dünya!

Valeh ağlar görüb belə divanı,
Kimsələrə gəlmir onun gümanı,
Kama çatıb şənlik edən zamanı,
Döndərdin şənliyin qan-yaşa, dünya!

BİR GÜN

Könül, gəl əl götür bu qəm-qüssədən,
Sənin də yurdunda toy olar bir gün!
Vaxt olar ki, dəyişilər bu dövran,
Bahar fəsli gələr, yay olar bir gün!

Düşübdür həyatın çovğun, borana,
Laləzarlı yurdlar qalıb virana.
Fəsil çönər, dağlar dönər arana,
Bu buzlar əriyib çay olar bir gün!

Alıbdır namərdlər vaxtı araya,
Zülmkar şah olub çıxıb saraya,
Haqq-ədalət gəlib çatar haraya,
Zalımlar evində vay olar bir gün!

Unutma, ey Valeh, gələr bir zaman,
Şənliyə bürünər bu çöl, bu orman,
Məzlumlar həyatı olar çıraqban,
Qüdrətdən bəxtinə pay olar bir gün!

DEYİLMİ?

De, necə şad olum bu aləmdə mən,
Dünya fani, insan mehman deyilmi?
On səkkiz min böyük sirli dəryalar,
Başdan-başa dolu al qan deyilmi?

Tarixin cəryanı bizə yan verir,
Zalıma, cəllada qüvvət, qan verir.
Fağır-füqəralar vaxtsız can verir,
Zamana yoxsula düşman deyilmi?

Zalımı şah edir bimürvət fələk,
Zülmünü görəndə deyir mübarək!
Qoymayır aləmdə biz də gün görək,
İnsana zülm edən insan deyilmi?

Valeh necə dözsün belə möhnətə,
Təriq əhli düçar olub möhlətə.
Neçə piranələr gəlib minnətə,
Qamçı altda cismi üryan deyilmi?

HANI

Dəhri-fənada belə insan hanı?
Qılmaya fani onu dövran, hanı?
Ey bivəfa dünya, sən nə zalımsan?!
Bu qayətdə sana gələn can hanı?

Əvvəl sana gəldi Adəmü Həvva,
Beş gün qonaq oldu səndə binəva.
Öldürdün Habili, saldın bir dəva,
Düşdü arasına nahaq qan, hanı?

Neçə padişahlar gəldi sahib-cəng,
Cəmşidi-Cəm, Nuşirəvanü Huşəng,
Daqyanus, Hülaku, Çingiz, Teymurləng,
Onlardan bircəsi bu zaman hanı?

Neçə həkim gəldi təbibi zaman,
Ərəstu, Əflatun, Fərəzdəq, Xaqan.
İstədi dirildə özünü Loğman,
Qaldı kuzəsi də yarımcan, hanı?

Dünya, səndə Aşıq Səməd var idi,
Nəzmü şeri ləlü gövhərbar idi,
Bir gözəl eşqinə giriftar idi,
Onun kimi bəs bəhri-ümman hanı?

Bu dünyada heç də gəzməmişdi kəm,
Aşıq Əli oğlu Aşıq Məhərrəm,
Həsrətin çəkərdi Rum, həm Əcəm,
Əlində tütəyi-balaban hanı?

Tamam yola gedər heyif gözəllər,
Sərdə müşkü ənbər qoxuyan tellər,
Murad üstə neçə xınalı əllər
Torpağa döndülər vay, aman, hanı?

O ala gözlərə, o gül yanağa,
O nazik əndama, o tər buxağa,
Necə qıyıb döndərirsən torpağa?
Nazənin-nazənin incə can hanı?

Hafizü, Nəvai, Füzuli, Cami,
Şeyx Sədi, Hilali, Ürfi, Nizami,
Dünya, səndə gəşt eyləyib tamami,
Firdovsi tək nəzmi dürr-əfşan hanı?

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dür-əfşan.
İndi eyləmisən xakilə yeksan,
Tapmaq olmaz o kamalda can, hanı?

Müşkül işdi bir də dolana dövran,
Növbət mənə yetə, aman, əlaman!..
Bir gün ola, görən, bilən, tanıyan
Deyələr Valehi-natəvan hanı?

DƏLLƏK MURAD

XVIII əsrin söz ustadıdır. Dəllək peşəsi ilə məşğul olduğundan bu adı özünə təxəllüs götürmüşdür. Göyçay rayonunun Ləkçıraq kəndində yaşadığı güman olunur. Ləkçıraq kəndində onun adını daşıyan məhəllə də vardır. Dəllək Murad aşıqlıq etməmişdir. Xalq şeiri üslubunda yüksək sənət nümunələri yaratmışdır. Onun şeirləri daha çox nəsihətamiz səciyyəli olduğu üçün tezliklə ustadnamə kimi yayılmış, aşıq məclislərində geniş yer almışdır.

GEN GƏZ

Könül, sənə bir nəsihət,
Şər iblisdən sən gəl gen gəz.
Bir kəs nəsihət bilməsə,
Çəkil ondan sən gəl, gen gəz.

Dam üstündəki qırçıdan,
Malı çoxlu dəmirçidən,
Rəngi solmuş boyaqçıdan,
Bədnəzərdən sən gəl, gen gəz.

Tamahkarın niyyətindən,
Yay günü keçi ətindən,
Yoldaşın mazaratından,
Dəllək Murad, sən gəl, gen gəz.

OLMAZ

Dərdü qəmin ərbabıyam,
Dərdlər məndən irad olmaz.
Gündə yüz min xəyal eylər,
Mənim könlüm bir şad olmaz.

Göyə çəksə baş tayalar,
Fələk onu tez payalar.
Hər külüng çapmaz qayalar,
Hər iyiddən Fərhad olmaz.

Dərviş olan baxmaz pusta,
Uslu olan olar usta.
Güvənmə bivəfa dosta,
Bivəfadan imdad olmaz.

Səhər bağın əsər badı,
Dostundan istə muradı.
Mövlam yaradıb Muradı,
Hər kəs Dəllək Murad olmaz.

EYLƏMƏ

Qadir Allah, budu səndən diləyim,
Sən mərdi namərdə möhtac eyləmə.
Qeybi xəzinədən yetir ruzisin,
Sən mərdi namərdə möhtac eyləmə.

Ədalət kanısan, kərəmin çoxdu,
Tənəli söz xəncərdi, nizədi, oxdu.
Qardaşın qardaşa vəfası yoxdu,
Qardaşı qardaşa möhtac eyləmə.

Namərd körpüsündən ölsəm keçmənəm,
Karvan olsam mənzilinə köçmənəm,
Əlindən camını alıb içmənəm,
Sağ əli sol ələ möhtac eyləmə.

Şair olan deyər sözün arısın,
Arısı olmasa olsun yarısın,
Qoy lap alsın gözlərimin birisin,
Bu gözü o gözə möhtac eyləmə.

Dəllək Murad deyər sözün zatını,
Əl əldən ötkündü işin çətini.
Qurda, quşa qismət elə ətini,
Atanı oğula möhtac eyləmə.

OLMAZ

Adəm oğlu, yol-ərkanı tanı, bil,
Yol-ərkan bilənin yeri dar olmaz.
Sirrini söyləmə qəmu aləmə,
Bivəfa dilbərdən sənə yar olmaz.

İgid odu tənə oxun atmaya,
Halal mayasına haram qatmaya.
Bir oğul ki, ata sözün tutmaya,
O oğulda qeyrət, namus, ar olmaz.

Öz sürümdən qurban verim deyəsən,
Öz yunundan şal toxuyub geyəsən,
Bəslədiyin bağın barın yeyəsən,
Yad bağından sənə heyva, nar olmaz.

Dəllək Murad, çəkmə bir bunca qəmi,
Burda duran olmaz, gedərlər hamı.
Fələk biçinçidi, bu dünya zəmi,
Biçilən zəmidə mürğüzar olmaz.

NƏDİ

Gəlin sizə mən ərzimi eyləyim,
Aqil olan, bu dünyada var nədi?
Dünya bir bostandı, pozular gedər,
Çiçək nədi, yemiş nədi, bar nədi?

Bu dünyada çox-çox şirin mal olu,
Tamahkarlar halı müşkül hal olu,
Qol burulur, qulaq batır, lal olu,
Qohum nədi, qardaş nədi, yar nədi?

Dəllək Murad, bu yollarda sürünnəm,
İndi gedişimdi, nə vaxt görünnəm.
Altım torpaq, üstüm də daş hörünnəm,
İsti nədi, soyuq nədi, qar nədi?

XƏSTƏ HASAN

Çıldır-Ağbaba aşıq mühitinin yetirdiyi ustad sənətkarlardandır. XVIII əsrin sonu XIX əsrin birinci yarısında yaşamışdır. Xəstə Hasanın yaşadığı dövrdə bölgədə Ürfani, Qul Qarani, Usta Polad, Küfdadi, Molla Xəlis, Aşıq Teyfi, Dəli Tammı və b. aşıqlar olmuşlar. Xəstə Hasan beş aşıqla – Aşıq Polad, Qul Qarani, Öməri, İrfani (Ürfani), Sefili ilə deyişmişdir. Xəstə Hasandan bəhrələnən Aşıq Nuru, Aşıq Şenlik, Aşıq Abbas, Aşıq Summani, Aşıq Mustafa, Aşıq Cebecili, Aşıq Zülalı, Aşıq İzani və b. bölgədə olduqca güclü bir mühit yaratmışdılar.

AĞI GÖZLƏR

Bəyzadələr məclisinə gələndə,
Ağlı kamil olan a yağı gözlər.
Ustadından nəsihət alan kimsələr,
Ağlı kamil olan a yağı gözlər.

Dəli könül, öz yerində paşasan,
Qanlı fələk, kimi qoydun yaşasın?
Ay anlamaz, niyə çıxdın başa sən?
Ağlı kamil olan a yağı gözlər.

Xəstə Hasan dəryalara dalanda,
Şirin canı eşq oduna salanda,
Ömür keçib vədə tamam olanda,
Bu yazıq canım ay ağı gözlər.

OYNAMASIN

Geyinib-kecinib toya gedənlər,
Amanat, amanat qız oynamasın.
Cavandı oynamaq ona xoş gedər,
Yüngüllük eyləyib tez oynamasın.

Yad-yağılar əyri-üyrü baxarlar,
Ağ əllərə əlvan həna yaxarlar,
Töhmət edər, başımıza qaxarlar,
Kəlağay altından göz oynamasın.

Xəstə Hasan deyər: alagöz yarım,
Sənə qurban olsun dövlətim, varım.
Demirəm oynamasın, oynasın yarım,
Ədalı-işvəli naz, oynamasın.

ÜSTÜNDƏDİR
(divani)

Bu dünya belə qurulmuş, dövlət-var üstündədir,
Ərül-qərül mal qazanır, tarımar üstündədir.
Adəm ata, Həvva ana atdılar ol cənnətə,
Qorxuram ki, aldanalar, şeytan şər üstündədir.

Bir anadan törəmişik, başqa-başqa dilimiz,
Yarın haqqın divanında həp bir olur halımız.
Göz görəmməz, ayaq tutmaz, nə çətindi yolumuz.
Üstü körpü, altı qazan, o da nar üstündədir.

Xəstə Hasan, sözlərimi dinləyənə nəsihət,
Yatanda eylə salavat, qalxanda et vəsiyyət.
Göydən yağmadı rəhəmət, yerdən qalxdı bərəkət,
Keçdi günüm, doldu sinnim, ixtiyar üstündədir.

VARXİYANLI MƏHƏMMƏD
(təx. 1770-1860-cı illərin axırı)

Zaqatalanın Varxiyan kəndində (indi Bəymətli adlanır) yaşamışdır. Atası din xadimi olmuşdur. Məhəmməd də ilk təhsilini Şəkidə mollaxanada almışdır. Beş il dini təhsil aldıqdan sonra Şuşaya getmiş, M.P.Vaqifin açdığı məktəbdə iki il təhsil almışdır. M.P.Vaqifin, M.V.Vidadinin təsiri altında şeirlər yazmışdır.

Varxiyanlı Məhəmməd istedadlı aşıq olmuşdur. Aşıq şeirinin müxtəlif şəkillərində qoşma, gəraylı, müxəmməs, divani və s. yaratmışdır. Onun şeirlərinin mühüm bir hissəsi ustadnamələrdir.

KÖNÜL

Vaxt olar qalxarsan ərşə-asmana,
Vaxt olar havadan yenərsən, könül!
Vaxt olar düşərsən çiskin, dumana,
Vaxt olar hər işi qanarsan, könül!

Vaxt olar çıxarsan Məcnun dağına,
Vaxt olar düşərsən qəm yığnağına,
Vaxt olar yüz atəş kar etməz sənə,
Vaxt olar alışıb yanarsan, könül!

Vaxt olar Məhəmməd tez gələr coşa,
Vaxt olar heç əlin getməz bir işə,
Vaxt olar dönərsən dəmirə, daşa
Vaxt olar şişə tək sınarsan, könül!

ARİFLƏR

Eşqin şərabından bir qətrə içən,
Əlbəttə, od tutub yanar, ariflər!
Gizlin sirri hər cahidə car açan,
Düşər etibardan kənar, ariflər!

Əvvəl ustadmdan dərsini alan,
Dünyanm varmı, yoxunu bilən,
Sərində bir zərrə kamalı olan,
Dediyindən necə dönər, ariflər?!

Məhəmməd də bilməz ömür yaşını,
Canıma salmısan eşq ataşını,
Heç kəs qanmaz bu dünyanm işini,
Biri köçər, biri qonar, ariflər!

OLAN CANIM

Ay ariflər, nə kəmtale qul oldum,
El içində haqqı zay olan canım.
Qədirbilməzlərin qədrini aldım,
Əməyi itibən vay olan canım.

Bağban idim bağda bar səbəbinə,
Bülbül idim gülüzar səbəbinə,
Biilqar, bivəfa yar səbəbinə,
Divanə Məcnuna tay olan canım.

Məhəmmədəm, bir murada yetmədim,
Baş götürüb qalmaqaldan getmədim,
Öz oxumu bir mənzilə atmadım,
Özgələr oxuna yay olan canım.

OLSUN

Qız alanda gözlərini açgilən,
Üzü şirin, rəngində də qan olsun.
Göyçəklərin boylusunu seçgilən,
Canlar alan sərvi-xuraman olsun.

Ləbləri qırmızı, yanağı xallı,
Qaşı, gözü qara, teli cığalı,

Şəkinin şahbazı, Gəncə maralı,
Ahu balası tək bir ceyran olsun.

Əsli, zatı olsun uslu, kamallı,
Boy-buxun sürahi, şəkilli, hallı,
Məclislərdə mələk, pəri misallı,
Otaqlarda ya xan, ya sultan olsun.

Üz dəyirmi olsun, gözləri iri,
Günün altda tər şamama növbəri,
Saçlar yasəməni, qəd sənubəri,
Şahin baxışları bir tərlan olsun.

Yanağı al olsun, buxağı ətli,
Firiştə şəkilli, pəri surətli,
İstərsən şəhərli, istərsən kəndli,
Ancaq nəcib olsun, qanı qan olsun.

İşvəli, çəmxəmli, şivəli, nazlı,
Qarəquş cilvəli, durna avazlı,
Acıqlı, mülayim, söhbətli, sazlı,
Nişanlı sənə də mehriban olsun.

Gözəllərdə çox-çox olur nişanlar,
Gahbir, gahbir, belə-belə cananlar.
Məhəmməd der: ey eşqili cavanlar,
Elə cananlara can qurban olsun.

DEYƏR
(divani)

Namərd ilə işim yoxdu, mən həcətakram deyər.
Nə yükü yox, nə mətaı, şahü-xodkaram deyər.
Kamallıya nə lazımdı gizli sirri car edə.
Hər yetənə bildiribən, açıq-aşkarım deyər.

Öz zatımdan xəbərdaram, abu-atəş, badu-xak.
Qəlbim təsdiq, dilim idrak, inanmışam sidqi pak,
Bir sevdaya giriftaram, başımda var yüz kələk.
Hələ mən ustad xakpayam, o ustadkaram deyər.

Mənəm eşqin kamandarı, oxu, yayı neylərəm?
Güvənmərəm bu dünyaya, sultan, bayı neylərəm.
Kamalım ki var qumaşdı, don, darayı neylərəm.
Məhəmmədəm, bu arada bir müsafirəm deyər.

YÜKÜM
(divani)

Eşqidən kamil olan, xeyli iqbaldı yüküm.
Dürlü qumaş cəm etmişəm, yaşıldı, aldı yüküm.
Matahm matah olunca, bazarın bazar olsun.
Nə alınmaz, nə satılmaz, xeyli zavaldı yüküm.

Mərdanələr yığılıban, söhbəti xoş eyləsin.
Bir-birinə xoş deyibən, sərin peşkəş eyləsin.
Saqiyəm, mərd məclisində içənlər nuş eyləsin.
Ab-kövsərdən almışam, abi-zülaldı yüküm.

Məhəmmədəm, sərrafkarıdı, hər nə desən varıdı.
Bir sözü cəvahiratdı, biri kövhərkarıdı.
Qədirbilənlər, yaxm gəl, qədirbilməzlər, geri dur.
Göstərmərəm hər yetənə yaqutu ləldi yüküm.

DADALOĞLU
(1785-1868)

Əsil adı Vəlidir. Güney ellərində dolaşan və Toros dağlarında Kozan, Ərzin, Payas ərazilərində yaşayan türkmən oğuzlarının Əfşar tayfalarındandır. Şeirləri aşıqların, söz-sənət bilicilərinin yaddaşında yaşamışdır. Oğuz-türkmən aşıqlarının öndə gedənlərindən sayılır. Atası Aşıq Musa da aşıq sənətinin istedadlı nümayəndələrindən olmuşdur.

BİZİMDİR

Qalxıb köç eylədi Əfşar elləri,
Ağır-ağır gedən ellər bizimdir.
Ərəb atlar yaxın eylər irağı,
Uca dağdan aşan yollar bizimdir.

Belimizdə qılıncımız girməni,
Daşı dələr mizrağımın təmrəni.
Haqqımızda dövlət vermiş fərmanı,
Fərman padşahındı, dağlar bizimdir!

Dadaloğlum, yarın qovğa qurulur,
Ötər tütək, davlumbalar vurulur.
Neçə qoç igidlər yerə sərilir,
Ölən ölür, qalan sağlar bizimdir.

YEDDİ İQLİM, DÖRD GUŞEYİ DOLANDIM

Yeddi iqlim, dörd guşeyi dolandım,
Məğər dünya hər tərəfdə bir imiş.
Mən dünyanı Al-Osmanın sanırdım,
Məğər dünya yüz sultanlıq yer imiş.

İrili-ufaklı insan puç oldu,
Onlar doğdu keçinməsi güç oldu.
Altı şahbaz ərəb atı necoldu?!
Elə sandım, yalan dünya çürümüş.

Oxuduğun tutmaz oldu alimlər,
Qalxdı da ədalət, artdı zülümlər.
Tərləmədən mal qazanan zalımlar,
Can verirkən soluxması zor imiş.

Dadaloğlu der ki, sözüm vəsiyyət,
Mənim sözümü dinləyənə nəsihət.
Bəsmələsiz qazanılan puç övlad,
O da ki, dünyada ziyankar imiş.

ULULU KƏRİM

XVIII əsrin 80-ci illərində Zəngəzur mahalının Ululu kəndində anadan olduğu ehtimal edilir. Mənbələrin verdiyi məlumata görə, ahıl vaxtlarında Naxçıvanın Şahbuz mahalına köçmüş, yüz ilə qədər ömür sürmüşdür. Xalq arasında şeirləri geniş yayılmışdır. Yüksək təbə malik bu sənətkar aşıq şeirinin müxtəlif formalarında yazıb yaratmışdır.

OLMAZ

Fürsət əldə ikən yaxşılıq eylə,
Həmişə əlində ixtiyar olmaz.
Gəl güvənmə dövlətinə, malına,
Mala, mülkə, ömrə etibar olmaz.

Dörd yanımız bağça ola, bağ ola,
Sinəm üstü düyün ola, dağ ola,
Bir kiçik ki, böyüyünə ağ ola,
Düşər el gözündən, bəxtiyar olmaz.

Ululu Kərimi axtaran tapar,
Bir könülü yapan Kəbəni yapar.
Sən çalış işini Haqq ilə apar,
Haqdan qeyri kimsə sənə yar olmaz.

GETDİ

Şikayət var bu dünyanın əlindən,
Neçə Süleymanlar var idi, getdi.
Qışı həşmətindən əsnəmir dağlar,
Bax dağları tutan qar idi, getdi.

Mülkü Süleymana vəfa qılmadı,
Loğman da dərdinə çarə qılmadı,
Neçə padşah gəldi, səndə qalmadı
Kəfənin belinə sarıdı, getdi.

Uz tutarıq Sübahana, Səttarə,
Müşkülə düşəndə etginən çarə,
Çəhdi ziilfıqarı vurdu kafərə,
Zülfıqarı vuran var idi, getdi.

Bə görmürsən bu bivəfa dünyanı,
Neynədin Rüstəmi-Zal pəhləvanı,
Ərəsət ayağı, haqqın divanı,
Kərim ondan xəbərdarıdı, getdi.

MƏLİKBALLI QURBAN
(1790-1865)

XIX əsrin Şirvan el şairidir. Göyçay qəzasının Məlikballı kəndində yaşayıb yaratmışdır. Mədrəsə təhsili almış, aşıq şeiri üslubunda şeirlər də düzüb qoşmuşdur. Şeirləri Şirvan aşıqlarının repertuarında geniş yayılmışdır.

Onun məşhur "Vücudnamə"si həmin şeir biçiminin təkrarsız klassik örnəyi sayılmaqla yanaşı, ustadnamə xarakteri ilə də diqqət çəkən kamil bir poetik nümunədir.

VÜCUDNAMƏ

Ərbayi-ənasir, şeşi cihatdan,
Xəlq elədi məni qadiri-qəffar.
Bir qətrə atadan yendim anaya,
Məsalimdə qırx gün elədim qərar.

İki qırx olanda himrayə döndüm,
Üç qırxda bir mələk gördüm səksəndim,
Dörd qırxda düzəldim, beşdə tərpəndim,
Altı qırxda oldum xeyli giranbar.

Yeddi qırx olanda gəldim cahana,
Şad oldu bu işdən həm ata, ana.
Cismim xaki xunda düşdüm fəğana,
Qundaqdan beşiyə elədim səvar.

Ana püstanından nuş elədim zad,
Yığılıb gəldilər qohum, qardaş, yad.
Cəddim silsiləsi qoydular bir ad,
Dedilər fənada qalsın yadigar.

Bir yaşatan öz anamdan şir aldım,
İki yaşda əqli-şürbə yönəldim,
Üç yaşda danışdım, oynadım, güldüm,
Qəddü qamət dörddə elədim izhar.

Doqquz yaşda şüru etdim mənayə,
On yaşında getdim elmi yəğmayə,
On birimdə başım düşdü sevdayə,
On ikidə eşqim oldu aşikar.

On üçdə məclislərdə oturdum,
On dördümdə hər nə varsa götürdüm,
On beşimdə Allaha iman gətirdim,
Fərz ilə sünnəti bildim nə ki, var.

On altı yaşımda oldum xirədmənd,
On yeddidə bir xanə etdim pəsənd,
On səkkiz yaşımda oldum payibənd,
Zövqü səfa ilə keçdi ruzigar.

On doqquzda qəmdən oldum azadə,
İyirmidə dərkim oldu ziyadə,
Otuzda bərq tək gəzdim havada,
Qırx yaşımda etdim zikri-girdikar.

Əlli yaşda yarı etdim mənzili,
Altımışda seçdim xar ilə gülü,
Elə ki, yetmişə yetirdim ili,
Ağzımdan dişlərim töküldü pərgar.

Yetmişdən ötəndə düşdüm ah-vayə,
Səksəndə əyilib döndüm bir yayə,
Doxsanında pənah gətdim əsayə,
Yüz yaşımda haqdan gəldi bir azar.

Əriyib cəsədim tük tək incəldi,
Əzrayıl gəlibən cəngini çaldı,
Mürği-ruhum aldı, bədən boş qaldı,
Bəqa mənzilimi etdim ixtiyar.

Yığılıban, ağlayıban doydular,
Rəxti-vücudumu tamam soydular,
Namazımı qılıb qəbrə qoydular,
İnkir-minkir ilə oldum xoş göftar.

Sual edib məndən cavabın aldı,
Bir neçə il cismim qəbirdə qaldı,
Əmrilə İsrafil surunu çaldı,
Bildim qiyamətdi, çəkdim intizar.

Yığılıban gəldik, quruldu divan,
Şəfiim dərdimə elədi dərman,
Mövlam qazı oldu, çəkildi mizan,
Sirləri faş etdi o qeybi-səttar.

Rəbbim şəfqət etdi, siratı keçdim,
Firdovsi-əlada kövsərdən içdim,
Məlikballı Qurban, cənnətə düşdüm,
Mövlamızı onda elədim didar.

AĞ AŞIQ

Ağ Aşıq XVIII əsrin ikinci yarısı XIX əsrin əvvəllərində yaşamışdır. Əsl adı Allahverdi olan ustad sənətkarı rənginin ağlığına görə "Ağ Aşıq" adlandırmışlar. Əslən Mərənddən olduğu söylənilir. Bir müddət Naxçıvanda da məskun olmuşdur. Sonra köçüb Göyçə mahalına gəlmişdir. Göyçə aşıq mühitinin inkişafında müstəsna xidmətləri vardır. Aşıq Alı onun şagirdi olmuşdur. Həyatı xeyli dərəcədə qarışıq rəvayətlərə bürünmüşdür. Şeirlərindən nümunələr ayrı-ayrı toplularda çap olunmuş, haqqında "Ağ Aşıq və Sənubər" dastanı yaranmışdır.

BELƏSİNƏ

İgid olsa elə arxa,
Can sadağa beləsinə.
Çörək verib ala səxa,
Can sadağa beləsinə.

Dağlar başı qarlı gərək,
Bağça-bağlar barlı gərək,
İlqar özü varlı gərək,
Can sadağa beləsinə.

Göyçə gözəllik oylağı,
Güldür-çiçəkdir yaylağı,
Murğuz, Murov, Kəpəz dağı,
Can sadağa beləsinə.

NƏ BİLƏR

Nadan məclisində, naşı yanında,
Ləl xırdala, gövhəri seç, nə bilər?
Bir damlanı sel anlayan qanmaza,
Bütün ümman, dəryanı keç, nə bilər?

Axtarsan da yerin yeddi qatını,
Hər kəs göstərəcək öz isbatını,
Namərdə bağışla köhlən atını,
Ya yolunda sən zəhər iç, nə bilər?

Özünü böyüdüb dağ edənlərə,
Şorunu ərinmiş yağ edənlərə,
Ağ Aşığın sözün ağ edənlərə,
Xəznədar ol, xəznəni aç, nə bilər?

ÇƏTİNDİ

Libasnan, duruşnan, boyun-buxunnan,
İnsanı tanıyıb bilmək çətindi.
Qanannan-qanmaznan dolanmaq olar,
Yarımçığı başa salmaq çətindi.

Mətləbini söylə, mətləb qanana,
İşarə lazımdı arif olana,
Tərəqqidən tənəzzülə enənə,
Bəh-bəh deyib, qəh-qəh gülmək çətindi.

Allahverdi işin yox fitnə-felnən,
İnsanı qarşıla şirin dilinən,
Ayrılma yoldaşnan, bir ol elinən,
El olmasa, tək ucalmaq çətindi.

ALI QIZILVƏNGLİ
(1800-1911)

Göyçə aşıq mühitinin ustad sənətkarlarından olmuşdur. Alı erkən yaşlarından saza-sözə maraq göstərmiş, Göyçənin Kərkibaş kəndində Ağ Aşığa (Aşıq Allahverdiyə) on il şəyirdlik etmişdir. Qafqazda, Türkiyədə, İranda, Şərq ölkələrində tanınıb, ustad kimi məşhurlaşmışdır. Fitri istedadı, zəngin yaradıcılığı ilə aşıq ədəbiyyatına özünün töhfələrini vermişdir. Göyçənin tanınmış saz-söz ustadları onun yanında sənətin sirlərinə yiyələnmişlər. Deyilənə görə, onun iyirmidən çox şagirdi olmuşdur. Aşıq Ələsgər kimi böyük ustad məhz onun yanında bir sənətkar kimi formalaşmışdır.

"Aşıq Alının Türkiyə səfəri" dastan-rəvayəti dillər əzbəri olmuşdur.

NƏ QALDI

Kəşt eylədim bu dünyanı dolandım,
Əllini keçirdim, yüzə nə qaldı?!
Ayaq getdi, əl gətirdi, diş yedi,
Baxmaqdan savayı gözə nə qaldı?!

Ölüm haqdı, çıxmaq olmaz əmrdən,
İpək tora halqa salma dəmirdən.
Aydı, gündü gəlib keçir ömürdən,
Tələsirik görən yaza nə qaldı?!

Hayana baxıram, hava məxşuşdu,
Gəzdiyim oylaqlar yadıma düşdü.
Bir gün eşidərsən Alı da köçdü,
Sındı telli sazı, tazanə qaldı.

OLDU

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri-talan oldu.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə,
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Aşıq Alı sənə qurban,
Gəl eylə dərdimə dərman,
Uçdu getdi tülək tərlan,
Sar da kəklik alan oldu.

GÖZÜMÜZ

Özgələrdən bizə xətər yetişməz,
Eyləməsək özümüzə özümüz.
Alışmışam öz oduma yanıram,
Qoy söykənsin gözümüzə gözümüz.

Bəhsə düşüb əbəs yerə döyüşdük,
Qəlb sındırıb, qamət əyib öyüşdük.
Heç bilmədik nə iş tutduq, əyişdik,
Düz gəlmədi sözümüzə sözümüz.

Qovğa günü mərd meydanda ər dini,
Alıyam, axtarram elin mərdini.
Leyli-nahar çəksin yarın dərdini,
Dürüst baxsın gözümüzə gözümüz.

DOLANDIRIR

Ay ağalar, gəlin sizə söyləyim,
Yəqin bu dünyanı pul dolandırır.
Kəsilib məhəbbət, qalmayıb hörmət,
Dövlətli dalınca mal dolandırır.

O dünyanın şərbətindən içməyən,
Körpü salıb üstdən karvan keçməyən,
Evdə arvadına sözü keçməyən,
Kənddə koxa olub, el dolandırır.

Aşıq Alı, halın oldu pərişan,
Ağ üzündə xalları var hər nişan.
Binamus qohumdan, namuslu düşman,
Öldürsə qəbrimdə gül dolandırır.

ALAR

Bu dünyanı təcrübədən fəhm edən,
Əşyan qurar, körpü salar, ad alar.
Yüz namərdlə şəkər yesən ağıdı,
Bir mərd ilə ağı yeyən dad alar.

O qohumun, o taxılı, o unu,
Hamidardı, apar doldur xurcunu.
Qaytarmasan bir yumurta borcunu,
Aqibətdə tələb edib yad alar.

Alı, sözün fitnəlidi, fellidi,
Kitab-kitab sirlərini həll edi.
Mərdin adı hünərindən bəllidi,
Nanəciblər əməlindən ad alar.

BİLİN SİZ

Qohum-qardaş, dost-müsahib yanında,
Günahkaram, günahkara bilin siz.
Bülbül fəğan eylər öz gülşənində,
Qızılgül həmdəmdi xara bilin siz.

Sinəm yara oldu dağı-düyündən,
Könlüm ayrılmadı öz miskinindən.
Kişi də dönərmi öz dediyindən?
Sinəm oldu para-para bilin siz.

Aşıq Alı deyər sözün aşkara,
Heç vaxt güvənmədim dövlətə-vara.
Düz oldum dostluğa, əhdə, ilqara,
Mənim bu dərdimə çara bilin siz.

BİLİNMƏZ

Ay ağalar, gəlin sizə söyləyim,
Nanəcibin düz ilqarı bilinməz.
Xəsis gec-tez öz varını itirər,
Onun namus, qeyrət, arı bilinməz.

Can yanmasa gözdən axan yaş olmaz,
Qohum-qardaş çətin vaxtı yad olmaz,
Dostu büdrəyənin qəlbi şad olmaz,
Kisəvar insanın varı bilinməz.

Dostumun dostuna sayıl olmuşam,
Təmiz gözəllərə mayıl olmuşam,
Çəkdiyim zillətə qayıl olmuşam,
Bivəfa gözəlin yarı bilinməz.

Mən istərəm gözəlləri şad olsun,
Dodaq nazik, incə belli, dad olsun,
Xoşxasiyət, gülər üzlü, ad olsun,
Əl uzatsan onun narı bilinməz.

Aşıq Alı, hər cəfaya dözübsən,
Həm ucanı, həm alçağı görübsən,
Bu fani dünyadan əlin üzübsən
Fələk bivəfadı, barı bilinməz.

KÖÇƏCƏK

Qoca dünya çoxun yola salıbdı,
Köçən köçüb, köçməyənlər köçəcək.
Qafil, içmə bu gün əcəl şərabın,
İçən içib, içməyənlər içəcək.

Necoldu var üçün qanlar tökənlər?
Əziz canın al qumaşa bükənlər,
Unutmasın şərmü-xəta əkənlər,
Biçən biçib, biçməyənlər biçəcək.

Yazıq Alı, nə tez düşdün həvəsdən,
Sərraf olan seçər qızılı misdən,
Arif olan kəslər, yaxşını pisdən
Seçən seçib, seçməyənlər seçəcək.

VAR

Baxdı-yığval bu diyara gətirdi,
Taleyin olmasa nə mənası var.
Əcəl gəldi kəsdi sənin üstünü,
Döyünsən, çırpınsan nə mənası var.

Qəssal yuyar, qəddim bükər bir ağa,
Bu günümdə yetiş dada bir ağa,
Mən qulunam, nökərinnəm bil, ağa,
Nökərin ağadan təmənnası var.

Alıyam çağırram sirri xudanı,
Bu dünya fanidi, köçəcək hamı,
Tamam müəmmadı haqqın "Quran"ı,
Oxuyub bilənə çox mənası var.

ŞAİR MƏMMƏDHÜSEYN
(1800-1884)

Göyçə mahalının Daşkənd obasındandır. Şair Məmməd-hüseyn, Daşkəndli Məmmədhüseyn adı ilə tanınmışdır. Bədahətən söz demək qabiliyyəti, yüksək istedadı onu məşhur-laşdırmışdır. Aşıq şeirinin müxtəlif şəkillərindən istifadə etməklə gözəl nümunələr yaratmışdır. Gəraylı, qoşma, təcnis və divaniləri bu gün də ustadların repertuarında, xalq arasında yaşamaqdadır. Məşhur "Heydəri" saz havası onun "Yatıb oyanmaz-oyanmaz" şeiri ilə daha çox oxunduğundan həmin havaya aşıqlar "Məmmədsöyünü" də deyirlər.

YƏNİ NƏ

Bir mərd ilə ülfət qıl sən mərdana,
Namərd ilə ülfət qılmaq, yəni nə?
Müxənnətlər yaxşı gündə dost olar,
Yaman gündə keçər gedər, yəni nə?

Həqiqət şərtilə baxginən sözə,
Qiyamət pərdəsin çəkərlər üzə,
İgid odur qan yatırda, iş düzə,
Hər qovğaya qarışmağın, yəni nə?

Ağıl bir qumaşdır, kimsəyə çatmaz,
Əsil mömin olan zikirsiz yatmaz,
Gedən getdi, daha geri qayıtmaz,
Dalısınca peşman olmaq, yəni nə?

Məmmədhüseyn deyər, söhbət dəmində,
Bərabərin yoxdur ruyi-zəmində,
Ürfan məclisində, dost məqamında
Hərzə deyib-danışmağın, yəni nə?

DEYƏRLƏR

Səxavətdə Hatəm, cəngidə Rüstəm,
Ədalətdə Nuşirəvanı deyəllər.
Dəryadan bac alan səddi-İsgəndər,
Hər hikmətdə Süleymanı deyəllər.

Gecə-gündüz qaldım dadü fəryadda,
Ya Ağam, sən məni qoymaynan odda.
Səxavətdə, sücaətdə, qeyrətdə,
Şiri-Yazdan Mürtəzanı deyəllər.

Mürtəza dəstindən badə yetişər,
Onu içən hər murada yetişər.
Yoməl-Ərəstidə dada yetişər,
Məhəmməd Əl-Mustafanı deyəllər.

Leyli-nahar çağırdığım ərənlər,
Əşqin badəsini dolu verənlər.
Qohum-qardaş dost müsayib bilənlər,
Bir gün Məmmədhüseyn hanı deyəllər.

GƏLMƏZ

Hərcayıya söz açarsan ədəbdən,
İrişər, anlamaq huşuna gəlməz.
Əyrilərin göz-başına döyməsən,
Düz yola qayıtmaq guşuna gəlməz.

Nadanlar özünü arif sanarlar,
Nə görüb-götürər, nə də qanarlar.
Əməlləri açılanda danarlar,
Nəsihət eşitmək xoşuna gəlməz.

Məmmədhüseyn, nadürüstdən qaçaq ol,
Ellə dolan, ellə şadlan, xoş çağ ol.
Arlıya ar, arsıza sərt bıçaq ol,
Bir daha harfalar tuşuna gəlməz.

OLA

Hər yetənə yar deyib, yar arama,
Yar axtar ki, ömür boyu yar ola.
Çətin gündə, yaman gündə, xoş gündə,
Həmdəm ola, sirdaş ola, var ola.

Can deyəsən, can eşidə, can deyə,
Məhəl qoya qohum ilə özgəyə.
Qarışmaya hər qovğaya, hər küyə,
İnsanlıq dilində müdam car ola.

Məmmədhüseynin ömrü yetib yarıya,
Söhbət salmaz bəd əməli arıya.
Gözəl-göyçək zülfün çəkib darıya,
Əzgin gəzmək, pinti gəzmək ar ola.

HÜSEYN ŞƏMKİRLİ
(1811-1891)

Şəmkir mühitinin yetirdiyi ustad sənətkarlardandır. Qapanlı kəndində doğulmuş, ailələri bir müddət sonra həmin rayonun Qaracəmirli kəndinə köçmüşdür. Ömrünün sonuna qədər Qaracəmirli kəndində yaşayan sənətkar səksən yaşında Gədəbəyin Ağbulaq yaylağında vəfat etmiş və Qalakənd qəbiristanlığında dəfn edilmişdir.

Aşıq Hüseyn ərəb, fars və türk dillərində mükəmməl təhsil görmüş, deyilənə görə, on ilə Yaxın Şərq ölkələrini gəzmişdir. Savadlı olduğunu, çoxlu mənbələr oxuduğunu Aşıq Hüseyn özü də şeirlərində, ayrı-ayrı bənd və beytlərində xatırlatmışdır.

Aşıq Hüseyn Göyçə mahalına getmiş, Aşıq Ələsgərlə görüşmüş, səmimi qurulmuş məclisdə hər iki sənətkar «Mərd» rədifi üstündə divani söyləmişdir.

Şəmkirli Hüseyn saz-söz aləmində dastan yaradıcısı kimi daha böyük şöhrət qazanmışdır. "Aşıq Hüseyn və Reyhan xanım", "Aşıq Hüseyn və Bəyçoban" dastanları onun bədii təxəyyülünün məhsuludur.

Aşıq Hüseyn söz xiridarı, dastan yaradıcısı olmaqla yanaşı, həm də havacat bəstələyən ustad kimi ad-san qazanmışdır. Bu günümüzdə də aşıqların repertuarında möhkəm yer tutmuş, sazın köksündə əbədi yuva salmış "Aşıq Hüseyni", "Dilqəmi", "Sarayı", "Şəmkir gözəlləməsi", "Zarıncı", "Zeynalabdini" adlı havalar onun bəstəçi barmaqlarının yadigarıdır.

YAXŞIDIR

Bir adam ki, sənlə ülfət eyləsə,
Yəqin onun əsil zatı yaxşıdır.
Namərd sənə quzu-plov yedirtsə,
Mərdin quru məhəbbəti yaxşıdır.

Dad, hazar çəkərəm pərgarsız sazdan,
Ver qurtar əlindən nəzir, niyazdan,
Söyləgən qarıdan, gəzəyən qızdan,
Güləyən gəlindən lotu yaxşıdır.

Aşıq olan sözün söyləyər başdan,
Sallabaş adamdan, ürəyi daşdan,
Bədnəzər qonşudan, bədcins yoldaşdan
Qədir bilənlərin iti yaxşıdır.

Aşıq Hüseyn söylər kəlməni teydən,
Dərsimi almışam əlifdən, beydən* .
Bəzəksiz otaqdan, gözəlsiz öydən,
Çölün, biyabanın otu yaxşıdır.

OLUR

İki sevgi bir-birini sevəndə,
Aralıqda şirin möhübbət olur.
Bir-birinə nazü qəmzə satanda,
Oynayıb gülüşmək ixtilat olur.

Ətri-gül bənövşə, reyhan gözələ,
Ayqabaq, qaşları kaman gözələ,
Könüldən keçəni qanan gözələ,
Qaş ilə, göz ilə işarət olur.

Zülfü gərdənində əsən zamanda,
Seyrəqib aranı kəsən zamanda,
Yar yardan inciyib küsən zamanda,
Ərin qulluğunda şikayət olur.

"tey", "əlif" və "bey" - "təb" sözüdür. Aşıq sözlərini təblə, ilhamla söylədiyini deyir.

Yar yardan dəyişməz rəqib sözünnən,
Taki eşitməsə yarın özünnən,
Nə zamansa kənar getsə özünnən,
Ərəsət, məhşər tək qiyamət olur.

Söyün deyər, usanmaram mən haşa,
Gözüm görə, qəlbim qəlbə qarışa,
İki həsrət bir-birinə qovuşa,
Kəbədən qiymətli ziyarət olur.

NƏ BİLƏR
(təcnis)

Nəs gündə yaranan nəs günə düşər,
Nəs gedər dünyadan nəs aqi bilər.
Ömür başa yetsə vaxtın ötürməz,
Nə xəstə sağalar, nə saqi bilər.

Bağ pozulsa, bağban nara hey yanar,
Ağlar, fəğan çəkər, nara hey yanar,
Günahkar kimsənə nara hey yanar,
Nə kövsəri görər, nə saqi bilər.

Hüseyn, əhvalını yara deginən,
Təbib yoxdur yara-yara deginən,
Gəlməsə sağalmaz yara deginən,
Özü eylədiyi nasağı bilər.

OLU

Mərd igidlər vətənində gürz olu,
Həmdəmsiz kəslərin dərdi yüz olu,
Qoç igidə onda ölüm fərz olu,
Desələr yar əlin verib yad ələ.

Qohum gərək qohum üstə hovlaya,
Qardaş gərək qardaş qanın dovlaya,
Ovçu yoxdu bu maralı ovlaya,
Otlar, otlar, aşar gedər yad elə.

Aləm bilir sən Hüseynin gözüsən,
Yaxşı saxla yaşmaq altda sözü sən,
Necə qoydun sinəm üstə közü sən,
Demirsənmi ya yandıra, ya dələ.

MƏRD
(divani)

Analar oğlan doğanda qoy doğsun oğlanı mərd,
Atası kamil olan tez tapar dövranı mərd,
Axşamadək ac da qalsa, bir tikə yalqız yeməz,
Gedənin yoldan qaytarar, xub saxlar mehmanı mərd.

Bir mərd ilə ülfət qılan axır bir gün mərd olu,
Namərd ilə ülfət qılan çöl-biyaban gərd olu.
Namərd bir mehman görəndə iki gözü dörd olu,
Mərd çəkər alar əlindən, gen açar sufranı mərd.

Aşıq Hüseyn deyər, namərd binişan olu,
Bir məclisdə namərd olsa məclis pərişan olu.
Mərd bir məclisə varanda məclis ürövşan olu,
Hər yerdə bir xanə yapar, gəşt eylər cahanı mərd.

AŞIQ ƏLƏSGƏR
(1821-1926)

Azərbaycan aşıq sənətinin nəhəng simalarından olan Aşıq Ələsgər Göyçə mahalının Ağkilsə kəndində doğulmuş, bütün həyatı boyu orada yaşamışdır. Dövrünün adlı-sanlı aşığı Qızılvəngli Aşıq Alıdan sənət dərsi alaraq, beş il ustada qulluq etmişdir.

Gənclik illərindən öz mükəmməl sənəti və qüdrətli poetik istedadı ilə təkcə Göyçə mahalında deyil, Gəncə, Naxçıvan, Qarabağ, Qazax-Şəmşəddin, Borçalı-Tiflis, Dərələyəz, Çıldır-Ağbaba mahallarında da ad çıxaran Aşıq Ələsgərin saz-söz dühası hələ sağlığında əfsanələşmişdir.

Aşıq Ələsgər məktəb-mədrəsə təhsili almasa da, öz fitri istedadı sayəsində ərəb hürufatı və əbcəd hesabı ilə bağlı incəlikləri, Şərq poetikasına məxsus şeiriyyət qanunlarını, Qurani-Kərim və islam elminin dərinliklərini, təsəvvüf simvolikasını kifayət qədər mükəmməl şəkildə mənimsəmişdir. Yazı-pozu bilməsə də şeirlərindən savad və dünyagörüşünün, fəlsəfi düşüncə tərzinin mükəmməlliyi açıq şəkildə görünməkdədir.

Azərbaycan türkcəsinə məxsus linqvistik və bədii-üslubi imkanları böyük sənətkarlıq məharəti olan Aşıq Ələsgərin şeirlərində hər bir sözün, ifadənin zərgər dəqiqliyi ilə işlədildiyi açıq şəkildə görünür.

Qüdrətli söz sərrafının misilsiz məharətlə yaratdığı ustadnamələrinin dillər əzbərinə çevrilməsində yüksək poetik sənətkarlıqla dilə gətirilmiş obrazlı canlandırma manerası mühüm rola malikdir. Aşıq Ələsgər poeziyasının ana axarlarından birini təçkil edən ustadnamələr həm də dərin fəlsəfi ümumiləşdirmə gücü ilə seçilir.

GƏRƏKDİ

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pür kamalı gərəkdi.
Oturub durmaqda ədəbin bilə,
Mərifət elmindən dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləlü gövhər süzülə,
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyhamından söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər Haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

ARASINDA

Təzə aşnalıqla köhnə dostluğun
Fərqi var qış ilə yaz arasında.
Namərddə qaydadı: kəsər basdığın,
Hər kəs hesab çəksin öz arasında.

Qüdrətdən ucalan zülm ilə enməz,
Haqdan yanan çıraq bad ilə sönməz.
Dost dostdan inciyər, qəlbində dönməz,
Olar bir az ərki naz arasında.

Ələsgərəm, qəmü-möhnətdi yüküm,
Fil çəkməz bu dərdi, mən necə çəkim?!
Haqq ilə nahaqqı axtaran hakim
Tapar qulaq ilə göz arasında.

DƏYMƏMİŞ

Dad sənin əlindən, a qanlı fələk,
Könül həsrət qaldı yara dəyməmiş.
Köhnə yaram qövr eylədi təzədən,
Təbib neştər vurdu yara dəyməmiş.

Gözüm qaldı "əlif", "bey"də, "yasin"də,
Yaradanım, kömək eylə ya sində.
Qaldım səməndər tək qəm dəryasında,
Yandı balü pərim nara dəyməmiş.

Ələsgər, üsyanın çıxıbdı sandan,
Öldürsən zənburu, əl çəkməz şandan.
Hərcayıdan, müxənnəsdən, nadandan,
Nə söz qaldı sənətkara dəyməmiş.

EYLƏR

"Can" deməklə candan can əskik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deyənin nəfi nədi dünyada,
Abad könlü yıxar, pərişan eylər.

Nakəs adam danışıqda saz olar,
Kərəmdən kəm, səxavətdən az olar.
Nütfədən qarışan şeyitbaz olar,
Mərd də sığışdırmaz, nahaq qan eylər.

Bir gün Mansır qalxar, gələr toxmaq-yay,
Dağları atmağa eylər haqq-say.
Seçilməz məhşərdə nə şah, nə gəday,
Xaliqi-ləmyəzəl Haqq divan eylər.

Məzəmmət eyləmə mən binəvanı,
Sahibi-səltənət, ey gövhər kanı.
Mənim sözüm yoldan çıxan mollanı,
İnşallah, qaytarar, müsəlman eylər.

Mən istərəm, alim, mömin yüz ola,
Meyli haqqa doğru, yolu düz ola,
Diliylə zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban eylər.

DÜNYADA

Qafil könül, bu nə yoldu tutmusan,
Sərf edirsən nə kamaldı dünyada?!
Dövlətə qul olub gül tək açılma,
Çox səni tək güllər soldu dünyada.

Kibridən qəlbində bərkitmə barı,
Top dəyər, dağılar bürcü, hasarı.
Yüz səni tək ahu gəzən şahmarı
Fələk kəməndinə saldı dünyada.

Guşimdə sırğadı, sinəmdə dağdı,
Ağıllı unutmaz neçə ki, sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Fələk bərəhm edib çox nizamları,
Zülm ilə söndürüb yanan şamları,
Hayıf cavanların gül əndamları,
Mara, mura qismət oldu dünyada!

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada!

YAMAN AT

Bu dünyada üç şey başa bəladı,
Yaman oğul, yaman arvad, yaman at.
İstəyirsən qurtarasan əlindən,
Birin boşla, birin boşa, birin sat.

Ov keçdi bərədən, ata bilməzsən.
Uçdu getdi əldən, tuta bilməzsən,
Yerisən, yüyürsən, çata bilməzsən,
Görürsən ki, baxtın yatdı, sən də yat.

Qılma Ələsgəri mərhumi-didar,
Tərəhhüm et mənə bir busə, ey yar!
İsmin üç hərf ilə eylərəm aşkar:
Biri "kaf"dı, biri "lam"dı, biri "sat"* .

OLMAZ

Bu dünyanı mən təcrübə eylədim,
Namərd körpü salsa, onda ad olmaz.
Bir mərd ilə ağı yesən şirindi,
Yüz namərdlə şəkər yesən dad olmaz.

Yadın oğlu yağlı aşa mehmandı,
Dar günündə görərsən ki, usandı.
Dava günü düşmanınla düşmandı,
Yüz il keçsə qohum sənnən yad olmaz.

Ələsgərin sözün yetir nisaba,
Sərf edənlər zəbt eləsin kitaba.
Heç namərdin adı gəlməz hesaba,
Mərd bir olur, onda iki ad olmaz.

**** Qızın adının "Gilas" olduğu anlaşılır.***

OLACAQDI

Dedim: Könül, içmə eşqin camını,
İçsən dünya sənə dar olacaqdı.
Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran-qar olacaqdı.

Aldanma dövlətə, uyma dünyaya,
Halaldan kəsb eylə özünə maya.
Zinakar, haramxor yetişməz baya,
Dosta xain baxan kor olacaqdı.

Sərgərdan qalmışam mən bu hesaba,
Fələk qurğusuna əhsən, mərhəba!
Növrəstə gözəllər tapmasın hava,
Qönçənin həmdəmi xar olacaqdı.

Hesabdarlar gəlib çəkər hesabı,
Günahkarlar necə gətirər tabı?
Mizan, sirat, sual, qəbir əzabı-
Bu işlər qabaqda var, olacaqdı.

Ələsgər, bilirsən qüdrətin sirrin,
Zülmətə işıq var, acıya - şirin.
Zikr eylə dilində mərdlərin pirin,
Qorxma, dar günündə yar olacaqdı.

HAYIFSAN

Danışdıq, barışdıq mərhəmət ilə,
İnciklik araya qatma, hayıfsan!
Sən tacir olmazsan bir manat ilə,
Namusu, qeyrəti atma, hayıfsan!

Mövlam məni nəzərindən salmayıb,
Huşum cəmdi, ağlım heç azalmayıb,
Fani dünya Süleymana qalmayıb,
Oyan bu qəflətdən, yatma, hayıfsan!

Siz təlaş edərsiz iynə-biz ilə,
Bizimki də gəlib gedər söz ilə.
Əyri ol əyriylə, düz ol düz ilə,
Hər yetəni sən aldatma, hayıfsan!

Düşəndə məclisə, ağır yığnağa,
Mənə hörmət qoyur irəncbər, ağa,
Söz uzansa həcv çıxar qurşağa,
Sözün dalın çox uzatma, hayıfsan!

Qəsəm olsun xudkeşlərin sərinə,
Yalan söz igidi salar dərinə,
Köhnə dağarcığı tumaş yerinə,
Aşıq Ələsgərə satma, hayıfsan!

GÖRMƏDİM

Bivəfanın, müxənnəsin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin
Namusun, qeyrətin, arın görmədim.

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim.
Söyütdən bağ saldım, peyvəst eylədim
Almasın, heyvasın, narın görmədim.

Nəfs aldatdı, hər yetənə xan dedim,
Bihuda kollara gülüstan dedim,

Əbəs yerə bivəfaya can dedim,
Zəhmətin çox çəkdim, karın görmədim.

Huşum çaşdı, düşdüm olmaz oyuna,
Yetmədim gözəlin əsli soyuna,
Aşiq oldum simasına, boyuna,
Hayıf ki, kamalda dərin görmədim.

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın vələt.
Şahiddə iman yox, bəydə ədalət,
Qazıların düz bazarın görmədim.

OLA

Can qurban eyləsən, layıqdı, layıq,
Bir yar ki, mətləbi tez qanan ola.
İşarətlə, qaş-göz ilə anlaya,
Nəinki deməklə söz qanan ola.

Canım qurban olsun o əhli-dilə,
Qaşların oynada, gözündən gülə,
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə, göz qanan ola.

Belə yar yetirə baxtın kövkəbi,
Dəsti qana ürəkdəki mətləbi.
Nə lazım dil deyib, tərpətmək ləbi,
Nə keçsə könlündən düz qanan ola.

Ələsgər söyləyər söz müxtəsərin;
Ağlı kamil ola, kamalı dərin.
Eşidənlər deyə “əhsən”, “afərin”,
Əgər məclisində yüz qanan ola.

QOCA BAXTIM

Nə sevda tapıbsan, nəyə talıbsan?
Hansı qəflətdəsən, gəl, qoca baxtım!
Ya məndən küsübsən, ya qocalıbsan,
Bu sınıq könlümü al, qoca baxtım!

Çəkilib pünhana deyirsən: "Sən döz!"
Qiyamət odundan pisdi tənə söz.
Gümüşüm tunc oldu, zəri zibam bez,
Qəlp çıxır aldığım mal, qoca baxtım!

Özüm aşıq oldum, oğlum gülləçi,
Bildim ki, qalacaq dövlətin üçü.
Qırıldı mal-qoyun, qalmadı keçi,
İndi də yıxılıb kal, qoca baxtım!

Mardan şirə çəkib, daşdan keçərdin,
Dəryalardan ləlü gövhər seçərdin,
Pərvazlanıb Qafdan – Qafa uçardın,
Keçən günü yada sal, qoca baxtım!

Təqdir üçün yaxşı deyil bu adət:
Gah çox sevir, gah eyləyir xəcalət.
İyidlər at vermir, gözəllər xələt,
Gəlmir tənbəkiynən bal, qoca baxtım!

Səksəni, doxsanı ötübdü yaşım,
Gor deyə tərpənir bəlalı başım.
Əzrayıl həmdəmim, məzar yoldaşım,
Daha köç təblini çal, qoca baxtım!

Ələsgər kəsilib səbrü aramdan,
Oxlayıbsan, qanlar axır yaramdan.
Haqq ilə qıl sövdə, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım!

NİŞANASI

Ay ariflər, gəlin sizə söyləyim,
Kəsilib üstümdən yar nişanası.
Dost uzaq olmaqla könül yad olmaz,
Ölüncə qəlbimdə var nişanası.

Nütfədən pak olan özü pak olar,
Mömindən törəyən xoşidrak olar.
Əndəlib qan ağlar, zəhri çak olar,
Görsə gül üstündə xar nişanası.

Ələsgərəm, qərq olmuşam bu qəmə,
Hədyan sözlər dağ çəkibdi sinəmə.
Nakəs, müxənnətdən mətləb diləmə,
Yoxdu namus, qeyrət, ar nişanası.

OLA BİLMƏZ

Sərraf yüz bəzəsə səngi-siyahı,
Əsli – mütəlladı, ləl ola bilməz.
Məkəs fəqan eylər zənbur sövtilə,
Künhü yox, fəmində bal ola bilməz.

Qafil olma, dilim, düşmə həvəsdən,
Hərcayı sözüylə incimə dostdan.
Muşlar pələng olmaz, tülkülər aslan,
Danalar meydanda kəl ola bilməz.

Ustad dərin, kamal dərin, söz dərin,
Qoydun sinəm üstə eşqin közlərin.
Qabiliyyətsiz, mərifətsiz qızların
Yüzü bir dərdmənd dul ola bilməz.

Müddətdi həsrətəm, camalın görəm,
Mətləbimi Mürtəzadan dilərəm.
Müxənnəsdə səxa, nakəsdə kərəm,
Namərdin cibində pul ola bilməz.

Könül, doğru yoldan gəl olma kənar,
Əyri yola gedən Haqdan utanar.
Bu, bir müəmmadı, ariflər qanar,
Nadan bu elmdən hali ola bilməz.

Ələsgərəm, cəm eylərəm dəftəri,
Mərdlərin vəsfidi dilim əzbəri.
Naxçıvan xanları, Şəril bəyləri
Səxada Səmədə qul ola bilməz.

OLMAZ

Arif məclisində bir söz söylərəm,
Nə hədyan, nə çaşqın, nə qələt olmaz.
Nütfədən pak olan, loğmadan halal,
Mərifət elminə nabələd olmaz.

Bir söz söyləyərəm, ariflər qanar,
Müxənnətlər etdiyindən utanar.
Varlıqda dost olma, yoxluqda kənar,
"İyidəm" deyəndə bu adət olmaz.

O dünyanı, bu dünyanı gözləyən,
Həm savabı, həm üsyanı gözləyən,
Namus qədri bilib, nanı gözləyən,
İnşallah, heç yerdə xəcalət olmaz.

Bir şəxsin sənəti istəmək ola,
Səxavət eyləməz, Hatəm Tey ola.

Dövlət tapa, gədalıqdan bəy ola,
Başı ərşə çıxsa, ədalət olmaz.

Ələsgər, mətləbin Xudadan istə,
Kərəm olmaz müxənnəsdə, xəsisdə.
Bəylik, göylük, səylik olan məclisdə,
Qaç ki, orda xeyir-bərəkət olmaz.

OLMAZ, OLMAZ

Aşiq olan eşqə düşər, dərd çəkər,
Mənim kimi dərdi yüz olmaz, olmaz.
Hər ağacdan sandal, hər yarpaqdan gül,
Hər torpağın tamı duz olmaz, olmaz.

Sözün yeri gəldi, qoy deyim barı,
Eşidənlər məni görməsin karı;
Aşığın nisyəsi, namərd ilqarı,
Desələr, inanma, düz olmaz, olmaz.

Zikirsiz mömini şeytan aldadar,
Sayğısız iyidi düşman aldadar,
Ağılsız cahili kirşan aldadar,
Günü keçmiş qarı qız olmaz, olmaz.

Görməmişəm öküz yeriyə yorğa,
Gədadan bəy olmaz, dəlidən darğa,
Suda çimmək ilə sağsağan, qarğa,
Göldə silkələnib, qaz olmaz, olmaz.

Ələsgər, sərrafsan, gövhəri tanı,
Dosta qurban olsun düşmanın canı.
Comərdin kisəsi, mərdlərin nanı,
İnşallah, ölüncə az olmaz, olmaz.

YAXŞIDI

Arif olan, gəlin sizə söyləyim,
İyid sözü mərd-mərdana yaxşıdı.
Kişi gərək dediyindən dönməsin,
Biilqardan bir zənana yaxşıdı.

Qəlbi düz olanın evi hac olu,
Qonşuya kəc baxan özü ac olu.
İkiarvadlılıq mardan acı olu,
Bez geydirsən bir canana yaxşıdı.

Ələsgər Kövsərdən badə içəndə,
Gəşt eləyib, mərd iyidi seçəndə.
Güzəran xoş olub, gün xoş keçəndə,
Ağ otaqdan tövləxana yaxşıdı.

YAXŞI HÖRMƏT İLƏ, TƏMIZ AD İLƏ

Yaxşı hörmət ilə, təmiz ad ilə
Mən dolandım bu Qafqazın elini.
Pirə ata dedim, cavana – qardaş,
Ana-bacı bildim qızı, gəlini.

Hər kəs bu dünyanı fani bilməsə,
Həm savabı, həm üsyanı bilməsə,
Namusu gözləyib, nanı bilməsə,
Əli Zülfüqarı kəssin belini!

Bədəsildən hərgiz olmaz heç əsil,
Lənət sana gəlsin, pis soy, pis nəsil!
Firib-fəsad ondan qalxar müttəsil,
Ölüncə tərgitməz öz əməlini.

Yaxşı tanı, dağıtmaynan huşunu,
Dostun oğraşısan, qandım işini,
Badkeş bənd eləmə, çək qəmişini,
Nəzmə cəzm eyləmə şeytan felini!

Yazıq Ələsgərəm, bir kəminə qul,
Əysik sözü hərgiz etmərəm qəbul.
Bəndeyi-xudayam, ümməti-Rəsul,
Dost tutmuşam Şahi-Mərdan Əlini.

ENDİRİR
(divani)

Ələstidən «bəli» deyən
Sübhana baş endirir.
Məhəmmədə nazil olan
Qur'ana baş endirir.
Özü birdi, adı minbir,
Vəhdəhuəl-laşərik;
Əhli-mömin görə bilməz,
Pünhana baş endirir.

Ölməyincə bu sevdadan
Cətin dönəm, usanam;
Həqiqətdən dərs almışam,
Təriqətdən söz qanam.
Şahi-Mərdan sayəsində
Elm içində ümmanam;
Dəryaların qaydasıdır,
Ümmana baş endirir.

Biçarə Aşıq Ələsgər,
Olma elmə nabələd;
Danışanda doğru danış,

Sözün çıxmasın qələt.
Çox qazansan, az qazansan,
Beş arşın ağdı xələt;
Mal-dövlətə baş endirən
Əfsana baş endirir.

DÜNYADA
(divani)

Sirat, sual qabaqdadı,
Nədamətdı dünyada!
Kəlməyi-şəhadət lazımdı,
Ölən vaxtı dünyada.
Tut orucun, qıl namazın,
Şükür eylə Allaha.
Qul olma dünya malına,
Qalacaqdı dünyada.

Yalan deyib, qeybət etmə,
Rəhmin gəlsin canına.
Öz-özünə fəxr eləyib,
Baxma şövkət-şanına.
Əzrayıl əlində çəngəl,
Gələcəkdi yanına.
Qəzəbindən gül irəngin
Solacaqdı dünyada.

Şagiridlikdə can çürütdüm,
Hərgiz ustad olmadım.
Nəfs öldürdüm, düz dolandım,
Dostumdan yad olmadım.
Ələsgərəm, qan ağladım,
Ölüncə şad olmadım.
Əzəl gündən fələk mənə
Qara baxdı dünyada.

YÜKÜM
(divani)

Ələstidən bəli dedim, nə xoş kamaldı yüküm,
Beş gözəlin aşiqiyəm, vəsfi-camaldı yüküm.
Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,
Həmi dürdü, həmi gövhər, həm şəhdi-baldı yüküm.

Nütfəsindən əyri olan tez göstərər isbatın,
Hər ağac kökündə bitər, hər meyvə gözlər zatın.
Hərcayı hədyana sayar, naşı bilməz qıymatın,
Əhli-urfan məclisində gövhər misaldı yüküm.

Gəl ey biçarə Ələsgər, sığın şahi-Heydara,
Onun damənindən tutan yəqin ki, yanmaz nara.
Pirim özü nüsrət verdi, bu gün çıxdım bazara,
Sərrafısan, aç baxgınan, gör nə cəlaldı yüküm.

XALTANLI TAĞI

XIX əsrin birinci yarısında indiki Quba rayonunun Xaltan kəndində yaşamışdır. Quba, Şamaxı tərəflərdə məşhur olmuş, bir müddət Dağıstanda da yaşamışdır. Onun Dağıstana getdiyi illər Şeyx Şamil hərəkatı dövrünə düşmüşdür. Deyilənə görə, əsgərlər onu tutub Şamilin yanına gətirmiş, söhbət zamanı onun el sənətkarı olduğu aydınlaşmışdır. Tağıya burada, əsgərlərlə qalması təklif olunmuş, o isə aşığın el arasında olmasını söyləmiş və sərbəst buraxılmasını xahiş etmişdir. Xaltanlı Tağı oradan Tabasarana, Həştərxana, Şamaxıya, Gəncəyə, Qarabağa gəlmiş, el sənətkarı kimi müxtəlif bölgələri gəzmiş, Xoya, Xorasana getmişdir. Axırıncı xəbəri Təbrizdən gəlmişdir. Quba ağsaqqallarının söyləmələrinə görə, Xaltanlı Tağının əsli Təbrizdən olmuşdur. "Bəlkə gəlmədim" rədifli şeirində də buna işarələr vardır.

GƏRƏK

Salam verib bir məclisə varanda,
Böyükdən kiçiyə nəsihət gərək.
Ədəb-ərkan bilə, yol-təriq bilə,
Əslində, nəslində nəcabət gərək.

Arif olan itirməyə özünü,
Başdan çıxıb unutmaya sözünü.
Tanıya yerini, qoya dizini,
Ağır əyləşibən farağat gərək.

Durub hər kəlmədən yola düşməyə,
Köndələn uzanıb həddin aşmaya,
Dilin səbr eyləyə, çox danışmaya,
Dinəndə bir kəlmə xoş söhbət gərək.

Adam oğlu özün tutmasın yekə,
Yeriyib yerişi düşməsin şəkkə,

Bir tikə çörəyin yeyib, əl çəkə,
Müdam tikəsində qənaət gərək.

Hər kəs öyüd versə öz uşağına,
Dolana başına, solu sağına,
Asta qədəm qoyar yar otağına,
Birisi-biriynən xoş söhbət gərək.

Demə ki, bu dünya baqidi, baqi,
Güvənmə heç yana axmaz ayağı,
Qocalmısan bəsdi, Xaltanlı Tağı,
Bundan belə sənə ibadət gərək.

VAR

Gərək olmayasan ağıl möhtacı,
Olsan bu dünyada əziyyətin var.
Qaldırsan yıxılanı, doydursan acı,
Sanarsan Kəbəyə ziyarətin var.

Qoç igidlər bu dünyada var olsun,
Hər biri könüldən xəbərdar olsun,
Ağalar ağası sənə yar olsun,
Bəndə duasından nə minnətin var.

Nə qədər cəhd etsə söndürməz yağı,
Bir kəsin yanırsa Haqdan çırağı,
Başını uca tut Xaltanlı Tağı,
Ellərin içində çün hörmətin var.

DE GÖRÜM

Könül quşum nə tutqunluq edirsən,
Kimə vəfa qılmış fani, de görüm?
Dünyada çox şahlar, sultanlar olub,
Onlardan bircəsi hanı, de görüm?

Lövünbə-lövündür bəzənən cahan,
Kimi qoca gedir, kimisi cavan,
Yıxığı durğuzub, acı doyuran,
Bir əl tutan müsəlmanı, de görüm?

A Xaltanlı Tağı, nöş oldun ası,
Çağır köməyinə Xıdır İlyası,
Bir vədə gələndə canın yiyəsi,
Harda gizlədərsən canı, de görüm?

NƏDİ

Mən fələyin şərbətindən içmişəm,
Həmdəm olan, gəl halımı gör nədi.
Bu dünyada bostan olar, həm solar,
Yemiş nədi, çiçək nədi, bar nədi?

Yığılar bir yana bir beş-onumuz,
Qibləyə çevrilər bizim yönümüz.
Beşcə arşın bez olacaq donumuz,
Atlaz nədi, zərbaf nədi, zər nədi?

Çoxu zail olar, çox bel bükülər,
Beyin qaynar, sümük çatlar, tökülər.
Məşhər günü bizə bir ev tikilər —
İşıq nədi, baca nədi, dər nədi?

Tağı deyər gözlər doymaz sürmədən,
Qəbrə girər, aşıq yarın görmədən.
Altdan torpaq, dörd tərəf daş, lüt bədən —
İsti nədi, soyuq nədi, qar nədi?

ŞİŞQAYALI AYDIN
(1825-1915)

XIX əsr Göyçə aşıq mühitinin yetirdiyi istedadlı söz ustasıdır. Şişqayalı Aydın, Şair Aydın adı ilə xalq arasında tanınmışdır. Onun zəngin yaradıcılığından ancaq yaddaşlarda qalan az bir hissə bizə gəlib çatmışdır. Əlimizdə olan şeirlər Şişqayalı Aydının təbli, istedadlı sənətkar olduğunu göstərir.

AY AĞALAR, AY QAZILAR

Ay ağalar, ay qazılar,
Dünya kimə qalacaqdı?!
Cəfa çəkdim, can çürütdüm,
Fələk bir gün alacaqdı.

Oturubsan ağ otaqda,
Olmayacan bu damaqda.
Altın torpaq, üstün taxta,
İnkir-minkir gələcəkdi.

Aydın deyər, malın çoxdu,
Çox malın vəfası yoxdu.
Körpü birdi, karvan çoxdu,
Gələn bir-bir keçəcəkdi.

RƏCƏB EHRAQLI
(1825-1891)

Dərbənd aşıq mühitinin yetirməsidir. Rutul bölgəsinin Ehraq kəndindəndir. Ustad aşıq olmuş, Dərbənd, Quba, Samur və s. tərəflərdə haqq aşığı kimi tanınmışdır. Gözləri şikəst olduğu üçün Ehraqlı Rəcəbə "kor aşıq" da deyilmiş, haqqında maraqlı əhvalatlar, hekayətlər söylənmişdir. Aşıq Rəcəb klassik aşıq yaradıcılığını mükəmməlliklə öyrənmiş, ağır məclislər aparmış, güclü yaradıcı təbə malik olmuşdur. Bizə gəlib çatan şeirləri də onun ustad sənətkar olduğunu göstərir.

NƏ BİLSİN

Bir kimsə ki, şəhadəti bilməyə,
Ol nəzurəbinnası nə bilsin?
Oruc tutub itaəti qılmayan,
Həqq Allahı, Həqqənnəsi nə bilsin?

Ədəb-ərkan mərifətdən bilməyən,
El içində adlı-sanlı olmayan,
Toy günündə şad oluban gülməyən,
Vay günündə tutan yası nə bilsin?

Doğru yolda solu-sağı bilməyən,
Kətan ilə bezi, ağı bilməyən,
Rəqibi özünə yağı bilməyən,
Mahud ilə al-atlası nə bilsin?

Rəcəb der: Bir eşqin camın içməyən,
İçibəni əqli-başdan keçməyən,
Təcnis ilə qafiyəni seçməyən,
Təxmis ilə müxəmməsi nə bilsin?

PADARLI ABDULLA

XIX əsrdə Oğuzun Padar kəndində yaşayıb yaratmışdır. Mənbələrdə iyirmiyə qədər şeiri qalmışdır. Xalq şeiri üslubunda söz qoşan sənətkarlardandır. Gözəlləmələri, ustadnamələri və təcnisləri Şirvan aşıqlarının repertuarında geniş yayılmışdır.

BƏYƏNMƏZ

Ay ağalar, bir zəmanə gəlibdir,
Həmtay olan heç həmtayı bəyənməz.
Qara qızlar sürmə çəkib gözünə,
Gözəllikdə Züleyxayı bəyənməz.

Müqəddəm bəylərə verirdi qəlyan,
Xəlayiqi quduz kimi dalayan,
Ayaq üstə sini dibi yalayan,
Qohum-qardaş, əmi-dayı bəyənməz.

Namərdlərin dolu olur, torbası,
Deyir: «Mənəm tacirlərin zorbası»,
Ya bunların artıq düşüb arpası,
Düldül kimi badpayı bəyənməz.

Kor bəyənməz mütləq gözü görəni,
Kar da qulaqları darı dələni,
Hampalar incidir çörək verəni,
İgit qudurub, qaysavayı bəyənməz.

Yəqin gündüz gəzə bilməz yarasan,
Gecələr də deyər: «Mənimdir dövran»,
Çip-çip edər alacəhrə, bitdiyan.
Oxumaqda torağayı bəyənməz.

GÖRMƏDİM

Bu həsrəta, çərxi-fələk əlindən,
Çünki dostu-mehribanı görmədim.
Camali-kamalın dildən eşitdim,
Nə fayıda zənəxdanı görmədim.

Neçə müddət könül intizar idi.
Fikrim, zikrim xəyalımda yar idi,
Dedilər ki, yaxşı dövran var idi,
Mən çox gəzdim o dövranı görmədim.

Devreyi-ruyunu almış təravət,
Yandırdı ciyərim nari-fəraqət,
Əzrayıl tək gəldi ruzi-qiyamət,
Getdim sidri-müntəhanı görmədim.

Səndən ayrı ahü-fəğan edirdim,
Bu sirrimi xalqa nəhan edirdim,
Könül məclisində seyran edirdim,
Baxdım şəmi-şəbistanı görmədim.

Abdullayam, baş açmadım bu sirdən,
Fələk üz döndərdi mən tək fəqirdən,
Möcüzləri xəbər aldım səfirdən,
Cavab verdi: “Məsihanı görmədim”.

MUSA AĞKİLSƏLİ (SƏFƏROĞLU)
(1830-1912)

Göyçə mühitinin istedadlı saz şairlərindən olmuşdur. Aşıq Ələsgərlə bir kənddə yaşayan Musa ona böyük ehtiram göstərmiş, şeirlərinə nəzirələr qoşmuşdur. Koroğlu havalarını zamanında onun qədər ustalıqla heç kəs oxuya bilməmişdir. Bu səbəbdən də onu "Koroğluxan" adlandırmışlar. Aşıq sənətinə böyük maraq göstərmiş, saz havalarını, dastanları, ustadların yaradıcılığını mükəmməlliklə mənimsəyə bilmişdir. Aşıq şeirinin çeşidli formalarında şeirlər qoşmuşdur. Həyatının çox hissəsini səfərlərdə keçirmiş, Türkiyəyə, İrana səfərlər etmişdir. "Nə günahı telli sazın", "Bir gün", "Kəklik", "Gülə-gülə", "İndi", "Dilbər", "Biri yaz", "Var", "Olmaz", "Ay üzə-üzə", "Ağlar", "Mənnən" və s. qoşma, gəraylı və təcnisləri bu gün də xalq arasında məşhurdur.

NƏ GÜNAHI TELLİ SAZIN

Məclisləri abad eylər,
Nə günahı telli sazın?!
Məlul könülləri şad eylər,
Nə günahı telli sazın?!

Yeki şəcər, yeki dəmir,
Ara vurmur, yalan demir,
Qazı kimi rüşvət yemir,
Nə günahı telli sazın?!

Fikrini vermir qələmə,
Zülm eyləmir aləmə,
Pulunu vermir sələmə,
Nə günahı telli sazın?!

Yoldan çıxıb, yolun azmır,
İblis kimi ara pozmur,
Molla kimi cadu yazmır
Nə günahı telli sazın?!

Musa vəsfin söylər saza,
Ruh verir gəlinə, qıza,
Oxşamayır şeytanbaza,
Nə günahı telli sazın?!

BİR GÜN

Könül, ara dostlarını,
O da səni gəzər bir gün.
İki mirqəzəb əyləşib,
Xeyir-şəri yazar bir gün.

Ey yükü tunc olan kimsə,
Nağdısı vec olan kimsə,
Nütfədən kəc olan kimsə
Doğru yoldan azar bir gün.

Yazıq Musa eylər dilək,
Bu qəm bizi qoymaz gülək.
Demədimmi çərxi-fələk,
Bu dövranı pozar bir gün.

DİLİM

Dilim, sənə bir nəsihət deyirəm,
Dünyanın malına sarışma, dilim!
Yəqin eylə, ölüm haqdı qabaqda,
Qiyamət oduna alışma, dilim!

Mənim sözlərimi saxla əmanət,
Haqqınan dost olan tez tapar nicat.

İstəyirsən sərin ola salamat,
Ağlına gələni danışma, dilim!

Sən uyma namərdə, gördüm səxasın,
İçməynən, zəhr olur mey piyaləsin,
Hər kəs çəkər öz ağlının bəlasın,
Fitnəvü şərlərə qarışma, dilim!

Bir məclisə vardım, sən ol nöqtə hal ,
Eşidənlər səndən dərk etsin kamal,
Dindirsələr dillən, yoxsa da ol lal,
Hərcayi danışıb gülüşmə, dilim!

Musa eşqə alışmayıb, nə lazım,
Bivəfaynan qonuşmayıb, nə lazım,
Allah özü sirr açmayıb, nə lazım,
Sən bildiyin sirri gəl açma, dilim!

DƏLİ KÖNÜL, SƏNDƏ NƏLƏR DOLANIR

Dəli könül, səndə nələr dolanır,
Biri qışdır, biri payız, biri yaz.
Üç əlamət gözəllərin nişanı,
Biri işvə, biri qəmzə, biri naz.

Coşqun çaylar kimi qaynadım, doldum,
Heyva tək saraldım, gül kimi soldum,
Gedər ikən üç gözələ tuş oldum,
Biri qarı, biri gəlin, biri qız.

Qürbət eldə kimdi halım soruşan,
Ağ üzündə qoşa xal verir nişan,
Üç şeydir ki, bu otağa yaraşır,
Biri Musa, biri söhbət, biri saz.

ÖYSÜZLÜ SƏMƏD
(1840-1918)

Tovuz aşıqlığının yetirdiyi ustadlardan olmuşdur. Yüksək yaradıcı təbi, fitri istedadı ilə sayılıb-seçilmişdir. Ustadların repertuarında yaşayan poetik örnəkləri, o cümlədən də ustadnamələri dərin məzmun və dərin poetik siqləti ilə seçilir. Müxtəlif toplularda gəraylı, qoşma, təcnis və müxəmməsləri çap olunmuşdur.

SƏNƏ QALMAZ

Yüz il də olasan bir bağa bağban,
Axır sərəncamı bağ sənə qalmaz.
Nə can qalar cəsətiyin içində,
Nə də ki cəsətin sağ sənə qalmaz.

Bir gün də qabağın açılsa yasdan,
Ayrı düşəcəksən yenə də dostdan.
Dirrikçi olasan, əkəsən bostan,
Nə şamama, nə də tağ sənə qalmaz.

Qəlbimin tərlanı düşüb borana,
Fikrim dağınıqdı, könlüm virana,
Yüz min yol salasan dağa, arana,
Nə aran, nə də ki, dağ sənə qalmaz.

Mərd olasan, bu meydanda durasan,
Çox pəhləvanları yolda yorasan,
Yüz əlli minara sən qurdurasan,
Heç birindən bir otaq sənə qalmaz.

Səməd, deyilənə baxmaz yerirsən,
Dağca olsan qılcan qalmaz, ərirsən
Daş altında, torpaq üstə çürürsən,
Axır sümüklərin sağ sənə qalmaz.

LAYİQ DEYİL

Baxdın gördün ki, bir sirri pünhandı,
O sirri bilməyin bil layiq deyil.
İki göz bir olub edir ixtilat,
Araya girməyin bil layiq deyil.

Dostuna gəl özünü bildirgilən,
Düşmənini söz ilə öldürgilən,
Elə din ki, məclisi güldirgilən,
Öz-özünə gülməyin layiq deyil.

Ariflər əmridi bizə desənə,
Nakəs adam nə söyləyə, nə dinə.
Haqq yolunda qulluq elə birinə,
Hər qapıda ölməyin layiq deyil.

Yazıq Səməd, heç bir sirrə yetmədi,
Gövhərini kimsə verib satmadı.
Bir məclisə vardın, səni tutmadı,
Bir də gedib-gəlməyin layiq deyil.

DÜNYADA

Bu qoca dünyada yox ömrə vəfa,
Görün olacaqdır nələr dünyada.
İnsan olan şirin-şirin danışar,
Heyvan olan gedər, mələr dünyada.

Yeddi yerir, səkkiz çəkir, beş mələr,
Mənəm deyənlərin yurdu “heç” mələr,
Axan sular, qaynar bulaq çeşmələr,
Necə olacaqdı sular dünyada?

Üstündən el köçmüş dağlar görmüşəm,
Dağılmış, talanmış bağlar görmüşəm,
Mənəm deyənləri ağlar görmüşəm,
Kimsə ağlar, kimsə gülər dünyada.

Səməd ki, var bir quruca cəsəddi,
Dünyada hamıya ölüm qismətdi,
Qanlı fələk, bəs bu necə mürvətdi,
Cavan oğlanlar da ölər dünyada.

ŞENLİK ÇILDIRLI
(1853-1912)

Çıldır-Ağbaba aşıq mühitinin yetirdiyi ustad sənətkarlardandır. Erkən yaşlarından saza, bədahətən söz deməyə meyilli olmuşdur. Əsl adı Həsəndir. Dayısı İbrahim onun istedadını görüb Borçalıda o zaman məşhur olan Aşıq Nurunun yanına gətirmişdir. Sonralar "Şenlik" adı ilə məşhurlaşan Həsən Aşıq Nurunun yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişdir. Aşıq Şenlik ömrünün böyük hissəsini Borçalıda, Çıldırda keçirmişdir. Şenliyin şeirləri 1920-ci illərdən Azərbaycan mətbuatında çap olunmağa başlamışdır. "Lətif şah", "Sevdəgar şah və Gülnaz", "Salman bəy və Durna", "Səməd bəy", "Məhəmməd və Güldanə", "Əhməd və Gözəl" dastanları da vardır.

Ustadnamələri Çıldır-Ağbaba, Borçalı və Qars bölgələrində geniş yayılmışdır.

CALASAN DA

Keçən günə gün çatammaz,
Günü-günə calasan da!
Dərdli adam gecə yatmaz,
Şirin layla çalasan da!

Öz dərdini özün üyüt,
Alma, heyva verməz söyüd.
Anlamazlar almaz öyüd –
Şahmar olub çalasan da.

Səfil Şenlik ağlar, gülməz,
Nanəciblər dostu bilməz.
Fani dünya sənə qalmaz,
Altun verib alasan da.

DÜŞMANA

Əhli-islam olan eşitsin, bilsin,
Can sağ ikən yurd verilməz düşmana.
İstər ki, Uruset nə var ki, gəlsin,
Can sağ ikən yurd verilməz düşmana!

Qurşanın qılıncı, geyinin donu,
Qovğa buludları sardı hər yanı,
Dodu qoç iyidin şan almaq günü,
Can sağ ikən yurd verilməz düşmana!

Əsgər olan bölük-bölük bölünər,
Qars qalası sandızmı ki, alınar,
Boz atlar üstündə qılınc çalınar,
Can sağ ikən yurd verilməz düşmana!

Qovğa günü namərd səfa yer arar,
Ər olan köksünü düşmana gərər,
Cəmi ərvah biznən meydana girər,
Can sağ ikən yurd verilməz düşmana!

Hələ Alosmanın görməyib zorun,
Din qeyrəti olan, tədarük görün!
At təpin, baş kəsin, qazağı qırın,
Can sağ ikən yurd verilməz düşmana!

Şenlik, nə durursan, atdarı minin,
Sıyra qılınc düşman üstünə dönün!
Artacaqdı şanı bu Alosmanın,
Can sağ ikən yurd vermənik düşmana!

GÖRÜBDÜ

Necə söz deyəsən qəm ərbabına,
O da sənin kimi zəri görübdü.
Dindirəndə haldan olar xəbərdar,
Cəbrə düşüb hər əfkarı görübdü.

Dost dostuna etsə iqrar imanı,
Qiyamətə gedər müddət zamanı.
Könül uman yerdən kəsməz gümanı,
Çün əzəldən etibarı görübdü.

Şenliyin zehnini verməyin zaya,
And verirəm, o yaradan Xudaya.
Bel bağlama dövrü keçən gədaya,
Neçə əyyam ruzigarı görübdü.

MƏNƏM
(divani)

Düşmüşəm qəm dəryasına ummanda üzən mənəm,
Röyada çərxi aləmi dövr edib gəzən mənəm.
Dərsim aldım pünhandan əyana çıxmaz sirrim,
Əhli mərifət, xoş nəsihət, cəvahir lisan mənəm.

Səmada məhlukat gördüm nəzmidir nur dənəsi,
Çıxmaz ərşə, enməz xaka incidəndir binası.
Yirmi dörd sahat, min dörd yüz qırxdır mənası,
Birində min kərə haqqa şükr edər insan mənəm.

Nə layiq ki, məni deyib arzulayıb gələsən,
Divanı aləm içində imtahana salasan.
Desələr ki Səfil Şenliy sən bir əzim qalasan,
Rütbəm ərşə dirək olsa xak ilə yeksan mənəm.

MOLLA CUMA
(1854 -1920)

Azərbaycan aşıq sənətinin inkişafında həm ifaçılıq qabiliyyətinə, həm də yaradıcılıq keyfiyyətinə görə misilsiz rol oynamış ustadlardan biri də Molla Cumadır.

Uşaqlıqdan saza-sözə xüsusi maraq göstərən Cuma təqribən on beş-on altı yaşlarından saz çalmağa başlamış, el arasında söyləndiyinə görə, elə həmin yaşlarda da ona vergi verilmiş, yuxuda aşıqlıq badəsi içirilmişdir. Bundan sonra o, peşəkar aşıqlığa başlamış, Şəki-Zaqatala-Balakən bölgəsi və Dərbənd-Dağıstanda el-oba məclislərində saz-sözüylə ad çıxarmışdır.

Aşığın poetik irsi zəngin və çoxşaxəlidir. Beş hecalıdan tutmuş on altı hecalıyadək elə bir aşıq şeiri şəkli yoxdur ki, Molla Cuma ondan istifadə etməsin. Özünəqədərki bəlli aşıq şeiri şəkillərindən əlavə o, bir çox yeni biçimlərdə şeirlər də yaratmışdır. Onun gəraylı, qoşma, təcnis, divani və müxəmməs kimi biçimlər üzərində apardığı yeniləşmələr klassik Şərq poetikasına məxsus fiqur və qaydaların aşıq şeiri şəkillərinə tətbiq edilməsi nəticəsində baş vermişdir.

Molla Cumanın ustad öyüdləri də öz dərin fəlsəfi yükü ilə seçilir.

DEMƏDİMMİ

Bivəfadan aşna tutma
Könül, sənə demədimmi?
Yaradan Haqqı unutma,
Könül, sənə demədimmi?

Nəsihətdən çıxmaginən,
Özün oda yaxmaginən,
Hər yetənə baxmaginən,
Könül, sənə demədimmi?

Gözəllərdə vəfa olmaz,
Daim duran belə qalmaz,
Ay mədəd, yar yenə gəlməz,
Könül, sənə demədimmi?

Ey könül, eşqə dolarsan,
Xəcalətdən tez solarsan,
Bir günü peşman olarsan
Könül, sənə demədimmi?

Ey könül, qazanın daşır,
Dərdi-qəmin başdan aşır,
Molla Cuma gözdən düşür,
Könül, sənə demədimmi?

OLARMIŞ

Bir iyidin bəxti olsa,
Ellər ona yar olarmış.
Dönüb işi tərsə düşsə,
Yarı da əğyar olarmış.

Bülbüllər çıxa bahara,
Sözləri bənzər gövhərə,
Kim getsə pulsuz bazara,
Şəhər ona dar olarmış.

Eşqin səməndini yaran,
Dost yolunda boynun buran,
Cavanlıqda dövran sürən,
Qocalıqda zar olarmış.

Kimdi mənim dərdim bilən,
Gözdən axan yaşım silən,
Cuma kimi yarı olan
Ağlamaqdan kor olarmış.

MƏN

Aşıqlıq Adəmdən icad olubdur,
Ol Adəm atanın nəvəsiyəm mən.
Nə qədər dünyaya aşıq gəlibdir,
Külli aşıqların anasıyam mən.

Aşıq anasıyam, şairlər kökü,
Gəzərəm dünyanı divanə təki.
Mahalım Göynükdü, şəhərim Şəki,
Layiski kəndinin binasıyam mən.

Binəm Layiskiyə düşübdür mehman,
Pədərim Salahdır, madərim Reyhan,
Vələdim Həsəndir, əxim Süleyman,
Familim Molla Oruc ədnasıyam mən.

Ədnayam, kəmtərəm, dərdə dərmanam,
Hənəfi məzhəbəm, həm müsəlmanam,
Nəbim Məhəmməddir, əhli-Quranam,
Mömin qardaşların aşnasıyam mən.

Aşnayam gedərəm doğru yolunan,
Bülbüləm, söhbətim olar gülünən,
Danışsalar yetmiş iki dilinən,
Ol qədər arifəm, qanasıyam mən.

Qanıram, ustaddan almışam dərsi,
Oxumuşam ərəb, türk ilə farsi,
Fikrim seyr eyləyir ərşinən kürsi,
Dərin kitabların mənasıyam mən.

Mənada Mollayam, Molla Cumayam,
İsmi Pünhan oduna pərvanayam,
Gəlmişəm cahana, bir gün fənayam,
Axırda Kərəmtək yanasıyam mən.

ALDANMA

Sevdiciyim, məndən sənə əmanət,
Hər yetənə, yalançıya aldanma.
Azdırarlar, fərar edər xasiyyət,
Hər gördüyün dilənçiyə aldanma.

Üç-dörd arşın bekar çitdən ötəri,
Bir girvənkə şəkər, qənddən ötəri,
Ağı olmuş beş qənfitdən ötəri,
Hər çərçiyə, dükənçiyə aldanma.

Molla Cuma səni sevdi əzəldən,
Əlin çəkməz sənin kimi gözəldən,
Evlər yıxan, araları düzəldən,
Araçıya, tələçiyə aldanma.

BAŞINI QOYA

Əsil dost məhləsinə girəndə,
İstər ayağına başını qoya.
Bədəsil doqqazda səni görəndə,
Qaçıban tez salar özünü öyə.

Bədəsil dost olan şadiman gəzməz,
Nə hörmət eyləsən ürəyi qızmaz,
Əsil dost sizinlə dostluğu üzməz,
İstərsə boynuna yüz qılınc dəyə.

Dəli könlüm, namərdlərdən qıraq ol,
Başın üstə yandırsa da çıraq ol,
Gəl, Cuma, bədəsil dostdan uzaq ol,
Bir əsil dost var ki, oxşayır bəyə.

EYLƏSİN

Aşıq olan cövri-cəfaya dözsün,
Ciyərini qara daşdan eyləsin.
Dünya nemətindən əlini üzsün,
Özün təmiz çörək, aşdan eyləsin.

Bilmək istəyənlər aşıq rəsmini,
Qalasın odlara gərək cismini,
Dərs alanda alsın canan ismini,
Sevda ilə qələm qaşdan eyləsin.

Molla Cuma dərya kimi dolmasa,
Saralıban heyva kimi solmasa,
Bir gözəldə insaf, mürvət olmasa,
Tanrı onu tezcə başdan eyləsin.

DAVALAR

Namərdinən mərddən xəbər söyləyim,
Namərd öz könlündə mənlik davalar.
Mərd olan al geysə, yekəlik bilməz,
Namərd şilə geysə, xanlıq davalar.

Ayıb olmaz mərdin heç nərəsində,
Əslində, bətnində, nə zərrəsində.
Namərd çavuş olsa kənd arasında,
Gedər o, divandan donluq davalar.

Cumanın göftarı arifə busat,
Mərdinən dolanmaq asanddı, asand.
Namərdin əlinə keçsə bir fürsət,
Qəpiyin yerinə onluq davalar.

DÜNYADI

Ta ki, mənə mədh eyləmə dünyanı,
Ha bu dünya bir bekara dünyadı.
Hələ Adəm peyğəmbərdən qabağa
Bir üzü ağ, biri qara dünyadı.

Dünyaya düşənlər qismətin yeyər,
Kamillər agahdı, cahillər uyar.
Sehrkardı, işin bilənlər duyar,
Vəfasızdı, həm məkkara dünyadı.

Altun səfalıdı, mədən səfasız,
Təbib şəfalıdı, xəstə şəfasız.
İnsan vəfalıdı, dünya vəfasız,
Əlbət, yaxşı bixəbərə dünyadı.

Dəryalar bulanmaz daş düşməyinən,
Qəvvaslar qərq olmaz su daşmağınan.
Ariflər anlayar danışmağınan,
Əlarifə yek işarə dünyadı.

Ağır suya girmə, keçə bilməzsən,
Yıxar səni, çıxıb qaça bilməzsən,
Qırar qanadların, uça bilməzsən,
Şahin-şonqar dönən sara dünyadı.

Ovçu-maral sözün qırağa qoyaq,
Bir məndən, bir səndən gəl indi deyək.
Əyri oturuban doğru söyləyək,
Söhbət qatan zəhrimara dünyadı.

Heç oxşarmı günə lampa işığı,
Qarın doymaz yalamaqla qaşığı.
Molla Cuma, sənin kimi aşığı
Kəmənd ilə çəkən dara dünyadı.

QALIBDIR

Ay ağalar, ixtiyarsız dünyadır,
Neçələrin ötgün sözü qalıbdır.
Neçə ulların, neçə qazının,
Neçə əfəndinin yazı qalıbdır.

Neçələrin bala durmaz yuvada,
Neçələrin əli qalmaz duada,
Neçələri dövran sürür dünyada,
Neçələrin seyri, düzü qalıbdır.

Neçələri mərhum olur beşində,
Neçələri ölür otuz beşində,
Neçələri gedir doxsan yaşında,
Neçələrin gündə gözü qalıbdır.

Mən Cumayam xoş keçinmir zamanım,
Axirətdə qarşı gəlsin imanım,
Beş gün dövr etməyə gəlmir gümanım,
Ol Aşıq Rəcəbin* sazı qalıbdır.

YA BİR OLAR, YA İKİ

İsmi Pünhan, niyə məndən küsübsən,
Yaxşı-yaman ya bir olar, ya iki.
Bir gün ölsəm, hamı deyər, yazıqdır,
Canı yanan ya bir olar, ya iki.

Sən şöləsən, dörd yanında fanaram,
Bülbülünəm, gülşənindən kənaram.
Od tutuban hər məclisdə yanaram,
Dərdim qanan ya bir olar, ya iki.

Hilal qaşa nə layiqdir o sürmə,
Meylin qırıb məndən üzün çevirmə,
Cuma deyər, hər yetənə sirr vermə,
Dost mehriban ya bir olar, ya iki.

---

* ***Ehraqlı Aşıq Rəcəbə işarə edilir.***

ŞAİR MƏHƏMMƏD
(1857-1937)

Göyçə aşıq mühitinə mənsub şair-aşıqdır. Ağkilsə kəndində yaşamışdır. "Şair Məhəmməd" və ya "Çoban Məhəmməd" təxəllüsü ilə tanınmışdır. Zəngin istedadı, gözəl təbi olmuşdir. Babası Allahverdi, atası Alməmməd, qardaşları Ələsgər, Salah, Xəlil kimi onun da bədahətən şeir qoşmaq istedadı olmuş, bir neçə dastan da yaratmışdır. Bunlardan "Məhəmməd və Sərv Xuraman" ("Məhəmmədin Qars səfəri" də deyirlər) daha çox yayılmışdır. Şeirlərində ustad nəfəsi duyulur.

BİRDİ

Vəfalı dost tək-tək olar,
İnsanlarda yüzdə birdi.
Sən arzula cansağlığı,
Çox da birdi, az da birdi.

Kəklik ötər qış keçəndə,
Ovçu yanar boş keçəndə,
Güzaranın xoş keçəndə,
Qış da birdi, yaz da birdi.

Bir söz deyim, tapa bilsən,
Sınıq könlüm yapa bilsən.
Sevdiyini öpə bilsən-
Qaş da birdi, göz də birdi.

Məhəmmədəm, düşdüm xəstə,
Canım qurban yaxşı dosta.
Eşqin olsa sinən üstə,
Tar da birdi, saz da birdi.

VERƏM

Dostum məndən bir əmanət istəyib,
Ümidvaram, yaxın zamana verəm.
İxtiyarım ola, qüdrətim çata,
Yaxşının dərdini yamana verəm.

Divan olsam, nainsafam, çox pəsəm,
İsbat olan cinayətə tək bəsəm,
Qanmazın ömründən qayçıyla kəsəm,
Götürəm aşkara, qanana verəm.

Məhəmmədəm, halal etdim qanımı,
Eşqə düşən mənim kimi yanımı?
Əzrayıla saxladığım canımı,
İnsafdımı, indi canana verəm.

AĞDABANLI QURBAN
(1859-1934)

Nəsil və sənət şəcərəsi ilə Miskin Abdal (XVI əsr) ocağına bağlı olan Ağdabanlı Qurban mədrəsə təhsili aldığı üçün el-camaat arasında həm də Molla Qurban adı ilə tanınmışdır.

Çağdaşı olan Kəlbəcər aşıq və şairlərini çevrəsində toplayan Ağdabanlı Qurban saz-söz məclisi yaratmış, bu məclis həm onun sağlığında, həm də özündən sonrakı dönəmdə "Qurban bulağı" adı ilə şöhrətlənmişdir.

Ağdabanlı Qurban böyük saz-söz ustadı Aşıq Ələsgər və onun qardaşı oğlu Növrəs İmanla yaxın dost olmuş, oğlu Şəmşiri Göyçə mahalına Dədə Ələsgərdən sənət dərsi almağa göndərmişdir.

Ağdabanlı Qurban özündən sonra zəngin poetik irs qoyub getmişdir.

VAR

Əziz dostum, bir ilqarın ucundan,
Başı-candan, külli vardan keçən var.
Doğru sözün, etibarın ucundan,
Bağçadan, bağlardan, bardan keçən var.

Fələk çəkən sinəmdəki dağlardan,
Xəbərin yox mənim kimi ağlardan,
Qanlı gədiklərdən, qəmli dağlardan,
Daşqın seldən, dəryalardan keçən var.

Uca dağ başında qarı saxlayar,
İgid namus, qeyrət, arı saxlayar,
Tərlan itib, səyyad sarı saxlayar,
Dərdi artıb sədd-hasardan keçən var.

Vurursan sən məni möhnət daşıynan,
Üzümə xətt düşüb didəm yaşıynan,

Alışıb yanan var eşq ataşıynan,
Pərvanətək balü pərdən keçən var.

Bu dərd qalsa qiyamətə sinəmdə,
Sərf eylərəm sata-sata sinəmdə,
Bax həsrətə, bu heyrata sinəmdə,
Qurban, qorxma günahlardan keçən var.

ÇƏTİNDİ

Təbib yox, cərrah yox, bulunmaz əlac,
Sağalmaz, qurtarmaz, yara çətindi.
Zülümdü mərd ola namərdə möhtac,
Yamandı ayrılıq, ara, çətindi.

Hələ var dağlarda Məcnun naləsi,
Gəlir qulağıma kəsilmir səsi,
Qırılsa sağalmaz könül şüşəsi,
Bilməz, olsa para-para çətindi.

Ağlaram, gözümdən tökərəm yaşı,
Sinəmi yandırar möhnət atəşi,
Sərrafə yükləmək gövhərsiz daşı,
Həmdəm olmaq biilqara çətindi.

Bəxtəvərdi öz bəxtindən yarıyan,
Xoş gün görüb yarla birə qarıyan,
Axır qanım, yoxdu yaram sarıyan,
Müşkül dərdə ola çarə çətindi.

Tərsinə işləyir bu çərxi-dövran,
Tale sən deyəni demir hər zaman,
Qurban səyyad əldən uçurub tərlan,
Bir də gəlib düşə tora çətindi.

YAXŞIDI

İnsana mərhəmət ola kəramət,
Baxtıla fərasət, kamal yaxşıdı.
Kişi atasının öz oğlu gərək,
Loxmadan, nütfədən halal yaxşıdı.

Tut nəzərdə sən bu çərxi-gərdişi,
Gecəli-gündüzlü yazınan qışı,
Arif olan özü bilər bu işi,
Eləmək dərindən xəyal yaxşıdı.

İnsan oğlu, mütləq inan, yəqin bil,
Mötəbər həqiqət əfsanə deyil.
Firqeyi-şeytana nəsihət deyil,
Təsir etməz zurna, qaval yaxşıdı.

Dağıtma fikrini, itirmə huşu,
Məhək seçər qəlpi, qızıl, gümüşü.
Tamahkar sənətkar, bədnəzər qonşu,
Heç deməz: camaat, mahal yaxşıdı.

Qurban, yaz nəsihət, yadigar, ustad,
Yaxşını, yamanı eyləyir isbat.
Vicdansız kişiyə həyasız arvad,
Deyir: zəhmət pisdi, sığal yaxşıdı.

OLMAZ

Səyə salam vermək insafdan deyil,
Əqrəbə, ilana sarışmaq olmaz.
Silaha aldanmaq, əbəs öyünmək,
Xaini-xəbisnən duruşmaq olmaz.

Təəccübəm bu qurğuya, bu fəndə,
Nahaq yerə qəza salır kəməndə,
Yazıq canım əhli-arif görəndə,
Söyləyib dərdini danışmaq olmaz.

Qurbanam, yamana qol qoyam çətin,
Demərəm dünyada bir kəsin bədin,
Dilim qadağadı, nə danış, nə din,
Nə sirr açmaq, nə söz soruşmaq olmaz.

VAXTI

Bir canda ki, ola sümük azarı,
Oynar, durmaz dəf olan vaxtı.
Yaxşı-yaman bilməz, danışar hədyan,
Əqli sərsər olar, kef olan vaxtı.

Bağban bar bəsləsə barı çox istər,
Xəstə meyli qarı, narı çox istər,
Acgöz doymaz, dövlət-varı çox istər,
Şadlanar dövlətə, nəf olan vaxtı.

Qurban, insan varmı dərdsiz, vərəmsiz,
Mətləb yazmaq olmaz kağız, qələmsiz,
Qul xətasız olmaz, ağa kərəmsiz,
Bağışlar əlbəttə səhv olan vaxtı.

DÜNYADA
(divani)

Səadətdi kəskin oldu kimin baxtı dünyada,
Kani-səxa nəzər etdi, ya xoş baxdı dünyada,
Ədalətdən qafil olma, səxavətdən həmçinin,
Əgər olsa əldə varın olan vaxtı dünyada.

Hanı Nəmrud, hanı Firon, hanı neçə zülmkar?
Hanı Loğmani-Ərəstun, qoymaz qala ruzigar?
Hanı İsgəndər, Süleyman, olan sahib-ixtiyar?
Onları da atəşlərə fələk yaxdı dünyada.

Fəhlə, kəndli, muzdurları, füqəranı dağlayan,
Nərdivan var, enər, qalxar, gülər bir gün ağlayan,
Nakəslərə qardaş deyib, namərdə bel bağlayan,
Əqli kamil demək olmaz, bir axmaqdı dünyada.

Sən qəvisən, qollarında dağlar gücü çox da var,
Xalqın malın alma əldən, qoçu, quldur, ol kənar.
Bir misal var, xain artmaz, ədalət açar bazar,
Külli-aləm şükr eyləyər, xoş gün çıxdı dünyada.

Məhəksən, seç simuzəri, sərrafısan bax sözə,
Kəlmələri şəhdi-zülal, gah nəsihət, gah məzə.
Qurbana Haqdan mərhəmət, sizdən rəhmət bizə,
Dastan deyib dəftər yazan hanı? Yoxdu dünyada!

DAŞKƏNDLİ NƏCƏF
(1860-1919)

Göyçə mahalının Daşkənd obasındandır. Olduqca zil və şaqraq səsə malik olmuş, yüksək ifaçılığı ona böyük hörmət qazandırmışdır. Aşıq Ələsgərə on il şagird olmuş, onunla birgə ağır məclislər aparmışdır. Aşıq Nəcəf səliqə-səhmanı, ədəb-ərkanı ilə də həmişə nəzər-diqqəti cəlb etmişdir. Onun səsi ilə Aşıq Əsədin səsi arasında yaxınlıq olmuşdur. Keçən əsrin əvvəllərində (1919) ermənilər onu və Göyçənin nüfuzlu bəylərindən olan Səməd bəyi danışıq bəhanəsi ilə çağırıb qətlə yetirmişlər. Daşnaklar Aşıq Nəcəfin belinə qaynar samovar bağlamış, faciəli şəkildə, əzabla öldürmüşlər. Aşıq sənətinin tarixinə yaradıcı istedadı, yüksək ifa qabiliyyəti, faciəli taleyi ilə adını yazmışdır.

QARDAŞ

Ağız vermə, qurumsağa, sarsağa,
Aldığı nəfəs də yalandı, qardaş.
Həyasız qadınlar naməhrəm olar,
Keçmə ətrafına ilandı, qardaş.

Yaltağın ürəyi dumandı, sisdi,
Paxılın ürəyi qurumdu, hisdi.
Aşığın dıydığı lotudan pisdi,
Mollanın dıydığı şeytandı, qardaş.

Eliynən ağlayıb əgər gülürsə,
Haqqın ayağına əgər gəlirsə.
Yaxşını yamandan seçə bilirsə,
Deməli Nəcəf tək insandı, qardaş.

MƏN

Gecə də, gündüz də yalvarışdayam,
Tutmuşam Tanrının ətəyindən mən.
Hay verən tapılmır, hey püfləyirəm,
Hələ ki, düzlüyün tütəyindən mən.

Hayıf, nadan üçün tökdüm göz yaşı,
Bedasıl yolunda ağartdım başı.
Ayıra bilmədim qohum-qardaşı,
Şər-böhtan, kin-küdrət ətəyindən mən.

Nəcəf çox sınadı mənəm deyəni,
Hey yıxılan gördüm özün öyəni.
Nadan qamçısıyla döysə yüz məni,
Ayrılmaram Haqqın pətəyindən mən.

YETİR

Kainatı, yeri, göyü Yaradan,
Dərdlərə dərman ver, bir ayə yetir.
Ağbirçək analar fəğan eyləyir,
Bax aha, amana haraya yetir.

Dolanır tərsinə dünya gərdişi,
Pozulmaz olubdu millətin işi.
Mehracda, Hatifdə danışan kişi,
Özün kərəm eylə, buraya yetir.

Qurtar bu milləti əzabdan, dardan,
Nəcəf ayrı düşüb qohumdan, yardan.
Sidq ilə çağırram: - ya Şahı Mərdan!
Bağışla yüz on dörd surəyə yetir.

HÜSEYN BOZALQANLI
(1863-1941)

Aşıq Hüseyn bütün ömrü boyu Tovuzda, doğma kəndi Bozalqanlıda yaşamışdır. O, ifaçılıq məharətindən daha çox yaradıcılıq keyfiyyətinə görə şöhrətlənmişdir. Aşıqlığın bağlı olduğu fəlsəfi-ürfani qaynaqları, Quran və islam mədəniyyətini, o cümlədən təsəvvüfün incəliklərini dərindən bildiyi və bədahətən şeir söyləmək qabiliyyətinə malik olduğu üçün söz-sənət sınaqlarında özünü yetkin sənətkar kimi aparmış, söylədiyi şeirlərin poetik sərrastlığı və dərin məna-məzmun tutumu ilə qarşısındakıları heyran qoymuşdur. Onun müxtəlif vaxtlarda Qaraçöplü Aşıq Musa, Xəyyat Mirzə, Miskin Əli, Şair Ağacan, Quşçu İbrahim, Qazaxlı Mirzə Səməd, Bozalqanlı Şair Vəli, Əlimərdanlı Nəcəf kimi ustad sənətkarlarla deyişmələri dillər əzbərinə çevrilmiş, hətta həmin əhvalatlar dastanvari rəvayətlər şəkli alaraq («Aşıq Hüseynin Tiflis səfəri», «Aşıq Hüseynin Borçalı səfəri» və s.) aşıq repertuarına daxil edilmişdir.

YAXŞI AT

Səyyad olub dursan ov bərəsində,
Yaxşı yerdə yaxşı dinlə, yaxşı yat.
Ovun gəlib bərəsinə çatanda,
Dürüst oxu qoy kamana, yaxşı at.

Bekar arvad cavan ərin qocaldar,
Əsil olsa, çox dərdini azaldar,
Üç şey deyim, insan başın ucaldar,
Yaxşı səxa, yaxşı süfrə, yaxşı at.

Axmaq qohum xalqı sənə güldürər,
Pis qardaşın dərdi adam öldürər,
Hüseyn deyər, yıxılsan da qaldırar,
İgid düşmən, ilqarlı dost, yaxşı yad.

YAXŞI AD

Mərd igidi üç şey qabağa çəkər,
Biri sirdaş, biri yoldaş, biri ad!
Bir doğru söz min yalandan yaxşıdır,
İnsaf deyil, mərdi sən namərdə sat!

Bədöy mənzilinə hər at yetirməz,
Nanəcibə öyüd versən götürməz,
Ölənədək nişanını itirməz,
Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat!

Hüseyn sözün nə gizləyə, nə dana,
Nə yaranar, daha doğar nə də ana.
Gövhər mətahını açma nadana,
Tök bazara, sərrafına yaxşı sat!

YA DƏYƏ
(təcnis)

Nə lazımdır naqabilə söz deyəm,
Xatirinə ya dəyməyə, ya dəyə?
Sizin olsun eyvan, otaq, alaçıq,
Bizə bəsdir ya kölgəlik, ya dəyə.

Pis öylada öyüd versə yaxşı ata,
İgid çıxıb süvar olmaz yaxşı ata.
Kamil ovçu bərəsində yaxşı ata,
Keçirəndə ya dəyməyə, ya dəyə.

Hüseyn deyər, mayil oldum Gülxara,
Geyinibdi atlas, ziba, gülxara.
Qorxuram ki, qismət ola gül xara,
Bağban ölə, dal budağı yad əyə.

DÜŞMÜŞƏM

Qırxlar piri özü verib dərsimi,
Şair cərgəsində sana düşmüşəm.
Arif məclisində, alim yanında,
Neçə dəfə imtahana düşmüşəm.

Bir zaman əlimdə zil bəm saz oldu,
Gözəllər mənimlə üzbəüz oldu.
Suyum artıq gəldi, tozhatoz oldu,
İndi də yumşalıb una dönmüşəm.

Özüm aşiq olub gəzirəm eldə,
Qaldı həsrət gözüm əbrişim teldə,
Ələsgər danışan təşbeh misalda,
Hüseyn deyər, həmən günə düşmüşəm.

DANIŞMA

Yön çevirib bir məclisə varanda,
Ağır otur, sağa-sola danışma.
Hərcayı söyləmə, pis adamlar tək,
Laf edibən gülə-gülə danışma.

Sözün tutma hər azğının, axmağın,
Xoşlanılmaz aralıqdan çıxmağın.
Layiq deyil başa qaxınc qaxmağın,
Öz eybini bilə-bilə danışma.

İnsan gərək hər məclisdə sayılsın,
Həqiqətdən danış, “Əhsən!” – deyilsin.
Kəlmə çıxart, şirin cana yayılsın,
Aşırıb sözünü zilə, danışma.

Hər gizli sözünü söylə qanana,
Aşiq olma şər-böhtana, yalana.
Sirrin vermə hər üzünə gülənə,
Tez düşəcək dildən-dilə, danışma.

Yazıq Hüseyn, əhdin yetər yerinə,
Çək sözünü şəriətə, dərinə.
Satginan mətahın xiridarına,
Hər söz anlamaza, mala danışma.

DÜNYADA

Qafil könlüm, aç gözünü , ayıq ol,
Qaranlıq qəflətdə yatma dünyada.
Hər bir zəmanənin bir tarixi var,
Məqamı gələndə ötmə dünyada.

Əyrilər işləməz düz bazarında,
Ariflər seçilər söz bazarında.
Gövhəri sərf eylə, öz bazarında,
Bazarı olmasa, satma dünyada.

Düşmənینə xədəngini gözlə vur,
Mərd dostuna aç sirrini, gözlə vur.
Şikarını bərəsində gözlə, vur,
Əfsanə oxunu atma dünyada.

Mərd igid dostuyla düz ülfət eylər,
Günbəgün artırar, məhəbbət eylər.
Müxənnət həmişə xəyanət eylər,
Namərdlə ülfətin qatma dünyada.

Qeybətə uyuban süxənkar olma,
Dosta yalan satıb günahkar olma.

Şeytanın qövlünə tərəfdar olma,
Günaha, bavala batma dünyada.

Hüseyn, gedişatdan olma bixəbər,
Həqiqəti müdam söylə sərasər.
Sabir tək səy ilə cəm eylə dəftər,
Ayrı bir iş, peşə tutma dünyada.

ÇƏKMƏSİN

Hər cəfənglər saz götürüb, söz deyib,
Şairlik ismini sana çəkməsin.
Çibin, milçək zənbur kimi sızlayar,
Qanqalın şəhdini şana çəkməsin.

Şairlik elmində pürkamal gərək,
Divani, təcnisi hər misal gərək.
Kotana qoşmağa kəltə kəl gərək,
Kəldən qabaq körpə dana çəkməsin.

Eşqin kürəsində bişib, yanmayan,
Qafiyəsin, qələtini qanmayan,
Bədöy bəsləyibən köhlən minməyən,
Ulağını bu meydana çəkməsin.

Ustadlar kəlamı bizə gələndə,
Xəstə cismim olur təzə, gələndə.
Arif mclisində üzə gələndə,
Onda yaxasını yana çəkməsin.

Lənət müxənnətə, ara qatana!
İnsan gərək yalan sözdən utana.
Xəbər verin, sınıq saxsı satana,
Cürdəyini hər sindana çəkməsin.

Qovğaya düşübdü, bu yazıq Hüseyn,
Nə məndə can qaldı, nə də baş, beyin.
Tülkü dərələrdə aslana boyun,
Hünərini qana-qana çəkməsin.

GƏRƏKDİR

Şair olub şeir, dastan yazanın,
Ellərin qəlbində yeri gərəkdir.
İncidən, sədəfdən, ləli-gövhərdən,
Sərrafın dəstində zəri gərəkdir.

Ustaddan dərs alıb, səfa sürməyə,
Haqqı, ədaləti aşkar görməyə,
Arif məclisində cavab verməyə,
Sənətkara zəhmət təri gərəkdir.

Arzusu, diləyi həqiqət üçün,
Səmimiyyət üçün, sədaqət üçün,
Bəşəriyyət üçün, məhəbbət üçün,
Qüdrətdən ilhamı, şeiri gərəkdir.

Eşqin dəryasına dalan aşiqin,
Ürəklərdə məskən salan aşiqin,
Tarixlərdə izi qalan aşiqin,
Sinəsində söz dəftəri gərəkdir.

Aşıq Hüseyn qəlbi şad qoyub gedə,
Kəlməsi dəhanda dad qoyub gedə.
Ölində dünyada ad qoyub gedə,
Qəbri nəsillərin piri gərəkdir.

GÖRMÜŞƏM

Bu qoca dünyanın yoxdur vəfası,
Gah boşalıb, gah da dolan görmüşəm.
Qızılgül açılıb heç xəndan olmaz,
Xəzan dəyib, birdən solan görmüşəm.

Cahanın gülünü bir kimsə dərməz,
Qəza kəməndinə düşən qurtarmaz.
Bəndə yüz çalışsa, biri düzəlməz,
Haqdan qeyrisini yalan görmüşəm.

Yazıq Hüseyn Haqqa verib guşunu,
Qəza vurub, qədər əyib işini.
İtirənlər düzə bilmir beşini,
Milyonlar dağılıb, talan görmüşəm.

OLACAQDIR

Könül, talib olub uyma şeytana,
Fitnə, şəmatəsi şər olacaqdır.
Bu dünya bir bağdı, bağbanı iblis,
Alması, heyvası, nar olacaqdır.

Gözəllər təşbehdi bağın gülünə,
Mail olma şirin ləhcə, dilinə.
Həvəslənib sığal vermə telinə,
Məhşərdə hər muyun mar olacaqdır.

Aldanma cifəyə, uyma fənaya,
Güvənmə dövlətə, simü-tilaya.
Bir gün apararlar dari-uqbaya,
Simu-zərdən əlin car olacaqdır.

Əməl bir parçadı, mələklər dərzi,
Dərk eylə vacibi, sünnəti, fərzi.
Nəkrail hayxırıb, çalanda gürzü,
Rövşən gözün tiri-tar olacaqdır.

Nütvədən pak olan siratdan keçər,
Müxənnət münkiri almazlar biçər.
Səxavət əhlini mələklər seçər,
Kövsəri-rizvandan yer olacaqdır.

Alma həqqünnasdı, tamı şirindi,
Heyva ribadı, qandı, irindi.
Nar səğir malıdı, hədsi dərindi,
Dənəsi cəsəddə nar olacaqdır.

Hüseyn, zaiğətül-mövtü yazanda,
Şərm eylə, sal yada fəhmin azanda.
Gün hərarət edib, yerlər qızanda,
Şahi-mərdan şəfakar olacaqdır.

ŞİRİN-ŞİRİN

Talib oldum bir bağbanın bağına,
Bağban bəsləyibdir bar şirin-şirin,
İstəsən ki, mətləbinə çatasan,
Qul ol, qulluğunda dur şirin-şirin.

Kamil bağban çəkər bağın cəfasın,
Gülün iylər, sürər zövqü səfasın,
Bir gözəlin başdan görsən vəfasın,
İstəsə, canını ver şirin-şirin.

Canım qurban ala gözüm məstinə,
Nə durubsan şirin canım qəsdinə,
Üzüm qoyum o gül üzün üstünə,
Qarışsın bir birə tər şirin-şirin.

Hərcayı sözləri Hüseyn eşitməz,
Haqdan bəla gəlsə, dosta tuş etməz,
Girsən yar qoynuna yəğin üşütməz,
Yağsa zimistanda qar şirin-şirin.

YAXŞIDI

Əzəl bir adamla dostluq eyləsən,
Onu çəksən imtahana, yaxşıdı.
Baxdın, gördün, ilqarına kəc oldu,
Ona tapsan bir bəhanə, yaxşıdı.

Hər kimsə ki, olsa nütfədən halal,
Şirin ləhcə, xoş sədaqət, düz xəyal,
Anlaqlı, həm mərifətli, pürkamal,
Kimdə olsa bu nişanə, yaxşıdı.

Hüseynin sözləri aşikar olar,
Qanana nəsihət yadigar olar.
Çox gülüb danışan biilqar olar,
Əhdə ilqar hər insana yaxşıdı.

SİNƏSİNƏ
(təcnis)

Təbib təbiətdən yazım gələndə,
Saldı qələmini tər sinəsinə,
Dedim elm oxuyam, kamala çatam,
Alim də oxutdu dərsi nəsinə.

Yaxşılar pis işi tərk edə gərək,
Xəstə şəfalansa dərk edə gərək,
Tər gəzən, dünyadan tər gedə gərək,
Tər gül də qoyula tər sinəsinə.

Dönməz namərd mərdə yara yetirsə,
Təbib neştər vurar yara yetirsə,
Hüseyn, həsrət əlin yara yetirsə,
Ölində baş söykə tər sinəsinə.



USTA ABDULLA
(1865-1943)

Usta Abdulla el şairi kimi tanınmışdır. Əsli Göyçə mahalının Zod kəndindəndir. Ömrünün çox hissəsi doğma obasında keçmişdir. Atası dülgər olmuş, sazbəndliyi də bacarmışdır. Abdulla da atasından dülgərlik peşəsini, saz düzəltməyi öyrənmişdir. Aşıq Ələsgər "Ustalıqda mən də gördüm bir dənə Zodlu Abdullanın kamalına baş" - deyə ona xüsusi dəyər vermişdir. Gəraylı, qoşma, təcnis, müxəmməs, deyişmələri onun zəngin yaradıcı təbinin olmasını göstərir. Daha çox təcnis ustası kimi tanınmışdır. Göyçədən köçən aşıq (1930) bir müddət Azərbaycanın ayrı-ayrı kəndlərində yaşamış, sonra Gəncədə məskunlaşmış, 1943-cü ildə burada vəfat etmişdir. Qəbri İmamzadə qəbiristanlığındadır.

DEMƏKDİ

El nəzəri üstündəsə,
Sənə dövlət, var deməkdi.
Baxma düşüb dən saqqala,
Dağ başında qar deməkdi.

Kəc baxarsa sənə zaman,
Dözməlisən ovsanmadan.
Qəfəsdəsə tülək tərlan,
Oylağında sar deməkdi.

Fikir vermə hədyan sözə,
Şəfa verir elm gözə.
Babalardan qalan bizə
Namus, qeyrət, ar deməkdi.

Şər işlərdən gəl ol qıraq,
Həqiqət axtaran qoçaq,
Qulağınla eşit ancaq,
Ya gözünlə gör deməkdi.

Sənətkarın var hörməti,
Çəkməz kimsədən minnəti,
Kimin olsa səxavəti
Mövlam ona yar deməkdi.

QARIŞAR

Mərdlərin içindən seçin namərdi,
İlqarsızdı gedib elə qarışar.
Kökündən çıxardın qara tikanı,
Heyifdi ətirli gülə qarışar.

Alçaq adam qarışdırar aranı,
Bayquşda adətdi sevər viranı,
Odun sayma qarağanı, turanı,
Yandırsan köz olmaz, külə qarışar.

Ağac bəlli olar yaxşı barından,
İgidlər seçilər düz ilqarından,
Abdulla, qala qurma dağlar qarından,
Yazda gün əridər, selə qarışar.

HARDA MƏN

İnsan odur fikirləşə düz seçə,
Kimnən gəzim, necə gəzim, harda mən.
Uyğun ola yoldaşlarım özümə,
Danışanda utanmayam orda mən.

Gələndə məclisə biləm yerimi,
Niyə duram görən kimi birini.
Ya danışam, ya da verəm sirrimi,
Cəhli düşə məğlub olam zorda mən.

Gərək hörmət edəm özüm-özümə,
Danışanda sərhəd qoyam sözümə.
Uzanmaya qoşa barmaq gözümə,
Çırpınmayam balıq kimi torda mən.

Abdullayam, hər hesabı qanmışam,
Haqsızlığa alışmışam, yanmışam.
Çoxlarını candan əziz sanmışam,
Heç görmədim yaxın gələn darda mən.

OLMAZ-OLMAZ

Yaxşıya bəd demə, düz demə nəsə,
Çalış toxunmasın sözün bir kəsə.
Kökü yerdə olub Günəş görməsə,
Hər bitən ağacda bar olmaz-olmaz.

Şirə döşürsən də sən ətək-ətək,
Arı bal toplamaz olmasa pətək.
Uca ağaclarda bar olmayantək,
Namussuz sifətdə ar olmaz-olmaz,

Sənətkar, sözün yaz, durma fəth eylə.
Gəzib yaylaqları sən gülə-gülə,
Fəqət bağlanmasan obaya-elə,
Bil sözün dillərdə car olmaz-olmaz.

ELƏ SƏN
(cığalı təcnis)

Yaxşılıq, yamanlıq borcdur dünyada,
Mərdanəsən, gəl yaxşılıq elə sən.
Aşıq deyər elə sən,
Oxu dərsin elə sən.
Yamanlığa yaxşılıq,
Gəl həmişə elə sən.
Öz-özünə çox boy verib ucalma,
Çıxammazsan obaya sən, elə sən.

Mərd igidlər sadə olar yəqindi,
Ürəyimdə qalmayıbdı yağ indi.
Aşıq deyər yəqindi,
Ədalət var yəqindi.
Qapı döyən agah ol,
Döyülər qapın yəqindi.
Göz ağrıyar bəduğuru görəndə
Əl çəkmirsən, ha çıxırsan elə sən.

Dost yolunu gözləyərmi bedasıl,
Bekar yola qulluq edər bəd əsil.
Aşıq deyər bedasıl,
Görünmə sən bəd əsil.
Çətindi ki, həyatda,
Qarşı gələ bedasıl.
Öz qədrini nə bilirsən bedasıl,
Qiymət qoyma obaya sən, elə sən.

BƏŞİR ƏLƏSGƏROĞLU
(1867-1934)

Göyçə mühitinin istedadlı nümayəndələrindəndir. Aşıq Ələsgərin ailəsində dünyaya gəlmişdir. Babası, atası, qardaşı kimi o da yaradıcılığa meyl göstərmiş, xalq şeiri üslubunda yazıb yaratmışdır. Bəşir təhsil almış, yazıb oxumağı bacarmışdır. Gözəl təbə, güclü yaradıcı qabiliyyətə malik olmuşdur.

KİMİ

Səyyad olan bu dağları dolanar,
Ovu bərəsində bulana kimi.
Laçın qıya çəkər, görcək şikarın,
Tab etməz havada alana kimi.

Bahar olcaq bağban barı gözləyər,
Vəfalılar düz ilqarı gözləyər.
Kişi olan namus, arı gözləyər,
Dosta xain çıxmaz ölənə kimi.

Bəşirəm, heç zaman çıxmıram yasdan,
Çaqqallar şir olub, tülkülər asdan,
Özgələr sözüynən incimə dostdan,
Eşidib dilindən bilənə kimi.

MƏN

Şövq əhliyəm, əldə yoxdu fürsətim,
İstəkli dostlardan aralıyam mən.
Qəhrli aslanam qəm libasında,
Seyrağub sözündən yaralıyam mən.

Az qanan insana pis söz kar etməz,
Namərdə yalvarma, dadına yetməz.
Mərdlər dost yolunda kənara getməz,
Dost ucundan başı bəlalıyam mən.

Alçaq dağlar başı qarı saxlamaz,
Mərd igidlər miras varı saxlamaz,
Laçın qaynağında sarı saxlamaz,
Tərlan ovlağından aralıyam mən.

Mən Bəşirəm, yalan gəlməz dilimə,
Bülbül kimi həsrət qaldım gülümə,
Baxtımın kitabı keçə əlimə,
Oxuyub adımı qaralıyam mən.

SƏHƏR ERTƏ

Axşamdan nə yesən xub keçər gedər,
Qonağın qaydına qal səhər ertə.
Qonaqlar qanandı güzəran edər,
Olsa qaymağınan bal səhər ertə.

Olsa bizim kimi tələsik qonaq,
Tez ver naharını, olsun üzün ağ,
Bir az pendirinən, bir az kərə yağ,
Qənddən istəkana sal səhər ertə.

Bəşirəm, doymaram mən ləzzətindən,
Kor Söyün yeznənin bu hörmətindən,
Düyü plovundan, çolpa ətindən,
Gətirginən dalbadal səhər ertə.

AĞBABALI NƏSİB
(1870-1944)

Ağbaba-Çıldır aşıq mühitinin nümayəndəsidir. Aşıq Şenliyin şagirdi olmuşdur. Uşaqlıqda gözləri çiçək xəstəliyinə tutulduğundan xalq arasında Kor Nəsib kimi də tanınmışdır. Təhsil almamışdır. Güllübulaqda olan din adamları, dövrün ziyalıları ilə sıx əlaqədə olmuşdur. Çıldır, Ağbaba, Borçalı, Axıska və b. yerlərdə ustadı Aşıq Şenliklə çoxsaylı məclislər keçirmişdir.

ÇƏKƏR

Yazıya bax, gözəl gedir çirkinə,
Əğyar olan alagözə mil çəkər.
Bu ağrıdan ürək yanar, od olar,
Naləsini dodaq çəkər, dil çəkər.

Dərdimiz bir, sərimiz bir dünyada,
Fələk zalım, taleyimiz kür dünyada,
Murad almaq bir əcəb sirr dünyada,
Çərx hərlənər, neçə-neçə il çəkər.

Aşıq Nəsib, bas sinənə sazını,
Qadir Allah qara yazdı yazını.
Sözünü de, bilməsən də yazını,
Qəm karvanın çəksə-çəksə fil çəkər.

OLAR

Görməmişlər pul görəndə sevinər,
Ağlı gedər, elə bil ki, məst olar.
Haqqı görməz, var gözünü bağlayar,
Qəza vurar şeytan ilə dost olar.

Bir gün tale döyər, alar varını,
Sail kimi daha doymaz qarını,
Yadlar yeyər məhsulunu, barını,
Paltar tapmaz, cındır bircə dəst olar.

Aşıq Nəsib, sözünü de qanana,
Canım qurban Haqq oduna yanana.
Başa keçə kəl yerinə hər dana,
Sanaram ki, şirin cana qəsd olar.

MİRZƏ BİLAL
(1872-1937)

Xalq arasında Mirzə Bilal kimi tanınan Bilal Mustafa oğlu Mikayılov Şirvan aşıqlarının atası sayılır. Şamaxının Qəşəd kəndində doğulmuşdur. Fitri istedadını, zəngin hafizəsini görən atasının dostu Molla Veys ona oxuyub-yazmağı öyrətmiş, sonra Şamaxıya aparıb Seyid Əzim Şirvaninin məktəbinə qoymuşdur. Bilal burada oxuya-oxuya saza həvəs göstərmiş, Aşıq İbrahimin yanında şagird olmuşdur. Sənətin sirlərini, mükəmməlliklə öyrənmiş, ustadı ilə məclislər aparmış, Şirvanda, ondan kənarlarda (İran, Dağıstan, Orta Asiya, Gürcüstan, İrəvan və s.) ustad sənətkar kimi tanınmışdır. Mirzə Bilal sazla muğamı bir-birinə bağlayan elementlərin istifadəsinə çalğısında daha çox üstünlük vermiş və bu xətti inkişaf etdirmişdir.

Yaradıcı aşıq olmuş, aşıq şeirinin müxtəlif formalarında nümunələr yaratmışdır. Aşıqların I qurultayının iştirakçısı olmuş, həm də aşıqlar adından qurultay iştirakçılarını təbrik etmişdir. İki ustad - Aşıq Mirzə Bilalla Aşıq Hüseyn Bozalqanlı həmin qurultayda görüşmüşlər.

Aşıq Mirzə Bilal 1937-ci il iyunun 17-də həbs olunmuş, noyabrın 26-da xalq düşməni kimi güllələnmişdir. Azərbaycan Respublikası Prokurorluğunun 28 oktyabr 1993-cü il qərarı ilə bəraət almışdır. O, Şirvan aşıq və muğam ifaçılığının yüksəlişində müstəsna xidmətlərə malik olmuşdur.

ELƏ

Tut orucu, qıl namazı,
Allahına xidmət elə.
Məkkə olsun qibləgahın,
Sən haqqa inayət elə.

Qəlbini gül kimi saxla,
Yaxşını, yamanı yoxla.
Cənnət qazan, düzü haxla,
Məramını şəfqət elə.

Sidqini bağla Allaha,
Naümid qoymaz səni mövla,
Gecə-gündüz elə dua,
Aşkara, həm xəlvət elə.

OĞLUM

Düşmənin düşməndir, sən ki, bilirsən,
Dostundan gəl gözlə özünü, oğlum.
Demirəm danışma, oynama, gülmə,
Bildirmə sirrini, izini, oğlum.

Çoxalar dostların – ucalsa başın,
Yaxşı gündə yaxşı olar yoldaşın,
Qazancın azalsa, tükənsə aşın,
Görməzsən onların üzünü, oğlum.

Daralma dünyada, etmə namərdlik,
Daralsa barmaqdan çıxarmı üzük?
İstəsən vüqarın olsun uca, dik,
Onda de hər sözün düzünü, oğlum.

Güvənmə şöhrətə, güvənmə ada,
Vermə ömrü-günü havayı bada.
Atan Bilal deyir gələrsə qada,
Naçar qalıb yumma gözünü, oğlum.

OLUBDUR

Bu dünya mülkündə qədim zamanda,
Neçə-neçə nahaq qanlar olubdur.
Vətəni uğrunda canından keçən,
Babək kimi qəhrəmanlar olubdur.

Süleyman başına qoyan təki tac,
Dəryada balıqdan istədi xərac.
Bir bayquş olmadı o şaha möhtac,
Neçə belə Süleymanlar olubdur.

İsgəndər at sürdü şimala, şərqə,
Göz dağı çəkdirdi cənuba, qərbə.
Beş arşın kəfənlə qoyuldu qəbrə,
Bilal, belə çox xaqanlar olubdur.

BİR TİKƏ

Çörək müqəddəsdir, çörək əzizdir,
İnsanları yaşadandır bir tikə.
Nadanlara zurna çalsan, eşitməz,
Aqillərə dağ aşırar bir tikə.

Yolçu yolda əgər qalarsa naçar,
Bir tikə çörəklə məcazın açar,
Qıyımlıya Cənnət qapısın açar,
Qıyımsızı savaşdırar bir tikə.

Həyat özü yaxşı-pisi ələyər,
Hərəni öz bələyinə bələyər,
Halallara uğurlu yol diləyər,
Haramxoru dolaşdırar bir tikə.

Bilal yazdı bu sözlərin sətrini,
Cənnət meyvəsidir, duysan ətrini,
Çörəyi düz kəsən bilər qədrini,
Yerində qan barışdırar bir tikə.

GEDƏCƏK

Dəli könül, heç ahu-zar eləmə,
Hər iş qaydasında keçib gedəcək.
Dünyanı dördəlli qamarlayanlar,
Əcəl şərbətini içib gedəcək.

Qapında var olsa süfrəndə aşın,
Dostların çoxalar, ucalar başın.
Bədbəxtlik üz versə, qohum-qardaşın,
Hərəsi bir yana qaçıb gedəcək.

Sirrini söyləmə vəfasızlara,
Xəyanət eyləyər əhdə, ilqara.
Yalançı dostunu çəksələr dara,
Sirrini aləmə açıb gedəcək.

İstər nökər olsun, istər hökmdar,
Dünyada hər kəsin ömür payı var...
Bir gün də gələcək Bilal dili-zar,
Bu fani dünyadan köçüb gedəcək.

KAMIN AL

Səy göstərib bu meydana çıxanda,
Məclislərdən, toy-büsatdan kamın al.
Çal-çağır, yaz-yarat, elə xidmət et,
Nəcib dolan, xoş büsatdan kamın al.

Dildə duva gəzdir, öldür şeytanı,
Bihudə əmələ sərf etmə canı.
Vermə əldən mərifəti, imanı,
Düz peyman yaradan dostdan kamın al.

Aşıq Bilal, nə uymusan dünyaya?
Tədarük gör, köç vaxtında üqbaya.
Sağsan, baş çək doğmalara, obaya,
Gəl doyunca bu həyatdan kamın al.

OLMA

Məzluma hörmət et, qolundan yapış,
Əlindən var-yoxun alandan olma.
Haqq yoldan yayınma, sən Adəm kimi,
Nəfsindən peşiman olandan olma.

Həmişə qar olmaz dağların başı,
Qaçırma özündən yarı, yoldaşı.
Qohumu, qardaşı, yarı, sirdaşı,
İlan tək yalmanıb çalandan olma.

Beş gün bu dünyada ömr edər hərə,
Hərəsi meyl edər bir cür gövhərə..
Baxginən Cəmşidə, peyğəmbərlərə,
Mütini qürbətə salandan olma.

Seyrağub insandan yan dolanginən,
Salma bu dünyada qan, dolanginən.
Hər kəsə can denən, can dolanginən,
Hərcayı söyləyib güləndən olma.

Mirzə Bilal, möhkəm yapış halaldan,
Bunu öyüd aldın ata-anandan,
İstəyirsən get xəbər al mahaldan –
Zalımın qaydına qalandan olma.

BORÇALI ŞAİR NƏBİ
(1873-1945)

Borçalının Faxralı kəndində anadan olmuş, Şair Nəbi adı ilə tanınmış, "Miskin" təxəllüsü ilə şeirlər yazmışdır. 13 yaşında dövrünün tanınmış aşıqlarından olan Aşıq İsmayılla deyişmiş, həmin vaxtdan da tanınmağa başlamışdır. Xalq arasında onunla bağlı maraqlı əhvalatlar, rəvayətlər danışılır.

DÜNYA

Doğrudan-yalandan dərs verdin bizə,
Çıxmadı işlərin bir yana, dünya!
Nə mənzilin bəlli, nə də məkanın,
Cadalar düşübdü hər yana, dünya!

Xudam ziynət verib dağınan-daşa,
Nə sultan tanıdın, nə xan, nə paşa.
Çoxları cəhd etdi, çıxmadı başa.
Gəlibdi əlindən amana, dünya!

Ruzidə bəllidi, fəsildə yaylar,
Gedir ömrümüzdən həftələr, aylar.
Keçir xəyalımdan əlvan saraylar,
Dönübsən qızıla, mərcana, dünya!

Dağların dayaqdı ləngəri düzə,
Kimsənin eybini vurmadın üzə.
Şərbətin şəfaət qalmadı bizə,
Axır həsrət qoydu cahana, dünya!

Əzəli görəndə eylədin rəftar,
Münasib olmadı yapdığın divar.
De görüm, necoldu verdiyin ilqar,
Onlardan mənə bir nişanə, dünya!

Gələnlər gəlincə bir səni bildi,
Çoxunda ağladı, azında güldü,
Nə gedənlər gəldi, nə gələn güldü,
Bumu etibarın insana dünya?!

Bir gün olar, əsər məhşər yelləri,
Göyərdirsən, çürüdürsən gülləri.
Pünhan olub murğuların dilləri,
Sultan Süleymandan bu yana, dünya!

Murazi-mətləbdə tərtibi atdı* ,
Axırda körpülər qıldan siratdı.
Qılıncın qınsızdı, qolun qüvvatdı,
Baxmadın qocaya, cavana, dünya!

Ağır səltənətli taxtı-divanlar,
Övliya, ənbiya, dini imanlar,
Turaba qarışdı neçə min canlar,
Xakə bülənd oldu, yeksana, dünya!

Şair Nəbi, cəhd eylədi cahana,
Ömür keçdi, sığınmadım səfana,
İnnən belə inanmaram vəfana,
Sidqinən sığınnam sübhana, dünya!

QİYMƏTİ OLMAZ

Özündən böyüyə qulluq buyurma,
Sözün yerə düşər, qiyməti olmaz.
Hər nə tutursansa öz əlinlə tut,
Cəfası çox olsa minnəti olmaz.

Özündən böyüyün alma ahını,
Bəd duva yetirər, sana toxunu.

**** Söhbət İmami-Zamanın at üstündə zühurundan gedir.***

Çağır Yaradanı, şahlar şahını,
İşin irast gedər, zəhməti olmaz.

Təkəbbür kəndinə layiq qıldığı,
Axrı ağlamaqdı deyib-güldüyü.
Cəhli-cəhənnəmdən şikar aldığı,
Alimi-tülüngdü, mərfəti olmaz.

Rəyazət elmində bir pula dəyməz,
Kəndi məğrur olan bir qula dəyməz,
Halaldan qazanıb, halaldan yeməz,
Dəhanı şəhd olsa, ləzzəti olmaz.

Şair Nəbi pur kamalı yaxşı bil,
Zikr elə, sən gecə-gündüz, ilbəil,
Ədəb-ərkanına qayıtmayan qul,
Cəhənnəm hazırdı, cənnəti olmaz.

ÇOX ŞÜKÜR
(divani)

Yazılanlar gəldi başa, qələminə çox şükür,
Cümləmizə muraz verən, kərəminə çox şükür.
Göydən dörd baş kitab endi, əzəl başdan İncili,
Biz götürdük ol Quranı, kəlamına çox şükür.

Şivəni-məhşər günüdü, yarəb, kim çəkir zillət?
İsrafil surun çaldı, gəldi nə ki, var millət.
İbtida əfv olundu, gər ümməti-Məhəmməd,
Əl götürüb duva qılan, salmana çox şükür.

Gəl biçarə Şair Nəbi, sərin sevdaya düşdü,
Çatıldı ol qıl körpü, nüçə mömin qul keçdi,
Quruldu mizan-tərəzi, Yarəb, nə hikmət işdi,
Biz də gəldik bu divana, divanına çox şükür.

FAYDASI NƏ
(divani)

Mənasız, münasibsiz sözü bilməyin faydası nə,
İzinsiz, təklifsiz yerə varmağın faydası nə?
Uzaq dolan hərcayidən, düşmə qəm girdabına,
Əql ucundan sonra peşman olmağın faydası nə?

Yarı gördüm bağ içində ötürdü bülbül kimi,
Bircə saat görməyəndə günüm keçir il kimi.
Bir könül ki, fərəhlənib açılmaya gül kimi,
Arsız-arsız el üzünə gülməyin faydası nə?

Şair Nəbi bu şərtinən edər nəyin mətini,
Bir saat fikir verəsən sən bilərsən zatını,
İslam gərək yaxşı bilə şəriətin şərtini,
İbadəti riya üçün qılmağın faydası nə?

OLMASA
(divani)

Hər enişin yoxuşu var, dibdəki kal olmasa,
Şah olsa nadan sayılar, əhli-əyal olmasa.
Əflatun xərrat misallı, kitaba timsal sözlü,
Deyərlər sən danışma, dövləti-mal olmasa.

Könlüm içi bir dənizdi, hesabı dolandadı,
Nüçə murğu bir yuvada, kani-qüdrət qalandadı.
Dirilik var, dilənçilik, asudəlik öləndədi,
Bu yandan da dar qəbirdə sorğu-sual olmasa.

Miskin Nəbi, hökm verir, hər dəmi-dövran özü,
Nə alışır, nə də sönür sinəndə eşqin közü.
Sərraf olsa məclisində nizama çəkər sözü,
Çürük ceviz baha düşər, gövhəri-ləl olmasa.

ŞAİR ƏBDÜLƏZİM
(1873-1943)

Aşıq Ələsgərin ortancıl oğludur. Erkən yaşlarından saza-sözə maraq göstərmiş, təhsil almamışdır. Qoşma, təcnis, dodaq-dəyməz təcnis, cığalı təcnis, divaniləri onun istedadının göstəricisidir. "Şair Əbdüləzim" kimi tanınmışdır. Bir müddət Kəlbəcər rayonunun Yanşaq kəndinə köçmüş və 1934-1937-ci illərdə orada yaşamışdır.

ÇƏKƏ BİLMƏZ

İstəyirəm gedəm diyarbədiyar,
Könül vətənindən əl çəkə bilməz.
Gərək bülbül çəkə gülün qəhrini,
Bülbülün qəhrini gül çəkə bilməz.

Yad olubdu qohum, qardaş, el mana,
Yaxın ikən uzaq düşüb yol mana,
İlahim veribdi dərdi bol mana,
Yükləsəm bir qatar fil çəkə bilməz.

Gün xoş keçər əgər dövlət, var olsa,
Zərrəcə nəzəri-girdigar olsa,
Şahlar şahı bir kişiylə yar olsa,
Yığılsa ayağın el çəkə bilməz.

Əbdüləzim dərdi-qəmin dustağı,
Çəkibdi sinəmə dağ üstdən dağı,
Bu dərdi, möhnəti, belə fərağı
Mən çəkirəm, heç kəs, bil, çəkə bilməz.

ƏSƏD RZAYEV
(1874-1951)

Aşıq Əsədin atası Tovuz rayonunun Bozalqanlı kəndindən olmuş, yerli bəylərin zülmündən qaçıb Qaraqoyunluya getmişdir. 1932-ci ildə yenidən Tovuz rayonunun Bozalqanlı kəndinə köçmüşdür. Aşıq Ələsgərin yanında dörd il şagird olmuşdur. Aşıq sənətinin sirlərini, dastanları mükəmməlliklə öyrəndikdən sonra müstəqil aşıqlığa başlamış, ömrünün axırına qədər Tovuz rayonunda yaşamışdır. Gözəl, mələhətli səsi, misilsiz ifaçılıq qabiliyyəti, dastanları mükəmməlliklə bilməsi onu xalq arasında məşhurlaşdırmışdır. Aşıq Əsəd 1928, 1938-ci illərdə Azərbaycan Aşıqlarının I və II qurultaylarının iştirakçısı olmuşdur. Folklorşünas H.Əlizadə "Koroğlu" dastanının bir neçə qolunu və xalq dastanlarının bir çox variantlarını "Koroğluxan" aşıq kimi tanınan Aşıq Əsəddən yazıya almışdır. O, bir neçə gün dalbadal çalıb oxumağı bacaran sənətkar olmuşdur. Aşıq Əsəd 1936-cı ildə Azərbaycan mədəniyyət xadimlərinin Moskvada qəbulunda və 1938-ci ildə Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə fəal iştirak etmiş, Şərəf nişanı ordeni ilə təltif edilmişdir. Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur (1939).

NƏ BİLSİN

Ay üstə, gün üstə söyləyən aşıq,
Türkünü bilməyən, farsı nə bilsin.
Oxumayıb əlif, beydən qanmayan,
Sən verən öyüdü, dərsi nə bilsin.

Özgəsin nə bilər özün bilməyən,
Əyrisin nə bilər düzün bilməyən,
Məclislərdə doğru sözü bilməyən,
İşin avandını, tərsi nə bilər.

Sınıq könül cəfasına dözməyən,
Elm oxuyub ərəb, farsı bilməyən,
Gəşd eyləyib bu dünyanı gəzməyən,
Şamı, Ərzurumu, qarsı nə bilsin.

Əsədnən meydanda qoşa düşməyən,
Aşıqlıq elmindən başa düşməyən,
Ustadın əlindən badə içməyən,
Yeri, göyü, ərşi-gürşü nə bilsin.

ÜÇ İL, BEŞ İL, ON BEŞ İL

Yaxşı dostun mən sirrini açmaram,
Assalar da üç il, beş il, on beş il.
Namərd süfrəsində təam yemərəm,
Kəssələr də üç il, beş il, on beş il.

Nəsli əyri olan özü düz olmaz,
Mərd igidin səxavəti az olmaz,
Bivəfanın əhd-ilqarı saz olmaz,
Yoxlasan da üç il, beş il, on beş il.

Paxır kəsən dəmir polad qat olmaz,
Bədəsildə nə kök, nə də zat olmaz,
Beygir gəlib köhlən kimi at olmaz,
Bəsləsən də üç il, beş il, on beş il.

Ustadların nişanəsi məndədi,
Nəsihəti, dürdanəsi məndədi,
Aşıqlığın kök binası məndədi,
Saxlayacam üç il, beş il, on beş il.

Əsəd deyir elə düşsün güzarın,
Az balıyla şirin olsun azarım,
Yar gəlsə azalar dərdim, azarım,
Gözləyəcəm üç il, beş il, on beş il.

BİLMƏZSƏN

Kamil bağban bağ becərər, gül əkər,
Sahibi var onun, üzə bilməzsən.
Sınar qol-qanadın, düşərsən yerə,
Tutar səni qəhri-qəza bilməzsən.

Laçın olub səmalarda süzmüşəm,
Şonqarların savaşına dözmüşəm,
Mən qəvvasam dəryalarda üzmüşəm,
Sən qəvvas deyilsən, üzə bilməzsən.

Gözəllər hüsnünə çoxdanam heyran,
Çıxdım şikarına, alagöz tərlan,
Əsədin dərdinə elə sən dərman,
Bağrının başını əzə bilməzsən.

ON İL QULLUQ ETDİM MƏN ƏLƏSGƏRƏ

On il qulluq etdim mən Ələsgərə,
Sidqimi bağladım etiqadına.
Hər nə desə qəbul etdim sözünü,
Məni də yetirdi haqq baratına.

On il qulluğunda dayandım, dözdüm,
Dilindən nə çıxdı sinəmə yazdım.
Qırx beş il dünyanı dolandım, gəzdim,
Bələd oldum yerin yeddi qatına.

Yaxşını götürdüm, yamandan qaçdım,
Oxudum, sinəmin dəftərin açdım,
İyirmi beş yaşında qaynadım, coşdum,
Otuz yaşda mindim eşqin atına.

Eşqin səməndini hər yana çapdım,
Mərd ilə namərdi axtardım, tapdım,
Heç könül yıxmadım, çox könül yapdım,
Göz qoydum dünyanın hər büsatına.

Əsəd deyir, ustada qulp qoyanın,
Pünhanda laf edib özün öyənin,
Ustad sözün öz adına deyənin,
Lənət gəlsin onun əsli-zatına!

DÜRÜST OLMAMIŞ
(təcnis)

Kamil ovçu durub ov bərəsində,
Atmaz xədəngini dürüst olmamış.
Sərraf olan seçər ləli, gövhəri,
Arayıb dəstində dürr üst olmamış.

Əgər qəvvas isən, axtar adamı,
Göydən yerə leysan yağar, a damı.
Dürüst adam gəzər dürüst adamı,
Nadürüst axtarar dürüst olmamış.

Əsəd bəhri-mühit çaylar toxuna,
Qayıq üzə, ləpə gələ toxuna,
Cürbə istər gölə, şirə toxuna,
Elmi cəm eyləyib dürüst olmamış.

.

MİSKİN HƏSƏN
(1875-1941)

Qazax qəzasının Köçəsgər kəndində yaşayıb yaratmış yüksək təbli simalardandır. Bölgədə ifaçılıq məharəti və xalq şeiri üslubunda yazdığı şeirləri ilə məşhur olmuşdur. Ustadnamə səciyyəli şeirləri bu gün də aşıqların repertuarında geniş yer tutmaqdadır.

QALDI

İnsan oğlu qeybət etdin yoldaşdan,
Kəsdin haqq-salamı, harası qaldı?
Söz yetişdi sahibinə utandın,
Axır sənə üzün qarası qaldı.

Pislikdən nə çıxar eşit, a nadan,
Çıxmaz yaddan yüz il keçsə aradan,
Deyək ki, bir yoldaş çıxdı sıradan,
Kimə zər-zibası, xarası qaldı?

Miskin Həsən, daha bəsdi bu qədər,
Bülbül nəğmə deyər, bayquşlar ötər,
Xəncərdən, bıçaqdan, güllədən betər,
Sinəmdə pis sözün yarası qaldı.

GÖRMÜŞƏM

Soruş məndən neçə-neçə tarixi,
Yadımdadır, sanki dünən görmüşəm.
Çox döşünə döyüb mənəm deyəni,
Tez qaçıb sözündən dönən görmüşəm.

Nəyə gərək dünya baci-xəracı,
Təmiz qəlbin ona yox ehtiyacı.

Almazdan bərk kəsən nahaq qılıncı,
Haqqın qarşısında sınan görmüşəm.

Miskin Həsən olsa namərdin bağı,
Bağbanı bəd olar, meyvəsi ağı,
Zülmünən alışıb yanan çırağı,
Sərt yellər əsəndə sönən görmüşəm.

DEMƏK OLMAZ

Qəza hərdən kəməndini atanda,
Kəməndə düşənə qaç demək olmaz.
Gördün ki, dost sirri səndən pünhandı,
Üz vurub o sirri aç demək olmaz.

Xəstəni görəndə demə bihaldır,
Demə ölüb-dirilməyi mahaldır,
"Yatan ölməz, yetən ölər" misaldır,
Vaxtı çatmayana köç demək olmaz.

Miskin Həsən günlər keçib-gəlməklə,
Beşi ağlamaqla, beşi gülməklə,
Beşi dirilməklə, beşi ölməklə,
Dünyanın sonuna puç demək olmaz.

ŞAİR AĞACAN
(1876-1951)

Şorayıl mahalının XIX və XX yüzilliklər çevrəsində yetirdiyi istedadlı sənətkarlardandır. Ağacan Cabbar oğlu Cabbarlı zəngin poetik yaradıcılığa malik saz-söz bilicilərindən olmuşdur. Repressiya qurbanlarındandır. 1943-cü ildə həbs edilmiş, S.Vurğunun işə qarışması ilə azad olunmuşdur. Altı il sonra şeirlərindəki etiraz motivlərinə görə yenidən həbs edilərək Sibirə göndərilmiş, orada vəfat etmiş və dəfn olunmuşdur. Vəfatından bir neçə il sonra nəşi Borçalıya gətirilərək Qaçağan kənd qəbiristanlığında dəfn edilmişdir.

GÖZLƏ SƏN

Aşıq üçə fikir vermə,
Dördü gözlə-gözlə sən.
Bir meydanda zər atanda,
Nərdi gözlə-gözlə sən.

Havalanma, lovğalanma,
Çox da öymə kəndini.
Xudam birdən qərq eyləyər,
Dərdi, gözlə-gözlə sən.

Oylağına düz fikir ver,
Gəlib laçın qonmasın.
Allahdan bəndəyə gələn,
Şərti gözlə-gözlə sən.

Şair Ağacanın özü,
Könlü odda yanmasın.
Namərddən kişi görmədim,
Mərdi gözlə-gözlə sən.

GÜLƏR BİR GÜN

Dərdli könlüm, qəm eyləmə,
Ağlayanlar gülər bir gün.
Mürvət eylər çərxi-fələk,
Göz yaşını silər bir gün.

Çox gəzmişəm dağnan aran,
Gözüm görüb çiskin, duman,
Hiylə qurub, şər axtaran,
Əvəzini alar bir gün.

Ağacanın çoxdur dərdi,
Xudam özün saxla mərdi,
Müxənnətin, həm namərdin,
Yurdu düm-düz olar bir gün.

DİLİM

Daha sənə çox ixtiyar vermirəm,
Durmursan yerində farağat, dilim.
Danışanda ziyanını çəkirəm,
Açırsan başıma əlamət, dilim.

Kim nə desə, cavabında hazırsan,
Canıma, cismimə qəbir qazırsan,
Hərdən toxunmalı şeir yazırsan,
Hər yetənlə olmaz zarafat, dilim.

Ağacan keçibdir çox tarixləri,
Şüəra elmindən dolubdur səri,
Otuz iki dişdir dilin çəpəri,
Dolandır başını salamat, dilim.

YATMAYACAQDIR

Mərd yaranıb bu dünyaya mərd gələn,
Namərd kölgəsində yatmayacaqdır.
Unudub ilqarı, əhdi-peymanı,
Namusu, qeyrəti atmayacaqdır.

Sirrini söyləmə sirr verən yada,
Axırda səni də tez verər bada,
Mərd igidlər ta ölüncə dünyada,
Dostunu dünyada satmayacaqdır.

Sərraf olub ləli dürdən seçirdin,
Dost əlindən şərbət alıb içirdin,
Ey Ağacan, yaxşı günlər keçirdin,
Keçən günə günlər çatmayacaqdır.

GEDİRƏM

Köçürəm dünyadan dost olanlarım,
Oxudun üstümdə Quran, gedirəm.
Fitnəkar olmadım, könül yıxmadım,
Qazanıb saf vicdan, iman gedirəm.

Sinəmin dəftəri varaq-varaqdı,
Ayrılıq cismimi yandırıb-yaxdı,
Deyirlər, burada ərasət Haxdı,
Orada haqqıdır divan, gedirəm.

Mən qurbanam comərdlərin mərdinə,
Sinəmdə yaralar sızıldar yenə,
Ağacanın pünhan olan dərdinə,
Olmadı fələkdən dərman, gedirəm.

DURUR
(divani)

Əhli ürfan məclisində arifi, ürfan durur,
Kimi alçaq, kimi yüksək, hər cürə insan durur.
Şüaralar bəndəgahın kəsdiyim aşkar olub,
Fələk döndərdi çarxımı indi də pünhan durur.

Urfatından xam olanı noxtaladım, çulladım,
Yeyi, lamı, əlif beyi nə deyə suvalladım?
Ağzı nəqqara olanı dilindən qıfılladım,
Seyrəqib çıxmır aradan gözümə şeytan durur.

Ağacanın qarşısında nitqə gəldi bircə din,
Ustadım var, şiri yəzdan artıraram birə min.
Aşıx, yaman qorxma ki, sən, mən olmaram nəkrain,
Qəbir durur, sual durur, ədalət divan durur.

SIRAYNAN
(divani)

Havalanıb dəli könlüm kəşt eyləyir haraynan,
Dərdi deyim yaz dəftərə sən qələmi qaraynan,
Aldanmaynan bivəfaya dünya karvansaradır,
Çox dolub, çox boşalıbdı, düzülübdü sıraynan.

Adam var ki, düşünməyir, çəmsi-qəmər, ay nədir,
Kimi eşqə talıb olur, kimi atın oynadır,
Kimi şeytan, kimi iblis, kimi fəsad qaynadır,
Adam var ki, din-imanı alıb-satır paraynan.

Ağacanam tanıyıram Quranı, Peyğəmbəri,
Var dilimin ləşgəridir ərşin-kürşün ləngəri,
Alimi yox, mollanı yox, qazini çağır bəri,
Mən öləndə götürsünlər qoy Yasini suraynan!

SEYFƏLİ PƏNAH
(1876-1921)

Şəmkir mahalının Seyfəli kəndində yaşamış, Aşıq Hüseyn Şəmkirlinin yanında şagird olmuş, sənətin sirlərini ondan öyrənmişdir. İyirmi yaşında müstəqil aşıqlığa başlamış, yaxın kəndlərdə məclislər keçirmiş, Gəncəbasarda ustad aşıq və şair kimi tanınmışdır.

EYLƏR

Namərd dostdan kəs aranı, kənar ol,
Salamat başını məlamət eylər.
Mərd düşmənə ilticalıq eyləsən,
Bağışlar təqsirin əyalət eylər.

Ustadın nəsihətindən qaçmayın,
Namərd ilə şirin şərbət içməyin,
Müxənnətlə nanı süfrə açmayın,
Durmaz ilqarında xəyanət eylər.

Dolandım dünyanı söznən, bəsinən,
Saznan, söhbətinən, eşq, həvəsinən,
Biqeyrət qohumnan, binamus dostnan,
Pənah aşna olmaz, ədavət eylər.

TALIB ƏLƏSGƏROĞLU
(1877-1979)

Aşıq Ələsgərin sonbeşik oğludur. Uşaqlıqdan aşıqlığa marağı olmuş, sənətin sirlərini atasından öyrənmişdir. Güclü hafizəyə malik olmuş, klassik aşıqların yaradıcılığını, dastanları, saz havalarını mükəmməlliklə öyrənə bilmişdir. Yazıb-oxumağı bacarmamışdır. Aşıq Ələsgərin ədəbi irsinin toplanmasında, xalqa çatdırılmasında Aşıq Talıbın xidmətləri əvəzsizdir.

BİLİN

Camaat içində, eldə, obada,
Hər kişinin öz məqamı var bilin.
Laçın kimi dövr elədim havada,
Alammadı şikarımı sar, bilin.

Qaçdım tay-tuşumdan geri qalmadım,
Qaçdıqca ucaldım, heç alçalmadım,
Öz sazımdan qeyri sazı çalmadım,
Nə bir bəla çəkdim, nə azar, bilin.

Talıb deyər, məqsədimə inandım,
Oduma yananın oduna yandım,
Gün keçirdim, yüz yaşıma dayandım,
Vermədim əlimdən ixtiyar, bilin.

BİZƏ

Şükür təbiətin var qüvvəsinə,
Verib qüdrətindən dolu sər bizə.
Ha yana gedəndə hörmət qoyurlar,
Bütün hər obalar, hər ellər bizə.

Hər ot kökü üstə bitirər sünbül,
Qızılgül yerindən çıxar qızılgül,
Aşıqlar ustadı olub, yəqin bil,
Yaxşı təlim verib Ələsgər bizə.

Ələsgərdən qalan yadigar mənəm,
Yurdunda böyümüş bəxtiyar mənəm,
Söz incisi seçən xiridar mənəm,
Qiymət verir sənət sevənlər bizə.

DEYİM MƏN

Eşidin sözümü, arif olanlar,
Bu dünya fanidir, fani deyim mən.
Beş gün dəm eyləyən, on gün qəm eylər,
Belə qurub kərəmkanı, deyim mən.

Məğribdən məşriqə tutan dünyanı,
Gündən xərac alan İsgəndər hanı?!
Neçə danəndənin boşdu meydanı,
Neçə-neçə Süleymanı deyim mən.

Mən Talıbam, hərzə-hədyan bilmənəm,
Dərd əlindən dəqiqəsi il mənəm.
Ölənədək ağlayaram, gülmənəm,
Görməyincə ol İmanı, deyim mən.

YANMA SƏN

Mərd yolunda fəda eylə canını,
Namərd üçün düşüb nara, yanma sən.
İtirmə dostluqda etibarını,
Olmaginənə üzü qara, yanma sən.

Fələk yola salıb neçə canları,
Yox eyləyib adlı qəhrəmanları,
Binamus insanı, pis vicdanları
Düçar olsun Zülfüqara, yanma sən.

Bu fani dünyaya gələnlər çoxdur,
Qalıbdı nişanı, heç biri yoxdur,
Talıbın sözünün isbatı haqdır,
Üzünü tut mədədkara, yanma sən.

GEDƏR

Adam var, kəlməsi ləl qiymətlidi,
Adam var, söyləyər, söyləyər gedər.
Adam var, nütfəsi, kökü haramdı
Adam var ki, tər gəlibdi, tər gedər.

Adam var, oxunar dərhal baxışı,
Adam var, seçilməz bahardan qışı,
Adam var, hiylədən açılmaz başı,
Adam var ki, ər gəlibdi, ər gedər.

Adam var, bilərsən bir insan yaşar,
Adam var, qəlbində yüz şeytan yaşar,
Adam var, Talıba mehriban yaşar,
Adam var ki, şər gəlibdi, şər gedər.

VƏLİ BOZALQANLI
(1880-1933)

Tovuz rayonunun Bozalqanlı kəndində yaşamış və Şair Vəli adı ilə məşhurlaşmışdır. Yeniyetmə vaxtlarında papaqçılığı öyrənən Vəli bir müddət sonra dükan açıb papaq alış-verişi ilə məşğul olmuşdur. Həmin vaxtlar özünə bir saz da almış, boş vaxtlarını çalıb oxumaqla keçirmişdir. Bozalqanlı Aşıq Hüseyndən və Xəyyat Mirzədən ifaçılıq sənətini öyrənmiş, ustadların yaradıcılığını mənimsəyib özü də ara-sıra şeirlər yazmağa başlamışdır. Xüsusi bacarıq sahibi olan Şair Vəlinin şeirləri tezliklə xalq arasında yayılmış, ustadlar onun qoşma və gəraylılarını məclislərdə ifa etməyə başlamışlar.

OLMAZ

Sən gəl uyma hərcayiyə, nakəsə,
Naxələfdi, onda düz bazar olmaz.
Ortaq olma bivəfanın tağına,
Zatı yoxdu, şamaması tər olmaz.

Çox aşıq xəlq etdi qüdrət girdiyar,
Olubdu sözləri tamam dildə car.
Cəmi hicran çəkən nə ki aşıq var,
Mənim kimi dərdə giriftar olmaz.

Vəliyəm, açılmaz eynimin yaşı,
Əynimə geymişəm mən qəm libası.
Hər şeyin təzəsi, dostun köhnəsi –
Dönüb ilqarından biilqar olmaz.

GƏRƏKDİ

Aşıq olub oba-oba gəzənin,
Danışmağa şirin dili gərəkdi.
Arif məclisində, arif yanında,
Düzgün sözü, xoş zülalı gərəkdi.

Ana-bacı deyə qıza, gəlinə,
Eyni bələnməyə küdrətə, kinə,
El içində təmiz dura, düz dinə,
Bütün məsaildən halı gərəkdi.

Qəvvas olub dəryalara dalmağa,
Dərin kəlmə deyib cavab almağa,
Anlayan məclisə qurban olmağa,
Sədaqətdə Şair Vəli gərəkdi.

SÖYLƏR

Ey ariflər, şəyirdlərin ustadı,
Şair olan sözün əyanə söylər.
Dadlı dövran açar, gövhər sərf elər,
Şirin sözlərini bəyanə söylər.

Diltərpənməz dəryasında üzməyən,
Dodaqdəyməz kürəsinə dözməyən,
Güləndə nitqindən zülal süzməyən,
Şair cərgəsində əfsanə söylər.

Aşıq Vəli deyər, dərsin almayan,
Təcnis, təxmis dəryasına dalmayan,
Məna, məxrəc, imla, inşa qanmayan,
Sözlərini dəli-divanə söylər.

GÖZDÜYƏR

Bir insan ki, əsil olsa binadan,
Qəlbə dəyməz, düz xəyalı gözdüyər.
Artırıb zinətin şahənşah olsa,
Bir nəzərdə cəm mahalı gözdüyər.

Bir dostda olmasa ilqar, dəyanət,
Dərdə düşsən heç vaxt etməz əyanət,
Öyünə, malına eylər xəyanət,
Müxənnət dost qumaş, alı gözlüyər.

Qəza-qədər başa salsa qaranı,
Döylətə dost olan etməz çaranı,
Kasatdığa düşsən kəsər aranı,
Tikə dostu dövlət-malı gözdüyər.

Əsl dostun məhəbbəti çox olu,
Özü düz, sözü düz, xəndək ox olu,
Mərd igidin məhəbbəti çox olu,
Dost yolunda qavax-dalı gözdüyər.

Demə Şair Vəli düşüb gümana,
Fəhmin yetiribdi yaxşı-yamana.
Kamil olan qovlu verməz şeytana,
Dərk eləyər, pür kamalı gözdüyər.

MEHDİ GÖYÇƏLİ
(1880-1968)

Göyçə aşıq mühitinin yetirdiyi ustadlardandır. Aşıqlar ocağı kimi tanınan Qanlı kəndindəndir. Gənc yaşlarından Mehdinin (İsgəndərov Mehdi Qəhrəman oğlu) aşıq sənətinə, ustadların çalıb-oxumasına xüsusi marağı olmuş, Aşıq Qulunun yanında şagirdlik etmişdir. Güclü yaddaşa, gözəl səsə malik olan Mehdi ustadı Aşıq Quludan klassik aşıqların yaradıcılığını, dastanları, saz havalarını mükəmməlliklə öyrənə bilmişdir. 1948-ci il deportasiyasında Göyçədən Ucar rayonunun Məlikballı kəndinə köçürülmüş, az sonra yenidən Göyçəyə, anadan olduğu Qanlı kəndinə qayıtmış və ömrünün sonuna qədər orada yaşamışdır.

DƏYMƏMİŞ

Bağbanlar bağ bəslər, xoryadlar dərər,
Həsrət bağban əli nara dəyməmiş.
Üç ay zimistanda gülün qəhrini,
Bülbül həsrət çəkər xara dəyməmiş.

Məcnun “Leyli” – deyib bu dağı gəzər,
Xəstə meyl eyləyər, budağı gəzər,
Nakamil bostançı tağından üzər,
Bostanda şamama, xıra dəyməmiş.

Çoxunun qəlbindən keçir xocalıq,
Mehdinin qəddini əyir qocalıq.
Arada qalıbdı bircə gecəlik,
Astaca aralan ara dəyməmiş.

GƏRƏK

Yük bağlayıb bir diyara gedəndə,
Mətahın satmağa bir bazar gərək.
Naşı sərraf qiymətinə yetirməz,
Gövhəri seçməyə xiridar gərək.

Nə uyma qəflətə, yuxuda yatma,
Ov keçib bərədən, oxunu atma.
Hər yetəni sən özünə dost tutma,
Dostun arasında düz ilqar gərək.

Mehdi, qocalırsan, vaxtın keçəcək,
Əcəl şərbətini hamı içəcək,
Bu dünya fanidi, gələn köçəcək,
Ustaddan şəyirdə yadigar gərək.

OLMAZ, OLMAZ

Mərifət insanın özündə gərək,
Kənardan deməklə ay olmaz, olmaz.
Binadan olmasa, kökdən olmasa,
Hər axar bulaqdan çay olmaz, olmaz.

Hərənin yüz fikri, min xəyalı var,
Bir kimsə yerində tutarmı qərar?!
Namərdin gülləsi qəlbində olar,
Mərdin ömrü-günü zay olmaz, olmaz.

Mehdi az görmədi dünyada nə var,
Laçına tay olmaz yapalaq, nə sar.
İnsandan insana nəsihət olar,
Ağıldan ağıla pay olmaz, olmaz.

İÇİNDƏ

Aldanma dünyanın simuzərinə,
İnsan ol bu qədər insan içində.
Çalış, səndən sonra təmiz ad qazan,
Günəş kimi parla duman içində.

Həmişə yaxşı ol, yamandan seçil,
Zülmə kəfən olma, haqqa don biçil,
Özündən böyüklər görəndə kiçil,
Qətrə bil özünü ümman içində.

Miskin Mehdi, meyli yara bağla sən,
Məhəbbət arzunu yara bağla sən,
Dosta yara vurma, yara bağla sən,
Ömrü bada vermə güman içində.

MUSA QARAÇÖP
(1881-1965)

Borçalı mahalının yetirdiyi ustad sənətkarlardandır. Qaraçöp elinin Qazlar kəndində doğulmuşdur. Yüksək yaradıcı qabiliyyəti, ifaçılıq məharəti tezliklə tanınmasına səbəb olmuşdur. Xalq arasında, ustadların repertuarında müxtəlif səpkili şeirləri bu gün də yaşamaqdadır.

OLMASA

İgidin saçı ağarmaz,
Gər yarı nadan olmasa.
Kimsə baş əyməz fələyə,
Qəm suyu dadan olmasa.

Bürcü-hasarlar sökülər,
Qatlanmaz qollar bükülər,
Gündə yüz min qan tökülər,
Acı söz udan olmasa.

Musa eldən aralanmaz,
Mərddir, qəlbi qaralanmaz.
Yüz ox dəysə yaralanmaz,
Xatası dostdan olmasa.

SÖYLƏR

Ay ağalar, gəlin sizə söyləyim,
İnsan olan dərdin insana söylər.
Namərdi dindirsən tək mənəm deyər,
Mərd də öz sözünü mərdana söylər.

Binədən əzizdir bizim obalar,
Yadıma düşübdür hardan haralar.
Hərcayı aşıqlar, dayaz mollalar,
Səhv qatar hər yerdə dastana, söylər.

Siz dinləyin bu şairin sözündən,
Həqiqətdir, hiss eləyin özündən,
Binamaz düşübdür Haqqın gözündən,
Öz ürək sözünü şeytana söylər.

Eşq əhlinin müdam ahu-zarı var,
İnşallah könlünün xiridarı var,
Qulun qul yanında etibarı var,
Musa da sözünü sübhana söylər.

ÇOBANKƏRƏLİ CƏFƏR
(1883-1943)

Zəngibasar bölgəsinin Çobankərə kəndində dünyaya göz açan Aşıq Cəfər erməni qırğınlarından qaçaraq Naxçıvanın Şıxmahmud kəndinə pənah gətirmiş (1922), bölgədə ustad sənətkar kimi tanınmışdır. Dastançı aşıq kimi daha çox xatırlanır. "Ziyad-Şövkət" dastanının yaradıcısıdır. Aşıqların repertuarında şeirləri yaşamaqdadır.

OLARMI

Ay bimürvət, ay biinsaf, ay zalım,
Yaxşı dosta yalan satmaq olarmı?
Bir yar ki, yolunda canından keçər,
Heç onu aldadıb atmaq olarmı?

Taleyi yatmışsa heç vaxt kar olmaz,
Tərlan oylağında bil ki, sar olmaz,
Nanəcibdən, bədəsildən yar olmaz,
Ölüncə murada çatmaq olarmı?

Cəfərin taleyi dönməsin tərsə,
Külək əsib yelkənini çevirsə,
İki könül bir-birini sevirsə,
Onun günahına batmaq olarmı?

XƏYYAT MİRZƏ
(1885-1922)

Tovuz mühitinin yetirdiyi istedadlı sənətkarlardandır. Mollaxanada təhsil almış, ərəb, fars dillərini mükəmməl öyrənmişdir. Atası Abbasqulu onu dərzi yanına şagird qoymuşdur. Dərziliyi öyrənməklə yanaşı, onda şeirə, sənətə böyük maraq olmuşdur. Dərzi olduğundan şeirlərini də "Xəyyat" (dərzi) təxəllüsü ilə düzüb qoşmuş, xalq şeiri üslubunda yazıb yaratmışdır. Bozalqanlı Xəyyat Mirzə təxəllüsü ilə tanınmışdır. Aşıq Hüseyn Bozalqanlı, Şair Vəli ilə deyişmələri məşhurdur. Hazırcavablığı, istedadı ilə həmişə mühitin marağına səbəb olmuşdur. Haqqında "Mirzə-Nazənin" dastanı yaranmışdır.

GƏLMƏSİN

Yaqutdan, yəməndən, ləldən, gövhərdən,
Yük tutmayan bu bazara gəlməsin!
Bir xeyir ummasın bizim diyardan,
Gəlsə də düşəcək dara, gəlməsin!

Əgər bu meydana gəlsə də hər kəs,
Üz-üzə mənimlə çəkə bilməz bəhs,
Deyişmə başlanıb ucalanda səs,
Qərq olar atəşə, nara gəlməsin!

Ustaddan dərs alıb sürməyən səfa,
Arif məclisində çəkəcək cəfa,
Əsəd, Nəcəf, Ələsgərdən məsafa
Qeyri aşıq bu diyara gəlməsin!

Ariflər əyləşib, el düzüləndə,
Dərya dalğalanıb, göl düzüləndə,
Sərraf seçiləndə, ləl düzüləndə,
Olacaqdır bağrı para, gəlməsin!

Alimlər əyləşib, biz yoxlananda,
Xəyyat Mirzə qorxmaz yüz yoxlananda,
Ustadlar seçəndə, söz yoxlananda,
Düşəcəkdir, boran, qara, gəlməsin!

VAR

Hicran xəstəsiyəm dərdə giriftar,
Mənim bu dərdimin nə loğmanı var.
Nə ömrüm tamamdır borcdan qurtaram,
Nə cərrah əlacı, nə dərmanı var.

Sərgərdan qalmışam əlacdan naçar,
Namərd qaydasıdır arxadan qaçar,
Qəlbin sandığına olaydım açar,
Açaydım, görəydim nə gümanı var.

Dərdimi demərəm nə qəhrəmana,
Nə Sama, Rüstəm tək bir pəhləvana,
Şikayət eylərəm adil divana,
Nə mülkü, şəriki, nə məkanı var.

DOLANIR

Könül quşu yenə havalanıbdı,
Qalxıb ərş üzünə tağı dolanır.
Bilməm hansı vəfadara uyubdu,
Əyər olsa həyat, bağı dolanır.

Qüdrətdən çəkilib ağ nazik əllər,
Rizvan şanəsində daranır tellər,
Yarın oylağında gəzən gözəllər,
Cümləsi canıma yağı dolanır.

Mən oldum dünyada sənətə pərgar,
Hayıf sözlərimə yoxdu xiridar,
Mənə möhkəm ilqar verən nazlı yar,
Əğyar məclisində saqi dolanır.

Bilməm dostum hansı, düşmənim hansı,
Üzümə kəm baxdı xubların xası,
Dostun məzəmməti, düşmən tənəsi,
Xəyyat Mirzə, qəm otağı dolanır.

HƏSƏN XƏYALLI
(1885-1966)

Həsən Xəyallı (Həsən Məhərrəm oğlu Hacıyev) XX əsr Göyçə mühitinin yetirdiyi sənətkarlardandır. Ədəbi-mədəni mühitdə, xalq arasında Xəyallı Həsən adı ilə tanınmışdır. Aşıq yaradıcılığına xüsusi maraq göstərmiş, ustadların yaradıcılığını toplamağa çalışmış, özü də xalq şeiri üslubunda şeirlər yazmışdır. Aşıq Ələsgər ocağı ilə, xüsusilə Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Nəcəflə aralarında möhkəm dostluq münasibəti olmuşdur. Qoşmaları, gəraylıları, təcnisləri, cığalı təcnisləri onun bir sənətkar kimi istedadının ifadəçisidir. Ustad ruhu daşıyan şeirləri də diqqətçəkicidir.

ÇƏKƏR

Mərd sözünü üzə deyər meydanda,
Namərd kin saxlayar, düşmanlıq çəkər.
Yaxşılıq eyləyən tapar yaxşılıq,
Yamanlıq eyləyən yamanlıq çəkər.

Hər elin dəlisi, divanəsi var,
Atəşlərə yanan pərvanəsi var,
Qanmazın bir qanan zəmanəsi var,
Anlayıb səhvini, peşmanlıq çəkər.

Səxalıq yaranıb açıq əl üçün,
Kəmər yaraşıqdı incə bel üçün,
Yeri gəlsə mahal üçün, el üçün,
Xəyallı başını qurbanlıq çəkər.

GEDƏR

Qəvvas olan dərinləri axtarar,
Naşılar həmişə dayaza gedər.
Bayquşun məskəni xarabalıqdı,
Bülbül gül eşqiylə avaza gedər.

Nadanlar sözündən inciməmişəm,
Namərd süfrəsindən nan yeməmişəm.
Atalar sözüdü, mən deməmişəm:
"Təkə təklənəndə güdaza gedər".

Ay Xəyallı Həsən, ömür nəzilər,
Əcəl çatar, əlin əldən üzülər.
Aşiqin görəndə gözlər süzülər,
Gah işvəyə gedər, gah naza gedər.

ARASINDA

Nadan nə dərd qanar, nə qəlbi yanar,
Görsə bir səqir var yol arasında.
Olmaz düz etibar, nə namus, nə ar,
Hərcayi söz saxlar dil arasında.

Özündən çox deyən olar kəmhünər,
İş dara düşəndə sözündən dönər.
Hamının yerinə məclisdə dinər,
Hörmətdən tez düşər el arasında.

Sözün təsir etməz ağıldan kütə,
Varlısan, lağ etmə kasıba, lütə.
Mərifət ot deyil hər yerdə bitə,
Yetən taya vura çöl arasında.

Dünya vəfasızdı, nahaq qan eylər,
Tənə söz könlümü pərişan eylər,
Bülbül cəfa çəkər, ah-fəğan eylər,
Xar isə kef çəkər gül arasında.

Xəyallı, sən qazan elin hörmətin,
Çox qaçma dalınca varın, dövlətin,
Alimlik asandır, insanlıq çətin,
Dərsini mərdlərin al arasında.

BİSAVAD TEYMUR
(1890-1981)

Goranboy rayonunun Tap Qaraqoyunlu kəndindən olan Bisavad Teymur (Teymur Əsgər oğlu Əhmədov) saz ruhunda şeirlər yazan el şairi olmuşdur. Aşıqlar onun şeirlərini keçən əsrin 20-ci illərindən başlayaraq məclislərdə oxumuşlar. Zəngin yaradıcılıq yolu keşmişdir. Şeirlərinin əlyazması ailəsində saxlanılır. Aşıq şeirinin müxtəlif formalarında bir-birindən maraqlı nümunələr yaratmışdır. Çap olunan şeirləri onun kifayət qədər güclü istedada malik olmasından xəbər verir. Klassik ədəbiyyatın mükəmməl bilicilərindən olan sənətkar xalq şeiri üslubunda yazmağa üstünlük vermişdir.

ATMAZ

Qəzanın qəhrindən əyilsə işin,
Sən mərdə arxalan o səni satmaz.
Qədir bilməzlərə, müxənnətlərə,
İltica eyləmə, dadına çatmaz.

Əyməsin işini ara vuranlar,
Qəfildən başında qopa boranlar,
Şöhrətə qul olub fitnə quranlar,
Heç zaman murada, mətləbə yetməz.

Tale fərəc versin dostun işinə,
Könül mərdin deyir, dolan başına,
Ədavətli işlər gəlməz xoşuna,
Mərd igid heç zaman aranı qatmaz.

İnsafı, mürvəti yada sal hərdən,
Qəza vurub huşun yayınsa sərdən,
Çalış yaxşılardan məsləhət öyrən,
Çəkər sinəsinə, bil, səni atmaz.

Teymuram, düşmüşəm eşq həvəsindən,
Doymadım sazımın şirin səsindən.
Nəfəsim ayrılmaz el nəfəsindən,
Xəyalım söz qoşar, gecələr yatmaz.

QALMASIN

Cəhd elə dinəndə yaxşılıq eylə,
Ürəyinin intizarı qalmasın.
Yanaş insanlara mərhəmət ilə,
Təkəbbürün ixtiyarı qalmasın.

Tamahkar şah olsa arxanda durmaz,
Şöhrətə satılar aldığın verməz,
Burnundan o yana uzağı görməz,
Çalışar bir kəsin varı olmasın.

Sən pis əməlləri yadına salma,
Nankora, nakəsə gəl talib olma.
Ellərin xeyrindən, şərindən qalma,
Teymurun da ahu-zarı qalmasın.

MƏN DƏ

Hər kəsə dost dedim düşmən göründü,
Düşdüm nə qovğaya, nə qalə mən də.
Qəlbimin binasın vurdu, uçurdu,
Nə bürcü qalmadı, nə qalə mən də.

Can qurban eylərəm yaxşı canlara,
Mərifət əhlinə, söz qananlara,
Könül mehribandı, mehribanlara,
Baxmam səyyad gəli nə qalə mən də.

Bisavadam, sədaqətim var sənə,
Ayaq yorğun, könül deyir var sənə,
Yaxşı dosta yaxşılığım var sənə,
Yamanlıq eləsəm nə qalə mən də.

ŞƏMŞİR QOCAYEV
(1893-1980)

Kəlbəcərin Dəmirçidam kəndində şair Qurbanın ailəsində pərvazlanan Aşıq Şəmşir XX əsr Azərbaycan aşıq sənətinin ən parlaq simalarından biridir. Atası Ağdabanlı Qurban dərin söz-hikmət bilicisi və istedad sahibi kimi böyük nüfuza sahib olmuşdur. Ailə daxilində şeir-sənət dərsi alan gənc Şəmşir atası Qurban kişinin yaxın dostu Aşıq Ələsgərin saz-sözünün hikmətini yeniyetməlik çağlarından mükəmməl şəkildə mənimsəmişdir.

Aşıq Şəmşir istedadının parlamasında Səməd Vurğunun qayğı və himayəsinin rolu böyük olmuşdur.

Aşıq Şəmşir saz-havacat elminin sirlərinə vaqif olan bir ustad olduğundan aşıq musiqisini ifa və təqdim etməkdə özünəməxsus dəst-xətt nümayiş etdirmişdir. Aşıq musiqisinin tanınmış araşdırıcısı Əminə Eldarovanın XX əsrin ortalarında onun repertuarından yazıya aldığı səksəndən yuxarı saz havası ustad sənətkarın repertuar zənginliyi və ifa məharəti barədə dolğun təsəvvür yaradır. Aşığın bəstələri olan «Şəmşiri», «Qaragözü», «Şəmşir müxəmməsi» kimi havalar melodik zənginliyə malik sənət inciləridir.

Sağlığında "Dədə Şəmşir" ünvanı qazanmış böyük sənətkar dərin məzmunlu ustadnamələr müəllifi kimi də şöhrətlənmişdir.

BİRDİ

Dava günü mərd igidə
Bərk də birdi, boş da birdi.
Günün yaxşı keçən zaman,
Yay da birdi, qış da birdi.

Hər mətləbi tez qanana,
Mənasını düz qanana,
İşarədən söz qanana,
Göz də birdi, qaş da birdi.

Düçar olsan pis üzlərə,
Sən də bəd ol bəd gözlərə;
Hesabını bilməzlərə
Üç də birdi, beş də birdi.

Dost adını anmayana,
El halına yanmayana,
Bal ləzzətin qanmayana,
Şor da birdi, aş da birdi.

Çox demə mətləb uzana,
Rəhmət nəsihət yazana,
Nabələdə, yol azana,
Dağ da birdi, daş da birdi.

Şəmşir, sənin toxdu gözün,
Onun üçün gülür üzün.
Sadə danış keçsin sözün,
Zor da birdi, xoş da birdi.

VAR

Dostun yolu Haqq yoludu,
Bu yolları azanlar var.
İlqar verib qol çəkənlər,
Gün keçməmiş pozanlar var.

Nanı haram, duzu haram,
Özü namərd, sözü haram,
Oğlu alçaq, qızı haram,
Xalqa quyu qazanlar var.

Nur lazımdı üzümüzdə,
Çətin yaşar xain bizdə,

Obamızda, elimizdə,
Xeyri, şəri azanlar var.

Pozulmayıb hələ xidmət,
Bülbüldən var gülə xidmət,
Vətənində elə xidmət
Çox eləyən ozanlar var.

Aşıq Şəmşir, yorulma yaz,
Oxu şirin-şirin avaz.
Bizim bağlar gül soldurmaz,
Qeyri bağda xəzanlar var.

QAYDADI

Pay ver, pay alarsan-atalar deyib,
Əzələn bu adət bizdə qaydadı.
Müxənnətlər süfrə açıb ad almaz,
Yalvarar-yaxarar üzdə, qaydadı.

Çəkilsin könlündən sədaqətə yol,
Rəhmə, mürüvvətə, kəramətə yol.
Gərək ürək versin məhəbbətə yol,
Gözləmək bu yolu gözdə qaydadı.

Güclüyə küsənib, fağıra gülmə,
Özünü dağlardan çox uca bilmə.
Namərddən toxunar zəhərli kəlmə,
Kababı yandırmaq közdə qaydadı.

Şəmşir çoxdan deyib ilana lənət,
Şeytan kimi ara vurana lənət.
Fırıldağa lənət, yalana lənət,
Kişi bütün olar sözdə, qaydadı.

GƏRƏK

Özü karsız, özgələrə gülənin,
Ağzının qıyısın soyasan gərək.
Hədyan söyləyənin xalq arasında,
Dinəndə dişinə döyəsən gərək.

Ariflər yanında saxla özünü,
Qaş oynadıb, dolandırma gözünü,
Fikir eylə, sonra danış sözünü,
Qabaqdakın adam sayasan gərək.

İnsan budur əqli, huşu bir olsun,
Kamil olsun, sərraf olsun, pir olsun,
Yaxşı sözü istəyirsən dürr olsun,
Şur salıb aləmə yayasan gərək.

Gəzsən sənətkarın sayəsində gəz,
Böyük zəhmətinə alarsan əvəz.
Aşıq ol, alim ol, şair ol, qərəz,
Dünyada yaxşı ad qoyasan gərək.

Şəmşir, can çürütmə dərdin yolunda,
Bir nakəsin, bir namərdin yolunda,
Layiqdi igidin, mərdin yolunda,
Xəzinən olsa da qıyasan gərək.

VƏDƏSİNDƏ

Səni qarı gördüm, bağrım qan oldu,
Mənim saqqalımın çal vədəsində.
Qəlbimə dəydiyin yadıma düşdü,
Çox dedim könlümü al vədəsində.

Ov keçdi bərədən, pusquda durdum,
Oyandım xədəngi izinə atdım.
Ha yüyürdüm, nə yetişdim, nə çatdım,
Hər işin qeydinə qal vədəsində.

Süleymanı yola salan dünyadı,
Ayrılıq təblini çalan dünyadı,
Gözəlliyi əldən alan dünyadı,
Güvəndin hüsnünün gül vədəsində.

Arzun nədi, nə deyirsən indi sən?
Ürəyində mənə sevgi bəslə sən.
Şəmşiri axtarıb görmək istəsən,
Verdiyin ilqara gəl vədəsində.

ADAMI

Vaxt olur bir yalan danışır insan,
Yalan ilan kimi çalır adamı.
Ancaq vaxt olur ki, bir kəlmə yalan
Düşmənin əlindən alır adamı.

Doğruların yalan gəlməz eyninə,
Niyə deyim onun qəlbi dəyinə.
Yalan söz misaldı qəm köynəyinə,
Qaratikan olur yolur adamı.

Yalan ilə beş gün saxlanan bir baş,
Yaranıb dünyaya gəlməyəydi kaş.
Şəmşiri aldatma, ürəyi sərt daş,
Yalan el gözündən salır adamı.

DEDİM

Sızqa olub məni aparan suya
Daşqın Araz dedim, sel, ümman dedim.
Gözlədim bəxtimi xatalı quldan,
Bu səbəbdən çor deyənə can dedim.

Ağladım gözümdə yaş dolandırdım,
Bağrıma bağladım daş, dolandırdım.
Elimdə düz gəzdim, "baş dolandırdım"
Nə hədyan danışdım, nə böhtan dedim.

Meyl etmədim nanəcibin aşına,
Sirrini demədim bir yoldaşına.
Gördüm hər kim qanın alıb başına
Mən ona cavabı mehriban dedim.

Şəmşir mətləbinə yetişib daha,
İncidib bir qəlbi batmaz günaha,
Bu günə nə var ki, göz qoy sabaha
Qail olanları anla, qan dedim.

DEDİMMİ

Dunyaya etibar, gərdişə dostluq
Sən eyləmə aşikara, dedimmi?
Çoxlarını yola saldı bu fələk,
Onu tutdu səngi-sara, dedimmi?

Bizlərə nə qohum, nə qardaş qalır,
Fələk vergisini əldən tez alır,
Hər igid başına bir düsər çalır,
Qəfil vurar sənə yara, dedimmi?

Baxar aşnasına necə ki, bir yad,
Dar gündə çığırsan eyləməz imdad.
Əgər inanmasan eyləyim, isbat,
Sözlərimi axtar, ara, dedimmi?

Saxlamaq çətindi ömür keçəndə,
Əcəl şərbətini insan içəndə,
Qohumdan-qonşudan səni seçəndə,
Yolun düşər uzaqlara, dedimmi?

Yatmışdın, yuxundan nagah oyandın,
Qəflətdə ləngidin, nə çox dayandın?
Bu çərxin andına niyə inandın?
Şəmşir kimi, ay fuqara, dedimmi?

GÖZLƏR

Köhlən at qabağı, igid atını,
Mərd insan öz haqqı-sayını gözlər.
Kamil ovçu çıxsa ov şikarına,
Oxu nizamlayar, yayını gözlər.

Dərəcək barını gül əkən bağban,
Zəhmətin şəhrində görünməz duman,
Şair vətənini sevər hər zaman,
Tərlan quş yuvada tayını gözlər.

Yoldaş istəməyən, yar istəməyən,
Xeyir istəməyən, kar istəməyən.
Var olmaz qonşunu var istəməyən
Görməsin elə pis xaini gözlər.

Sənət bir tukənməz axar-baxardır,
Sədaqət etibar əldə açardır.
Elim qoy var olsun-mənə də vardır,
Şəmşir öz bəxtini, payını gözlər.

GƏRƏKDİ

İstəmirəm özgə bağın barını,
Mənə öz bağımın barı gərəkdi.
Gəzmirəm xərabə bayquşlarını,
Bülbülümün xoş göftarı gərəkdi.

Söz batmaz beyninə hər ağlı azın,
İnanma sözünə sən kələkbazın.
İstəsən taledən çatar murazın,
İgidin bir halal yarı gərəkdi.

İnsan gərək qəm yuxusu yatmaya,
Mayasına zərrə haram qatmaya.
Ölənədək həmdəmini satmaya,
Pak ürəyi, etibarı gərəkdi.

Qaydadı bürc olur qala başında,
Şəmşir, namərdin od qala başında.
Oxuya şerimi, qala başında,
Sözün, şerin xiridarı gərəkdi.

OLAR

Haramdan doğulan, olacaq haram,
Ellərin içində şərmsar olar.
Xaindən, xəbisdən uzaqdı aram,
Düz çıxmaz əhdinə biilqar olar.

Xəbis ha qazansa, az deyər çoxa,
Xəznəsi olsa da hesabdı yoxa.
Bir şagird ki, ustadına kəm baxa,
Malı da, pulu da zəhrimar olar.

Özünə məxsusdu ismi bu nəsin,
Nadan qoy adına insan deməsin.
Quruş versə canı çıxar nakəsin,
Cəsədi alışar tamam nar olar.

Pul güdən aşıqdan kənaram, kənar,
Şəmşirə lazımdı düz söz, etibar.
Xeyrə-şərə gərək olmayan idbar
Ümidəm bəxtimə, sungüsar olar.

OLMAZ

Süfrə nemətinə ehtiram gərək
Vəsfini deməmiş lal yemək olmaz.
Xoşdur duz-çörəyin qədrini bilmək
Olmasa bir əhli-hal, yemək olmaz.

Igid olan qayalara dırmanı,
Vaxtı keçsə döymək olmaz xırmanı,
Bağdadda, dəyməmiş sarı xurmanı,
Üzüb budağından kal yemək olmaz.

Şəmşir, sözün mərd yanında ötərdi,
Lütfü təmiz olan dada yetərdi.
Nanəcibin şərbəti də zəhərdi,
Namərd kölgəsində bal yemək olmaz.

AŞIQ
(divani)

Bir qulaq ver danışıram gör sənə hardan, aşıq.
Halal olsan var taparsan el verən vardan, aşıq,
Özün üçün yaxşı yoldaş seç üzün ağ eyləsin
Uzaq dolan xain, xəbis mərdimazardan, aşıq.

Dost sirrini dosta demə, saxla möhkəm sirr budu.
İnsanlara lazım olan namus, qeyrət bir budu.
Əhdi-vəfa, düz yol-ərkan qiblə budu, pir budu,
Yeri gəlsə geri qalma namusdan, ardan, aşıq.

Bülbül kimi xoşnişan ol, xoş ətri güldən qazan,
Təriqəti, mərifəti, bir əhli-dildən qazan.
Ustaddan kamil dərsin al, hörməti eldən qazan,
Ayrılıb düşmə kənara doğru ilqardan, aşıq.

Həyalan qızdan, gəlindən, qəlbini pak saxla sən,
Təmiz ada sahibkar ol, halal ürək saxla sən.
Nəfsini haram yolda etmə həlak, saxla sən,
Haram maya acı olur, bil, zəhrimardan, aşıq.

Yar-yoldaşa xain çıxma, gəzdiyin oymağı sev,
Zəhmət ilə bağça bəslə bağbanı ol-bağı sev.
Qoy aran, dağ səni sevsin, sən aranı, dağı sev,
Eşidənlər tərifləsin səni kənardan, aşıq.

Arif, alim məclisində yaxşı, yaman seçmişəm,
Halal əmək böhrəsindən, şirin badə içmişəm.
Xalqım üçün cəfa çəkib daşqın çaylar keçmişəm,
Diksinib xof etməmişəm borandan, qardan, aşıq.

Ürəyində xof gəzdirən vəfalı dostdan olar.
Xəbis, xain, paxılların yazı zimistan olar,
Şəmşirin nəsihəti, dillərdə dastan olar.
Aşıq adın uca tutar, uca dağlardan, aşıq.

VEYSƏL SİVASLI
(1894-1971)

XX yüzillik Anadolu aşıq mühitinin yetirdiyi istedadlı sənətkarlardandır. Yaradıcılığı və həyatı ilə əfsanələşmişdir. Xalq arasında haqqında çoxlu hekayətlər və rəvayətlər dolaşmaqdadır. Yeddi yaşında olanda gözləri tutulmuş Aşıq Veysəl erkən yaşlarından saza maraq göstərmişdir. Gənc yaşlarından xalq şeiri üslubunda biri-birindən gözəl nümunələr yaratmışdır.

MƏNİ XOR GÖRMƏ, QARDAŞIM

Məni xor görmə, qardaşım,
Sən altunsan, mən tuncammı?!
Eyni vardan var olmuşuq,
Sən gümüşsən, mən sacammı?!

Nə var isə səndə, məndə,
Eyni varlıq hər bədəndə.
Sabah məzara girəndə,
Sən toxsan da, mən acammı?!

Kimi molla, kimi dərviş,
Tanrı bizə nələr vermiş,
Kimi arı çiçək dərmiş,
Sən balsan da, mən çeçəmmi?!

Torpaqdandır cümlə bədən,
Nəfsini öldür ölmədən,
Böylə əmr etmiş Yaradan,
Sən qələmsən, mən ucammı?!

Təbiətə Veysəl aşıq,
Torpaqdan olduq – qardaşıq.
Bir yolçuyuq, bir yoldaşıq,
Sən yolçusan, mən bacammı?

TÜRKÜK, TÜRKÜ ÇAĞIRIRIQ

Dünya dolsa şərqi ilə,
Türkük, türkü çağırırıq.
Yol getmərik qorxu ilə,
Türkük, türkü çağırırıq.

Türkük, türklər – yoldaşımız,
Hesaba gəlməz yaşımız,
Harda olsa savaşımız,
Türkük, türkü çağırırıq.

Türklərdir bizim atamız,
Xalis türkük qanı təmiz,
Şərqi-qəzəldir xatamız,
Türkük, türkü çağırırıq.

Bayramlarda, düyünlərdə,
Toplantıda, yığınlarda,
Sıxılınca dar günlərdə,
Türkük, türkü çağırırıq.

Bulaqlarda, sulaqlarda,
Türkün səsi qulaqlarda,
Beşiklərdə, bələklərdə,
Türkük, türkü çağırırıq.

Bərabərdir gəlin-qızlar,
Belə coşar o ulduzlar,
Qoşulunca o cüt sazlar,
Türkük, türkü çağırırıq.

İnlər Veysəl arı kimi,
Bülbüllərin zarı kimi,
Durnalar qatarı kimi
Türkük, türkü çağırırıq.

GÜNDÜZ-GECƏ

Uzun, incə bir yoldayam,
Yol gedirəm gündüz-gecə.
Heç bilmirəm nə haldayam,
Yol gedirəm gündüz-gecə.

Dünyaya gəldiyim anda,
Yürüdüm eyni zamanda,
İki qapılı bir handa
Yol gedirəm gündüz-gecə.

Yuxumda da yüyürürəm,
Səbəbini arayıram,
Köçmüşləri həm görürəm...
Yol gedirəm gündüz-gecə.

Qırx doqquz il bu yollarda,
Obada, dağda, çöllərdə,
Düşmüşəm qürbət ellərdə
Yol gedirəm gündüz-gecə.

Düşünülürsə dərincə,
İraq görünür görüncə,
Yol - dəqiqə miqdarınca,
Yol gedirəm gündüz-gecə.

Çaşar Veysəl, bax, bu hala,
Gah ağlayan, gah da gülə...
Yetişmək üçün mənzilə -
Yol gedirəm gündüz-gecə.

QARA TORPAQ

Dost, dost! - deyə neçəsinə sarıldım,
Mənim sadiq yarım qara torpaqdı.
Bihudə dolandım, boşa yoruldum,
Mənim sadiq yarım qara torpaqdı.

Neçə gözəllərə bağlandım, qaldım,
Nə bir vəfa gördüm, nə fayda buldum.
Hər dürlü istəyi torpaqdan aldım,
Mənim sadiq yarım qara torpaqdı.

Qoyun verdi, quzu verdi, süd verdi,
Yemək verdi, çörək verdi, ət verdi,
Qazma ilə döyməyincə qıt verdi,
Mənim sadiq yarım qara torpaqdı.

Adəmdən bu yana nəslim gətirdi,
Mənə dürlü-dürlü meyvə yetirdi.
Hər gün məni başı üstə götürdü,
Mənim sadiq yarım qara torpaqdı.

Qarnın yardım qazmayınan, belinən,
Üzün yırtdım dırnağınan, əlinən,
Yenə məni qarşıladı gülünən,
Mənim sadiq yarım qara torpaqdı.

İşgəncə verdikcə mənə gülərdi,
Bunda yalan yoxdu, hər kəs də gördü.
Bir çəyirdək əkdim, dörd bostan verdi,
Mənim sadiq yarım qara torpaqdı.

Havaya baxarsam – hava alaram,
Torpağa baxarsam – dua alaram,
Torpaqdan ayrılsam, harda qalaram? -
Mənim sadiq yarım qara torpaqdı.

Diləyin var isə istə Allahdan,
Almaq üçün uzaq getmə torpaqdan,
Comərdlik torpağa verilmiş haqdan
Mənim sadiq yarım qara torpaqdı.

Həqiqət ararsan, açıq bir nöqtə:
Allah qulda yaşar, qul da Allahda,
Haqqın gizli xəzinəsi torpaqda,
Mənim sadiq yarım qara torpaqdı.

Bütün qüsurumu torpaq gizləyir,
Məlhəm çalıb yaralarım düzləyir,
Qolun açmış, yollarımı gözləyir,
Mənim sadiq yarım qara torpaqdı.

Hər kim ki, olursa bu sirrə məzhər,
Dünyada iz qoyar ölməz bir əsər!
Gün gələr, Veysəli bağrına basar,
Mənim sadiq yarım qara torpaqdı.

OLAR

Dəli könül, döyməklə çay bulanmaz,
Coşarsa dalğası özündən olar.
Dərdsiz aşıq diyar-diyar dolanmaz,
Başının qovğası özündən olar.

Könlümə dəlisən demişəm başdan,
Üşüməz borandan, islanmaz yaşdan,
Boğulmaz dənizdən, yanmaz atəşdən,
Atəşi, həm közü özündən olar.

Könül bir dəryadır, dalğası dinməz,
Hər gözələ ürək verib dost deməz,
Daşıma su ilə dəyirman dönməz,
Tökülər çarxa su, özündən olar.

Uca dağlar səhra kimi düzlənməz,
Veysəl, müxənnətdən kərəm gözlənməz,
Tülkü kölgəsində aslan gizlənməz,
İgidin kölgəsi özündən olar.

MİSKİN VƏLİ
(1894-1995)

Miskin Vəli (Vəli Alı oğlu Bayramov) 1894-cü ildə Gədəbəy rayonunun Miskinli kəndinə yaxın olan və "Bayraməli qışlağı" adlanan yerdə anadan olmuşdur. Çox güclü hafizəsi, yaddaşı sayəsində aşıqların ağzından eşitdiyi şeir və dastanları, ziyalı din xadimlərinin söylədiyi rəvayət və hədisləri yaddaşına həkk etmişdir. Böyük qardaşı ilə birlikdə məclis-mərəkə aparmış, kamil bir aşıq kimi formalaşmışdır. XX əsrin 70-ci illərinin əvvəllərinə qədər aşıqlıq etmiş, 22 dekabr 1995-ci ildə vəfat etmişdir. Zəngin poetik irsi içərisində ustadnamələr də mühüm yer tutur.

OLA BİLMƏZ

Dəllal yüz dil tökə, sərraf tanıyar,
Qızıl qiymətinə gil ola bilməz.
Əyridə həqiqət, səyridə diqqət,
Səfikdə sədaqət, bil, ola bilməz.

Sazım əldən düşüb pas tutsa simi,
Sönməz alovlara yaxar qəlbimi,
Hər çala-çuxurda bir dərya kimi,
Sinəsi sərvətli göl ola bilməz.

Duz-çörək tamını bilməyən nadan,
Soraqsız, çıraqsız gedər dünyadan,
Himar köhlən olmaz, keçi gərgədan,
Qatır boy atmaqla fil ola bilməz.

Dünyada bir iz sal, ürəklərdə qal,
Zəhmətdən zövqün al, qüdrətdən ucal,
Xaində doğru hal, zaildə kamal,
Naqisdə dürr tökən dil ola bilməz.

Vəli, de, yaz, yarat, onu yəqin bil,
İtirməz qiymətin keçsə, yüz min il,
Ala qarğa laçın, boz sərçə bülbül,
Hər kol çiçək açsa, gül ola bilməz.

SAXLAMAZ

Nəslində naxələf, əslində qələt,
Namusu, qeyrəti, arı saxlamaz,
Özünü itirən sözünü bilməz,
Əyri fikir, düz ilqarı saxlamaz.

Həmişə can verən şərə-böhtana,
Cəhd edər dünyanı qoysun virana,
Aldanan nəfsinə, yağlı yalana,
İtkin düşər ixtiyarı saxlamaz.

Meydanda, cövlanda bir ər oğlu ər,
Zatında olarsa, göstərər hünər,
Hər daş qızıl olmaz, hər torpaq cövhər,
Hər təpə başında qarı saxlamaz.

Əlli öyrənməyən, yüzü qanmayan,
Düşünməz əyrini, düzü qanmayan,
Nəshət eşitməyən, sözü qanmayan,
Boş beyinlər yadigarı saxlamaz.

Miskinli Vəliyəm min nəshət deyən,
Böyük ziyan verər xırda kəsəyən,
Sürünü batırar qurddan törəyən,
Eli satar, etibarı saxlamaz.

QƏMLİ HÜSEYN
(1895-1983)

Qazax qəzasının Qıraq Kəsəmən kəndində anadan olmuşdur. Mahalda sazın-sözün bilicilərindən sayılmışdır. Qəmli Hüseyn (Hüseyn Ələsgər oğlu Muradov) erkən yaşlarından sənətə maraq göstərmişdir. İkinci Dünya müharibəsində ağır yaralandığı üçün aşıqlıqdan əl çəkmiş, kəndlərində dəmirçilik etmişdir. "Qaçaq Kərəm" dastanının yaradıcısıdır.

İNDƏN BELƏ

Sərraf ol, gözlərim, hamını tanı,
Yaxşını, yamanı seç indən belə.
Olsa da dünyanın sultanı, xanı,
Baş əymə namərdə heç indən belə.

Sözün nəsihət olsun, özün də usta,
Yazginən oxunsun dəstəbədəstə.
Namuslu, qeyrətli qonşuya, dosta,
Ürəyinin mətləbini aç indən belə.

Qəmli Hüseynəm, ola cahım-cəlalım,
Qoyam bir yolunda dövlətim, malım.
Sınanmış, yoxlanmış dostun, halalın,
Durmuşam yolunda qoç indən belə.

ƏZİZİM

Özündən böyüyün saxla yolunu,
Sən də qocalarsan cavan, əzizim.
Yapışıb dəstindən soruş halını,
Hərcayi danışma yaman, əzizim.

Yaxşı igid dost qazanar, ad alar,
Yamanlar da düşmən yığar, dad alar,
Az tamahkar dost yanında şad olar,
Eşit sözlərimi inan, əzizim.

Qəlbin açıq saxla fani dünyada,
Adlı pəhləvanlar hanı dünyada?
Qalmaz heç kimsənin canı dünyada,
Bir gün olar cəsəd viran, əzizim.

Hörmət qoy qəribə, elli, mahallı,
Onda dolanarsan cahi-cəlallı.
Bütün səxavəti, dərya kamalı,
Cavanlıqda qazan iman, əzizim.

İnanmaynan hər bivəfa yara sən,
Dostu satma çox düşəndə dara sən,
Umud olma dövlətə sən, vara sən,
Dövlət, vara yoxdu güman, əzizim.

Ariflər mətahın açar dünyada,
Sərraflar gövhərin seçər dünyada,
Yaranan ki, qalmaz, köçər, dünyada,
Fikr eylə gör varmı qalan, əzizim.

Qəmli Hüseynin sərdən alovu,
Tülək tərlan şikarını al ovu;
Bacarırsan cavanlıqda al ovu,
Ov olammaz qoca tərlan, əzizim.

TEYMUR MORULLU
(1895-1980)

XX yüzillikdə Şəmkir aşıq mühitinin yetirdiyi ustadlardandır. Şəmkir rayonunun Morul kəndində anadan olmuş, həmin kəndin adı ilə "Morullu Teymur" kimi tanınmışdır. SSRİ Yazıçılar İttifaqının üzvü olmuş (1947) və üzvlük vəsiqəsini ona S.Vurğun vermişdir. Yüksək təbi, yaradıcı istedadı ilə sayılıb-seçilən sənətkarlardan olmuşdur.

OLMASA

Kamil bağban bil vədəsiz qocalar,
Bəslədiyi bağın barı olmasa.
Ayağına qalxıb gəl deyən olmaz,
Bir kişinin əldə varı olmasa.

Külək yatar, oğrun əsər yenə yaz,
Al qələmi var dərdimi yenə yaz,
Gülümsəməz dağlar gəlsə yenə yaz,
Zimistanın boran, qarı olmasa.

Teymur, sözlərini söylə mərdana,
Mərd istəyir çörək verə mərdana,
Ləkələməz onu doğan mərd ana,
Nakəslərin hiyləgəri olmasa.

ÜZƏ-ÜZƏ

Nanəciblər qeybət eylər daldada,
Mərd sözünü deyər a üzə-üzə.
İstəsən tapasan ləli-bədəxşan,
Qəvvas ol dəryada a üzə-üzə.

Sızıldayıb yaralarım qor eylər,
Quru yanar, yaş ağlayar qor eylər.
Xoryad sözü bu sinəmdə qor eylər,
Ömrümün tağını a üzə-üzə.

Teymur, qul ol vəfalı dost var isə,
Beynamusa nə lazımdı varisə.
Naşı bağban bir baxçaya varisə,
Baxtsız gülü xəndan a üzə-üzə.

ATMAZ

Qəzanın qəhrindən əyilsə işin,
Sən mərdə arxalan, o səni satmaz,
Qədir bilməzlərə, müxənnətlərə,
İltica eyləmə, dadına çatmaz.

Əyməsin işini aravuranlar,
Qəfildən başında qopa boranlar,
Şöhrətə qul olub fitnə quranlar,
Heç zaman murada, mətləbə çatmaz.

Tale fərəc versin dostun işinə,
Könül mərdin deyir dolan başına,
Ədavətli işlər gəlməz xoşuna,
Mərd igid çalışar aranı qatmaz.

İnsafı, mürvəti yada sal hərdən,
Qəza vurub huşun yayınsa sərdən,
Çalış yaxşılardan məsləhət öyrən,
Çəkər sinəsinə, bil səni atmaz.

Teymuram düşmüşəm eşq həvəsindən,
Doymadım sazımın şirin səsindən,
Nəfəsim ayrılmaz el nəfəsindən,
Xəyalım söz qoşar gecələr yatmaz.

QALMASIN

Cəhd elə dinəndə yaxşılıq elə,
Ürəyinin intizarı qalmasın.
Yanaş insanlara mərhəmət ilə,
Təkəbbürün ixtiyarı qalmasın.

Tamahkar şah olsa arxanda durmaz,
Şöhrətə satılar aldığın verməz,
Burnundan o yana uzağı görməz,
Çalışar bir kəsin varı qalmasın.

Sən pis əməlləri yadına salma,
Nankora, nakəsə gəl talib olma,
Ellərin xeyrindən, şərindən qalma,
Teymurun da ahu-zarı qalmasın.

XINDI MƏMMƏD
(1896-1968)

Borçalı aşıq mühitinin yetirdiyi ustadlardandır. Böyük Muğanlı kəndindəndir. Uşaqlıqdan məlahətli səsi olmuş, istedadını nəzərə alan dayısı Söyün Qoca oğlu Xındı Məmmədi Şair Ağacanın yanına gətirmişdir. Fitri istedadı, yaradıcı qabiliyyəti onun tezliklə tanınmasına səbəb olmuş, bənzərsiz ifa tərzi ilə mühitdə seçilmişdir. Divani, gəraylı, təcnis, müxəmməsləri xalq arasında tezliklə yayılmışdır. Şair Ağacan, Şair Nəbi, Bəyazidli Məsim və bir sıra başqa sənətkarlarla şeirləşmiş, "Borçalı bülbülü" kimi şərəfli ad qazanmışdır. Pantürkist adı ilə keçən əsrin 30-cu illərində həbs olunmuşdur. Borçalıda, Qazaxda, Tovuzda, Şəmkirdə, Gəncədə ustad aşıq kimi tanınmışdır.

ÇƏKƏR

Əsildən, nəsildən mərd olan, özün,
Mərdlər sırasında mərdana çəkər.
Laf edib daldada özün öyənlər,
Meydanda yaxasın tez yana çəkər.

Əhli-insan yalan sözdən utanar,
Əhli-ürfan həqiqətə inanar.
Əhli-nadan nə anlayar, nə qanar,
Atalar məsəlin qanana çəkər.

Arifəm, sərrafam mən də bu dəmdə,
Dürdən, gövhərdən vardı sinəmdə,
Xındı Məmməd həqiqətdən deyəndə,
Götürüb sazına tazanə çəkər.

OLMASA

Uzaq yerə səfər, güzar çətindi,
Sadiq olan yola yoldaş olmasa.
Hər yetənə, hər nadana sirr vermə,
Sirr saxlayan sirrə sirdaş olmasa.

Vəfasız dünya da heç kimə qalmaz,
Tülkü aslan olub meydan alammaz,
Dost dostdan inciyib qəlbi bulanmaz,
Aralıqda yaltaq, naqqaş olmasa.

Xındı Məmməd sözün tamam söyləyər,
Mərd oğula canın qurban eyləyər,
Yalqız igid pələng olsa neyləyər,
Arxasında qohum-qardaş olmasa.

ÇƏKMƏSİN

Hər yetən kəndinə "şairəm" deyib,
Əfsanə şeyləri sözə çəkməsin.
Ağzına gələni deyib-danışıb,
Sonra pərişanlıq üzə çəkməsin.

Qəvvas olub dəryalara dalmayan,
Ustaddan dərsini kamil almayan,
Divani, təcnisi dürüst bilməyən,
Götürüb təzənə saza çəkməsin.

Xındı Məmməd, haqq əməyin itirməz,
Hər gəda nəsihət, öyüd götürməz,
Köhlən mənzilinə hər at yetirməz,
Heç kim alaşasın düzə çəkməsin.

ŞAİR CAVAD
(1898-1969)

Şair Cavad" təxəllüsü ilə məşhur olan Hüseynov Cavad Bayram oğlu Daşkəsənin Qabaqtəpə elindəndir. Gədəbəy bölgəsində Miskinli obasının Ağsu (indiki Böyük Qarabulaq, kəndində anadan olub. 16 yaşında ailəsi ilə Daşkəsən rayonunun Təzəkənd kəndinə köçmüşdür. Bədahətən şeir demək qabiliyyətinə malik sənətkarlardandır. Şeirləri xalq arasında, aşıqların repertuarında özünə geniş yer tapmışdır.

YOXLA TANI

Biri sənə dost deyəndə,
Əvvəl onu yoxla tanı.
Çox basıb özün öyəndə,
Yoxla sözün haqla tanı.

Hər yaltağa tez aldanma,
Arxalanıb lovğalanma,
Yuxulu olub sallanma,
Dərin düşün yoxla tanı.

Çoxlar dəm vurur özündən,
Sonra tez dönür sözündən,
Dərs al Cavad avazından,
Nəsihətimi saxla tanı.

AY İNSAN-İNSAN

Lənət əhlikefə, lənət şeytana,
Utan bir Allahdan, ay insan-insan.
Lütfəsi nadürüst, sözü bəhanə,
Utan adil şahdan, ay insan-insan.

Qəhharın moc eylər, qəzəbi tutar,
İldırım sürətlə daşını atar,
Oddan alov geymiş, xələtin çatar,
Əl üzmə pənahdan, ay insan-insan.

İbadət etmirsən, ay üzü qara,
Nədir bu kafirlik azmaq, avara,
Yandırar cisçmini, çəkərlər dara,
Dönmə hax Allahdan, ay insan-insan.

Tula yüksək dağa hürsə nə çıxar,
Fit vurular, öz-özünə huyuxar,
Bulannıx qəlblərdən çal-çamır çıxar,
Əl çək bu günahdan, ay insan-insan.

Cavadın sözündən incimə, küsmə,
Qəhrin kəndirindən özünü asma.
Cəhənnəm qapısın alarsan basma,
Çaşma doğru rahdan, ay insan-insan.

HEY YERİ-YERİ

Lənət de şeytana şər iş görəndə,
Doğru yola tərəf hey yeri-yeri.
Yaxşılığa çalış yeri gələndə,
Həqiqətə hədəf hey yeri-yeri.

Doğru yolla gedən yorulmaz inan,
Belə qərar qoyub qadiri-sübhan,
Hey dolub boşalıb gördüyün cahan,
Misal əsabi-kəf hey yeri-yeri.

Misal var yaxşıya min rəhmət qaldı,
Şeytana güvənmək vaxtsız acaldı,

Çoxların çarasız kəməndə saldı,
Mərifət, dür, sədəf hey yeri-yeri.

Bac alsan fələkdən unutma haqqı,
Tarix də çox görüb nahaqqı, haqqı,
İtməz doğruların zəhməti, haqqı,
Bax belədi səbəb, hey yeri-yeri.

Nə sənətdə olsan xeyirxahlıq et,
Ərinmə, cəsur ol xalqa xidmət et,
Çətinlik çəkənə sən köməklik et,
Cavad, səmti Nəcəf hey yeri-yeri.

OLMAZ

Bir oğul ki, ata sözün tutmaya,
Yüz il damsa ondan axar çay olmaz.
Göz açanda doğru yolla getməsə,
Var tapsa da axırında bay olmaz.

Bəd oğul göz açıb düşmən qazanır,
Özünə dost tutar yoldan azanı,
Dərs oxuyub sözlərimi yazanı,
Yadigar de, heç əməyi zay olmaz.

Bu bir sözdü ustadların yanında,
Bir gün lazım gələr haqq divanında,
Axtarsan tapılar dürr mədənində,
Yüz il saxla, bir misqalı zay olmaz.

Bir insan ki, doğru yolla yerisə,
Bəla tutmaz çovğun onu bürüsə,
O kimsənin əsli-zatı var isə,
Yanlıc olar, yol azana tay olmaz.

Şair Cavad, bu sözlərin baməzə,
Əhli-arif baxar əyriyə-düzə,
Haqq tala göndərib doğru yol bizə,
Əyri yoldan bizə haqqı-say olmaz.

OLMAZ-OLMAZ

Nanəcibə, səxasıza inanma,
Onda əsla mürvət olmaz, ay olmaz.
Hiylə sözlərinə uyub aldanma,
Şərüzlüdə hörmət olmaz, ay olmaz.

Əhli səxavəti sən sına, tanı,
Nacins olan müdam söylər yalanı,
Haqq da sevər pakı, nəcib olanı,
Ona qarşı töhmət olmaz, ay olmaz.

Cavad hey danışar yaxşı, yamandan,
Belə adət olub qədim zamandan,
Tamahkar tez çıxar dindən, imandan,
Cəhd eylər ucalsın olmaz, ay olmaz.

XƏSTƏ BAYRAMƏLİ
(1898-1952)

Göyçə mahalının Nərimanlı kəndindən olan Xəstə Bayraməli (Xudiyev Bayraməli Abbasəli oğlu) el şairi kimi məşhur olmuşdur. Aşıq məclisləri, zəngin Göyçə mühiti onun istedadının parlamasına güclü təsir etmişdir. Gəraylı, qoşma, təcnis, müxəmməs, divaniləri dərin istedad sahibi olduğunu göstərir.

BAĞIŞLAR

Yaxşı adam yaxşılığı itirməz,
Əlin hörmətini ələ bağışlar.
Mərd adam göz diksə dünya malına,
Namərd qeyrətini pula bağışlar.

Qartalın duruşu vüqardı dağa,
Pərvanə müştaqdı oda yanmağa.
Sərçələr dən üçün tökülsə bağa,
Bülbül öz qanını gülə bağışlar.

Bayraməli dönüb qəm sirdaşına,
Başı çox dəyibdi əhləd daşına.
Adam var töhmətdi elin başına,
Adam var ömrünü elə bağışlar.

OLUR

Adam var ki, özü qəpiyə dəyməz,
Baxma ki, geydiyi simuzər olur.
Adam var yaranıb xoş niyyət üçün,
Adam var yerindən bədnəzər olur.

Öyrən astarını al qumaşın da,
Yoxla mayasını almaz daşın da,
Adam var nadandı əlli yaşında,
Adam var gənc ikən dərdi-sər olur.

İnanma dünyada müxənnət kəsə,
Qurandan don geyib, mələyəm desə,
Qohum xaindisə, dost xaindisə,
Beləsi düşməndən çox betər olur.

Adam var saatda min yalan söylər,
Sındırar könüllər, dağıdar öylər,
Qanana bir kəlmə kifayət eylər,
Qanmaza yüz desən söz hədər olur.

Bayraməli, dünya kimsə qalası,
Zalım fələk verdiyini alası,
Namərd olmaz mərd atanın balası,
Xərdən xər törəyir, nərdən nər olur.

NƏCƏF AĞKİLSƏLİ
(1900-1968)

Aşıq Ələsgərin qardaşı Xəlilin oğludur. Mollaxana təhsili almış, aşıq sənətinə böyük marağı olmuşdur. Aşıq Ələsgərdən sənətin sirlərini öyrənmiş, 1925-ci ildən aşıqlığa başlamışdır. Güclü yaradıcı təbi olmuşdur. Aşıq havalarının, aşıq şeirlərinin bilicisi kimi daha çox tanınmışdır. Aşıq şeirinin ən çətin şəkillərində mükəmməl nümunələr yaratmışdır.

BİR GÜN

Aldanma qurğu-büsata,
Eyləyərsən hazar bir gün.
Çox güvənmə köhlən ata,
Yıxar, səni əzər bir gün.

Sən çatıbsan xoş muraza,
Bir bu qədər gəlmə naza,
Yəqin bil ki, qəhri-qəza,
Tapar səni, gəzər, bir gün.

Gəl eşit Nəcəfin sözün,
Yaxşı tanı Haqqın özün.
İnanıram, açar gözün,
Bizə salar nəzər bir gün.

KƏNARINDA

Dedim könül, namərdlərdən kənar gəz,
Gəşt eylə həmişə mərd kənarında.
Müxənnət soruşub dərdini bilməz,
Yüz də dolanasan dörd kənarında.

Gövhər sözüm məclislərdə oxuna,
Arif qana, nəsyət ola çoxuna.
İqbal üz döndərib gəlmir yaxına,
Çəkilib durubdu sərt kənarında.

Bivəfa üzündən çox çəkdim bəla,
Heç zaman dilimdən kəsilməz nala.
Yığılıbdı qat-qat, olubdu qala,
Şikəstə Nəcəfin dərd kənarında.

QURTARASAN

Namərdə, nakəsə etibar yoxdu,
Vaxtında yanından qaç, qurtarasan.
Müxənnətlik edər qovğa günündə,
Çətindi salamat baş qurtarasan.

Səxasız qohumdan, ürəyi daşdan,
Söyləyən qonşudan, zəvzək yoldaşdan,
Tökülməmiş zəhlən, olmamış başdan,
Bir istəsə verib beş qurtarasan.

Bir adamda bu nişanlar var ola:
Diş seyrək, gözü göy, rəngi sarı ola,
Müxtəsəri hərif bədnəzar ola,
Salam ver, yanından keç, qurtarasan.

Çox giley-güzarlı, pinti arvaddan,
Küllüklü məhlədən, küləkli kənddən,
Qatırdan, şütürdən,ulaqdan, atdan,
Yüklə barxananı köç, qurtarasan.

Dərin dəryalara dalan, ay Nəcəf!
Hər vaxt qəm sazını çalan, ay Nəcəf!
Qəzanın qəhrində qalan, ay Nəcəf!
Olacaqmı bir gün heç, qurtarasan?!

GƏRƏKDİ

Hər yetən gədaya insan demərəm,
İnsanın bir əsli, zatı gərəkdi.
Dost ilə dost ola ölənə kimi,
Düşmənə poladdan qatı gərəkdi.

Gələndə məclisə bilə yerini,
Düşünə-daşına əvvəl-gerini,
Sürməyə irəli öz hünərini,
Ağlı, huşu, mərifəti gərəkdi.

Aşıq Nəcəf tamam eləyib sözün,
Həmişə özündə saxlaya gözün,
Bilə qiymətini əyrinin, düzün,
Bol kamalı, fərasəti gərəkdi.

NÖVRƏS İMAN
(1903-1953)

Aşıq Ələsgərin qardaşı Məşədi Salahın oğludur. Dini elmlərə kifayət qədər dərindən bələd olmuş, bədii və tarixi kitabları mütaliə yolu ilə zəngin bilik əldə etmişdir. Gənc yaşlarından mühitdə istedadlı şair kimi tanınmış, 1925-ci ildən aşıqlıq etməyə başlamışdır. Növrəs İman 1930-cu ildə Göyçədən Azərbaycana gəlmiş və 1932-ci ildən yoxa çıxmışdır. Taleyi naməlumdur. "Növrəs" - yeniyetmə təxəllüsü ilə şeirlər yazmışdır. Onun şeirlərinin bir hissəsi yaddaşlarda qalmışdır. Son dövrlərdə - 1970-ci ildə Tovuz rayonunun Aşağı Ayıblı kəndində Məşədi Qədim adlı şair təbiətli bir kişidən İmanın öz xətti ilə yazdığı bir dəftər tapılmışdır. Burada onun min misradan artıq poetik irsi vardır. 1953-cü ildə vəfat etdiyi ehtimal edilir.

DEMƏK OLMAZ

Hamı xəlq olunub bir qətrə sudan,
Hər yetən gədaya xan demək olmaz.
Yatıb, qəflətdədi, qalxmaz yuxudan,
Nalayiq insana can demək olmaz.

Gün xoş keçsə ömür başın tacıdı,
Taleyim kəc gəldi, baxt qıyqacıdı.
Bir tənə söz zəhrimardan acıdı,
Qanmayan nadana qan demək olmaz.

Düz çıxar həmişə mərdin ilqarı,
Müxənnətin olmaz heç etibarı,
Yığar qaynağına şah mardan arı,
Çəkməsə nizama, şan demək olmaz.

Əyri olan bilməz yolu, ərkanı,
Saxlayar könlündə şəri, böhtanı.

Bədəsil tanımaz yaxşı, yamanı,
Namərd süfrəsinə nan demək olmaz.

İman yad ellərdə candan usanı,
Hərcayı sözlərdən hər dəm utanı.
Hər gündə cəsədi bir qədər yanı,
Ləhzədə alışıb yan demək olmaz.

YAXŞI DANIŞAR
(təcnis)

Bir yaxşı məclisə yaxşı varanda,
Yaxşı söhbət eylər, yaxşı danışar.
Yamanlar yığılıb yaman yozmasa,
Yaxşılar guş versə, yaxşı danışar.

Hər zaman olasan yaxşı yanında,
Yaxşı məclisində, yaxşı yanında.
Yaxşı xidmət etsə yaxşı yanında,
Yaman da öyrənər, yaxşı danışar.

Növrəs İman deyər, bir halal olsa,
Halaldan törəyən bir halal olsa,
Bir kəsin nütfəsi bir halal olsa,
Musa peyğəmbər tək yaxşı danışar.

VAR

Gözün açıb bu dünyaya gül olan,
Demə ki, nə yaxşı xoş səfası var.
Alçaltma kəndini, doğru gəz, dolan,
Səfası varsa da, çox cəfası var.

Hər yetənlə ülfət qılma, kənar gəz,
Həqiqi dost olan qəlbini əyməz.

Yüz namərd yığılsa bir mərdə dəyməz,
Məhəbbət əhlinin bir vəfası var.

Yaxşı dostu satma dünya malına,
Rəhmin gəlsin füqəralar halına.
Əvvəlcə fikir ver işin dalına,
Dərk elə sirrinin hər xanası var.

Çıxma haqq yolundan, axtar doğru yol,
Hərcayi sözləri eyləmə qəbul.
İstəyənlə ilqarında möhkəm ol,
Hərdəm xəyallığın nə binası var?

Hər namərdə bel bağlama müttəsil,
Göstərər isbatın olarsan xəcil.
Bədəsil kimsəyə üz versən dəlil,
Novrəs İman söylər iltihası var.

GÖRÜNÜR

Həyat bir dövrandı, iki üzlüdü,
Qarası görünür, ağı görünür.
Hər sözün, söhbətin öz məqamı var,
Çürüyü görünür, sağı görünür.

Bir barlı bağçaydım, barım kəsildi,
Vaxtsız xəzan əsdi, karım kəsildi,
Vətənimdən etibarım kəsildi,
Qürbət ellər mənə yağı görünür.

Novrəs İman haqdan istər payını,
Dərdə düşsün müxənnəti, xayını.
Yemə çörəyini, içmə çayını,
Namərd süfrəsində ağı görünür.

DEMƏSİN

Hədyan söz danışan, hədyan eşidər,
İnsan olan mənə hədyan deməsin.
Eybim olsa qoy söyləsin üzümə,
Sonradan dalımca böhtan deməsin.

Əyri sözlə işim yoxdu, yəqin bil,
Doğru yola çalışıram müttəsil,
Çərxi-gərdiş bədd dolanır ilbəil,
Tapılmayır məndə nöqsan deməsin.

İman deyər, eşq oduna yanıram,
Özümdən böyükdən çox utanıram,
İşarədən mətləbimi qanıram,
Heç kim öz dostuna düşmən deməsin.

ƏLİMƏRDANLI NƏCƏF
(1905-1946)

Əlimərdanlı Nəcəf təxəllüsü ilə tanınan Hüseynov Nəcəf Alı oğlu Tovuz rayonunun Əlimərdanlı kəndindəndir. Erkən yaşlarından saza, şeirə xüsusi marağı olmuşdur. Aşıq Hüseyn Bozalqanlının yanında iki il (1928-1929) şagird durmuş, sonra müstəqil aşıqlığa başlamışdır. Gəncəbasarda ifaçılığı, yüksək yaradıcı qabiliyyəti ilə tezliklə məşhurlaşmış, Səməd Vurğunun zəmanəti ilə Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur. Aşıq Nəcəf rus-alman müharibəsində iştirak etmiş, ağır yaralanmış və gözünün birini itirmişdir. Ustadların yaradıcılığına, klassik dastanlara, saz havalarına dərindən bələd olmuşdur. Şeirlərində ustadnamə ruhu olduqca güclüdür. Onun "Ay eylər of-of" rədifli şeiri aşıq ədəbiyyatının unikal və təkrarsız örnəyidir.

AY EYLƏR OF-OF
(gedər-gəlməz, gələr-getməz, dildönməz, ayaqlı təcnis)

Bağban bar bəsləyib bara yetəndə,
Dərəndə meyvəsin eyləməzmi isss...
Yar badə dəstində yara yetəndə,
Dadanda ləzzətin eyləməzmi isss...
Bekar arvad cavan əri qocaldar,
Küsər öz bəxtindən, ay eylər of-of!

Çalış hər bir işə yara, yetəndə,
Dərdə əlac olar yara yetəndə,
Həsrət çəkən könül yara yetəndə
Görüş zamanında eyləməzmi isss...
Bir bədəsil çıxsa yaxşı nəsildən,
Görənlər ah çəkib, ay eylər of-of!

Elə danış deməsinlər səy sənə,
Bir dərdimi yetirmisən səysənə,
İnsan qəfil yuxusundan səysənə,
Oyanıb yuxudan eyləməzmi isss...
Mərd igidin sərəncamı pozulsa,
Dost görər yurdunu, ay eylər of-of!

Nəcəf deyər, dost qadanı az alım,
İnsafdırmı mən dərdindən azalım.
Sən gələndə biz tərəfə, a zalım,
Həsrət çəkən könül eyləməzmi isss...
Bir səyyad ki, şikarını bulmaya,
Boylanar dalınca, ay eylər of-of!!!

ƏSƏN YELLƏR, BİR ALLAHIN EŞQİNƏ

Əsən yellər, bir Allahın eşqinə,
Yazdığım naməni vətənə yetir.
Bəndədən bəndəyə kəramət olmaz,
Qeyzinən Xeybəri atana yetir.

Yellər, ərzi-halım söyləynən mərdə,
Haqq divan eyləyən Ruzi-Məhşərdə,
Möcüzət göstərən Şəhri-Bərbərdə,
Qul deyib, özünü satana yetir.

Qəribəm, qürbətə atıldı daşım,
Tufana qərq oldu neçə yoldaşım,
Müşküləm, ol Şaha düşübdür işim,
Ərşin sütunundan tutana yetir.

Bir kimsənə deyim, İslama pənah,
Onun da xətrini çox istər Allah.
Qılıncı Zülfüqar, atı Zilcənah* ,
Zəlillər dadına çatana yetir.

**** Zülcənah – İmam Hüseynin atının adı olub, iki qanadlı deməkdir.***

Nəcəfin də gözü yoxdu sağında,
Tərlan idi, qaldı sar oylağında.
Qiblə tərəfində, Ağrı dağında,
Nuhun gəmisində yatana yetir.

OLA

Arayıb, axtarıb bir yar sevəsən,
Ağıl- mərifətdən ustakar ola.
Qohumla, qonşuyla bəd dolanmaya,
Mülayim kəlməli, dil şəkər ola.

Əvvəl əsil ola ata-anası,
Ola gözəlliyin hər nişanəsi.
Ellər tamaşası, göllər sonası,
Gözəllər içində bir ülkər ola.

Nola, qocalmayıb qalasan cavan,
Çəkəsən dövranı bir neçə zaman.
Yanaq gül qönçəsi, üzü məhtəban,
Qüdrətdən qaşları qələmkar ola.

Nəcəf, elə canı hər ana doğmaz,
İgidlər ahınnan buludlar yağmaz.
Adam var ki, dərdi dəftərə sığmaz,
Özü yaxşı ola, yar bekar ola.

OLAR

Nagahdan atılsa mərd igidə daş,
Görmə bir kimsədən, o dostdan olar.
Namərdin yarası öldürməz mərdi,
Pozular damağı, həvəsdən olar.

Göz açıb dünyaya qıldım tamaşa,
Kim qaçar qəzanın toruna düşə,
İki həsrət bir-birinə qovuşa,
O gün cənnət bağı gülüstan olar.

Mətahım qəlp oldu, al qumaşım bez,
Gəl biçarə Nəcəf, hər cəfaya döz.
Yayılar aləmə nəsihətli söz,
Ariflər dilində bir dastan olar.

DÜNYADA

Varlıya dost olub, kasıba gülmə,
Çox da havalanıb, coşma dünyada.
El səni istəyib, keçirsə başa,
Ağır ol, alçağa düşmə dünyada.

Oturub-durgunan qədir bilənnən,
Vəfalı dost olmaz üzə güləndən,
Bir igid ki, sən öl,-desə yalandan,
Onun körpüsündən keçmə dünyada.

Əsil oğul əkər bil, əsil ata,
Ölüncə kimsəyə yetirməz xəta,
Yeri gəlsə. xeyir verər elata,
Onun arxasından qaçma dünyada.

Bu sözü xoşlayar bir arif, əyyar,
Əsilsiz insana nə yapış, yalvar.
Qonşuya söyləyər, mahala yayar,
Seryaquba sirrin açma dünyada.

Nəcəf, gəz dünyanı təmiz adınan,
Təklif olsa, bir məclisə gedinən,
Bir dost sənlə olsa, sözü yadınan,
Onu düşmənindən seçmə dünyada.

YAXŞIDI

Kamal sərf edənlər, kamil olanlar,
Əgər qulluq etsən, sənət yaxşıdı.
Sözün ötkün ola, yığvalın kəskin,
Olasan hər işə bələd, yaxşıdı.

Zurnaçı ac olar, aşıq dilənçi,
Tozdan nəf götürər bil dəyirmançı,
Avara sənətdi misgər, qalayçı,
Dəllallıqdan bilsən lənət yaxşıdı.

Bir gün səfər eylər ömrünün köçü,
Qanana dərindi mətləbin içi,
Dünya bir bazardı, insan alverçi,
Nəcəf, alsan sən rəhmət, yaxşıdı.

BİR ZAMAN

Əsli haram olsa varın, dövlətin,
Artıb dövlət olmaz, itər bir zaman.
Olarsa həyatda vəfalı dostun,
Qaldırıb qolundan tutar bir zaman.

Alova düşsən də dostu unutma,
Hər nadan sözüylə ilqarı atma,
Şeytana bac verib zalımlıq etmə,
Müşkülün, mətləbin bitər bir zaman.

Bulunma şər işdə, bulunma qalda,
Tamahın olmasın şöhrətdə, pulda,
Xüdpəsənd olmasan qalmazsan darda,
Tərəqqin halını ötər bir zaman.

Nəcəf, məhəbbəti çoxdu insanın,
Süfrədə nan yeyib çörək basanın,
Əsli zinakarın, yollar kəsənin,
Çardağı üstünə yatar bir zaman.

HƏMİŞƏ

Qafil olma, diqqət ilə fəhm eylə,
Yaxşıynan yamanı tanı həmişə.
İstəsən ki, murazına çatasan,
Abad istə sən dünyanı həmişə.

İcazəsiz bir gül üzmə butadan,
Gen gəz qalmaqaldan, gen gəz xətadan,
İgid oğul törər əsil atadan,
Qoymaz olsun nahaq qanı həmişə.

Mərd iyid meydanda qoyar sərini,
Yada salar ustadını, pirini,
Axtarar dayazı, gəzər dərini,
Qoyar dost yolunda canı həmişə.

Şamama bitirməz namərdin tağı,
Yığılmaz başına ağır yığnağı,
Mərdin qaydasıdır əylər qonağı,
Açar süfrə, tökər nanı həmişə.

Şükür gəldi ağ günlərin zamanı,
İnnən belə xoş sürərik dövranı,
Nəcəf, mərifətlə dolan dünyanı,
Sən ol xalqın mehribanı həmişə.

DƏRYA MƏHƏMMƏD
(1905-1989)

Qazax mahalının yetirdiyi ustad sənətkarlardandır. "Şıxlı Məhəmməd", "Dərya Məhəmməd" adları ilə tanınmışdır. Yaxşı dastançılıq qabiliyyəti və gözəl şeir demək bacarığı olmuşdur. O, ustad aşıq Sadıq Sultanovun şagirdi olmuş, ondan aşıqlığın sirlərini öyrənmiş, 1930-cu illərdən aşıqlığa başlamışdır. Dini elmlərdən xəbərdar olan dərin mütaliəli ustad aşığın güclü şairlik istedadı onun nəinki aşıqlar arasında, hətta bütünlükdə cəmiyyətdə bir sənətkar kimi tanınıb sevilməsinə səbəb olmuşdur.

BAŞA DOLMAQ

İnsan üçün bir sərvətdir,
Ağla gəlib başa dolmaq.
Yaxşı, yaman, bir cüt hal var,
Qəmgin olmaq, çox şad olmaq.

Gördüyün bu bir həyatdır,
Mərifətdir, səxavətdir,
Dəhanında biləzətdir,
Yediklərin dişə dolmaq.

İnsan olmaq pak adətdir,
Kimi bozdur, kimi sərtdir.
Ay Məhəmməd, zülüm dərddir
Çox qocalıb yaşa dolmaq.

LƏNƏT

Halal nəsil, özü əsil canlar var,
Elə candan doyub bezənə lənət.
Hər dərddən betərdi bedasıl dərdi,
Bedasılnan oturub dözənə lənət.

Sənətkar çalışa gərək işiynən,
Yazıynan, yayıynan, payız, qışıynan.
Kişi olan kişi gəzər kişiynən,
Yaltaqnan, satqınnan gəzənə lənət.

Bilərik ki, kimin qəlbi təmizdir,
Hərə tutub gedir özü bir izdi.
Hamı əzizlərdən namus əzizdir,
Namusu atana-azana lənət.

Ay Məhəmməd, sənsən canı alışan,
Görürsənmi müxənnətdə hər nişan:
Üz-üzə gələndə gülüb danışan,
Pünhanda quyunu qazana lənət.

DEYƏSƏN

Qədir bilən, şirin gülən, yar gərək,
Tərlanım deyəsən, sonam deyəsən.
Ağrısa da canın, ya başın, dişin,
Açasan dərdini ona deyəsən.

Yar ola yar ilə bilsən nə kimi,
Nazı yüzlərlə tamı nə kimi,
Dolana başına pərvanə kimi,
Batma qana, ay pərvanə, deyəsən.

Səni saymaz, zaman özgə zamanadır,
Zaman neynir, kim yaxşıdır yamandır,
Ay Məhəmməd, bedasıla ha qandır,
Söz dediyin gərək qana deyəsən.

MÜNASİB

Atlas da, qumaş da nəyə gərəkdir,
Əgər ki, olmasa əynə münasib.
Şal olmasın bədən üstə bez olsun,
Şalına, bezinə deynə münasib.

Qələm alım bundan artıq nə yazım,
Telli sazım, sözüm, şirin avazım,
Gözəl olsum, göyçək olsun, nə lazım,
Kamal ki, olmasa beynə münasib.

Ay Məhəmməd bu sözlərin uzana,
Lənət olsun doğru yoldan azana,
Qul olaydım bu kəlməni yazana,
Əlfi beynə, teyi ceynə münasib.

TEYMUR QARAÇÖP
(1906-1978)

Qaraçöp mahalının yetirdiyi istedadlı sənətkarlardandır. Erkən yaşlarından saza, sənətə maraq göstərmiş, sənətə həvəs və yaradıcı təbiəti onu aşıqlığa gətirmişdir. Aşıq sənətini ustadlardan öyrənmiş, eldə-obada aşıq kimi tanınmışdır. Onun fitri istedadı tezliklə məşhurlaşmasına səbəb olmuşdur.

GÖRMƏDİM

Dünya sirri örtülüdü,
Bilən görmədim, görmədim.
Yaranmışlar köç edirlər,
Gələn görmədim, görmədim.

Bu gərdişin aləmində,
Tərs yazılıb qələmində,
Hicranın qəhri-qəmində,
Gülən görmədim, görmədim.

Nə danışıb, nə də dilləş,
Nə cəhd eylə, nə də əlləş.
Nə sirdi ki, yanır günəş,
Solan görmədim, görmədim.

Teymur, sözdə olma naşı,
Dərdin artıb həddən aşı,
Gözdən axan qanlı yaşı,
Silən görmədim, görmədim.

ƏLDƏN GEDƏR
(divani)

Bivəfaya uyma, könül, vəfadar əldən gedər,
Xain olma sən dostuna, etibar əldən gedər.
El içində həyalı gəz, təmiz saxla adını,
Aldanma dünya malına, namus, ar əldən gedər.

Bu dünyadı insanları addımbaşı aldadan,
Tifil ikən qulluq eylə, dərs al kamil ustadan.
Əkinçisən ək zəmini, keçməsin vaxtı vədən,
Ay dolanar, gərdiş vurar, ruzigar əldən gedər.

Teymur da söz sərrafıdı, yaxşı-yamanın seçə,
Bivəfaya çəkmə cəfa, əməyin gedər heçə,
Səyyad olan, xub maralı qoyma bərədən keçə,
Axırda peşman olarsan, bu bazar əldən gedər.

BORSUNLU MƏZAHİR DAŞQIN
(1909-1979)

Məzahir" və "Məzahir Daşqın" təxəllüsü ilə tanınan Məzahir Məşədi Həmzə oğlu Axundov əslən Tərtərin Borsunlu kəndindəndir. İkinci Dünya müharibəsində iştirak etmiş, Hüseyn Cavanla, Şair Səyyahla orada tanış olmuş, əsir düşmüş (1942), Almaniyada Fətəli xan Düdənginskinin yaratdığı legionçulara qoşulmuş, orada nəşr edilən "Azərbaycan" qəzetində şeirləri çap olunmuşdur. Avropanın əksər ölkələrini gəzən Məzahir Daşqın vətənə döndükdə (1946) həbs edilmiş, Mingəçevir həbsxanasında saxlanılmış (1946-1947), sonra Sibirə sürgün edilmişdir. 23 iyul 1956-cı ildə vətənə qayıtmışdır. Şeirləri xalq arasında geniş yayılsa da mətbuatda nəşr olunmasına icazə verilməmiş, məclislərdə aşıqlar tərəfindən oxunmuşdur. Zəngin istedadı, üsyankar sənətkar mövqeyi xalq arasında onu şöhrətləndirmişdir. İki şeirlər kitabı: "Bir zaman can deyib, can eşidərdik" (1991) və "Susmaram" (2001) çap olunmuşdur.

GEDƏR

Bu dünya bir mənzilgahdır,
Gələn qəflə qalmaz, gedər.
Onun sirri bir dəryadır,
Qəvvas qorxar, dalmaz, gedər.

Qulaq asın, mehribanlar,
Vəfasızdır xanimanlar,
Rüstəm kimi pəhləvanlar,
Son şikarın almaz, gedər.

Çəkdim fələyin nazını,
Gördüm düz yazmır yazını.
Məzahir eşqin sazını,
Başa kimi çalmaz, gedər.

BİLMƏK OLMAZ

Könül ayrılmasın düçüncələrdən,
Zamanın hökmünü bil, bilmək olmaz.
Saqın iftiradan, fitnədən, şərdən,
Səni tora salar dil, bilmək olmaz.

Fironluq eyləmə bəxt gətirəndə,
Görərsən tabutdur taxt gətirəndə,
Baş əyər, diz çökər vaxt gətirəndə,
Xırda qarışqaya fil, bilmək olmaz.

Ayrılma elindən sayılan zaman,
Şöhrətin aləmə yayılan zaman,
Daşqın, sən yuxudan ayılan zaman,
Görərsən quruyub sel, bilmək olmaz.

GETDİ

Neçə qəhrəmanlar gəldi dünyaya,
Köç vaxtı yetişdi, tez oldu getdi.
Rüstəmin zərbindən titrədi dağlar,
Düşdü dastanlara, söz oldu getdi.

Hardadır Keykavus, hanı Keyqubad,
Hansı biri aldı dünyadan murad?
Allahlıq eylədi Fironla Şəddad,
Nəmrudun qalası düz oldu getdi.

Hakimlik eylədi çox uzun vaxtı,
Küllü-kainata Süleyman baxdı,
Çevrildi tərsinə Cəmşidin taxtı,
Firidunun dərdi yüz oldu getdi.

İsgəndər at sürdü, ölkələr aldı,
Qəsbikar bayrağın dünyaya çaldı,
Abi-həyat gəzib, Misirdə qaldı,
Yandı atəşlərə, köz oldu getdi.

Daşqın düşmənidir mənəm deyənin,
Zülm eyləyib fəqir malı yeyənin.
Hakimlik eyləyib atlas geyənin
Qisməti beş arşın bez oldu getdi.

AVDI QAYMAQLI
(1910-1988)

Qazax mahalının ustad aşığı olmuşdur. Yeniyetməliyindən saza maraq göstərmişdir. Aşıq Cəlal Qəhrəmanov, Aşıq Yəhya, Aşıq Sadıq, Aşıq Sədi onun şagirdləri olmuşdur. Aşıqların IV qurultayında (1984) iştirak etmişdir. Aşıq Avdı Qaymaqlının "İncəgülü" (2009) şeirlər kitabı nəşr olunmuşdur. Həyat və yaradıcılığını əks etdirən "Avdı və Mehriban" dastanı vardır. "İncəgülü" saz havasının yaradıcısıdır.

VAR

Mətahım aça bilmirəm,
Bir çiskinli bazarım var.
Açsam da sata bilmirəm,
Sağalmayan azarım var.

Gücüm azdı, yüküm ağır,
Gedir daşa keçir uğur.
Qar-boran başıma yağır,
Açılmayan rüzgarım var.

Avdıyam, dözürəm dağa,
Baxammıram sola, sağa,
Öz cismimi yandırmağa,
Həm atəşim, həm narım var.

YANDIRAR

Hər yetənə sirrin vermə,
Sonra səni utandırar.
Yetişməmiş meyvə dərmə,
Ürəyini bulandırar.

Sınanmamış bir gözələ,
Demə sözünü əzələ,
Axır səni verər selə,
Öz canından oysandırar.

Avdı, sözün nəsihətdi,
Deməsinlər qal-qeybətdi.
İki sözlü müxənnətdi,
Bircə sözlü can yandırar.

BƏYƏNMƏZ

Təkəbbür insandan səxa gözləmə,
Maya verən el-obasın bəyənməz.
Söruşanda əsil-nəcabətini,
Öz kökünü, babasını bəyənməz.

Belələri öz-özünə bəy deyər,
Heç deməz ki, kimdən qaldım yadigar,
Alim ona dərs verərsə beyqərar,
Mənəm deyən ustadını bəyənməz.

Bilinmir ki, kimdir qolu-qanadı,
Qan töküldü, bu gözlərim qanadı.
Kamallılar ibrət edər, ay Avdı,
O beynəva dost-yadını bəyənməz.

GEDƏR
(divani)

Oxu aşıq, oxu, durma, söhbət-saz əldən gedər,
Vaxtın keçər, dayanarsan, xoş avaz əldən gedər.
Cavanlığa bel bağlayıb uzaq görürəm demə,
Bir gün gələr, qocalarsan, görən göz əldən gedər.

Gəlhagəl olanda əgər, özü düzələr işin,
Gethaget olanda, oğul, çərxi dönər gərdişin,
Bel bükülər, yanaq solar, dəhanda qalmaz dişin,
Yatan baxtı ha çağırsan, oyanmaz, əldən gedər.

Dostluğu pulda görənnən heç sədaqət gözləmə,
Getmə onun yolu ilə, hərəkətin izləmə,
Aşıq Avdı, üzə salıb çox da dərindən demə,
Gözəllər də üz döndərər, işvə-naz əldən gedər.

ƏMRAH GÜLMƏMMƏDOV
(1913-1987)

Borçalı aşıq mühitinin yetirdiyi ustadlardandır. Saz çalmağı atası Paşa Gülməmmədovdan öyrənmiş, Məsim Yediyarovun şagirdi olmuşdur (1928-1934). Mahir saz ifaçısı kimi tanınmış, sazın pərdələrinə əlavələr etmiş, bəzi havaları cilalamışdır. Aşıq Əmrah Aşıq Hüseyn Saraclı ilə Azərbaycan və Gürcüstanda ağır məclislər aparmış, ustad kimi daha da məşhurlaşmışlar. Azərbaycan Aşıqlarının III və IV qurultaylarının iştirakçısı olmuşdur.

GƏTİRİR

Yekdən yekə cavab vermək,
Hər ustada zor gətirir.
Çox axtardım laçın tutam,
Bəxtim mənə sar gətirir.

Meydan günü qızmış nərəm,
Öz içimdə pürhünərəm.
Çətin sözümdən dönərəm,
Sözdən dönmək ar gətirir.

Gəl biçarə, Aşıq Əmrah,
Axtar ki, tapasan həmrah.
Bir Mövlaya gətir pənah,
Dərgahından var gətirir.

KƏSİLDİ

Ömrün bağçasında bir bağ bəslədim,
Gül açanda onun tağı kəsildi.
Düşmən iblis oldu, dost qeybətpərəst,
Biçarə canıma yağı kəsildi.

Mərd olanlar heç danışmaz pünhanı,
Özünə ar bilər həcvi-hədyanı.
Məclislər başında dostlarım hanı,
Şən ömrümün bir növrağı kəsildi.

Əmrah aşıq olub obalar gəzdi,
Neçə yağıların bağrını əzdi.
Dostun həsrətinə illərlə dözdü,
Qapımızdan dost ayağı kəsildi.

VERƏ

Hərənin qəlbində bir aslan yatır,
İnsan odur doğruluğa yol verə.
Qəlbi xain kəsin zatı düz olmaz,
Haqq gərək o kəsə dərdi bol verə.

Adam var ki, sözü şirin bar olur,
Adam var ki, pis iş ona ar olur,
Dost odur ki, yaman gündə var olur,
Görüncə dostuna qönçə gül verə.

Güzaranın olar hündür, alçağı,
Mərdlərin düz çıxar sözünün sağı,
Tək-tük dostdur yaman günün yarağı,
Əmrah istər başın ona qul verə.

BİLMƏZ

Namərd ilə mərdi qoşa əyləsək,
Namərd gəlib mərdə tay ola bilməz.
Mərdə qurban olmaq ayıb eyləməz,
Namərd ilə haqqı say ola bilməz.

Namərdə sirr versən xalqa danışar,
Yaxşı, yaman hər işlərə qarışar,
Mərd oğullar bir məclisə yerişər,
Nə dili təng, əqli zay ola bilməz.

Aşıq Əmrah cəmlə kamalın, huşun,
Namərddən söz alma, kar eylə guşun,
Çalış ki, namərdə düşməsin işin,
Ondan şəfa tapan bay ola bilməz.

OLMASA
(divani)

Bəni insan tanınarmı dillərdə car olmasa?
Dost dostuna inam etməz, düz etibar olmasa,
Ömrü şad-xürrəm keçirən, dövranını xoş sürən,
Qocalığı yaxın qoymaz, bir ahu-zar olmasa.

Bir uğura çıxar olsan Haqqı dildə car elə,
Doğru yolu soruşsalar, ədəblə doğru söylə.
İnşallah ki, çətin işin düzələr, qalmaz belə,
Məclisinə çağrılmamış mərdimazar olmasa.

Aşıq Əmrah, fikr edib nə qəmə bat, nə dərdə,
Bacaranda şirin dolan, nə irəli, nə gerdə.
Mal-dövlət əl kiridir, canı qurban ver mərdə,
Hər təpədən dağ olarmı başında qar olmasa?

GƏL GÖRÜM
(divani)

Yoldaşımsan, əlli ildi, telli sazım, gəl görüm,
Məclis qurduq, dövran sürdük, çəkdim nazın, gəl görüm.
Günüm keçir, vədə yetir, səndən aralanıram,
El içində bu dərdlərə necə dözüm, gəl görüm.

Cavan vaxtı bir an olsa səni əldən qoymadım,
Zil-bəminlə sinəm üstə avazından doymadım.
Ariflərə can deyərdim, anlamazı saymadım,
Səndə gəzdi barmaqlarım, düzüm-düzüm, gəl görüm.

Çoxlar sənə qiymət verdi, səndən aldı ilhamı,
Şirin sözün, xoş avazın oldu ağızlar tamı.
Tanıtdın Aşıq Əmraha qohum, dostu, el hamı,
Ömrü boyu sənə baxdı iki gözüm, gəl görüm.

HÜSEYN CAVAN
(1916-1985)

1946-cı ildə Təbrizdən Goranboya köçmüşdür. Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın yanında şagird durmuş, aşıq sənətinin sirlərini ondan öyrənmişdir. Gəncəbasar aşıq mühitində böyük nüfuz sahibi olmuş, sözü-sənəti həmişə yüksək qiymətləndirilmişdir. Dövlət tədbirlərində, mədəniyyət toplantılarında, festivallarda əsas iştirakçılardan olmuş, zil səsi, ifaçılıq məharəti ilə seçilmişdir. Aşığın "Kimdən öyrəndin?", "Boylana-boylana", "Dilbər", "Məryəm", "Bu dağlarda" və s. kimi məşhur mahnıları vardır ki, bu gün də məclislərdə ən çox oxunan nümunələrdəndir. Əvvəlcə "Fərman", sonra "Cavan" təxəllüsü ilə şeirlər yazmışdır.

VAR

Sözdən baş tapmayan, nəğmə oxuyan,
Hər sözün özünün öz ahəngi var.
İlmə çalammayan xalı toxuyan,
Xalının solmayan min bir rəngi var.

Söz var ki, deyəndə dodaq büzülür,
Söz var ki, ürəkdən gəlir, süzülür,
Söz var ki, ordu tək səfə düzülür,
Sözün özünün də öz sərhəngi var.

Söz var ki, gövhərdən, ləldən qiymətli,
Söz var ki, həyasız, söz var ismətli,
Söz var ki, mənalı, güclü, qüvvətli,
Söz var ki, düşmənlə açıq cəngi var.

Elə söz var – tamsınanda ağı tək,
Elə söz var – üryan qılınc yağı tək,
Elə söz var – Böyük Ağrı dağı tək,
Sözün özünün də ağır - səngi var.

Elə söz var – bahar kimi, yay kimi,
Elə söz var – günəş kimi, ay kimi,
Elə söz var kaman kimi, yay kimi,
Elə söz var – zəhərli xədəngi var.

Elə söz var – zəhrimardan acıdır,
Elə söz var – söhbətlərin tacıdır,
Söz var – Koroğlunun öz qılıncıdır,
Söz var ki, xalqına zəfər cəngi var.

Sənətə yad, gör sənətkar olarmı?
Ustadsız sənətkar elmə dolarmı?
Şirsiz, pələngsiz də meşə olarmı?
Meşənin şiri var, öz pələngi var.

Sən xalqdan ayrılsan gəzə bilməzsən,
Elin dannağına dözə bilməzsən,
Qəvvaslıq bilməsən üzə bilməzsən,
Hər dərin dəryanın bir ahəngi var.

Şair söz axtarır, kitab bağlayır,
Dünya tarixini hey varaqlayır,
Cavan Hüseyn seçib sözün saxlayır,
Çünki ürəyində söz məhəngi var.

ƏHMƏD RÜSTƏMOV
(1921-2008)

Şirvan aşıq mühitinin yetirdiyi sənətkarlardandır. Kürdəmirin Carlı kəndindəndir. Erkən yaşlarından saza maraq göstərmiş, sənətin sirlərini ilk olaraq kəndlərində balabançı Əlidən öyrənmişdir. Aşıq Şakir Hacıyevin sənət dostu olmuşdur. 1946-cı ildən aşıqlıq etməyə başlamışdır. Şeirləri Şirvan aşıqlarının repertuarında geniş yer tutur. "Əhməd gözəlləməsi" saz havasını bəstələmişdir. Bir neçə şeir kitabı nəşr olunmuşdur. Aşıq Əhmədin yaradıcılığı ilə bağlı müxtəlif səpkili məqalələr yazılmış, tədqiqatlar aparılmışdır.

ƏYİLMƏSİN

Kişi gərək mərd yaşasın,
Hər yetənə əyilməsin.
Elm oxusun, sənət seçsin,
İş bacarmır, deyilməsin.

Könül haqqa qüvvət versin,
Əsrimizə sürət versin,
Günəş olub həyat versin,
Dalda qalıb döyülməsin.

Əhməd kimi söhbət açsın,
Çıraq olub şölə saçsın.
Bəd əməldən uzaq olsun,
Namərd olub söyülməsin.

NEYNİRƏM

Arxada düşmənin, üzdə qardaşın,
Yağ-çörəyin, şirin çayın neynirəm.
Haça dil ilanın, ürəyi daşın,
Mənə göndərdiyi payın neynirəm.

İnsan unudarmı yaxın sirdaşın?
Mərd adam ucaldar dostunun başın,
Xeyir-şər bilməyən yarın-yoldaşın,
Qaşın, gözün, uca boyun neynirəm.

Əhməd çox yaz görüb, çox da qarlı qış,
Vəfalı-vəfasız neçə dost-tanış.
Mənə etibardan, vəfadan danış,
Fərsiz oğul-qızın toyun neynirəm.

DÜŞMƏSİN

Çağrıldığın bir məclisə gedəndə,
Elə danış sözün yerə düşməsin.
Sadə otur, sadə danış, sadə dur,
Ağzın çox yoxuşa, dikə düşməsin.

Gör necə parlaqdır günəşin üzü,
Dağıdır zülməti, açır gündüzü.
Qiymətli gövhər tək danış hər sözü,
Üstünə toz qonub, ləkə düşməsin.

Sözdədir xəyalın yetdiyi hünər,
Sözlə insan ömrü gülşənə dönər,
Əhməd, insan sözlə ucalar, enər,
Sadə danış, işin bərkə düşməsin.

TANI

Könül, dost axtarıb, yar sevən zaman,
Demirəm gözündən, qaşından tanı.
Yoxla ilqarını, ləyaqətini,
Onu əməlindən, işindən tanı.

Bağban şöhrət tapar bağça-barından,
İgid cürətindən, dağlar qarından.
Elin adətini adamlarından,
Ağacda yuvanı quşundan tanı.

Əhməd, bir süfrə aç söz sənətindən,
Hamı ləzzət alsın xoş nemətindən.
Hakimi hökmündən, ədalətindən,
İli baharından, qışından tanı.

NƏ GƏRƏKDİR

Birlə beşdə fərq görməyən insana,
Əlli nə gərəkdir, yüz nə gərəkdir?
Ağıllılar məsləhətə tez yatar,
Ağılsıza yaxşı söz nə gərəkdir?

Vaxt səni salmamış ilməşik tora,
Pisliyə nifrət et, yaxşılıq ara.
Həyatı dərindən duymayanlara,
Doğru nə gərəkdir, düz nə gərəkdir?

Əhməd, zəhmət ilə dolansın hərə,
Hamı şöhrət tapır ağlına görə.
Sabahı bu gündən görməyənlərə,
Hər şeyi tərs görən göz nə gərəkdir?

TAPILMAZ

Şər işdən şər törər, xeyirdən xeyir,
Xeyirxah adamdan ziyan tapılmaz.
Dost-aşnanı yada salıb anmasan,
Sənin də dərdini duyan tapılmaz.

El ilə düz dolan, hörmətlə yaşa,
Səni xoş əmənlin qaldırar başa.
Süfrən bağlı olsa, qohum-qardaşa,
Sənə tikəsini qıyan tapılmaz.

Əhməd, mərdlik olsun eşqin, həvəsin,
Hər işdə el sənə afərin desin.
Çalış təmiz adın ləkələnməsin,
Ömür ləkəsini yuyan tapılmaz.

ŞAKİR HACIYEV
(1922-1979)

XX əsr Azərbaycan aşıq sənətinin görkəmli simalarından olan Aşıq Şakir Hacıyev mənsub olduğu Şirvan ifaçılıq məktəbinin inkişafında misilsiz xidmətlərə malikdir. Sənət şəcərəsinə görə, Göyçaylı Aşıq Mürsələ və böyük saz-söz ustadı Mirzə Bilala bağlı olan Aşıq Şakir 1946-cı ildən sərbəst aşıqlığa başlamışdır. Ustad sənətkarın unudulmaz ifaları Azərbaycan aşıq musiqisinin qızıl fonduna daxildir. Xalq arasında dərin hörmət sahibi olan ustad sənətkar 1955-ci ildə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 1967-ci ildə isə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür. "Şakir gözəlləməsi", "Kəndimiz", "Səhər-səhər", "Bala Nərgiz", "Nə bağ bildi, nə də bağban" mahnı-bəstələri onun unudulmaz ifaçılığının bənzərsiz yadigarlarıdır.

GETDİ

Mənəmlik eyləyib fəxr etmə, könül,
Çoxlar bu dünyadan dolandı getdi.
Ədalətsiz hakim, zalım hökmdar,
Dünya şöhrətinə aldandı getdi.

Süleyman istədi quşlardan barat,
Zərif sümüklərdən qurdursun bir taxt.
Çox evlər dağıtdı Fironla Şəddad,
Uçdu tacı-taxtı, talandı getdi.

İsgəndər istədi bac alsın sudan,
Beş arşın bez ilə köçdü dünyadan.
Ocaqlar söndürən, qapı bağladan,
Cəmşidin də cəmi calandı getdi.

Neçə şahlar taxta çıxdı dünyada,
İndi heç birindən gəlməyir səda.
Nuhun da gəmisi batdı dünyada,
Səməndər odlara qalandı getdi.

İldırım Bəyazid, Teymur, Çingiz xan,
Keykavus, Keyqubad, Zal oğlu Rüstəm,
Aşıq Şakir, hər qan tökən, ev yıxan,
Axır öz qanına bulandı getdi.

NƏDİR

Quyu su verməsə özü dibindən,
Ona su tökməyin mənası nədir?
Arağan bitirən şoran düzündə,
Qızılgül əkməyin mənası nədir?

Yüz min alim çarə gəzsə, arasa,
İşıqdan xoşlanmaz yenə yarasa.
Əgər yara sağalmayan yarasa,
Hey kəsib tikməyin mənası nədir?

Şakir, gör kimlərlə sən tikə kəsdin?
İllərlə üstündə yarpaq tək əsdin.
Bir yol demədin ki, bivəfa dostun,
Nazını çəkməyin mənası nədir?

ŞİRİNDİR

Eşqin sevdasına düşən kəslərə,
Dünyada hər şeydən yarı şirindir.
Bağlar qəhrin çəkən qoca bağbana,
Bağın yetirdiyi barı şirindir.

Kəklik daşlıq sevər, sonalar gölü,
Tovuz çəmənliyi, ahular çölü.
Bəxtiyar xalqıma öz doğma eli,
Xalqımızın düz ilqarı şirindir.

Şakir ilham alır eldən, obadan,
Bu bəxtiyar ağ günləri yaradan,
Xalqımızın zəhmətilə açılan,
Yurdumuzun novbaharı şirindir.

MİKAYIL AZAFLI
(1924-1990)

Mikayıl Azaflı (Zeynalov Mikayıl Cabbar oğlu) Tovuz mahalının yetirdiyi görkəmli saz-söz şairidir. Erkən yaşlarında «Coşğun» təxəllüsü ilə şeirlər yazan aşıq-şair bir müddət «Əzablı» təxəllüsünü daşımışdır. Lakin son olaraq doğma kəndinin adını - «Azaflı»nı özünə təxəllüs götürmüşdür.

Azaflı Mikayıl klassik aşıq ənənələrini layiqincə davam etdirmiş sənətkarlardandır. Onun yaratdığı «Azaflı dübeyti» (Qoca Qartal), «Azaflı gözəlləməsi», «Azaflı sənəti», «Azaflı dünyası», «Azaflı gəraylısı», «Azaflı himni», «Mikayılı», «Azaflı dağları», «Azaflı bəhri», «Məzahiri», «Azaflı müxəmməsi», «Azaflı gülü» kimi saz havaları aşıq bəstəçiliyinin ən dəyərli örnəklərindəndir. Aşıq şeiri şəkillərinin əksəriyyətindən məharətlə istifadə edən ustad sənətkar iki mindən çox şeirin müəllifidir. Onun yaradıcılığında təkcə təcnisin 29 növünə təsadüf edilir.

1984-cü ildə Aşıqların IV qurultayında iştirak etmiş, Aşıqlar Birliyinin sədr müavini seçilmişdir. 1979-cu ildə Novruz bayramı şənliklərində Dədə Qorqud obrazını canlandırmışdır.

Aşıq sənətinin inkişafında göstərdiyi xidmətlərə görə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür (1989).

GƏRƏK

Hər aşiqə aşiq demə,
Aşiq yana-yana gərək.
Hər alimə alim demə,
Alim qana, qana gərək.

Hər gözəldə ağıl olmaz,
Hər söz şirin nağıl olmaz.
Hər doğulan oğul olmaz,
Doğan ana, ana gərək.

Hər kəs yeyə öz bəhrini,
Azaflı da söz nəhrini.
Kim ki, çəkir el qəhrini,
Qəlbi şana-şana gərək.

A QARDAŞIM

İlahidən sınan könlü,
Yapammazsan, a qardaşım.
Düzə qəlbən bağlısansa,
Qopammazsan, a qardaşım.

Daş içində gövhər gəzmə,
Səhralarda lövbər gəzmə,
Süzülmüşdə cövhər gəzmə,
Tapammazsan, a qardaşım.

Azaflı şən həyatını,
Xudam versin baratını,
Şər meydanda haqq atını,
Çapammazsan, a qardaşım.

OLMAZ

Adama ad vermək olar,
Adamlığı vermək olmaz.
Yeri, göyü görmək olar,
Ürəkləri görmək olmaz.

Zalım haqqı dandı getdi,
Qanan oda yandı getdi,
Qəlb şüşə tək sındı getdi,
Onu sonra hörmək olmaz.

De sözünü söz vaxtında,
Gör işini öz vaxtında,
Ay Azaflı, döz vaxtında,
Vaxtsız heç nə dərmək olmaz.

O MƏNƏM

Elimə, yurduma elə bağlıyam,
Harda bir bənizi solsa, o mənəm.
Atası atamdı, anası anam,
Harda bir yetimi qalsa, o mənəm.

Həyatı həyatım, öz aləmimdi,
Şənliyi şənliyim, qəmi qəmimdi.
Toyları, şanları sevinc dəmimdi,
Harda bir aşığı çalsa, o mənəm.

Hər daşı, torpağı, zər taxtı-tacım,
Şirini şirinim, acısı acım.
Qardaşı qardaşım, bacısı bacım,
Harda bir gözləri dolsa, o mənəm.

Düşmüşəm böhtana, felə yanmışam,
Haqq deyə ağlayan dilə yanmışam,
Mən elin qəmində elə yanmışam,
Harda bir başını yolsa, o mənəm.

Azaflı, vətənin kanı kanımdı,
Gözləri gözlərim, canı canımdı.
Güləni gülənim, qanı qanımdı,
Harda bir ağlayan olsa, o mənəm.

BİR DƏ HAQQ

Ürəyimdə ən müqəddəs arzudu,
Bir məhəbbət, bir mərhəmət, bir də Haqq,
O dünyanın, o həyatın özüdü,
Bir təbiət, bir cəmiyyət, bir də Haqq.

Əziz saxlar ilqar, iman insanı,
Eylədiyi əhdi-peyman insanı,
O ucaldar zaman-zaman insanı,
Bir cəsarət, bir məharət, bir də Haqq.

O sevgidir, alovlanır qəlbimdə,
Gah şad olur, gah qalanır, qəlbimdə,
Azaflıyam, hey dolanır qəlbimdə,
Bir həqiqət, bir səadət, bir də Haqq.

KİŞİ OL

Alçaq olma bu beş günlük dünyada,
Nəsimi tək soyulsan da kişi ol.
Babək kimi doğrasalar ətini,
Öz qanında yuyulsan da kişi ol.

Qürrələnmə vəzifəyə, yoldaşa,
İlişəndə başın dəyər min daşa,
İnsanlığı satma pula, daş-qaşa,
Haqq yolunda oyulsan da kişi ol.

Ay Azaflı, kimlər sevər namərdi,
Qurd oğlu qurd, mərd oğlu mərd, nər nərdi,
Çəkirsənsə vətən dərdi, el dərdi,
Buz məzara qoyulsan da kişi ol.

UYMA

İnsan oğlu, eşit ustad sözünü,
Şeytan fitnəsinə, felinə uyma.
Mərd, igidlə olsan zindan şən olar,
Namərdin evinə, zilinə uyma.

Evinin sirrini söyləyən qulun,
Atanı, ananı döyən oğulun,
Qırxdilli arvadın, satqın, çuğulun,
Yalan söyləyənin dilinə uyma.

Azaflı, gəl qəza ilə oynama,
Odun vulkan olsa coşub qaynama,
Arxanı çevirmə alçaq adama,
Xain, hiyləgərin bəlinə uyma.

BİLMƏZ

Nanəcib adamda olmaz etibar,
İlqarı, imanı, peymanı bilməz.
Gədanın oğlundan olsa hökmdar,
Nə yaxşını, nə də yamanı bilməz.

Vaxt-vədəsiz əsil insan ölməsin,
Namərdin dünyada üzü gülməsin,
Bir adam ki, xeyri, şəri bilməsin,
Tarixi, gərdişi, zamanı bilməz.

Qartal qanadını fələk yolmayan,
Həsrətdən saralıb, qəmdən solmayan,
Elinə, yurduna aşiq olmayan,
Naləni, fəryadı, amanı bilməz.

Çox görmüşəm, haqqın yeri dar olar,
Ədalət üstündə səngi-sar olar,
Müdam uca dağın başı qar olar,
Aran sərt tufanı, dumanı bilməz.

Azaflı, hər sirri açma, başabaş,
Qanana qismət döy vəfalı yoldaş,
Sarsaq övlad, sarsaq arvad, sarsaq baş,
Qohumu, qardaşı, mehmanı bilməz.



XANMUSA MUSAYEV
(1924-2018)

Şirvan mühitinin yetirdiyi ustad sənətkarlardandır. Aşıq ailəsində anadan olmuşdur. Atası Aşıq Musaxandan, əmisi Aşıq Cənnətalıdan sənətin sirlərini öyrənmişdir. Erkən yaşlarından saza həvəs göstərmiş, sonralar Şamlıda Aşıq Xanbalanın yanında şagird olmuşdur. Cəyirli Aşıq Abbasın da onun bir sənətkar kimi yetişməsində mühüm xidmətləri vardır. Aşıq Xanmusa yaradıcı aşıq kimi tanınmış, aşıq şeirinin müxtəlif formalarında yazıb yaratmışdır. 1954-cü ildə Şamaxıdan Qaradağ rayonunun Qobustan qəsəbəsinə köçmüşdür. Bakıda, Qobustanda, Şamaxıda məclislər aparmış, müxtəlif dövlət tədbirlərində iştirak etmişdir. Respublika və ümumittifaq festivallarında iştirak etmiş, mükafat və diplomlar almışdır. Əməkdar Mədəniyyət işçisi adına layiq görülmüşdür (2016).

İTKİDİ

Baharın şən çağı açmasa güllər,
Aylara zərbədi, ilə itkidi.
Sonalar süzməsə gen sinəsində,
Ləpələr çırpınar, gölə itkidi.

Adətdi, gözəllər halbahal olar,
Sevib sevənlərdə xoş vüsal olar.
Yar-yara yetəndə nitqi lal olar,
Deyib-danışmamaq dilə itkidi.

Gözələ qaşıdı, gözü yaraşıq,
Ağıldı, kamaldı düzü yaraşıq,
Qaməti, gərdanı, üzü yaraşıq,
Hörüklər olmamaq belə itkidi.

Xanmusa, de, sözün ariflər qana,
Mənasız ömürdən nə fayda cana.
Ceyranın azlığı Milə, Muğana,
Aşığın yoxluğu elə itkidi.

AŞIQLIĞIM

El içində alnı açıq,
Üzü ağdı aşıqlığım.
Elə sanma gəldi-gedər,
Bir qonaqdı aşıqlığım.

Eldən ayrı üzü gülməz,
İlqarından bir an dönməz.
Məhəbbəti, eşqi sönməz,
Bir ocaqdı aşıqlığım.

Koroğludu, Xan Kərəmdi,
Qurbanidi, gah Dilqəmdi,
Sazlı-sözlü bir aləmdi,
Bu sayaqdı aşıqlığım.

Dostum, məni salma gözdən,
Salam verib keçmə üzdən,
Boş xəyaldan, yalan sözdən,
Çox uzaqdı aşıqlığım.

Xanmusayam, yansam oda,
Səadətdi məncə o da.
Mən getsəm də bu dünyada,
Qalacaqdı aşıqlığım.

VAR

Yerin, göyün bir sahibi,
Min bir dərdi, azarı var.
Milyon-milyon həkim, loğman,
Sənətkarı, yazarı var.

Bir gün toydu, bir gün yasdı,
Kimi varlı, kimi acdı.
Hər kəsənin neçə dostu,
Neçə mərdimazarı var.

Ömür keçir hay-harayda,
Gəlib gedir gün də, ay da.
Bu dünyanın özü boyda,
Alqı-satqı bazarı var.

Son ümidim bircə kəsdi,
O da gözə görünməzdi.
Vətən sözü müqəddəsdi,
Orda ana məzarı var.

Hər sözümü salın saya,
Etiqad qıl bir Xudaya.
Toxunmayın Xanmusaya,
Onda Haqqın nəzəri var.

NƏ DÜŞƏR-DÜŞƏR

Çalışmaq, yarışmaq insan işidir,
Kimin qismətinə nə düşər-düşər.
Bu gərdiş həyatın öz gərdişidir,
Kimin qismətinə nə düşər-düşər.

Dənizin adası, çayın çəmi var,
Enişin yoxuşu, zilin bəmi var,
Bir gün şadlığının bir gün qəmi var,
Kimin qismətinə nə düşər-düşər.

İnsan bir-birinə yaranıb dayaq,
Xoş keçən günləri ömürdən sayaq,
Hər kəsə götürüb bir ovuc torpaq,
Kimin qismətinə nə düşər-düşər.

Budur sözlərimin əsası, veci,
Fikir başdan gəlib, ürəkdən keçi,
Həyat bir gəmidir, insan gəmiçi,
Kimin qismətinə nə düşər-düşər.

Xanmusa, nə qədər çalışsan yenə,
Yaxşı deyiblər ki, gün çatmaz günə.
Bircə cansağlığı versinlər sənə,
Kimin qismətinə nə düşər-düşər.

PAŞA SALAHLI
(1924-2003)

Paşa Salahlı (Paşayev Paşa Yunis oğlu) Qazax mahalının yetirdiyi istedadlı sənətkarlardandır. 1930-cu illərdə anadan olduğu Daşsalahlı kəndində təhsil almış, Azərbaycan Dövlət Universitetinin (hazırda BDU) hüquq fakültəsini bitirmiş, uzun illər dövlət hüquq-mühafizə orqanlarında çalışmışdır. Erkən yaşlarından el ədəbiyyatına, aşıq yaradıcılığına həvəs göstərmişdir. 1950-ci ildən xalq arasında istedadlı sənətkar, xalq şeiri üslubunda yazıb yaradan şair kimi tanınmağa başlamışdır. Sonrakı illərdə Paşa Salahlı qoşma və gəraylıları, eləcə də ustadnamələri ilə məşhurlaşmışdır. Şeirləri, o cümlədən də ustadnamələri aşıqların repertuarında, xalq arasında geniş yayılmışdır.

QALMAZ

Haqsız, ədalətsiz, kərəmsiz insan,
Köçəndə dünyadan izi də qalmaz.
Əzəldən belədir bu çərxi dövran,
Səni dəfn edənin özü də qalmaz.

Ariflər unutmaz öz keçmişini,
Yüz ölçər, bir biçər, qurar işini.
Çox gəzdim, az gördüm mən ər kişini,
Namərdin dillərdə sözü də qalmaz.

Dilənçi görmüşəm şah idi bir gün,
Asırdı, kəsirdi, edirdi sürgün.
Qalıbdı içində yamaqlı kürkün,
Doğrudan da zülmün tozu da qalmaz.

Kim olub dünyanı başacan tutan,
Tutduğun əməldən, qəsbkar, utan.

Şöhrətə aldanıb mənliyi atan,
O varın, dövlətin azı da qalmaz.

Budur aqibəti fani dünyanın,
Son payı kəfəndir hər hakim canın,
Salahlı Paşayam, ağlı olanın,
Dünya cəlalında gözü də qalmaz.

YANINDA

Düşsən bir məclisə qəti unutma,
Asta gəz, az danış divan yanında.
Şah bilib özünü ucada tutma,
Düşərsən hörmətdən çoban yanında.

Hər kəs gərək bilsin öz qiymətini
Şala vermək olmaz bez qiymətini,
İtirməz dünyada söz qiymətini,
Gərək danışasan qanan yanında.

İnci bitər yerə səpsən inci dən,
Gərək bəzəyəsən sözü incidən,
Kim olsa kəmfürsət, adam incidən,
Bay olmaz dəyişən dövran yanında.

Bu gərdiş poladı muma döndərər,
Sovurub torpağı şuma döndərər,
Əridib daşları quma döndərər,
Olmasa insaflı yaman yanında.

Salahlı, qınama sən öz bəxtini,
Yox vəfa ömrünə, gözlə vaxtını,
Şah olsan bəzəmə tacı-taxtını,
Bir gün heçdir hökmün zaman yanında.

CEYRANI

Zalım ovçu, nə gəzirsən bu yerdə,
Ürküdüb qaçırma çölə ceyranı.
O çöllər qızıdır, yaxşı bax, bir də,
Söylə vurarlarmı belə ceyranı?

Bu yerdə gülləsin kim atmayıbdır,
Onu hürkütməyib, oyatmayıbdır?
Təbiət özü də az tutmayıbdır,
Çovğuna, borana, selə ceyranı.

Bir an oğrun durub yana baxmağı,
Görsə də rəhm eylər daş ürək yağı.
Bizim tərəflərə düşsə ayağı,
El sevib oxşayar elə ceyranı.

Yalvarıram, ovçu alma nişana,
Çöllər yaraşığı boyanar qana.
Dərmanım olsa da qıymaram ona,
Qoymaram yaradan ölə ceyranı.

Salahlı istəyir ceyranı gəzə,
Onun sorağıyla çıxıbdır düzə.
Çünki əmanətdir Vurğundan bizə,
Tapşırıb gedibdir elə ceyranı.

AĞLAMA

Günahın üstündə çəksələr dara,
Nahaqdan göz yaşı töküb ağlama.
Gen gündə olmasa xalqa hörmətin,
Dar gündə diz üstə çöküb ağlama.

Bir gün itirərsən gənclik çağını,
Görərsən gərdişin sinə dağını,
Ömür binasının hər gün tağını,
Özün öz əlinlə söküb ağlama.

Köhnəlib büdrəyib qalsan piyada,
Möhkəm ol sirrini vermə bir yada,
Əyilmə sən hər baş kəsən cəllada,
Vüqarlı gəz, boyun büküb ağlama.

Dünya pəncərədir, göz açıb baxdın,
Ömür tamam olur, tez çatır vaxtın,
Dağılsa dövlətin, yıxılsa taxtın,
Yurdunu kotanla əkib ağlama.

Neçə ki, ürəyin vurur sinəndə,
Qəmdən uzaq olar insan sevəndə.
Bu fani dünyada, Salahlı, sən də,
Ürəkdə hər qəmi çəkib ağlama.

İSGƏNDƏR AĞBABALI
(1925-1992)

Ağbaba aşıq mühitinin yetirməsidir. Aşıq Nəsibin şagirdi olmuşdur. Aşıq sənətinin sirlərini öyrəndikdən sonra müstəqil aşıqlığa (1945) başlamış, məlahətli səsi, mahir ifaçılığı ilə məşhur olmuşdur. Qazaxıstanda, Qırğızıstanda (keşən əsrin 60-cı illəri) repressiya olunmuş azərbaycanlılarla görüşmüş, məclislər keçirmişdir. "Dərbədəri", "Konyalı", "Sarı yaylıq", "Sarı gəlin", "Şenlik xoşdamağı", "Çuxurobası", "Dəli hicranı", "Otalı qızı" və s. kimi az-az ifa olunan saz havalarının mükəmməl ifaçısı olmuşdur. "Güləndamı" saz havası onun adı ilə bağlıdır. Poetik irsi içərisində ustadnamələri də geniş yer alır.

GƏLMƏZ

Yüz il keçsə mərd igidlər,
Düşüb daldan yola gəlməz.
Çağır haqqı yatan vaxtı,
Qəza tutub, bəla gəlməz.

Həvəslənmə mala-pula,
Çəkərsən axrında bəla.
Əgər düşsən qalmaqala,
Qaladasan qala gəlməz.

İsgəndərəm, deyim əzəl,
İnsan oğlu yola düzəl.
Ağlı başda olan gözəl,
Oğul sevər, mala gəlməz.

OLA BİLMƏZ

Nəsilsiz insana heç bel bağlama,
Onda namus, qeyrət, ar ola bilməz.
Qonşuya kor olar, dostluğa xain,
Bədnəzər insanda var ola bilməz.

Sirrini söyləmə hər yetən yada,
Axırda canını qalayar oda.
Xainin üzünə baxma dünyada,
Mərdanə insanlar xar ola bilməz.

Dolandım el-oba, hər dərdə dözdüm,
Çoxuna dost dedim, canımı əzdim.
İsgəndərəm, yaxın-uzağı gəzdim,
Dünya çox böyükdü, dar ola bilməz.

YOXSUL OLMASIN

Məclisə gələndə nə var deyərlər,
Bir kimsə dünyada yoxsul olmasın.
Aşağı qoyarlar, başa qoymazlar,
Bir kimsə dünyada yoxsul olmasın.

Qohum-qardaş yad tək baxmaz üzünə,
Oğul-uşaq fikir verməz sözünə,
Yar-yoldaşın heç görünməz gözünə,
Bir kimsə dünyada yoxsul olmasın.

İsgəndərin ağlı, huşu yerində,
Ölüm hər insanın var qədərində,
Kasıba soyuqdur isti, sərin də,
Bir kimsə dünyada yoxsul olmasın.

KİMİ

Özgənin sözünə inanmaq olmaz,
Özünün dilindən alana kimi.
Havayı sözlərlə dalanmaq olmaz,
Külüngü dağlara çalana kimi.

İnsanı insana salan çox olar,
Qılıncı dəstinə alan çox olar,
Yalandan qeydinə qalan çox olar,
Öz işi yerini alana kimi.

Bilirəm insanlar çiy süd əmibdi,
Paxıllıq Adəmdən nişan qalıbdı,
İsgəndər, eşq ilə sinən dolubdu,
Boşalmaz sazını çalana kimi.

OLDU

Müxənnət bağında seyran eylədim,
Alması tökülüb, gül hayıf oldu.
Dərdim açıb bir nadana söylədim,
Ağzımda danışan dil hayıf oldu.

Doymaq olmaz mərd igidin sözündən,
Hiylə yağar biqeyrətin gözündən,
Müxənnətlə qədirbilməz üzündən,
Dağıldı bir neçə el hayıf oldu.

İsgəndər, sözünü çıxartdın sağa,
Tərifin yayılıb arandan dağa,
Xaraba kəndlərnən viranə bağa,
Çöllərdən tökülən sel hayıf oldu.

SOLTAN SEYİDOV
(1925-2004)

Dağıstan mühitinin XX yüzillikdə yetirdiyi ustad sənətkarlardandır. Rutul rayonunun Katrux kəndində anadan olmuş, sonralar köçüb Qubada yaşamışdır. Atası Hacı Seyidov da dövrünün tanınmış sənətkarlarından idi. Aşıq Soltan (Seyidov Soltan Hacı oğlu) erkən yaşlarından sənətə həvəs göstərmiş, yaradıcı aşıq olmuşdur. "Soltan və Qəndab" dastanının müəllifidir.

BİRİ BAR

Bağ-bağçanın üç şey olmuş bəzəyi,
Biri çiçək, biri yarpaq, biri bar.
Payız vaxtı könlüm üç şey arzular,
Biri heyva, biri alma, biri nar.

Üç şey var ki, qəlbi əsir saldırar,
Səadəti, insanlığı bildirər,
Cavan qəlbi yerdən göyə qaldırar,
Biri sevgi, biri vüsal, biri yar.

Üç şey olub daim qəsdi Soltanın,
Yoxu isə ömrü kəsdi Soltanın,
Qarşısını üç şey kəsdi Soltanın,
Biri namus, biri qeyrət, biri ar.

KÖNÜL

Yadda saxla, məndən sənə əmanət,
Çox da havalanıb yellənmə, könül.
Hər yetən məclisə salma özünü,
Hər kəlmə başında dillənmə, könül.

Yaxın durmaginən qovğaya, qala,
Hörmətdən düşərsən qalarsan dala.
Gəl tabe olginən ağla, kamala,
Hər deyilən sözə güllənmə, könül.

Bu Aşıq Soltan doğrusun söylər,
Kamallı adamdan mərifət dilər.
Ağılsız insana hər yetən gülər,
Hər xoş sözə uyub allanma, könül.

AÇAR

Bir adamla dillə ülfət eyləsən,
Dil var məhəbbətin qapısın örtər.
Nəfsin ədalətdi, ağılın dərya,
Dil var ləli-gövhər, dürdanə bitər.

Dil var ki, qış günü bitirir lalə,
Dil var zəbərcəddən tikdirir qala.
Dil var insanları gətirir zara,
Dil var ki, acıdır zəhərdən ötər.

Dil var ki, bəzənib başdan-ayağa,
Dil var ki, bənzəyir bal ilə yağa.
Dil var ki, düz yolu döndərir dağa,
Dil var ki, dostundan çuğulluq edər.

Dil var ki, insana həmişə xoşdu,
Dil var ki, içibdi şərab, sərxoşdu.
Dil var ki, boranlı, çovğunlu qışdı,
Dil var ki, itidi qılıncdan betər.

Dil var ki, insanı qurtarar dardan,
Dil var ki, Soltanı çıxarar vardan.
Dil var ki, cananı ayırar yardan,
Dil var ki, dumanlı çillədən keçər.

PƏNAH PƏNAHOV
(1926-1979)

Muğan-Salyan bölgəsinin yetirdiyi ustad sənətkarlardandır. Bir neçə il dövrünün ustad sənətkarlarından olan Aşıq Qurban Sadıqovun şagirdi olmuş, aşıq sənətinin sirlərini, saz havalarını, dastanları mənimsəmiş, bir sənətkar kimi formalaşmışdır. Aşıq Pənah tanındıqdan sonra ansambl yaratmış, aşıqlar dəstəsinə rəhbərlik etmişdir. "Kür" aşıqlar ansamblı onun adı ilə bağlıdır. 1950-1970-ci illərdə aşıqlar arasında xüsusilə fərqlənmiş, festivallarda iştirak etmişdir. Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür. Rayon və respublika səviyyəli tədbirlərdə həmişə təmsil olunmuş, sənəti ilə siyasi-mədəni proseslərin təbliğatçısına çevrilmişdir. Yaradıcı aşıqdır. Xeyli sayda aşıq mahnısı ("Ana Kürüm", "Salyan gözəlləməsi", "Pənah gözəlləməsi" və s.) bəstələmişdir.

İNCİYƏR

Bülbül köçsə gül bağında,
Bağ diksinər, gül inciyər.
Dərdim olsa, ceyran dərdi,
Muğan əsər, Mil inciyər.

Boş tərifə yatan kəsdən,
Xeyri-şərə qatan kəsdən,
Qeyrətini satan kəsdən,
Oba küsər, el inciyər.

Pənah vurğun güllü yaza,
Xoş nəfəsə, xoş avaza,
Naşı əllər dəysə saza,
Mizrab ağlar, tel inciyər.

UZAQ OL

Hər yetənə ürəyini açma sən,
Can-can deyən fitnə-feldən uzaq ol!
Hər xəbisi bir dost bilib qucma sən,
Xoş qılıqdan, bəd əməldən uzaq ol!

Şirin dillə öz yerini xoş eylər,
Fürsət düşsə səni qara daş eylər,
Söz saxlamaz, hər sirrini faş eylər,
Bəla şeydir, əyri dildən uzaq ol.

Hər afətə yar-yar demə amandır,
Cəfası da, səfası da yalandır.
Çətri olmaz, ətri olmaz tikandır,
Yaxın durma, elə güldən uzaq ol!

Pənah deyər, məhəbbətə könül ver,
Düz ilqara, sədaqətə könül ver,
Cəsarətə, həqiqətə könül ver,
Ağ yalandan, qara yeldən uzaq ol!

GÖRƏSƏN

Ürəyi düz, əməli düz olanı,
Sevinən görəsən, gülən görəsən.
Axtaran, öyrənən, duyan insanı,
Sirlər aləmini bilən görəsən.

Sevirəm torpağı mədh edənləri,
Əlçatmaz göyləri fəth edənləri,
Dərdini dərindən gizlədənləri,
Sevinci qardaş tək bölən görəsən.

Unudub həyanı, unudub arı,
Mənəm-mənəm deyib hay salanları,
Qeyrətsiz gün sürən, ucalanları,
Min canı olsa da ölən görəsən.

Bülbüldən səs aldım, güllərdən nəfəs,
Pənaham, tükənməz könlümdə həvəs.
Xalqın ürəyində yaşayan ölməz,
Dünyaya təzədən gələn görəsən.

OLMASA

İgid igid olmaz təkcə gücüylə,
Namusu olmasa, arı olmasa.
Payızın bəzəyi sarı xəzəldir,
Qışa qış demərəm qarı olmasa.

Vəslinə yetişsə gülər bu aşıq,
O gün bayramını edər bu aşıq,
Görəsən dünyada neylər bu aşiq,
Dil bilən, hal bilən yarı olmasa.

Zəhməti, hünəri sevən adamlar,
Ömrün mənasını yaxşıca anlar.
Həyatı kef sanan bəzi nadanlar,
Yas tutar dövləti, varı olmasa.

Pənahın başqadır eşqi, niyəti,
Nəğmədir, şeirdir onun sərvəti,
Yayılmaz ellərə sözü, söhbəti,
Bu sazı olmasa, tarı olmasa.

İSMAYIL MAHİR
(1928-1993)

İsmayıl Bahan oğlu Nağıyev (İsmayıl Mahir) Göyçə mahalının İnəkdağı kəndindən olan sənətkarlardandır. Uşaq yaşlarından ata-anasını itirən İsmayıl Gəncədə bacısının himayəsində yaşamışdır. Güclü şairlik təbi olmuş, "İsmayıl və Qəmzə" adlı dastan yaratmışdır. İsmayıl Mahir həm də gözəl sazbənd kimi tanınmışdır.

EYLƏR

İnsan düz dolanar, doğru danışar,
Özünə düzlüyü bir adət eylər.
Vicdanı ləkəli, xain baxışlı,
Eldə öz-özünü xəcalət eylər.

İnsanların qəlbi yaranıb şüşə,
Xoş üzlə halını soruş həmişə,
Hədyanı eyləmə özünə peşə,
El səni qınayar, məzəmmət eylər.

Qazan hörmətini var ikən fürsət,
Xainə, xəbisə edərlər nifrət.
Çalış öyrənəsən kamil bir sənət,
Əməlin özünə xəyanət eylər.

Tamahına əsir olub, göz açma,
Nanəcibə nəsihətdən söz açma.
İsmayıldan nə utanma, nə qaçma,
Sənə doğru yolu əmanət eylər.

ÇƏTİNDİR

Təmiz bir ürəyi, bir saf vicdanı,
İtirmək asandır, tapmaq çətindir.
Ömürdən mənalı keçən hər anı,
İtirmək asandır, tapmaq çətindir.

Arifsənsə, dərk eylə bu dünyanı,
Yüz illər yaşamış babalar hanı?
Bir vəfalı yarı, bir sağlam canı,
İtirmək asandır, tapmaq çətindir.

Qazanıb yığsan da külli daş-qaşı,
Yavaş sür atını, bir az yavaşı,
Atanı, ananı, dostu, qardaşı,
İtirmək asandır, tapmaq çətindir.

Öz əməlin yaxşı qursun taxtını,
Bacarsan firavan keçir vaxtını,
Gənclik illərini, ilkin baxtını,
İtirmək asandır, tapmaq çətindir.

Səndə olmasa da dünyanın varı,
Unutma namusu, tərk etmə arı,
İsmayıl Mahir tək bir sənətkarı,
İtirmək asandır, tapmaq çətindir.

İMRAN HƏSƏNOV
(1928-2000)

XX əsr Azərbaycan aşıq sənətinin parlaq simalarından olan Aşıq İmran Həsənov Göyçədə anadan olmuşdur. Göyçəli Aşıq Məhərrəmdən sənət dərsi almış, ilk gəncliyində Tovuza köçmüş, buradakı saz-söz mühitində püxtələşərək şöhrətlənmişdir. O, daha çox öz zil və şaqraq oxu tərzi ilə məşhur olmuşdur. Güclü səs diapazonuna və qeyri-adi zəngulələrə malik olan İmran Həsənov xalq arasında "Koroğlu aşığı", "Koroğluxan" ünvanını qazanmış, "Koroğlu" dastanının təkrarsız söyləyicisi kimi də ad çıxarmışdır.

1956-cı ildə Bakı, 1959-cu ildə isə Moskva festivallarının qızıl medalına layiq görülmüş, Azərbaycan Aşıqlarının III (1961) və IV (1984) qurultaylarının fəal iştirakçılarından olmuşdur. Fransa, İtaliya, Polşa, Türkiyə, Macarıstan və başqa ölkələrdə qastrol səfərlərində olmuş, Bakı və Moskvada dəfələrlə valları buraxılmışdır. Oxuduğu mahnılar və söylədiyi dastanlar Azərbaycan aşıqlığının qızıl fonduna daxildir. Bir neçə şeir kitabı işıq üzü görmüşdür. Aşıq İmran "Solmazı", "Səlminazı", "İmran gözəlləməsi" kimi saz havaları da bəstələmişdir.

1967-ci ildə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

DALINCA

Qismətdirsə özü gələr,
Çox dolanma var dalınca.
Şübhəlidən uzaq dayan,
Getməz namus-ar dalınca.

Arzu-dilək min ev tikər,
Halal bağban halal əkər,

Qədirbilməz əzab çəkər,
Yanma günahkar dalınca.

İmran dostdan dala qalmaz,
Dil yarası heç sağalmaz,
Daş qəlbə etibar olmaz,
Düşmə biilqar dalınca.

BİRİ QANAR,
BİRİ QANMAZ

Yaranmışın qaydasıdı,
Biri qanar, biri qanmaz.
Gizli-gizli eşq oduna,
Biri yanar, biri yanmaz.

Gözlə adı, düşsən dara,
Mərd of deməz çəksən dara,
Könül vermə biilqara,
Arif qanar, nadan qanmaz.

Dost olmaya belə saxta,
Ad gəzməyə varda-yoxda,
Ölüm olsa bərk ayaqda,
Namərd qaçar, mərd oysanmaz.

İmran qurub büsatını,
Tanıyın əsli-zatını.
Yeri gəlsə öz adını,
Gəda danar, kişi danmaz.

DUYAN OLSUN

Oxşaginən ürəkləri,
Sözlərini duyan olsun.
Nə iş görsən səbrli ol,
Öz adına uyan olsun.

Olmaginən quyu qazan,
Doğru sözü tərsə yozan,
Cavanlıqda hörmət qazan,
Qocalanda sayan olsun.

İmran, olsa saf vicdanın,
Yaşayacaq adın-sanın.
Doğru sözü ataların,
Hər bir eldə bəyan olsun.

QOCALMAZ

Dünyada olmasa hicranlar, qəmlər,
İnsanın ürəyi, gözü qocalmaz.
Saçın ağarması zirvə qarıdır,
Arzu-diləklərin düzü qocalmaz.

Həmdəmi olasan daim qananın,
Oduna yanasan oda yananın.
Bilsəydi qədrini insan insanın,
Keçsə də ömrünün yüzü, qocalmaz.

Az yaşa, çox yaşa, mənalı yaşa,
Bacarıb arzunu vurasan başa.
Əgər bu sözlərim gələrsə xoşa,
İmranın söhbəti, sözü qocalmaz.

DANIŞMA
(divani)

Hər namərdlə qoşa durub yol-ərkandan danışma,
Öz tayını ara-axtar, bədgümandan danışma.
Səbirkara öyüd verib din-imandan danışma.
Uzaq dolan şübhəlidən, keçib candan danışma.

Arzuların təmiz olsun, bir müqəddəs söz kimi,
Mətləbini qanana de, qoy yapışsın köz kimi,
Vicdanını, namusunu qoru, saxla göz kimi,
Həqiqətə açıq-aşkar göz yumandan danışma.

Nəsihət de eləsinə bilsin qədir-qiymətin,
Alim olsun – adam deyil bölürsə öz millətini,
Öz-özündən şübhəlidir düşünməyən sənətini,
Aşıq İmran yaxşı-pisi duymayannan danışma.

CƏLAL QƏHRƏMANOV
(1928-1978)

Qazağın Kəmərli kəndindəndir. Aşıqlığın sirlərini ustad sənətkar Aşıq Avdı Qaymaqlıdan öyrənmişdir. Aşıq şeirinin müxtəlif janrlarında qoşma, gəraylı, divani, təcnisləri vardır. "Cəlaloğlu" saz havasının bəstəçisidir. Aşıqların III qurultayının iştirakçısı olmuşdur (1961). "Sədəfli saz, məni dindir" şeirlər kitabı nəşr olunmuşdur (1992). Qazax, Borçalı, Tovuz, Şəmkir, Gəncə və s. bölgələrdə məclislər aparmış, bir ustad kimi şöhrətlənmişdir. Özünəməxsus ifa tərzi, çalğısı ilə həmişə diqqət mərkəzində olmuş, "Qaratel və Aşıq Cəlal" dastanını yaratmışdır.

BİR ATALAR,
BİR ANALAR

Bu dünyanın yaraşığı,
Bir atalar, bir analar.
Övladların gur işığı,
Bir atalar, bir analar.

Ağıl-kamal başda gərək,
Çənə gücü dişdə gərək.
Daim xeyir işdə gərək,
Bir atalar, bir analar.

Dost dostundan sora əhval,
Şirin dillər olmaya lal.
Qoy var olsun, Aşıq Cəlal,
Bir atalar, bir analar.

UTANDIRAR

Hər yetənə sirrin demə,
Axır səni utandırar.
Yetişməmiş meyvə yemə,
Ürəyini bulandırar.

Heç yoldaş olma namərdə,
Axır salar səni dərdə,
Rast olsa bir pünhan yerdə,
Oda salar, o yandırar.

Aşıq Cəlal, sən pis olma,
Pis kəsdədən cavab alma,
Müxənnətlə süfrə salma,
Zəhər qatar, oysandırar.

DEYİBLƏR

Namərd dostu yaxın düşmən sayanlar,
Sirrini tez salar dilə deyiblər.
Pisə pis ol, yaxşıya da yaxşı sən,
Var-yoxunu vermə ələ deyiblər.

Saxlama varını, gəz, ye-iç qurtar,
Arvadın pisdisə, ondan keç qurtar,
Qonşun paxıldırsa, tez ol, köç qurtar,
Rəhmət atalara, belə deyiblər.

Atalar sözünün çoxdur mənası,
Xeyir tapmaz heç vaxt kim olsa asi.
Ev yıxanın yıxılacaq xanası
Bunu mən demirəm, belə deyiblər.

İnanma yaltağa, baxma xəsisə,
Başın bəla çəkər uysan xəbisə.
Yoldaşında iti tamah var isə,
Geci-tezi qurar tələ deyiblər.

Aşıq Cəlal, yaxşıya bax, yaxşı qan,
Yaxşıdırsa car olacaq yaxşı qan.
Kimdə olub halal süfrə, yaxşı nan,
El-obada ona lələ deyiblər.

OĞUL

Böyük sözü eşit, ona yaxın gəl,
Durma ondan kənar, oğul, yan oğul.
Hər kim sənə öyüd-nəsihət versə,
Dinlə oğul, anla oğul, qan oğul.

Böyük sözü kiçik üçün gərəkdir,
Anlayana bir arxadır, köməkdir,
Danışma hər sözü, bil nə deməkdir,
Çor deyən olsa da, sən de can, oğul.

Mərifətin olsa tez ucalarsan,
Uyma vəzifəyə, boşda qalarsan,
Sənət sahibi ol, onda olarsan,
Ağıllı-kamallı bir insan, oğul.

Dost eylə özünə bir düz ilqarı,
Olsun etibarı, olmasın varı,
Gördün yox dostunun namusu, arı,
Eləsə ayrı gəz, tək dolan, oğul.

Aşıq Cəlal deyər, güc ver əlinə,
Dost qədri bil, xidmət eylə elinə,
Düz insan ol, heç gəlməsin dilinə,
Nə şər, nə bir böhtan, nə yalan, oğul.

DEMƏSİNLƏR

Məclisə girəndə elə otur ki,
Sənə öyüd verib bax deməsinlər.
Hər kəs nə söyləsə dinlə sən onu,
Tez eşit bir sözü çox deməsinlər.

Gördün böyük gəldi sən keç ayağa,
Alar kamalını uyma arağa,
Yersiz deyib-gülüb başlama lağa,
Qoy ağlı-camalı yox deməsinlər.

Dinlə, aşıq çalır, fikir ver ona,
Əl atma şəraba, nə istəkana,
İçib sərxoş olub düşmə ziyana,
Sənə tənə edib hax deməsinlər.

Ayıq ol məclisdə otur sən yenə,
Qoşul bu büsata, belə xoş günə,
Aşıq Cəlal deyər, çalış ki, sənə,
Məclisdən bayıra çıx deməsinlər.

KAMANDAR ƏFƏNDİYEV
(1929-2000)

Borçalı aşıq mühitinin XX yüzillikdə yetirdiyi ustad sənətkarlardandır. Borçalı mahalının Kəpənəkçi kəndində anadan olmuşdur. Aşıq Sadıq Sultanovdan, Aşıq Əmrah Gülməmmədovdan, Dərya Məhəmməddən sənətin sirlərini öyrənmişdir. Yüksək ifaçılıq qabiliyyətinə malik ustadlardandır. "Ceyhun" imzası ilə şeirlər yazmışdır. Ayrı-ayrı toplularda şeirləri və bir kitabı nəşr olunmuşdur. Dastançı aşıq kimi daha çox tanınmışdır.

YOXDU

Harda mərdin bəhsi düşsə,
Namərd deyər, sözüm yoxdu!
Dost-dostundan gileylənsə,
Bil ki, onda dözüm yoxdu.

Vurğunuyam etibarın,
Düz peymanın, düz ilqarın,
Çox görmüşəm dünya varın,
Daş-qaşında gözüm yoxdu!

Tanı məni xoş niyyətdə,
Dost yolunda sədaqətdə,
Kamandaram bir sifətdə,
Haqdan dönən üzüm yoxdu.

EŞİT

Dərsin almayanlar kamil ustaddan,
Belə başlamazlar, a yağı, eşit.
Məclis içrə həcvi-hədyan söyləmə,
Sözlərin olmasın bayağı, eşit.

Nə mənası alışmağın, yanmağın,
Yaxşı adamları yaman sanmağın,
Əgər varsa mərifətdən qanmağın,
Özün nə ağ danış, nə ağı eşit.

Yaxşı çalış insanlara çatmağa,
Cəhd eylə ki, sənətkara çatmağa,
Arzun olsa Kamandara çatmağa
Ustad sözün arif sayağı eşit.

BİLƏRMİ

Ata-ana qüdrətini qanmayan,
Həyatı dərk edib qana bilərmi?
Bu varlığa alışmayan, yanmayan,
Məhəbbət oduna yana bilərmi?

Dədələr yetirər dədə hökmünnən,
Gədələr bitirər gədə hökmünnən,
Əclaf ucalanda vədə hökmünnən,
O, dağı dağ kimi sana bilərmi?

Kamandar gərdişin hökmünü bilir,
Nankorun etdiyi gözünnən gəlir,
Mərdlər fəğan çəkir, namərdlər gülür,
Alçaq öz adını dana bilərmi?

YAXŞIDI

Hər çiçək bir dərdin dərmanıdır, bil,
Demə lalə nədir, süsən yaxşıdır.
Hər sevənin ünsiyyəti bir deyil,
Naz edib yarından küsən yaxşıdı.

Qəlbi düz, könlü düz dilin olsa da,
Haqsız, ədalətsiz zülüm olsa da,
Əyilmə namərdə ölüm olsa da,
Mərdin kölgəsinə küsən yaxşıdı.

Yüz il yağa zirvələrdən qar aşmaz,
Böhtan demə, sənə xeyir-kar aşmaz,
Qeybət etmək kişiliyə yaraşmaz,
Həqiqəti üzə desən yaxşıdı.

Dolanmaq havalı, gəzmək havalı,
Gətirər başına çox qeylü-qalı,
Dünyada qalacaq dünyanın malı,
Tamahdan aranı kəsən yaxşıdı.

Qədrini bil, cana salma azarı,
Uzaq getmir tərəqqinin bazarı,
Taleyin verdiyi dövləti, varı,
Ağılnan, kamalnan yesən yaxşıdı.

Şən həyatı söyən də var, öyən də,
Gülən də var, qəm libası geyən də,
Dil büdrəyib yaxşıya pis deyəndə
Vicdanı qan-tərlə yusan yaxşıdı.

Düz desən söz düşməz öz kəsərindən,
Günəş odnan oynar, kölgə sərinnən,
Bir kəlmə tənəli söz əsərinnən
Ceyhun tək titrəyib əsən yaxşıdı.

MƏHƏMMƏD SADAXLI
(1930-2016)

XX əsr Borçalı aşıq mühitinin yetirdiyi ustad sənətkarlardandır. Aşıq sənətinin sirlərini XX əsrin əllinci illərində dövrünün ustad sənətkarı Xındı Məmməddən öyrənmiş, ustadların yaradıcılığını, dastançılığı mükəmməlliklə mənimsəmişdir. Borçalıda, Qazaxda, Tovuzda, bütünlükdə Gəncəbasarda məclislər keçirmiş, sazı, sözü ilə tanınmışdır. Çöxlu şagirdlər yetişdirmişdir. Yaradıcı aşıq kimi tanınmış, bir neçə kitabı işıq üzü görmüş, beş dastan yaratmışdır.

OLMASA

Çalışmaq yersizdi, bəxtikəm insan,
Xudadan qismətin, payın olmasa.
Adını anmazlar qalar hər zaman,
El içində haqqı-sayın olmasa.

Kimə qalacaqdı bu dünya malı,
Heç kəsin yatmasın bəxti, iqbalı.
Dolanar aləmdə, xoş keçər halı,
Yanında qonşusu xain olmasa.

Bir kəsin ki, bəxti çaşa, gələrmi?
Binadan pozulan başa gələrmi?
Sadaxlı Məhəmməd coşa gələrmi
Münasib yoldaşın, tayın olmasa.

LAĞ EYLƏR

Vaxt olar ki, dönər çərxi-zəmanə,
Vaxt olar ki, namərd mərdə lağ eylər.
Vaxt olar ki, qartal düşər dumana,
Vaxt olar ki, sar tərlana lağ eylər.

Vaxt olar ki, yatan bəxtin ucalar,
Vaxt olar ki, tale sənlə öc olar.
Vaxt olar ki, mərd igid də qocalar,
Vaxt olar ki, dönüb yar da lağ eylər.

Vaxt olar ki, insan düşər kələyə,
Vaxt olar ki, baş əyməzlər fələyə.
Vaxt olar ki, pələng düşər tələyə,
Vaxt olar ki, tülkü qurda lağ eylər.

Vaxt olar ki, axmaq verər öyüdü,
Vaxt olar ki, fərsiz döyər iyidi.
Vaxt olar ki, nadan elin bəyidi,
Vaxt olar ki, baxar gerdə, lağ eylər.

Vaxt olar ki, insan şöhrətə uyar,
Vaxt olar ki, Sadaxlını tez duyar.
Vaxt olar ki, dost-dostuna can-ciyər,
Vaxt olar ki, qoyar darda, lağ eylər.

BƏHMƏN VƏTƏNOĞLU
(1932-2004)

XX əsr Kəlbəcər mühitinin yetirdiyi istedadlı sənətkarlardandır. Şeirləri aşıqların repertuarında geniş yer alır. Poetik mükəmməlliyə və dərin ümumiləşdirmə gücünə malik olan qoşma və gəraylıları dillər əzbəridir. 1992-ci ilə qədər Kəlbəcərdə, daha sonra Gəncədə yaşamış, Bakıda və Təbrizdə şeir kitabları nəşr edilmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999) olmuşdur.

ÇƏKƏRMİŞ

Aman Allah, nə gec başa düşmüşəm,
İnsanları insan başa çəkərmiş.
İndi bildim, arifləri ariflər,
Nadanları nadan başa çəkərmiş.

Yaman gələr yaxşılara tən, demə,
Bu həyatı dərk etmişəm mən demə,
Buynuzlaya-buynuzlaya sən demə,
Heyvanları heyvan başa çəkərmiş.

Düzü götürməzmiş əyrinin gözü,
Zalım bəyənməzmiş ədalət sözü,
Nanəcib olanda dövranın özü,
Nanəcibi yaman başa çəkərmiş.

Qəlbi daşlar oda düşsə yanmazlar,
Yaxşılığı yada salıb anmazlar.
Müxtəsər ki, qanmazları qanmazlar,
Qananları qanan başa çəkərmiş.

YAXŞIDAN ALDI

Quşlar nəğmə dedi bahar gələndə,
Qaranquş torpaqdan yaxşı dən aldı.
Kərəm Əslisindən, Fərhad Şirindən,
Lələ ilhamını Yaxşıdan aldı.

Bir tərlan şığıdı o başdan yenə,
Dürr sözlər süzüldü o başdan yenə,
Oyanıb gördüm ki, o başdan yenə,
Üfüqlər qızarıb, yaxşı dan oldu.

Bəhmən, ömrümüzü bizdən kim aldı?
Səpəndə toxumu pis dən kim aldı?
Axı qismətimi pisdən kim aldı?
Ölüm də payını yaxşıdan aldı.

NƏ VAR Kİ

Şən çalış keçir vədəni vaxtı,
Keçəcək, vədəyə vaxta nə var ki.
Çox da bel bağlama taleyə, baxta,
Taleyə nə var ki, baxta nə var ki.

Giley nə lazımdır taledən, baxtdan,
Dövrandan, zamandan, vədədən, vaxtdan,
Taxtın nə vecinə- sən düşdün taxtdan
Başqası çıxacaq taxta nə var ki.

Daldalan uğursuz əsən küləkdən,
Astarı şeytandan, üzü mələkdən,
Keçir şadaradan, ələ ələkdən,
Bəhmənin sözündə saxta nə var ki.

BİLƏR

Nədir yar həsrəti, vüsal həsrəti,
Həsrətdən titrəyən dodaqlar bilər.
Ülvi məhəbbəti, nurlu isməti,
Həyadan qızaran yanaqlar bilər.

Bülbülsüz şöhrəti olmaz gülün də,
Çəmənsiz bəzəyi yoxdu çölün də.
Alışan, közərən şair əlində,
Qələm nələr çəkir varaqlar bilər.

Bəhmən, nə gəzirsən itən çağında,
Min bir xatirə var ötən çağında.
Ömrün yetmişinə yetən çağında,
Sən niyə cavansan? – O dağlar bilər.

SƏNİ
(divani)

Qafil insan, gəl oyadım şirin xəyaldan səni,
Xilas edim tamah adlı bir qeylü-qaldan səni.
Var toplasan haramıtək dostun olar çoxları,
Varın əldən gedən kimi, qılınclar daldan səni.

Atalardan öyrənmişəm, gözəl həqiqətdi bu,
Ləkəli bir qəlbi yumaz dəryalarca axan su.
Silahsız da basılmazdı ədalətin ordusu,
Təmiz ürək xilas eylər hər cür zavaldan səni.

Dünya varı bir ilandı, girib mələk yerinə,
İnanmırsan, çək Bəhmənin sözlərini dərinə.
Lənət oxu bu dünyanın altununa, zərinə,
Ləkə vurar vicdanına, çıxardar yoldan səni.

QƏMKEŞ ALLAHVERDİ
(1933-2004)

Kəlbəcər aşıq mühitinin XX əsrdə yetirdiyi məşhur aşıqlardan olan Qəmkeş Allahverdinin atası Əli el içində saz-söz adamı kimi tanınmış, Kəlbəcərdə xüsusi hörmət sahibi olmuşdur. Atası Allahverdidəki qabiliyyəti, yaradıcı istedadı görmüş və onu ustad Aşıq Şəmşirin yanına şagird olmaq üçün gətirmişdir. Daha sonra göyçəli Aşıq Ağayarın yanında şagird olmuşdur. Bu ustadlardan sənətin sirlərini öyrənən Allahverdi tezliklə tanınmış, müstəqil aşıqlığa başlamışdır. Ustad sənətkarın "Qəmkeş" təxəllüsü ilə söylədiyi şeirləri dillər əzbərinə çevrilmişdir. Kəlbəcərin işğalından sonra Qəmkeş Allahverdi qaçqınlıq həyatı yaşamış, Gəncə şəhərində vəfat etmişdir. Bir neçə şeirlər kitabı və 80 illiyi münasibətilə foto-albomu nəşr edilmişdir. Onun müxtəlif mövzulu şeirləri, haqqında yazılanlar güclü təbə malik olmasının göstəricisidir.

YATIBDI

Bu gün yolum düşdü qəbristanlığa,
Orda zaman qışdı, dövran yatıbdı.
Sanki pıçıldaşdı hər məzar daşı,
Şair, asta yeri insan yatıbdı.

Qarşımda canlandı o zülmət aləm,
Ürəyimdə kədər, gözlərimdə nəm,
Dünya vəfasızdı, insan ömrü kəm,
Yolunda əcəl tək aslan yatıbdı.

Gərdiş dolaşıqdı, yolları çətin,
Onun şikarısan yüz olsan mətin,
Şaha baş əyməyən nazlı afətin,
Qəbirdə qoynunda ilan yatıbdı.

Nazənin gözəllər boylanmır oğrun,
Şövqülü cavanlar düşübdü yorğun,
Məzar var yazıblar qərib olduğun,
Əcəldən tapmayıb aman yatıbdı.

Vurğunun qələmi əlindən düşüb,
Dürrənin kəməri belindən düşüb,
Cabbarın muğamı dilindən düşüb,
Matəm dünyasında peşman yatıbdı.

Hanı, at oynatmır bəs Qoç Koroğlu,
Dəlilər tökülüb bilinmir yolu,
Qanlı paşaların bağlanmır qolu,
Olubdu xak ilə yeksan yatıbdı.

Leyli, Məcnun, Şirin, Fərhad üzü ağ,
O ki, o yarına kəsilib dustaq,
Vaqifə məqbərə tikdi Qarabağ,
Xuraman xəcalət pünhan yatıbdı.

Kərbəla şəhrində kərbicli ehram,
Yazılıb üstünə Füzuli nakam,
Leylisi pərişan, eşqi natamam,
Olub məhəbbətə qurban yatıbdı.

Ayaq altda qalıb Keykavus, Kayan,
Aşdı qəbirlərdən tökdükləri qan,
Qonşu düşüb İsgəndərlə Süleyman,
Davasız, dərmansız Loğman yatıbdı.

Zülmün timsalları Nəmurud, Salsal,
Gözlərində torpaq, işlərində sal,
Şəddad kəfənsizdi, yaxşı nəzər sal,
Fironun qanına qaltan yatıbdı.

Gərdişin bilinməz sirrinə bax bir,
Ayaqlar altında əzilir Teymur,
Ox kamana qoymur daha Bəhram Gur,
Məzarı üstündə ceyran yatıbdı.

Sanki sərdabədən dindi Nizami,
Bax, oğlum, gərdişin budur nizamı,
Deynən birdəfəlik düşünsün hamı,
Şöhrətə uyanlar büryan yatıbdı.

Atılıbdı daşı zülmün, zillətin,
Ora güzgüsüdür bir həqiqətin,
Harun tək aşnası varın-dövlətin,
Olub qurda-quşa ehsan yatıbdı.

Pul işləmir orda, qiymətsizdi zər,
Ağa hökm eləmir, işləmir nökər,
Nə zəhmət var orda, nə alında tər,
Ağadan yuxarı çoban yatıbdı.

Eşitsən Qəmkeşi ədalətli ol,
Xalqa hakim olsan mərhəmətli ol,
Əgər varım varsa səxavətli ol,
Şöhrət yuvasında şeytan yatıbdı.

DÖĞRU SÖZÜ SÖYLƏNƏNDƏ

Əflatuna gülər nadan,
Qəfil ağlı səylənəndə.
Mərdi tənə söz öldürər,
Gədə gəlib bəylənəndə.

Qəza bəd gətirsə əgər,
Qaş düzəldən gözü tökər.
Maya gərdən çəkib keçər,
Nər yorulub əylənəndə.

Çox bilənlər danışa az,
Mənasızdır yersiz avaz.
Qəmkeş ölsə yaddan çıxmaz,
Doğru sözü söylənəndə.

OLMADI

Neçə bağban calaq verdi söyüdə,
Çəkdi öz zatına, badam olmadı.
Çiçək açdı, bar da verdi aşkara,
Heyif, meyvəsində bir tam olmadı.

Namərd atası tək nifrəti sevdi,
Düzü haqq bilmədi, şöhrəti sevdi,
İşığa kor baxdı, zülməti sevdi,
Ondan oğluna da bir kam olmadı.

Qəmkeş, bu yollarda çox gəlmə cana,
Əslində kəc olan çətindi qana.
Neçə alim elm öyrətdi nadana,
Alim oldu, amma adam olmadı.

EHTİYAC

Düz sözdüsə, əgər varsa cəhənnəm,
Aparır insanı ora ehtiyac.
Qəfəsə tərlanı dağdan gətirir,
Dəryadan balığı tora ehtiyac.

Odur qoyan əziyyətin təmənin,
Hər bir işgəncənin, hər bir əmənin.
Elə bəndə salar dünya gözəlin,
Qismət edər şilə, kora ehtiyac.

Qəmkeş, nədəndirsə sahib ixtiyar,
Namərdin önündə mərd əyir vüqar.
Elə yerdə səni qoyar ki, naçar,
Sağkən tələsdirər gora ehtiyac.

MURAD NİYAZLI
(1933-2004)

Göyçə və Şəmkir mühitinin yetirdiyi ustad sənətkarlardandır. 1948-ci ildə Göyçədən Şəmkir rayonuna köçmüş, Aşıq Məhəmməd Rzayevin şagirdi olmuş (1954-1959), dstanları, ustadların yaradıcılığını, saz havalarını mükəmməlliklə mənimsəmişdir. Aşıq şeirinin müxtəlif şəkillərində yazıb yaratmış, bir neçə şeir kitabı nəşr edilmişdir. "Muxtar bəy" adlı dastanı vardır. Zəngin söz və musiqi repertuarına malik olan Murad Niyazlı Türkiyə, İran, İraq və s. ölkələrdə olmuş, konsertlər vermiş, ustad kimi tanınmışdır. "Murad gilənarı" adı ilə məşhur olan saz havası onun barmaqlarından yadigardır. Aşıqların IV qurultayında İdarə Heyətinin üzvü seçilmişdir.

TÜRK OĞLUYAM, TÜRKƏM, OĞUL

Əcdadımı xəbər alsan,
Türk oğluyam, türkəm, oğul!
Məni əyməz nə yağlı dil,
Nə də quru görkəm, oğul,
Türk oğluyam, türkəm, oğul!

Uçurub könlüm şəhrini,
Bulandırma qəm bəhrini,
Çəkə bilməz el qəhrini,
Hər ağılsız, hər kəm, oğul.
Türk oğluyam, türkəm, oğul!

Kəclə kəcəm, çiylə çiyəm,
Dünya görmüş bir kəndçiyəm.
Nə qatıra yedəkçiyəm,
Nə yabıya tərkəm, oğul.
Türk oğluyam, türkəm, oğul!

Aşığam, hər nəyəm, buyam,
İnanma namərdə uyam.
Alışana sərin suyam,
Üşüyənə kürkəm, oğul.
Türk oğluyam, türkəm, oğul!

Niyazlı əl üzməz Haqdan,
İlham alır hər sabahdan.
Pak çıxmışam çox sınaqdan,
Poladdan da bərkəm, oğul.
Türk oğluyam, türkəm, oğul!

GƏRƏK

Nöqsanları görmək üçün,
Qəflətdən ayılasan gərək.
Alim olmaq çox asandır,
İnsan sayılasan gərək.

Namərd ilə çıxma yola,
Bir nəzər sal sağa-sola,
Söz qılıncın kəskin ola,
Soyasan, soyulasan gərək.

Niyazlı, sən uyma sara,
Mənsurtək çəksələr dara,
Ustad kimi ağızlara,
Dillərə yayılasan gərək.

NƏ BİLƏR

Zimistan çəkməyən bülbül,
Yazın qədrin nə bilər?!
Leylisin sevməyən könül,
Nazın qədrini nə bilər?!

Görəndə saxta insanlar,
Ürəyimdən sızar qanlar,
Çox hörməti unudanlar,
Azın qədrini nə bilər?!

Ey Niyazlı, yatma, oyan,
Dostlarına eylə bəyan,
Şeirdən ilham almayan,
Sazın qədrini nə bilər?!

DEDİMMİ

Qanqaldan qızılgül, ulğundan palıd,
Göy söyüddən olmaz çinar, dedimmi?
Polad qatılıqdan əysən qırılar,
İnsan yoğunluqdan sınar, dedimmi?

Gədadan şah olmaz, oğrudan kral,
Yapalaqdan tərlan, qarğadan qartal,
Anlamaz əlində qalsa bir mahal,
Odunsuz, ocaqsız yanar dedimmi?

Ağrı kəsmir, bədənimiz duzlaşıb,
Nakəslər varlanıb, çox quduzlaşıb,
Min-min ürək od içində buzlaşıb,
Əriməz, daha da donar, dedimmi?

Xəsislər canından çox istər varı,
Yarasa zülməti, bülbül baharı,
Tamah bir kərkidir, bütün yonqarı,
Sahibinə tərəf yonar, dedimmi?

Murad Niyazlının yarıdır yaşı,
Təmizdir vicdanı, əyilməz başı.
Həyatın sirrini hər ötən naşı,
Nə anlayar, nə də qanar, dedimmi?

KEÇƏR

Elə dost görmüşəm, dostun yolunda,
Bütün şöhrətindən, şanından keçər.
Qəlbinin yarası şəfalanmağa,
Dərman buyursalar qanından keçər.

Torpaq yorulanda, qanqal bitirər,
Namərd olan dosta ziyan yetirər,
Axşam yediyini sabah itirər,
Başını sallayıb, yanından keçər.

Zər atmayın bu fələyin nərdinə,
O bələddir hər məzhəbə, hər dinə.
Aşıq Murad Niyazlının dərdinə,
Kim şərik olarsa, canından keçər.

ÇƏKƏR

İnamsızdan, ilqarsızdan, karsızdan,
Ayaq ziyan çəkər, əl ziyan çəkər.
Utanmazdan, abırsızdan, arsızdan,
Mahal ziyan çəkər, el ziyan çəkər.

Ağıllı söz çıxar kamallı başdan,
Mərhəmət gözləmək olarmı daşdan?
Süzülən gözlərdən, çatılan qaşdan,
Kəmər ziyan çəkər, bel ziyan çəkər.

Şoran su kökündən qurudar bağı,
Doğru söz arana endirər dağı,
Bar verən ağacın sınsa budağı,
Bağban ziyan çəkər, gül ziyan çəkər.

Adıyla bağlıdır hər şeyin dadı,
Buğdanı bəyənmir arpanın cadı.
Bayquşun bəyliyi gün çıxıncadı,
Aylar ziyan çəkər, il ziyan çəkər.

Niyazlı, kənar gəz qorlanan közdən,
Şübhəli baxışdan, həyasız üzdən.
Mənasız söhbətdən, mənasız sözdən,
Dodaq ziyan çəkər, dil ziyan çəkər.

GEDƏR

Demədimmi, nanəcibdən kənar gəz,
Od salar canına köz alar gedər.
Sirr vermə namərdə açar, gizləməz,
Sonra utanarsan, söz alar gedər.

Keçir imtahandan, sayıq ol barı,
Qəlbi xain, şirin dilli dostları.
Tora salıb əli tutsa şikarı,
Astar əvəzinə üz alıb gedər.

Halal axtar, haram varı istəmə,
Alçaq üçün bir mahalı pisləmə,
Övladı sev, ərkəsöyün bəsləmə,
Bədnəzər toxunar, göz alar gedər.

Qış şər əkən ləzzətini yaz anlar,
Özü düşər bir gün quyu qazanlar.
Ay Niyazlı, doğru yolu azanlar,
Tapar bəlasını tez alar gedər.

ƏKBƏR CƏFƏROV
(1933-1990)

Tovuz rayonunun Bozalqanlı kəndindəndir. Sənətə balabançılıqla başlamış, lakin çox gözəl və məlahətli səsi olduğu üçün 1955-ci ildən aşıqlıq yolunu tutmuşdur. Aşıq Hüseyn Bozalqanlının bacısı oğlu Qədir İsmayılovdan dərs almışdır. Gənc yaşlarından məlahətli ifası ilə hər kəsi heyran qoyan Aşıq Əkbər 1959-cu ildə Moskvada keçirilən Beynəlxalq Musiqi Festivalında qızıl medala layiq görülmüşdür. 1964-cü ildə Beynəlxalq Folklor Festivalının laureatı adını almış, dəfələrlə Moskvada valları buraxılmış, Avropa, Amerika, Türkiyə və İranda lent yazıları yayılmışdır.

Azərbaycan televiziyası və radiosunun arxivində onun oxuduğu mahnılar və söylədiyi dastanlar qızıl fondda qorunur. Gözəl səs effektinə görə «Ögey ana» və «Böyük dayaq» filmlərində aşıq mahnılarını oxumaq Əkbər Cəfərova etibar edilmişdir.

Aşıq Əkbər Cəfərov dünyasını vaxtsız dəyişsə də, onun yaratdığı ifaçılıq məktəbi Tovuz, Qazax, Gədəbəy, Kəlbəcər, Laçın və Təbriz-Qaradağ aşıqları tərəfindən uğurla davam etdirilməkdədir. Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

YANILMA

Eşidib sözümü yadında saxla,
Tələsik danışıb, sözdə yanılma.
Əgər qabağına bir əyri çıxsa,
Əyriyə düz deyib, düzdə yanılma.

Sənin hakimindir ürəyin, başın,
Onlara qulaq as, pis yoldan daşın.
İlqarı olammaz hər qələmqaşın,
Yanağa vurulub, gözdə yanılma.

Axı ayna deyil bütün insanlar,
Hərənin öz fikri, öz məqsədi var.
Gözlə, xoş sifətlər səni aldadar,
Öyrən ürəkləri, üzdə yanılma.

Əkbər, çətinləri ayaqlayıb keç,
Sənətdə faydalı, xeyirli yol seç.
Atalar deyib ki, yüz ölç, bir də biç,
Çalış heç olmasa, yüzdə yanılma.

YAXŞIDIR

Aşıqlıqda gözəl hörmət axtaran,
Ustaddan dərs alıb dolsa, yaxşıdır.
Sazın simlərini hey pərdə-pərdə,
Yerində kökləyib çalsa, yaxşıdır.

Neçə aşıq eşq oduna alışıb,
Neçə igid bu meydanda yarışıb,
Şair olan gecə-gündüz çalışıb,
Şeir dəryasına dalsa, yaxşıdır.

Kimin ki, düz qəlbi, düz xəyalı var,
Əkbərin sözünü eyləməz inkar,
Əsl qələm əhli, əsl sənətkar,
Sənətində kamil olsa, yaxşıdır.

GEDƏR

Kamil qəvvas olan eşq ümmanında,
Bu başdan düşəndə qol çalar gedər.
Dövran xanəndədir, insan oyunçu,
Fəsillər keçdikcə əl çalar gedər.

Şeşi-beş atasan oynayanda nərd,
Baxtın hey gətirsə, olarsanmı pərt,
Nə qədər göylərə ucalsa naməd,
Mərdin qabağında alçalar, gedər.

Əkbərəm, deyirəm dəymə heç kimə,
Halal ol, heç kəsin malını yemə,
Güvənmə varına, tək mənəm demə,
Bir gün də əlindən axçalar, gedər.

BİLSİN

Dost odur ki, görüşəndə hər zaman,
Dostun əhvalını soruşa bilsin.
Unutmasın kəsdiyi-duz çörəyi,
Dərdinə-qəminə qarışa bilsin.

İnsan gərək həqiqəti danmasın,
Mənəm-mənəm deyib lovğalanmasın,
Dalaşandan sonra bax utanmasın,
Barışanda asan barışa bilsin.

Əkbər, getdi cavanlığın de hanı,
İndi səni sevənləri düz tanı,
Dünya varı aldatmasın insanı,
Dostluq zəhmət ilə yarışa bilsin.

MƏMMƏDAĞA BABAYEV
(1933-1977)

Şirvan aşıq mühitinin yetirməsidir. Şamaxının Cəyirli kəndindəndir. Təkrarolunmaz səsə, güclü musiqi duyumuna malik ustad sənətkar erkən yaşlarından saza, sənətə maraq göstərmiş, Aşıq Abbas Söhbətovun yanında şagird olmuşdur. Sənətin sirlərini ondan öyrəndikdən sonra aşıqlığa başlamış (1959), istedadlı aşıq və məharətli muğam ifaçısı kimi məşhurlaşmışdır. Azərbaycanda, Dağıstanda, Türkmənistanda ağır məclislər aparmışdır. Şamaxıda ilk dəfə Aşıqlar Birliyinin təməlini qoymuşdur (1959). Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmiş (1974), Beynəlxalq Musiqi Festivalının (1968) laureatı, Azərbaycan Aşıqlarının III qurultayının iştirakçısı olmuşdur. Moskvada "Melodiya" firması tərəfindən ayrıca valı buraxılmışdır.

EYLƏRƏM

Ürəyim min olsa, əsirgəmərəm,
Minin də elimə qurban eylərəm.
Mənə qonaq gəlsə vətən övladı,
Bağrımın başında mehman eylərəm.

Yad ellər gülümün budağın əysə,
Məsum bir körpənin könlünə dəysə,
Sənət dostlarımla verib səs-səsə,
Hər sözü, söhbəti dastan eylərəm.

Aşıq Məmmədağa hər gün saz çalar,
Toy-bayram çoxalar, hələ az çalar,
Günbəgün avazım göyə ucalar,
Girib məclislərə cövlan eylərəm.

ÜRƏYİMDƏDİR

Düzlərə, çöllərə həyat gətirən,
Çayların gur səsi ürəyimdədir.
Səhər küləyinin dağların üstdən,
Nazlanıb əsməsi ürəyimdədir.

Bu nəğmə dostunun nədir günahı?
Qədim əsrlərin sevinci, ahı,
Hünərli "Qatar"ı, dərdli "Segah"ı,
Yanıqlı "Kəsmə"si ürəyimdədir.

Mən aşıq oğluyam qoca Şirvanın,
Gözəl Qarabağın, Milin, Muğanın!
Müxtəsər, anamız Azərbaycanın,
Hər dağı, dərəsi ürəyimdədir!

GÜNAHDI

Çay olan süfrədə, çay olan yerdə,
Bir qədəh şərabı içsən, günahdı.
Keçib yaylaqları, aşıb dağları,
Bir bənd oxumayıb keçsən, günahdı.

Oddan doğulmuşam, vurğunam oda,
Odumla qalibəm düşmənə, yada,
Buraxıb şöhrəti bir quru ada,
Uyub rəzaləti seçsən, günahdı.

Mənim vətənimə söylə tay hanı?
Hüsnü məftun edib bütün dünyanı.
Məmmədağa, atıb eli-obanı,
Dünyadan yarımçıq köçsən, günahdı.

MAHMUD MƏMMƏDOV
(1935 2020)

1948-ci ildə ailəsi ilə birgə Göyçədən Tovuz rayonuna köçmüşdür. Aşıq İmran Həsənov 1950-ci ildə onun zil səsini, saza həvəsini nəzərə alıb yanına şagird götürmüşdür. Tovuzda aşıq sənətinin sirlərini ustadın yanında mənimsəmiş, bir sənətkar kimi formalaşmışdır. Ayrı-ayrı bölgələrdə məclislər aparmış, istedadlı aşıq kimi tanınmışdır. Rayon və respublika səviyyəli tədbirlərdə iştirak etmiş, müxtəlif müsabiqə və festivalların qalibi, Aşıqların III, IV və V qurultaylarının iştirakçısı olmuşdur. Onun söylədiyi "Koroğlu" və "Abbas-Gülgəz" dastanı Azərbaycan Televiziyasının Qızıl Fondunda saxlanılır. Bir neçə kitabı nəşr olunmuşdur. Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü olmuşdur (2008-2020).

AĞLIN OLSUN

Çuğulun sözüylə dostdan,
Küsməynən, ağlın olsun.
Arada xətir-hörməti,
Kəsməynən, ağlın olsun.

İmkan düşübdü əlinə,
Köməyin dəysin elinə.
Amandı, şeytan felinə,
Uymaynan, ağlın olsun.

Dostunu keçir ələkdən,
Sonra inan saf ürəkdən.
Mahmud deyər duz-çörəkdən,
Keçməynən, ağlın olsun.

OLARMI

Qəlbi xain olan adam,
Bu dünyada bay olarmı?
Haqqa inamı olmayan,
Haqdan ona pay olarmı?

Hər kəlməsi asi olan,
Yetmiş, səksən yaşı olan,
Sənətində naşı olan,
Ustadlara tay olarmı?

Özündən bədgüman olan,
Xəcil olar o hər zaman.
Aşıq Mahmud, etmə güman,
Ondan haqqı-say olarmı?

EYLƏR

Səxavət gözləmə namərddən, könül,
Allah verən qismət sənə bəs eylər.
Sənətinlə qazandığın şan-şöhrət,
Xalq yanında hörmət sənə bəs eylər.

Nə ac qalmaz, nə alçalmaz sənətkar,
Kim apardı bu dünyadan sərvət, var?
Baş ucaldar təmiz vicdan, namus, ar,
Ellər verən qiymət sənə bəs eylər.

Ömrün baharında qaynadım, coşdum,
Sənət aləmində zirvələr aşdım.
Çalışdım ustadlar sanına düşdüm,
Ay Mahmud, bu şöhrət sənə bəs eylər.

ZİYARƏT OLAR

Adam var, üz-üzə heç gəlməyəsən,
Adam var, görüşü ziyarət olar.
Adam var, ucundan çəkərsən bəla,
Adam var, dar gündə dəyanət olar.

Adam var, adıyla ucalar övlad,
Adam var, adıyla puç olar övlad.
Adam var, bir eli eyləyər abad,
Adam var elinə xəyanət eylər.

Adam var, ay Mahmud, yetkin kamalı,
Adam var, coşqundu müdam xəyalı.
Adam var, kəlməsi ləldən bahalı,
Adam var, hər sözü cinayət olar.

ƏDALƏT NƏSİBOV
(1939-2017)

Qazax aşıq mühitinin yetirdiyi ustad sənətkarlardandır. Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü olmuşdur. Görkəmli solo saz ifaçısı, saz havalarının mahir bilicisi kimi məşhurlaşmışdır. "Yeddi oğul istərəm" filmində Aşıq Ədalət "Yanıq Kərəmi" saz havasını ifa etməklə daha da məşhurlaşmışdır. "Yanıq Kərəmi", "Ruhani", "Misiri", "Cəlili", "Sarıtel" saz havalarının misilsiz ifaçısı kimi tanınır. Parisdə, Londonda, Moskvada, Bakıda dəfələrlə ifası lentə alınmış, qızıl fonda daxil edilmişdir. Beynəlxalq folklor festivallarında (1959, 1965, 1974, 1980) təmsil olunmuş, yüksək mükafatlara layiq görülmüşdür. YUNESKO-da nadir ifaçılar seriyasından qızıl valı və diski buraxılmış, sənəti ilə bağlı kitab və məqalələr yazılmışdır. Aşıq Ədalətə yüzlərlə şeir həsr olunmuşdur. Ayrıca ifaçılıq məktəbi yaratmış sənətkarlardandır. Repertuarında yüzə yaxın saz havası, əllidən çox dastan, dörd minə yaxın aşıq şeiri mövcud olmuşdur.

OLSUN

Budur insanlığın şərti əzəldən,
Gərək ki, insanda sədaqət olsun.
Ölüncə dönməsin dediyi sözdən,
İstəsə başında qiyamət olsun.

İnsan gərək sadiq olsun vətənə,
Aldanmasın hər azğına, yetənə,
Dostdan uzaqlaşıb yada bitənə,
Dediyi özünə xəcalət olsun.

Siz çağırın gəlsin yaxşı insanı,
Özü çəksin dosta gələn qadanı,
Qanana qurbandı Ədalət canı,
İstəyir həyatı nəhayət olsun.

BAĞLA

Ey qəlbi qaranlıq, mötədil xəstə,
Birinci sidqini mövlaya bağla.
On səkkiz min aləm, külli kainat,
Xəlq eyləyən ərşi səmaya bağla.

Dünyaya nə qədər peyğəmbər gəlib,
Neçə mürsəl gəlib, neçə ər gəlib,
Əliyə Zülfüqar qul-Qənbər gəlib,
Düldül süvar olub, Mürtəzaya bağla.

O qəbirdə yalqız qalan vaxtında,
Mələklərin xəbər alan vaxtında,
Odlu güzü başa çalan vaxtında,
Dil tutulub, sızlar əzaya bağla.

YAXŞIDI

Özgə sinisini yalamaqdansa,
Öz qabının bulaşığı yaxşıdı.
Qonşunun verdiyi dolu çömçədən,
Öz evimin bir qaşığı yaxşıdı.

Əlimdə brilyant olunca əsa,
Xəstəlik canımı salmasın yasa,
Kim istəyər qızıl teşti, qan qusa,
Hər insanın sağlamlığı yaxşıdı.

Ay ellər, istəyim, arzum var nəyə?
Ağrısız, acısız ömür sürməyə.
Ədalət düz bilir, uzaq görməyə
Gözlərimin nur işığı yaxşıdı.

Alimlər Quranda gözlər yasini,
Ovçular marıxda gözlər yasini,
Ədalətin yada düşüb yasini,
Pənci-şəfi ali-əbaya bağla.

OLMASA

Atalar sözüdü, insan insanı
Tanımazdı yaxşı-yaman olmasa.
Çaqqal pəncə vurar, tülkü bəy olar,
Qanun-qayda, dərə-divan olmasa.

Ağsaqqallıq ağ saqqala yaraşar,
Bədəsil "ağsaqqal" aranı qatar,
Kor qız ərə gedər, bir misal da var,
Qonşudan izini qazan olmasa.

Aşıq Ədalətəm, ara qatmaram,
Mənliyim varsa da, özüm də varam,
Ürəyimi hər yetənə açaram,
Yuxumu tərsinə yozan olmasa.

OLMAZ

Yadda saxla nəsihətdi sözlərim,
Hər yetən adamda etibar olmaz.
Hansı insan doğru yolu tutubsa,
Qəza tapıb dünya ona dar olmaz.

"Bir yandan açılan bir yandan solar",
Demirəm həyatda tökülən dolar,
Peysərdən çox yoğun biqeyrət olar,
Üzə gülər, onda namus, ar olmaz.

Ədalət qurbandır pirlər pirinə,
Ağıl bir dəryadı düşüb dərinə,
Qananı qoymaram qanmaz yerinə,
Hər yetən anlamaz, xiridar olmaz.

MURAD ÇOBANOĞLU
(1940–2005)

Qars-Çıldır aşıq mühitinin yetirdiyi sənətkarlardandır. Qarapapaq türklərindəndir. Nəsilləri Çobanlar adı ilə tanınmışdır. Çobanoğlu da məhz nəsillərinin adını səciyyələndirir. Murad aşıq ailəsində anadan olmuşdur. Atası Gülüstan Aşıq Şenliyin yetirdiyi ustadlardandır. Atasından aşıqlığın sirlərini öyrənmiş, istedadlı sənətkar kimi məşhurlaşmışdır. 1951-ci ildən saz çalmağa, şeir yazmağa başlamış, dastançı aşıq kimi tanınmışdır. Qarsda aşıq məktəbi açmışdır.

ANA-BABA

Dünyanın ən böyük varı,
Biri ana, biri baba.
Qüdrət bağçasının barı,
Biri ana, biri baba.

Biri ağac, biri yarpaq,
Biri dildir, biri dodaq,
Biri göydür, biri torpaq,
Biri ana, biri baba.

Xidmət eylə hər çağında,
Azmı yatdın qucağında?
Cənnət ana ayağında,
Biri ana, biri baba.

Biri candır, biri canan,
İkisidir dərdə yanan.
Çobanoğlu sizə qurban,
Biri ana, biri baba.

GETSİN

Bir dəli, bir fəqir gəlsə yanına,
Ona ağıl, ona yardım ver getsin.
Bir irəncbər, bir şələçi uğrasa,
Ona tahıl, ona odun ver getsin.

İşi yapmalısan kəndi başına,
Çalış əməyini vermə boşuna,
Bir mimar, bir katib çıxsa qarşına,
Ona şəkil, ona adın ver getsin.

Çobanolu arzu halın bitir sən,
Əmanəti maksuduna yetir sən,
Bir kötü, bir eylə durub otursan,
Ona pahıl, ona dadın ver getsin.

YETƏR

Nə iş yaparsan çağır Xudanı,
Hər işin başında bismillah yetər.
Boşuna dünyada durma davanı,
Hər işə qadirdir amənnah yetər.

Yox ikən var edən o uca Rəhman,
Harda ansan orda hazırdır hər an,
Hümmətə yardımçı Həbibi Sultan,
Dar gündə çağır Sirrullah yetər.

Hər işə qadirdir Cabbari-Cəlil,
Əmr etdi ol nara yanmadı Xəlil,
Çobanoğlu Haqqa nə imiş dəlil,
Təsdiqimdir dildə Qulful Allah yetər.

TÜKƏNİR

Aldanma dünyanın səltənətinə,
Bir gün dəyirmanın suyu tükənir.
Şah olsa da bir qul ömrü yoxuymuş,
Bir gün bu dünyadan payı tükənir.

Anladım ki, bağrım yara çibandır,
Bil ki, səbr eylə sonu dərmandır.
Fələk bir ovçudur, insan ceyrandır,
Bir gün vurur, amma yayı tükənir

Çobanoğlu sanma düşdün rahata,
Bir gün minəcəksən cansız bir ata,
İnsan oğlu bənzər bax bir saata,
Bir gün dəqiqələr sayı tükənir.

İNCİDƏR

Varma dostum, müxənnətin yanına,
Kəm söz söylər dili səni incidər.
Əlin atma süfrəsinə, nanına,
Üz çevirər halı səni incidər.

Sahib ol hər zaman kəndi dilinə,
Yardımçıdır Mövlam doğru quluna,
Ayaq basma müxənnətin elinə,
Düşmən olub eli səni incidər.

Murad Çobanoğlu dost sorağında,
İgid dost qazanır gənclik çağında,
Bir gül olub bitsən namərd bağında,
Əsər ruzigar, yeli səni incidər.

GÖTÜRƏR

Boşuna dünyanı gəzib dolanma,
Bil bu cahan səni yorar götürər.
İstərsən gəda ol, istər Süleyman,
Qara torpaq səni sarar götürər.

Aldanma dünyaya, təməldən yalan,
Barmağın qaldırsın təməlli qalan,
İnsan bir fidandır, fələk də bağman,
Bir gün dal qəddini qırar, götürər.

Çobanoğlu, dərdin söylə dostuna,
Bəlkə dar günündə gələ üstünə,
Əzrail çökərsə sinən üstünə,
Gəlib baş ucundan durar götürər.

UMBAY AXUNDOV
(1940)

Laçın mühitində formalaşmış, Aşıq Şəmşir və Mayis Gəncəli kimi ustad aşıqlara qulluq etmişdir. Azərbaycan aşıqlarının IV (1984), V (2008) və VI (2018) qurultaylarında iştirak etmiş, VI qurultayda Aşıqlar Birliyi İdarə Heyətinin üzvü seçilmişdir. 1971-ci ildə respublika, 1976-cı ildə isə ümumittifaq festivallarının laureatı olmuşdur. 1989-cu ildə Moskvada «Melodiya» firması onun iki qrammofon valını buraxmışdır. 1987-ci ildə Aşıq Ədalət Axundovla birgə söylədiyi «Şah İsmayıl və Gülzar» dastanı videolentə alınmış, Azərbaycan Televiziyasının Qızıl Fonduna daxil edilmişdir. «Laçında dillənən saz» (1989) və «Mən belə yaşadım» (2012) kitablarının müəllifidir. Əməkdar mədəniyyət işçisidir (2016).

BİR SÖZÜN OLSUN

Əsil kişilərin üzü bir olar,
Sənin də bir üzün, bir sözün olsun.
Çeynəmə özgənin dediyi sözü,
Təzə sözün olsun, tər sözün olsun.

Dərs al sazımdakı telin dilindən,
Bu çayın, çeşmənin, selin dilindən,
Öyrən hər hikməti elin dilindən,
Gövhər sözün olsun, dürr sözün olsun.

Bəmin avazını zilə gətirmə,
Təbii çeşməni lilə gətirmə,
Gördüyün hər şeyi dilə gətirmə,
Ağır taxtalı gəz, sirr sözün olsun.

Haqqın yollarında çil-çırağa dön,
Tükənməz, qurumaz gur bulağa dön,
Sən də Umbay kimi qarlı dağa dön,
Araz sözün olsun, Kür sözün olsun.

OLSA

Əyrilik, acgözlük, xüdbinlik olmaz,
Hamının qəlbində ədalət olsa.
Qocaya, qarıya hörmət azalmaz,
Bütün cavanlarda mərifət olsa.

Qanan insan saxta şöhrət güdərmi?
Nadanın dostluğu başa gedərmi?
İnsan bəd əməlin təkrar edərmi,
Vicdanı önündə xəcalət olsa.

Ay Umbay, yaxşı da, yaman da bizik,
Yaranandan ölüm ilə üzbəüzük,
Həyatı düşünən edərmi pislik,
Qəlbində hər kəsə kəramət olsa?

EYLƏYƏR

Yaxşı ki, yaxşılar çoxdu dünyada,
Yamanlar dünyanı bərbad eyləyər.
İnsan ürəyində iblis bəslənər,
İnsanı insana cəllad eyləyər.

Döl versə haramdan qatdığı maya,
Göz yaşı qarışar çeşməyə, çaya,
Naləsi ucalar ulduza, Aya,
Dağlarda, daşlarda fəryad eyləyər.

Doğruluq üstündə dünya fırlanar,
Həqiqət eşqilə al Günəş yanar,
Xeyir ki, hər zülmə dözər, dayanar,
İşığı zülmətdən azad eyləyər.

Namərdlər qurd kimi verir səs-səsə,
Şir gərək qurdların səsini kəsə,
İnsan can deməsə, can eşitməsə,
Kim kimin dərdinə imdad eyləyər?

Çoxdur qəlbimizdə nakam arzular,
Hamısı gül açıb gətirəydi bar.
Yurdumun nə şirin gözəlləri var,
Axırda Umbayı Fərhad eyləyər.

SAYMASAN GÜNAHDI

Alim nəsihətin, aqil öyüdün,
Yaymasan günahdı, savabdı yaymaq.
Xəstəyəm, dərmanım mənalı sözdü,
Qıymasan günahdı, savabdı qıymaq.

Keçmişdən yadigar qalan kişini,
Ustadlardan dərsin alan kişini,
Kəlməsi möhtəbər olan kişini,
Duymasan günahdı, savabdı duymaq.

Mən də bu dünyaya gəlmişəm səki,
Özümdən ağırdı kədərin yükü,
Didərgin Umbayı sənətkar təki,
Saymasan günahdı, savabdı saymaq.

YEYƏR

Bağça bar gətirər, çəmən gül açar,
Barı xəzan tökər, gülü xar yeyər.
Şahini zirvədə sar əyə bilsə,
Tufan üstün örtər, boran, qar yeyər.

Tutmaq müşkül deyil qaçan küləyi,
Dəmir paslananda olmaz gərəyi,
Yurdundan ayrılan tənha ürəyi,
Hicran parçalayar, intizar yeyər.

Görmüşəm dünyanın çox üsyanların,
Gəl olma baisi nahaq qanların,
Umbay, peymanını unudanların,
Qəlbini ya gürzə, ya şahmar yeyər.

ÜRFAN ƏLİ
(1950)

Əli Abuzər oğlu Quliyev Tovuzun Əlimərdanlı kəndindəndir. "Ürfan Əli" təxəllüsü ilə tanınır. Tovuz mühitinin yetirdiyi ustad sənətkarlardandır. Səkkiz yaşından saz çalmağa başlamış, 25 yaşından müstəqil aşıqlıq etmişdir. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirmişdir (1972). Tovuzda Hüseyn Bozalqanlı adına Ozan-aşıq Muzeyinin ilk direktoru olmuşdur. Azərbaycanın ən güclü solo saz ifaçılarından sayılır. "Dilqəmi", "Ruhani" saz havaları onun ifasında Azərbaycan Televizyası və Radiosunun Qızıl Fonduna salınmışdır. İran, İraq, Türkiyə, Hollandiya, Belçika və s. xarici ölkələrdə çıxışlar etmişdir. Kifayət qədər istedadlı yaradıcı aşıqdır. "Sözdən pənah gətirmişəm" (2000) , "Sazlı-sözlü dünyam" (2004), "Tanrı payı telli sazım" (2007), "Qəm daşıyan dərviş oldum" (2012) adlı şeir kitablarının müəllifi, Əməkdar mədəniyyət işçisidir (2008).

ƏLDƏN GEDƏR

Tanrının hökmünə asikar olma,
Çəkər sayəsini kar əldən gedər.
Ağladar göyləri bir an içində,
Sel-suya qarışar, bar əldən gedər.

Qoy uzaqdan gəlsin sorağın-səsin,
Yaradan nə verib bəsindi bəsin.
Özgə namusunu tapdayan kəsin,
Namusu tapdanar, ar əldən gedər.

Tapanda hərisi olma daş-qaşın,
Səndən üz döndərər qohum-qardaşın,
Şeytan əməlinə qurşanar başın,
Züleyxa misallı yar əldən gedər.

Baxmasan bağına olarmı bəhrən,
Paslanar kərəntin, korşalar dəhrən.
Qırılar mal-qaran, çürüyər nəhrən,
Tapılmaz üzünə, şor əldən gedər.

Ay Əli, həyatda gülərsə baxtın,
Amandı işrətdə keçirmə vaxtın.
Düşərsən tələyə, çevrilər taxtın,
Bağlanar bazarın, var əldən gedər.

BİR SAZ OLA, BİR MƏN OLAM, BİR DƏ SƏN

Bahar fəsli quşlar nəğmə deyəndə,
Bir saz ola, bir mən olam, bir də sən.
Bənövşələr açıb boynun əyəndə,
Bir saz ola, bir mən olam, bir də sən.

Məclis quram sənin kimi gözələ,
Süfrəmizə sürahilər düzülə.
Səmavətdən gəlmə şərab süzülə,
Bir saz ola, bir mən olam, bir də sən.

Şux nəfəsin zildən enib bəmlənə,
Dalğın könlüm sevgi üstə cəmlənə,
Söhbət üçün ağ samovar dəmlənə,
Bir saz ola, bir mən olam, bir də sən.

Yorğun düşsən ağır dağlar aşanda,
Dincim alam Qoçbulağın qaşında,
Durna gözlü bulaqların başında,
Bir saz ola, bir mən olam, bir də sən.

Mən Əliyəm, “Ya Hu” deyib neylərəm,
Minib eşqin səməndini teylərəm.
Cəhənnəmi cənnət-məkan eylərəm,
Bir saz ola, bir mən olam, bir də sən.

ÖLMÜRƏMMİ?

Haqdan gələn naxış-naxış
Sözdən ötrü ölmürəmmi?
Xal düşməyən al yanaqlı,
Üzdən ötrü ölmürəmmi?

Hanı Əsli kimi canan?
Kərəm təki o da yanan?
Bir baxışdan oda qanan
Gözdən ötrü ölmürəmmi?

Bahar vaxtı ətir saçan,
Turac uçan, ceyran qaçan,
Göz oxşayan, könül açan,
Düzdən ötrü ölmürəmmi?

Məni yada salan dostlar,
Küsgün könlüm alan dostlar,
Köçən köçüb, qalan dostlar,
Sizdən ötrü ölmürəmmi?

Aşıq Əli deməz yalan,
Eşqə düşüb oldum talan,
Malım-mülküm, varım olan,
Sazdan ötrü ölmürəmmi?

QALANLARDAN OL

Kamil sənətkar olmaq istəsən,
Meylini sənətə salanlardan ol.
Alimlik adını ala bilməsən,
İnsanlıq adını alanlardan ol.

Məsəl var, atalar deməmiş hədər,
Əgər varın olsa istəyin qədər,
Çalış, Allahın da xoşuna gedər,
Arxasıza dayaq olanlardan ol.

Əliyəm, Əzrayıl gəl-gəl edəndə,
Can quşundan nişan qalmaz bədəndə,
Elə qayğı göstər, eldən gedəndə,
Elin yaddaşında qalanlardan ol.

GÖZLƏYƏ BİLSƏN

El səni ovcunun içində saxlar,
Özün öz səhvini izləyə bilsən.
Məsəl var, qismətin daş üstə gələr,
Yatağan baxtını bizləyə bilsən.

Xeyir gəlməz nahaq işlər tutandan,
Üzünə dayanıb böhtan atandan,
İyidsən məclisdə ara qatandan,
Salamat başını gözləyə bilsən.

Ay Əli, yaxşılıq söylənib qalar,
Yamanlıq insanı nüfuzdan salar,
Yəqin ki, məzarın behiştlik olar,
Qəlbini şeytandan gizləyə bilsən.

ARXAİZM VƏ MƏHƏLLİ SÖZLƏR

ağayıl – qoyun ağılı
ağız – sərhəd
ağır – dəyərli
al – hiylə
alçaq – təvazökar adam
alp – cəsur
arı – təmiz, duru
arqırı – artıq-əskik
ayıtmaq – demək, söyləmək
bargah – hökmdar çadırı
bayımaq – dövlətlənmək
bayqu – qızılquş, quşların şahı
bəkləmək – gözləmək
bəlgə - nişan
bənək – xal
bozlatmaq – çığırtmaq
börk – papaq
buğra – erkək dəvə
bulmaq – tapmaq
buta – nişan
çarvadar –qoyun taciri
Çələb- Tanrı
çilə - əziyyət, çətinlik
çuğul – satqın
dal – budaq
dalda – gizlin yer
danla - sabah
döşləmək – qabağına qatıb qovlamaq
döşürmək – yığmaq, toplamaq

dövlət- bəxt, tale
duş – yuxu
ərdəm – hünər
eşi – tayı, oxşarı
əski – köhnə
əsrik – havalanmış, sərxoş
əyə - sahib, yiyə
gap etmək – söhbətləşmək
göygü – kürəkən
güz- payız
hız – tez, sürətli
Hu – sufi dərvişlərin Allaha verdikləri rəmzi adlardan biri
ismarlamaq – sifariş etmək, xəbər göndərmək
issiz – yiyəsiz, sahibsiz
keyik – ceyran
kəndi – özü
kov deyil - hesab deyil
kötü – pis, bəd
köy – kənd, oba, oymaq
qamın – güclü, qüvvətli
qamu – hamı
qarıcıq- qocacıq
qatı yay – möhkəm, sərt yay (oxun yayı)
qızılcıq – zoğal
qonuşmaq – danışmaq
qulun – at balası
qutlu – uğurlu
ləlimək – yalvarmaq, sürünmək
löyün-löyün – növbənöv
maç – öpüş
naçağ –xəstə
nər – erkək dəvə

sayrı –xəstə
sayrışmaq - səpələnmək
seyvan – kölgəlik
sərvər – başçı
suç – günah
şülən – şadlıq, yeyib-içmə məclisi
tamu – cəhənnəm
teyləmək – kəsmək, deşmək
toğan – şahin
tümən – on min
uçmaq – cənnət
us- ağıl, huş
varmaq – getmək
yazğı - ərizə
yazı – çöl, biyaban
yılmaq – yenilmək, məğlub olmaq
yum vermək- xeyir - dua vermək

ƏCNƏBİ KƏLMƏLƏR SÖZLÜYÜ

abadan (f) – abad
abdal (ə) – ağlını itirmiş
abi-həyat (f-ə) – dirilik suyu
bad (f) - içinə keçi qılı qatılmış qatı palçıq
badi-səba (f-ə) - səba yeli, səhər yeli
badi-sərsər (f-ə) – qumlu, şiddətli külək, qasırğa
bəqa (ə) - əbədi, daimi olan
bəndərgah (f) - düşmənin və ya ovlanacaq heyvanın keçə biləcəyi yeganə yer, keçid
bərq (ə) – parlaq işıq
bəzirganlar (ə) – tacirlər
bihudə (f) - boş
bisəmər (f-ə) – xeyirsiz, dəyərsiz
bələnd olmaq (f) – qalxmaq, yüksəlmək
büryan olmaq (f)- alışıb yanmaq
cəbr (ə) - əzab-əziyyət
cəng (f) - savaş
cənnətülməva (ə) – cənnət mənzili, cənnət kimi yer
cida salmaq (f) – ayrı salmaq
cihad (ə) – müqəddəs müharibə
çak (f) - cırıq, yırtıq
çeşm (f) - göz
çeşmə (f)- bulaq
danəndə (f) - alim
dari- fəna (ə) – fani dünya
dəhan (f) - ağız
dəhr (ə) – dünya, zaman, dövr

dərdimənd (f) – dərdə yetən, haraya çatan
dəstinlə (f) - əlinlə
didar (f) - görüş
didə (f) - gözün bəbəyi
dilxun (f) - ürəyi qanlı
eyn (ə) - göz
əbrişin (f) - qıvrım
əbrü-kaman (f) – qaşı kaman, kaman qaşlı
əflakə (ə) - fələklər, göylər
əfzəl (ə) – üstün, daha gözəl
əhmər (ə) – qırmızı
əxi (ə) - qardaş
əxtər (f) – ulduz, bəxt, tale
ələm (ə) – qara bayraq
əndəlib (ə) - bülbül
ərbayi-ənasir (ə) – dörd ünsür
ərş (ə) – göy üzü
əsəl (ə) - bal
əşkbar (f) – göz yaşı seli
əşki-al (f) - qanlı göz yaşı
əttar (ə) - ətir satan
fəraq (ə) - ayrılıq, hicran
firdovsi-ələda (ə) – cənnət bağında
giryan (f) – ağlar, gözü yaşlı
göftar (f) – söhbət edən
guşuna (f) - qulağına
hidayət (ə) - doğru yol
hilal (ə) - ay
hüsnü-vəcahət (ə) – hüsnün gözəlliyi
xab (f) - yuxu

xaki-payına (f) - ayağın torpağına
xakisar (f) - yerlə bir
xanə (f) - ev
xar (f) - tikan
xədəng (f) - ox
xəyyat (ə) – dərzi
xəzan (f) – payız, yarpaq tökümü
xirədmənd (f) – düşüncəli, ağıllı, bilikli, alim
xoryad (f) – alçaq adam, ləyaqətsiz
xub (f) – gözəl
xuban (f) - gözəllər
xudkeş (f) – işi yaxşı gedən
xunxar (f) – qaniçən
idbar (ə) - çirkin
iltica (ə) - xahiş
iltimas (ə) - xahiş
iltifat (ə) – rəhm, mehribanlıq, lütf
imran (ə) - tuti, gözəl səsli quş
istiqna (ə) – etinasızlıq, ağır davranma
kani-səxa (f) - səxa aləmi
kar (f) - iş
keysu (f) – gözəl
kəbir (ə) - böyük
kəzzab (ə) – yalançı, yalan danışan
kibr (ə) – hiylə
kuh (f) – dağ, qaya
kuyuna (f) - ətrafına, çevrəsinə
külbeyi-hicran (ə) – hicran otağı
qadiri -qəffar (ə) - Allah, Tanrı
qafa (ə) – baş, beyin

qəffar (ə) - 1) çox bağışlayan, günahlardan keçən;
2) Allahın gözəl adlarından biri
qəflə (ə) - karvan
qəmər (ə) - ay
qəsəm (ə) - and
qəvi (ə) - 1) qüvvətli, güclü; 2) mətin, möhkəm
laşərik (ə) – şəriki olmayan
Leyli- nahar (ə) - gecə-gündüz
ləhzə (ə) - dəfə
ləm (ə) - işıq
ləşkər (f) - qoşun
libas (ə) - paltar
lisan (ə) - dil
mah (f) - ay
mahi - ənvər (f-ə) – nurlu, işıqlı ay
mahi – təban (f) – açılmış ay
mar (f) - ilan
məlal (ə) – dərd, qəm
məğrib (ə) - Qərb
məşriq (ə) – Şərq
mətah (ə) – az tapılan dəyərli mal
mur (f) – qarışqa
muraz (ə) – murad, dilək
muy (f) - tük
müəttər (ə) - ətirli
müənbər (ə) - ənbər ətirli
müjgan (f) - kirpik
mükəddər (ə) – kədərli
münəvvər (ə) - işıqlı
mürəssə (ə) - qaş-daşla, cəvahiratla bəzədilmiş

mürği-ruhum (f) – könül quşu, ruh quşu
müsəlsəl (ə) – silsilə, düzüm-düzüm
müstəhəqq (ə) – ləyaqətli, layiq
müttəsil (ə) - daimi, hər zaman
naçaq (f) - kefsiz, əhvalsız
nagahan (f) - qəfildən, birdən-birə
namə (f) - məktub
nalə (f) - ağlar
nan (f) – çörək
natəvan (f) – zəif, gücsüz
nar (ə) – od
neştər (f) – iynə
nəqqaş (ə) – nəqş edən, rəssam
nihan (f) – gizli, qapalı
niqab (ə) – üz örtüyü
nimtənə (f) - don, üst paltarı
nisab (ə) – son həd,
nisar (ə) – yağış, səpmək
nisfi (ə) - yarı, yarısı
nümayan oldu (f) – aydın, aşikar oldu, üzə çıxdı
pasiban (f) – yaxın, həmdəm, qoruyan, keşik çəkən
payəndaz (f) – yerə döşənmiş
payibənd (f) – ayağı bağlı
pərini (f) - qanadını
piran (f) - qoca
piranələr (f) - müdrik qocalar
pust (f) - dəri, dərviş ayaqqabısı
pünhanda (f) - gizli
püstanı-rəna (f) - gözəl sinə
rah (f) - yol

rəhni-mürvət (ə) – mürvətli olan
rəxti-vücud (f) – bədən boyu
rəvan (f) – asan, axıcı
riza (ə) – razılıq
rizq (ə) – ruzi, yemək, çörək
rizvan (ə) – cənnət, cənnətin bağbanı, behişt
röya (ə) - yuxu
rubənd (f) – üz örtüyü, niqab
ruyi-zəmin (f) – yer üzü
sayə (f) - kölgə
seyrəqib (f) – it rəqib, əğyar (aşıqların dilində bu söz seyrəğib, seyrəqub, segrəqib, seyrəgub və s. şəkillərdə səslənir ki, biz də poetikliyi qorumaq üçün mətndə olduğu kimi saxladıq)
səg (f) - it
Səlsəbil (ə) – behiştdə axan çay
səməndər (f) – alov quşu
sənə (ə)- il
səng (f) - daş
səngixarə (f) - çaxmaq daşı
səngisar (f) – daşa basmaq, daşqalaq etmək
sər (f) – baş
sərdar (f) - başçı
sərgəşteyi- aləm (f) – aləmi heyran edən
səyyad (ə) - ovçu
sin (ə) – məzar, qəbir
sitəmkar (f) – sitəm edən, əziyyət verən
siyahipuş (f) – qara geyimli, qara örtüklü
siyah (f) - qara
süxəndan (f) – söz bilicisi, söz sərrafı
şahimərdan (f) – Həzrəti Əli

şamu-səhər (f) – axşam-sabah
şeşi cihat (f) – altı cəhət
şəbistan (f) – gecə gəzintisi
şəbnəm (f) -şeh
şəbi-yelda (f) - ən uzun gecə
şəddə (ə) - 1. ərəb əlifbasında təkrar olunması lazım gələn samitlərin üzərinə qoyulan işarə; 2. bəzəkli parça növü
şərif (ə) – şərəfli, şərəf gətirən
şərm eyləmək (f) - utanmaq, həya eyləmək
şəkərfəşan (f) - qənd, şəkər saçan
şəmistan (ə) – odlu yer
şikar (f) – ov
şikvə (ə) - şübhə, güman, şikayət
şükufəli (f) – çiçəkli
şütür (ə) - dəvə
tar olmaz (f) – qaralmaz, qaranlıq olmaz
təbibi naşı (ə) – naşı təbib
təriq (ə) - yol
təvalla (ə) – səy, təşəbbüs
tifil (ə) - uşaq
tiğ (f) - ülgüc
üqba (ə) - axırıt, o biri dünya
üryan (ə) - çılpaq, paltarsız
üzaz (ə) – yanaq, üz
vird (ə) – eyni bir şeyi həmişə təkrarlama
yeksan (f) – dağılmış, səpələnmiş
zəban (f) - dil
zəbərcəd (ə) – bahalı cəvahirat
zəhmər (ə) – acıq, qəzəb
zəkat (ə) – təmizlənmə, yoxsullara verilən pay, illik gəlirin

onda biri
zənbur (f) – arı
zənən (f) – qadın
zərd (f) – zəhər
zəvvar (ə) – Həcc ziyarətinə gedən yolçu
zikri-girdikar (ə) –xəyallar aləmində olan
zimistan (ə) - qış
ziyadə (ə) - artıq
zülf (f) – saç
züryə (ə) – nəsil

KİTABIN İÇİNDƏKİLƏR

USTADNAMƏLƏR – HAQQ DƏRGAHINA VƏ XALQ MÜDRİKLİYİNƏ BAĞLI OZAN – AŞIQ ÖYÜDLƏRİ.....3

OZAN ÖYÜDLƏRİ

DƏDƏ QORQUD ÖYÜDLƏMƏLƏRİ - SOYLAMALAR.....12
DƏDƏ QORQUD SOYLAMIŞ.....12
DƏDƏ QORQUD YUMLARI.....16

DASTAN ÖYÜDLƏMƏLƏRİ

"KOROĞLU" DASTANINDAN

Nə bilər.....20
Çağır gəlsın dən, Koroğlu.....20
Nə məlulsan.....21
Gərək.....21
Oldu.....22
At igidin qardaşidi.....22
Özü tək gedə, tək gedə.....23
Olur.....24
İnildər.....24
Məni.....25
Olu.....26
Zəmanəmi.....26
Sultanım.....27
Qırat, gəl.....28
Gərək.....28
Olu.....29
Olu.....29
Gərəkdi.....30
Ola.....30

Ola.....31
Görmüşəm.....32
Bənzərsən.....32

"ƏSLİ VƏ KƏRƏM" DASTANINDAN
Könül.....34
Bir ölüm.....35
Dərdi.....36
Çixar.....37

"ƏMRAH" DASTANINDAN
Könlüm.....38

"SEYDİ VƏ PƏRİ" DASTANINDAN
Dünya.....39

"NƏCƏF VƏ PƏRZAD" DASTANINDAN
Ay bular, bular.....40

"MƏSUM VƏ DİLƏFRUZ" DASTANINDAN
Gərəkdi.....41
Olu.....41
Deyərlər.....42

USTAD KƏLAMLARI

YUNİS ƏMRƏ
Salam olsun.....44
Deyil.....45
Bilməz.....46
Sən o kəsə söylə sözü.....47
Güldürər.....48

QURBANİ
Dolana-dolana.....49
Eyləmək olmaz.....50
Dar olmaz.....50
Yetincə.....51
Bir də yaz.....51
Olur.....52

PİR SULTAN ABDAL
Demədimmi.....53
Gəl.....54

MİSKİN ABDAL
Başın.....55
Vermədim.....56

BAYAT ABBAS
Gəlir.....57

ABBAS TUFARQANLI
Əylənməz.....58
Eyləsin.....59
Gəli.....59
Olmaz.....60
Yandırar.....60
Yüz ilə.....61
Bəyənməz.....61

SARI AŞIQ
Bayatılar.....63

QARACAOĞLAN
Ya gəlinər, ya gəlinməz.....65

Qəmlənmə.....65
Demədimmi.....66
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm.....67
Bulammadım.....67
Nə bilir.....68
Olmayınca.....69

QUL ALLAHQULU
Qaldı.....70

XƏSTƏ QASIM
Eylər-eylər.....71
Olmaz.....72
Dünya.....73
Əlindədi... 73
Yaxşıdır.....74
Yaxşıdır.....74
Alınca…..... ...75
Deyərlər.....76
Oldu getdi.....76
Ola.....77
Saz ola.....78
Aşnalığı.....78
İnsan.....79
Ay hayıf-hayıf.....79
Üzhaüz.....80
Bax.....81
Var.....82

ABDALGÜLABLI VALEH
Dünya.....83
Bir gün.....84
Deyilmi.....85
Hanı.....85

DƏLLƏK MURAD
Gen gəz.....88
Olmaz.....88
Eyləmə.....89
Olmaz.....90
Nədi.....91

XƏSTƏ HASAN
Ağı gözlər.....92
Oynamasın..... 92
Üstündədir.....93

VARXİYANLI MƏHƏMMƏD
Könül.....94
Ariflər.....94
Olan canım.....95
Olsun.....95
Deyər.....96
Yüküm.....97

DADALOĞLU
Bizimdir.....98
Yeddi iqlim, dörd guşeyi dolandım.....98

ULULU KƏRİM
Olmaz.....100
Getdi.....100

MƏLİKBALLI QURBAN
Vücudnamə.....102

AĞ AŞIQ
Beləsinə.....105

Nə bilər.....105
Çətindi.....106

ALI QIZILVƏNGLİ

Nə qaldı.....107
Oldu.....108
Gözümüz.....108
Dolandırır.....109
Alar.....109
Bilin siz.....110
Bilinməz.....110
Köçəcək.....111
Var.....111

ŞAİR MƏMMƏDHÜSEYN

Yəni nə.....113
Deyərlər.....114
Gəlməz.....114
Ola.....115

HÜSEYN ŞƏMKİRLİ

Yaxşıdır.....116
Olur.....117
Nə bilər.....118
Olu.....118
Mərd.....119

AŞIQ ƏLƏSGƏR

Gərəkdi.....120
Arasında.....121
Dəyməmiş.....122
Eylər.....122
Dünyada.....123

Yaman at.....124
Olmaz.....124
Olacaqdı..... 125
Hayıfsan..... 125
Görmədim.....126
Ola.....127
Qoca baxtım.....128
Nişanası.....129
Ola bilməz.....129
Olmaz.....130
Olmaz, olmaz.....131
Yaxşıdı.....132
Yaxşı hörmət ılə, təmız ad ılə.....132
Endirir.....133
Dünyada.....134
Yüküm.....135

XALTANLI TAĞI
Gərək.....136
Var.....137
De görüm.....137
Nədi.....138

ŞİŞQAYALI AYDIN
Ay ağalar, ay qazılar.....139

RƏCƏB EHRAQLI
Nə bilsin.....140

PADARLI ABDULLA
Bəyənməz.....141
Görmədim.....142

MUSA AĞKİLSƏLİ

Nə günahı telli sazın.....143
Bir gün.....144
Dilim.....144
Dəli könül, səndə nələr dolanır.....145

ÖYSÜZLÜ SƏMƏD

Sənə qalmaz.....146
Layiq deyil.....147
Dünyada.....147

ŞENLİK ÇILDIRLI

Calasan da.....149
Düşmana.....150
Görübdü.....151
Mənəm.....151

MOLLA CUMA

Demədimmi.....152
Olarmış.....153
Mən.....154
Aldanma.....155
Başını qoya.....155
Eyləsin.....156
Davalar.....156
Dünyadı.....157
Qalıbdır.....158
Ya bir olar, ya iki.....158

ŞAİR MƏHƏMMƏD

Birdi.....159
Verəm.....160

AĞDABANLI QURBAN

Var.....161
Çətindi.....162
Yaxşıdı.....163
Olmaz.....163
Vaxtı.....164
Dünyada.....164

DAŞKƏNDLİ NƏCƏF

Qardaş.....166
Mən.....167
Yetir.....167

HÜSEYN BOZALQANLI

Yaxşı at.....168
Yaxşı ad.....169
Ya dəyə 169
Düşmüşəm.....170
Danışma.....170
Dünyada.....171
Çəkməsin.....172
Gərəkdir.....173
Görmüşəm.....174
Olacaqdır.....174
Şirin-şirin.....175
Yaxşıdı.....176
Sinəsinə.....176

USTA ABDULLA

Deməkdi.....178
Qarışar.....179
Harda mən.....179
Olmaz-olmaz.....180
Elə sən.....181

BƏŞİR ƏLƏSGƏROĞLU
Kimi.....182
Mən.....182
Səhər ertə.....183

AĞBABALI NƏSİB
Çəkər.....184
Olar.....184

MİRZƏ BİLAL
Elə.....186
Oğlum.....187
Olubdur.....187
Bir tikə.....188
Gedəcək.....189
Kamın al.....189
Olma.....190

BORÇALI ŞAİR NƏBİ
Dünya.....191
Qiyməti olmaz.....192
Çox şükür.....193
Faydası nə.....194
Olmasa.....194

ŞAİR ƏBDÜLƏZİM
Çəkə bilməz.....195

ƏSƏD RZAYEV
Nə bilsin.....196
Üç il, beş il, on beş il.....197
Bilməzsən.....198
On il qulluq etdim mən Ələsgərə.....198
Dürüst olmamış.....199

MİSKİN HƏSƏN

Qaldı.....200
Görmüşəm.....200
Demək olmaz.....201

ŞAİR AĞACAN

Gözlə sən.....202
Gülər bir gün.....203
Dilim.....203
Yatmayacaqdır.....204
Gedirəm.....204
Durur.....205
Sıraynan.....205

SEYFƏLİ PƏNAH

Eylər.....206

TALIB ƏLƏSGƏROĞLU

Bilin.....207
Bizə.....207
Deyim mən.....208
Yanma sən.....208
Gedər.....209

VƏLİ BOZALQANLI

Olmaz.....210
Gərəkdi.....211
Söylər.....211
Gözdüyər.....212

MEHDİ GÖYÇƏLİ

Dəyməmiş.....213
Gərək.....214
Olmaz, olmaz.....214
İçində.....215

MUSA QARAÇÖP
Olmasa.....216
Söylər.....216

ÇOBANKƏRƏLİ CƏFƏR
Olarmı.....218

XƏYYAT MİRZƏ
Gəlməsin.....219
Var.....220
Dolanır.....220

HƏSƏN XƏYALLI
Çəkər.....222
Gedər.....223
Arasında.....223

BİSAVAD TEYMUR
Atmaz.....225
Qalmasın.....226
Mən də.....226

ŞƏMŞİR QOCAYEV
Birdi.....227
Var.....228
Qaydadi.....229
Gərək.....230
Vədəsində.....230
Adamı.....231
Dedim.....232
Dedimmi.....232
Gözlər.....233
Gərəkdi.....234

Olar.....234
Olmaz.....235
Aşiq.....235

VEYSƏL SİVASLI
Məni xor görmə, qardaşım.....237
Türkük, türkü çağırırıq.....238
Gündüz-gecə.....239
Qara torpaq.....240
Olar.....241

MİSKİN VƏLİ
Ola bilməz.....243
Saxlamaz.....244

QƏMLİ HÜSEYN
İndən belə.....245
Əzizim.....245

TEYMUR MORULLU
Olmasa.....247
Üzə-üzə.....247
Atmaz 248
Qalmasın.....249

XINDI MƏMMƏD
Çəkər.....250
Olmasa.....251
Çəkməsin.....251

ŞAİR CAVAD
Yoxla tanı.....252
Ay insan-insan.....252

Hey yeri-yeri.....253
Olmaz.....254
Olmaz-olmaz.....255

XƏSTƏ BAYRAMƏLİ
Bağışlar.....256
Olur.....256

NƏCƏF AĞKİLSƏLİ
Bir gün.....258
Kənarında.....258
Qurtarasan.....259
Gərəkdi.....260

NÖVRƏS İMAN
Demək olmaz.....261
Yaxşı danışar.....262
Var.....262
Görünür.....263
Deməsin.....264

ƏLİMƏRDANLI NƏCƏF
Ay eylər of-of.....265
Əsən yellər, bir Allahın eşqinə.....266
Ola.....267
Olar.....267
Dünyada.....268
Yaxşıdı.....269
Bir zaman.....269
Həmişə.....270

DƏRYA MƏHƏMMƏD
Başa dolmaq.....271

Lənət.....271
Deyəsən.....272
Münasib.....273

TEYMUR QARAÇÖP
Görmədim.....274
Əldən gedər 275

BORSUNLU MƏZAHİR DAŞQIN
Gedər.....276
Bilmək olmaz.....277
Getdi.....277

AVDI QAYMAQLI
Var.....279
Yandırar.....280
Bəyənməz.....280
Gedər.....281

ƏMRAH GÜLMƏMMƏDOV
Gətirir.....282
Kəsildi.....282
Verə.....283
Bilməz.....283
Olmasa.....284
Gəl görüm.....285

HÜSEYN CAVAN
Var.....286

ƏHMƏD RÜSTƏMOV
Əyilməsin.....288
Neynirəm.....289

Düşməsin.....289
Tanı.....290
Nə gərəkdir.....290
Tapılmaz.....291

ŞAKİR HACIYEV
Getdi.....292
Nədir.....293
Şirindir.....293

MİKAYIL AZAFLI
Gərək.....295
A qardaşım.....296
Olmaz.....296
O mənəm.....297
Bir də haqq.....298
Kişi ol.....298
Uyma.....299
Bilməz.....299

XANMUSA MUSAYEV
İtkidi.....301
Aşıqlığım.....302
Var.....303
Nə düşər-düşər.....303

PAŞA SALAHLI
Qalmaz.....305
Yanında.....306
Ceyranı.....307
Ağlama.....307

İSGƏNDƏR AĞBABALI
Gəlməz.....309
Ola bilməz.....310
Yoxsul olmasın.....310
Kimi.....311
Oldu.....311

SOLTAN SEYİDOV
Biri bar.....312
Könül.....312
Açar.....313

PƏNAH PƏNAHOV
İnciyər.....314
Uzaq ol.....315
Görəsən.....315
Olmasa.....316

İSMAYIL MAHİR
Eylər..... 317
Çətindir.....318

İMRAN HƏSƏNOV
Dalınca.....319
Biri qanar, biri qanmaz.....320
Duyan olsun.....321
Qocalmaz.....321
Danışma.....322

CƏLAL QƏHRƏMANOV
Bir atalar, bir analar.....323
Utandırar.....324
Deyiblər.....324
Oğul.....325
Deməsinlər.....326

KAMANDAR ƏFƏNDİYEV

Yoxdu.....327
Eşit..... 327
Bilərmi.....328
Yaxşıdı.....328

MƏHƏMMƏD SADAXLI

Olmasa.....330
Lağ eylər.....331

BƏHMƏN VƏTƏNOĞLU

Çəkərmiş.....332
Yaxşıdan aldı.....333
Nə var ki.....333
Bilər.....334
Səni.....334

QƏMKEŞ ALLAHVERDİ

Yatıbdı.....335
Döğru sözü söylənəndə.....337
Olmadı.....338
Ehtiyac.....338

MURAD NİYAZLI

Türk oğluyam, türkəm, oğul.....340
Gərək.....341
Nə bilər.....342
Dedimmi.....342
Keçər.....343
Çəkər.....343
Gedər.....344

ƏKBƏR CƏFƏROV

Yanılma.....346
Yaxşıdır.....347
Gedər.....347
Bilsin.....348

MƏMMƏDAĞA BABAYEV

Eylərəm.....349
Ürəyimdədir.....350
Günahdı.....350

MAHMUD MƏMMƏDOV

Ağlın olsun.....351
Olarmı.....352
Eylər.....352
Ziyarət olar.....353

ƏDALƏT NƏSİBOV

Olsun.....354
Bağla.....355
Yaxşıdı.....355
Olmasa.....356
Olmaz.....356

MURAD ÇOBANOĞLU

Ana-baba.....357
Getsin.....358
Yetər.....358
Tükənir.....359
İncidər.....359
Götürər.....360

UMBAY AXUNDOV

Bir sözün olsun.....361
Olsa.....362
Eyləyər.....362
Saymasan günahdı.....363
Yeyər.....364

ÜRFAN ƏLİ

Əldən gedər.....365
Bir saz ola, bir mən olam, bir də sən.....366
Ölmürəmmi.....367
Qalanlardan ol.....368
Gözləyə bilsən.....368
Arxaizm və məhəlli sözlər.....369
Əcnəbi kəlmələr sözlüyü.....372
Kitabın içindəkilər.....380

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

USTAD NƏFƏSLİ SAZ-SÖZ ƏRMƏĞANI

Kompüter tərtibatçısı: ***Xalidə VƏLİYEVA***
Xatirə VƏLİYEVA

Texniki redaktoru: ***Leyla ASLANOVA***
Dzayner və tərtibatçısı: ***Namiq VƏLİOĞLU***

Yığılmağa verilib: ***15.09.2020***
Çapa imzalanıb: ***10.10.2020***
Fiziki çap vərəqi: ***50***
Sifariş: ***56***
Kağız formatı: ***70x100***
Tiraj: ***1000***

Kitab "Zərdabi Nəşr" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsində
ofset üsulu ilə çap olunub.
e-poçtu: zerdabi_em@mail.ru